AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# SMOMPK: AZƏRBAYCAN FOLKLORU MATERİALLARI

**3-cü cild**

BAKI – 2020

**Layihə rəhbəri:** **Muxtar Kazımoğlu (İmanov)**
AMEA-nın həqiqi üzvü

**Tərcümə və transliterasiya edən:** F.ü.f.d, dosent **R.Xəlilov**

**Tərtib edənlər:** F.ü.f.d, dosent **Rza Xəlilov**
F.ü.f.d, dosent **Afaq Xürrəmqızı**
F.ü.f.d, dosent **Aynur Hüseynova**

**Rəyçi:** F.ü.f.d, dosent **Güldanə Pənahova**

**SMOMPK: Azərbaycan folkloru materialları, 3-cü cild.** Bakı, Elm və təhsil, 2020, -320 səh.

folklor.az

S 4603000000 Qrifli nəşr
N-098-2020

© Folklor İnstitutu, 2020

## 24-cü buraxılış, 1898-ci il

# HACI MƏHƏMMƏD

İrəvan quberniyasının xristian kəndlərində ev-ev gəzən və sədəqə toplayan müsəlman dərvişlərə tez-tez rast gəlmək olar. Dərvişlər heç bir şey istəmirlər, onlar xristian həyatinə girən kimi Allahı, İsa peyğəmbərin anasını mədh edən nəğmələr oxuyurlar. Bu məzmunlu nəğmələrin müqabilində xristianlar onlara səxavətlə sədəqələr verirlər. Mən aşağıda bu nəğmələrin məzmununu sizlərə ərz edəcəyəm, amma indi tanıdığım dərvişlərdən birinin mənə danışdığı hekayəti nəql edəcəyəm. Bu hekayət mənə yuxarıda göstərilmiş başlıq altında nəql edilmişdir və mən onu saxlayıram.

Bağdadda Hacı Məhəmməd adında varlı bir müsəlman yaşayırdı. O, ticarətlə məşğul idi. Amma elə vicdanlı adam idi ki, şəhərdəki sakinlər onun başına and içirdilər. Əgər hər hansı bir müsəlman "Hacı Məhəmmədin başına və saqqalına and içirəm" desəydi, artıq ona inanmamaq olmazdı, belə ki, belə anddan sonra heç kim yalan danışmağa cürət etməzdi. Allah Hacı Məhəmmədin vicdanına və cömərd həyatına görə var-dövlətini artırırdı. Onun qızıllarını tək-tək sikkələrlə deyil, ələklərlə sayırdılar. O, qızılı ələyə doldurur, dəyirmi ağacı onun üstündən çəkir və deyir: "bir", ikinci dəfə dolduranda "iki" və beləcə davam edir. Əgər Hacı Məhəmməd nə qədər qızıl sikkəsi olduğunu öyrənmək istəsə və onları bir-bir saymağa başlasaydı, bu işi görməyə ömrü çatmazdı.

Bax, Hacı Məhəmməd belə varlı adam idi. O, varlı-dövlətli olsa da, kasıbları unutmurdu, hər vaxt ehtiyacı olanlara pul və məsləhət verməklə kömək edirdi. Hacı Məhəmməd şəhərin kənarında hər hansı bir ailənin böyük ehtiyac içində olduğunu bilər-bilməz, bu ailəyə pul və yaşama üçün zəruri olan ərzaqla yardım etmək üçün dərhal yola çıxardı.

Bir dəfə Hacı Məhəmməd möhkəm xəstələndi. Həkimlər onu müalicə etməkdən imtina etdilər. Onların fikrincə, dava-dərmanın xəstəyə bir faydası olmayacaqdı. Həkimlərin sözlərinə görə, onun həyatına bir neçə saat qalmışdı. Belə bir vaxtda Hacı Məhəmməd üzünü Allaha tutaraq ona uzun ömür verməsini

xahiş etdi və əhd etdi ki, əgər ölümdən yaxasını qurtarsa, öz hesabına çox möhtəşəm məscid tikdirəcək. Allah onun duasını eşitdi və həkimlərin böyük heyrətinə rəğmən, Hacı Məhəmməd sağaldı. Hacı ölüm yatağından ayağa qalxdı, məscidin təməlini qoydu və ən hündür minarəli məscid tikdirməyə başladı.

Üç il, üç gün, üç gecədən sonra minarəli məscid tikilib qurtardı. Bu məscidi sözlə təsvir edə bilməzsən. Hacı Məhəmməd məscidin minarəsindən dua edərək Allah məbədinin tikintisinin başa çatdığını ilk dəfə xalqa xəbər verməli və möminləri məscidə dəvət etməli idi.

Tikinti tamam başa çatdı və xalq səbirsizliklə cümə gününü gözləyirdi. Hacı Məhəmməd cümə günü bütün xalqı qonaq etmək üçün 70 buğa, bir o qədər qoyun, üç xalvar yarma, otuz pudadək yağ aldı.

Hacı Məhəmməd cümə günü sübh tezdən minarədən tikintinin başa çatmasını elan etməli idi. Bütün insanlar yeni tikilmiş məsciddə namaz qılmalı idilər. Namazdan sonra isə hamı Hacı Məhəmmədin məscidin həyətində təşkil etdiyi bu qonaqlıqda iştirak etməli idi.

Nəhayət, arzulanan gün gəlib çatdı. Həmin gün bütün müsəlmanlar erkəndən yuxudan durdular. Əl-üzlərini yudular və Məhəmmədi görmək üçün minarəyə baxmağa başladılar. Hamı məscidə yönəlməli idi. Budur, minarənin eyvanında qaraltı göründü. O, duadan əvvəl minarəni bir neçə dəfə dolanmalı idi. Bütün xalq onu görür və gərginlik içində onun hərəkətlərini izləyirdi. Hacı balkonda bir dövrə etdi, daha bir dövrə etdi, üzünü Məkkəyə (cənub-qərbə) çevirdi, əllərini qulaqlarına tərəf qaldırdı və dua oxumağa hazırlaşdı. Bir neçə dəqiqə bu vəziyyətdə donub qaldı. Xalq təəccüb içində Hacı Məhəmmədə baxırdı, o isə minarənin eyvanında dayanaraq gözlərini məşriqə dikmişdi və elə hey baxırdı. Sanki orada özünün ölüm mələyini görmüşdü. Demək lazımdır ki, xalq və Hacının yaxınları belə də düşünürdü. Tam bir saat keçdi. Hacı isə elə həmin vəziyyətdə idi. Qohumlar fikirləşdilər ki, Hacı ölmüş və ya hər hansı bir gizli günahından ötrü böyük peyğəmbərin əmrinə görə daşa çevrilmişdir. Bütün şəhər adamı məscidin

həyətində təəccüb içində Hacıya baxırdılar. O vaxt onun qohumlarından biri Hacıyla nə baş verdiyini öyrənmək üçün minarəyə qalxdı. O, minarəyə qalxıb onun əlindən tutduqda Hacı yuxudan oyanmış kimi ayıldı, məscidin həyətində durmuş xalqa baxdı və yuxarıdan aşağı enərək camaata bu sözlərlə müraciət etdi:

– Əziz həmvətənlər, təntənəli qonaqlıq üçün məndə hər şey hazırdır. Fağır-füqəraya paylamaq üçün ət də, yarma da, yağ və pullar da hazırdır. Öz aranızdan məni əvəz edəcək adam seçin, mən isə indi səfərə çıxıram. Əgər Məhəmmədi sevirsinizsə, başıma nə gəldiyini məndən soruşmayın. Bir də əgər siz qonaqlıqda özünüzü yaxşı aparsanız, mənsiz də sizin üçün hər şey yaxşı olacaq. Beləliklə, mənim əziz həmvətənlərim, sağlıqla qalın!

Hacı Məhəmməd bunu deyib əmr etdi ki, atını yəhərləsinlər, bir qədər pul götürdü və elə o saat da Bağdaddan yola düşdü. Xalq göz yaşları içində ondan qalmasını xahiş etdi, amma Hacı atını sürüb getdi və bir neçə vaxtdan sonra tamamilə gözdən itdi.

Bir neçə il keçdi, Hacı Məhəmməddən bir xəbər-ətər olmadı. Biz təsvir etdiyimiz hadisədən iyirmi il sonra xəbər-ətərsiz itkin düşmüş Hacı Məhəmmədin Osman adlı qohumlarından biri ticarət işləriylə bağlı olaraq Qüdsə gəldi. Burada onun tanışları Quranı oxuyub, həm də onu hər hansı bir qazidən daha yaxşı izah edən xaçpərəstin - müqəddəs adamın mağarada yaşadığını nəql etdilər. Osman çox istəyirdi ki, bu xaçpərəsti görsün. Bu məqsədlə də bir gün təkbaşına müqəddəs adamın yaşadığı həmin mağaraya yola düşdü. O, vadi ilə çox yol getdi, nəhayət, dağın ətəyindən bir qədər yuxarıda yerləşən qayadan axan bulağa yaxınlaşdı. Bulaqdan kənarda bir mağara var idi. Mağara bizim dağlarda gecələr qoyunların salındığı dərinliyə bənzəyirdi. Osman kollardan tuta-tuta mağaraya tərəf qalxdı. Onun qarşısında dağ döşəməli son dərəcə böyük bir dərinlik açıldı. Sağ tərəfdə boynunda xaç asılmış ağsaqqal bir qoca dizləri üstə dayanıb Bibliyanı oxuyurdu. Qocanın qar kimi ağ saqqalı qurşağınadək çatırdı. Onun əynində beldən adi iplə bağlanmış qara keşiş cübbəsi var idi. Ayaqları yalın, başı isə açıq idi. Müqəddəs qoca göründüyü kimi tərkidünya idi, onun bütün düşüncələri göyə tərəf yönəlmişdi. Osman içəri girən-

də qoca başını çevirdi və Osman kimi gördü? Bir vaxtlar Bağdadda məscidin tikintisini bitirib sirli bir şəkildə şəhərdən yox olmuş Hacı Məhəmmədin özünü. Osman müqəddəs tərkidünyanın qarşısında dizləri üstə çökdü və dedi:

– Müqəddəs ata, sən mənim qohumum Hacı Məhəmməd deyilsənmi?

– Bəli Osman mən keçmişdə sənin qohumun Hacı Məhəmməd idim. Amma indi mən Manuk atayam, mən indi müsəlman deyiləm nəsraniyəm.

– Bu necə ola bilər? Ata, sən niyə bizi dini, onun təlimini unutdun? Axı sən qatı dindar idin? Bu necə oldu? Bu sənin Bağdaddan qaçmağını izah etmirmi?

– Əziz Osman, mən tam əmin idim ki, sirrim nə vaxtsa açılmalıdır və budur, bu gerçəkləşir. Tikdirdiyim məscidin açılışı günü hər şeyi atıb Bağdaddan yox olmağım şəhərdə hamını təəccübləndirdi. Osman, sən haqlısan, mən Bağdadı xaçpərəst olmaqçün tərk etdim. Ən birinci və ən yaxşı din olan xaçpərəslik dinini qəbul etməyimə məni nəyin məcbur etdiyini sənə danışacağam. Bəlkə, sənin yadındadır, məscid tikildikdən sonra açılış üçün müəyyən edilmiş gün minarənin eyvanına çıxdım ki, oradan məscidin tikintisini qurtarmaq üçün Allahın mənə xeyir-dua verməsi xəbərini müsəlmanlara çatdırım. Amma mən dua oxumağa hazırlaşanda nəsə bir şey gözlərimi məşriqə çevirməyi vadar etdi. Mən məşriqə tərəf üz çevirdim və göydə qeyri-adi bir hadisə gördüm. Böyük qızıl taxtda kainatın yaradıcısı qoca bir kişi oturmuşdu.

Onun taxtı qarşısında bu dünyanın sakinləri olan bütün xalqlar durmuşdu. Hamıdan irəlidə İsa, onun arxasında isə xaçpərəstlər, xaçpərəstlərin də arxasında isə nizamla başqa xalqlar dayanmışdılar. Amma axırıncı yeri isə Məhəmməd başda olmaqla müsəlmanlar tutmuşdular. Müsəlmanların görünüşləri elə idi ki, onların hamısının istisna edilmədən daimi əzablara məhkum edilmələrinə heç bir şəkk-şübhə yox idi.

Xaçpərəstlər isə əksinə, hamısı şad-xürrəm idilər, Allah onların peyğəmbərləriylə bərabər bir adam kimi söhbət edirdi. Mən zülmətdən çıxmaq və Həqq-Təalanın üzünü görmək şərəfinə layiq

olmaq üçün elə oradaca – minarənin eyvanında dinimi dəyişmək qərarına gəldim və məqsədimə çatdım. İndi yaşamımın sonunu gözləyirəm ki, təmiz vicdanla Allahın taxtı önündə dayanım.

Osman gözləri yaşlı halda qocadan ayrıldı. Manukla olan danışığının hamısını bizim ruhanilərə çatdırdı. Axırıncılar Osmana əmr etdilər ki, heç kimə bu haqda danışmasın. Osman bütün bunları hər kəsdən gizli saxladı. Amma belə söyləyirlər ki, müqəddəs Manuk, keçmiş Hacı Məhəmməd indi göydə xaçpərəstlərin sıralarında, elə İsa peygəmbərin arxasında durur. Bir dərvişin mənə danışdığı hekayət budur! Mən belə hekayətlərin dərvişlərin xaçpərəst dinləyicilərdə xoş təəssürat buraxmaq və onlardan daha böyük mükafat almaq üçün uydurulduğu fikri ilə razıyam.

Yeri gəlmişkən, dərvişlər xaçpərəstlərin arasında olarkən özlərini xristian təliminin davamçıları kimi qələmə verərək İsa Məsihin Allahın oğlu olmasın etiraf edirlər. Bu fikir dərvişlərin nəğmələrində də görünür.

Budur, onların xaçpərəst ermənilər arasında oxuduqları nəğmələr:

İsa gəldi ad eylədi.
Sınıq könlüm şad eylədi.
Cəhənnəmi bərbad eylədi.
Başkı eylə İsa Məryəm!

İsa gəldi cəlalətdən.
Xəbər verdi qiyamətdən.
İsanın nuri cənnətdən,
Gedin Qüdsə, görün nuri!

İsa, İsa, dami Musa,
İrəvanda var, üç kilisa[1]
Üç kilisa bucax-bucax.
Yoxdur onun kimin ocax!

İsa qalxdı göyə, getdi.
Göy üzünü bulud tutdu.

[1] Dərvişlər Eçmiədzin monastırını Üçkilsə adlandırırlar.

Dürlu-dürlu güllər bitdi
Gedin Qüdsə, görün nuri!

İsa göyə qalxanda bütün göyü örtən bir bulud göründü. Göyə qalxma yazda olduğundan müxtəlif çiçəklər açıldı.

İsa hazar gəzdigi
Yerlərdə bir məZəhra dua etdi
Sidq ilə çağırdı durğuzdu Kəzəri[2]
Üç yüz altmış altı Kəzər durdu!

İsa bir çox yerlərdə olmuş və hər yerdə möcüzələr göstərmişdir. Bir dəfə o, bir qəbrə yaxınlaşmış və Allaha dua ilə müraciət etmişdir. Budur, qəbirdən Lazar çıxmışdır.

İsanın iradəsilə yenidən dirilmiş belə Lazarların sayı üç yüz altmış altı olmuşdur.

***Qəmərli məktəbinin baxıcısı K. Xaçaturov***

## KALASEV N.D.

## ŞİRVAN TATARLARININ ATALAR SÖZLƏRİ (Bakı quberniyasının Şamaxı və Göyçay qəzaları)

**Allah**

1. Allaha özünü plov yeyən tanıt.
2. Allah ona qotur versün, dırnaq verməsün.
3. Allah ona verdiyi canı ala bilmir.
4. Allaha inanmayana bəndələr də inanmaz.
5. Allah bir, söz bir.
6. Allah tənbəli sevməz.
7. Allah haqqı nahaqqa verməz.
8. Allahtan qorxmaz, bəndədən utanmaz.
9. Allahtan buyruğ – ağzıma quyruğ.
10. Allahtan gizlin dögi, bəndədən nə gizlədim.
11. Allah verəndə erkəkdən də verər.
12. Allah verəndə bacadan da verər.

[2] Kəzər- Lazar xristianlıqda müqəddəs şəxslərdən birinin adı

13. Allah verəndə yox yerdən də verər.
14. Allah yel də verib, yol da verib.
15. Allahı çağıran adam məhrum olmaz.
16. Allah verməyənə peyğəmbər neynəsin?
17. Özini tanımayan Allahı da tanımaz.
18. Tanrı, gəl amanatuvi apar.
19. Tanrımın günü bir çuval darıdan da çoxdi.
20. Allah yolunda yox, şeytan yolunda çox.

**Şeytan**

1. Naümid şeytandı.
2. İmanı yox, şeytan apara, malı yox, bədlər apara.
3. Pulu yox, oğru apara, imanı yox, şeytan apara.
4. Şeytan getdi, meydan bizə qaldı.
5. Şeytan karxanası boş qalmaz.
6. Şeytanın ayağın sındırıb.

**Müqəddəslər, peyğəmbərlər, imamlar**

1. Ərənlər üçəcən deyib.
2. Peyğəmbər öz canına duva eliyip.
3. Şümür həmişə boldu, rahatlıq imandadı.
4. Günbəz görür, elə bilir, içində imamzada var.
5. Yezid üçün də ağlayır, imam üçün də.
6. Yezidin Şama getməyi gerçək oldu.
7. Pirlərə qurban demə, bəglərə rişvət.

**Padşahlar**

1. Bir taxt üstündə iki padşah sığışmaz.
2. Padşah Allah kölgəsidi.
3. Şahın ürəyi Allahın əlindədi.
4. Padşahsız nağıl olmaz.

**Xanlar və bəglər**

1. Xan mənə köpək oğlu dedi.
2. Xana yaradı, bəgə yaradı, keçəl Xondu, sənə yaramadı.
3. Başda oturan bəg olmaz.
4. Bəg dedigün nədi, bəgənmədigün nədi?
5. Bəgligi başarmadın, canın çıxsın, belə gəz!
6. Ya dağ ətəgində, ya bəg ətəgində.

**Molla**

1. Dedilər: Molla, aş gedir. Dedi: mənə nə? Dedilər: sizə gedir. Dedi: Sizə nə?
2. Dedilər: Molla almağnan necəsən? Dedi: Alıcı Quş kimi (və ya laçın kimi). Dedilər: Verməknən necəsən? Dedi: Başuva söz qəhətdi?
3. Molla Nəsrəddin sag ola, eşşəklərin qurd yeyə?
4. Molla olmaq çox hasand, adam olmaq çox çətin.
5. Molla haqq kəsən dögü.
6. Molla gəlmiş ikən ölən ölsün.
7. Mollanın övü onda xarab olar ki, iki yerdə pilova çağırallar.
8. Molla Qurannan kəsər, şeytan imannan.
9. Kitabın köhnəsi, mollanın təzəsi.
10. Qarının sünnət toyu idi.
11. Elmli qazıya şahad lazım dogü.
12. Xəltə mətəldi.
13. Keşiş, belə iş?

**Ağa və nökər**

1. Ağa və nökər, - xanım, xanım, – dedilər, axçacığım yedilər! Elə ki, axçam qurtardı, - cırtoz xanım, – dedilər.
2. Ağa diyir: Sür dərəyə, sür dərəyə!
3. Ağa gətirdi navala[3], xanım saldı çuvala.
4. Göylü ağa, feili tıspağa.
5. Ağa borc elər, nökər xərc.
6. Nə ağa yarıtmaz, haqq çıxartmaz.
7. Sən ağa, mən ağa, bəs inəkləri kim sağa?
8. Nökər ağa dərdi bilseydi, özü də ağa olardı.
9. Vədəsi bitmiş nökərin, əcəli bitmiş (və ya yetmiş) ağası gərək.
10. Müzdür yerində düz dur.

**İnsanların məşğuliyyəti**

**Həkim**

1. Sağalsa, həkiməm, sağalmasa, mən kiməm?

---

[3] Navala-buğda kəpəyindən bişirilmiş xüsusi çörək növü

**Zərgər**
1. Qurban olum zərgara, səni saldı pərgara.
**Başmaqçı və başmaqlar**
1. Başmaqçının başmağı olmaz, börkçinin börki.
**Pinəçi**
1. Pinəçinin mayası iynəynən bizdi.
**Çarıx**
1. Çarıxında əsirgiyən patavasında[4] tapar.
**Börkçi və börk**
1. Börkçinin qaçağı papaxçı tükanıdı.
2. Papağı isti, soyuqdan ötri qoymıllar.
3. Papağı keçi dərisinnən, xəbəri yox gerisinnən.
**Kürkçi**
1. Kürkçinin kürki olmaz, börkçinin börki.
**Dəllək**
1. Dəlləkliyi bizim başımızda örgənir.

**Hamamçı və hamam**
1. Camadarın[5] şahlığı hamamçılığdı.
3. Hamamda ədəb saqıtdı.
4. Hamam suvıynan xətir-qövül görür.
5. Hamamın bu qapısınnan gir, o biri qapısınnan çıx.
**Aşıq, musiqiçi və musiqi**
1. Çağrılmış bayatıdı.
2. Aşıq üz görən yerə.
3. Yaxşı saxla aşığı, bədnamçıdı el gəzər.
4. Aşığınan mollanın heç olmaz şad arası.
5. Aşığı öldürməyə gün tükənmiyip.
6. Aşığınki toynandı, mollanınki vaynan.
7. Aşığınki Xudafərinnən keçibdi.
8. Çala-çala çalağan olar.
9. Zurnaçı zorun üzünə verir.
10. Zurnanın səsi uzaqdan (və ya gennən) xoş gələr.

[4] Patava-dolaq
[5] Camadar-hamamda işləyən şəxs

11. Ərik ağacınnan saz olmaz, gəl zurnadan xəbər al.
12. Zurna çalan özü bilər.
13. Zurnanı versən naşı əlinə, gen tərəfdən çalar.
14. Qamış bizim yerdə bitər, sümsini lərgi çalar.
15. Qırxında örgənən gorında (və ya axirətində) çalar.

**Əkinçi və əkinçilər**

1. Toxumu gətir, yer axtar.
2. Qayış bilir kotan nə çəkir.
3. Xarmanın tozu bərəkətti olar.
4. Dərzin az oldu, xarmanı böyük aç!
5. Xışı kötügə dayanıb.

**Bağ və bağban**

1. Bağ olmayan yerdə böyürtkan özünü bağ çağırar (və ya bağ çağlar).
2. Bağçı bağ qıydı, bağman salxım qıymadı.
3. Heyvası yox, narı yox, görən desin: "Şahbudağın bağı var".
4. Bağdakı bağman malıdı, qaçanı qovla.
5. Hər nə gedir bağdan gedir, bağmanın nəyi gedir?

**Bostan və bostançı**

1. Bostançının sovqatı kəliq[6] olar.

**Çoban və sürü**

1. Çobanın könlü olsa, təkədən də pendir tutar.
2. Sürü çobansız olmaz.
3. Ürkütməsən, sanamaq olmaz.
4. Naxır durmaxnandı.

**İlxıcı**

1. İlxıcının qazancı havayı minməkdi.

**Tərəkəmə və oba**

1. Obalar bizə, biz obalara.
2. Oba durdu köçməyə, qarı durdu gəzməyə.
3. Oba yox, qara yox, sənnən başqa çara yox.
4. Tərəkəmə tərk oturar, eşşək üstə bərk otırar.

---

[6] Kəliq-yetişməmiş qovun

**Xalqlar**

**Ermənilər**

1. O qədər yedim yermeniya döndüm.

2. Ermənidən bəg olmaz.

3. Ermənінin sonrakı ağlı.

4. Erməni – dağda dögər xırmanı, arpasın atdar yeyər, buğdası can dərmanı.

5. Erməni (çox vaxt: cuhud) qan görüp.

6. Erməni yorulmasa, oturmaz.

7. Erməni verməz donuzu (və ya öküzü), dəgər (və ya yeyər) toppuzu, verər otuzu.

8. Ermənінin qocası köpəyə dönər, müsürmanınki ipəyə.

**Tatarlar**

1. Müsürmanın şərinnən, ermənінin paxıllığınnan, rusun zaftrasınnan, Allah, sən irağ eylə.

**Tatlar**

1. Tatın gəlişi, türkün görüşü.

2. Türkün gəlişi, tatın görüşü.

3. Tərəkəmənin gəlişi, tatın görüşü.

4. Çox öyünmə, tat qızı, pendirinnən qıl çıxır.

5. Çövür tatı, vır tatı.

6. Tat, tabağ altında yat, mən vırdıqca sən zırılla.

**Türklər**

1. Türk bilər dağarda[7] nə var.

**Haputlar**

1. Haputtı kimi ağzına (ağlına) gələni tullıyır.

2. Haputtu öküzü çullu çapıbdı.

**Lahıclar**

1. Lahıcı (və ya kişini) sel aparırdı, elə deyirdi: "Qiblə pakdı".

2. Qaçanı muxur (lahıc atalar sözü).

3. Lahıc tüfəngi kimi baş-ayaq vırır.

**Ləzgilər**

1. Ləzgiyə dedilər: "Can şirindi, bəkməz? Dedi: İki dostun arasına girmək olmaz.

---

[7] Dağar-qoyun dərisindən hazırlanmış torba

2. Ləzgiyə dedilər: "Göyə çıxa bilərsənmi? Dedi: "Bəkməz yesəm, çıxaram".

3. Ləzginin dostlığınnan düşmənliyi yaxşıdı.

**Qaraçılar**

1. Qaraçının kovxası qaraçı olar.

2. Qaraçıya qahmar çıxır.

**Ərəblər**

1. Davadan xalı olmaz Ərəb beyi, zəngənə.

2. Ərəb igirmibeşlik tapdı, dedi: "Nə olardı, bir dava kağazı tapaydım".

3. Ərəb öldü, qan düşdü.

**İranlı**

1. Qızılbaşın dilinə, qışın gününə etibar yoxdu.

**Şamaxılı**

1. Şamaxılı, şal dolaqlı, körpə küçük qulaqlı.

**Ləlɘ-Əhmədli**

1. Lələ-Əhmədli sonlu oldu, neyüvə gərək, sonsuz oldu, neyüvə gərək.

**Kələxanılı**

1. Hər kəntdən bir dəli, Kələxanıdan qabağuva gələni.

**Axsulu**

1. Axsuluya dedilər: "Gəl yügürüşək". Dedi: "Gəl su içək".

**Mədrəsəli**

1. Mədrəsənin qızları, çopur-çopur üzləri, nə molla var, nə keşiş, kəbin kəsən özləri.

**Yerlər**

1. Sən mənə güc vırarsan, mən də Paşa bulağına.

2. Elə oldı ki, Kəbədən də bir günniy yol, yol öyənə getti.

3. Haralısan? Bulotağlı. Yat aşağa.

4. Hərkəs öz şəhərinnən dəm vurar.

5. Ölkə dərəbəyliydi.

6. Ölkə avadan ikən Diyəlli xaraba idi.

7. Dikin başı Kəlvadı.

8. Aşı yox, əppəgi yox, bol suvi var Səlyanın.

9. Hardan gəlirsən? Çin-maçınnan. Görinir palınnan-paçonnan (və ya paronnan, parçonnan).

10. İranda buğdadan aldım, Bağdatda xurmadan.

11. Ərdəbil bir şəhərdi hərkəs öz vəkil.

12. Hacdan gələn mən, Məkkədən xəbər verən sən?

13. Rumi ki, dedün qaziyyə məlum.

14. İrəvanda kürd az idi, biri də gəmiynən gəldi.

15. Mazandarda çaqqal az idi, biri də gəmidən qaldı.

16. Dağıstanda üç igid var: biri əmimoğlu, biri dayımoğlu, biri də deməz.

17. Bez istiyirsən zərgərə get, ölüm istiyirsən Gilana get.

**İnsan**

1. Tətös[8] kövxa, Mətos[9] kövxa, on beş övdi, otuz kövxa.
2. Adamın dinməzinnən yaramaza kövxa tikiblər.
3. Adam altınnan söz, qazan altınnan köz.
4. Adam odi ki, iqrarınnan dönmiyə.
5. Adamın əvvəlinnənsə axırı!
6. Adamın adı çıxınca, canı çıxsa yaxşıdı.
7. Adamın adı pisligə çıxınca, gözi çıxsa yaxşıdı.
8. Hər adam öz eybini bilməz.
9. Hər adam özi üçün fikir edər.
10. Adam adama gərəkdi, tıspağaya xanası.
11. İnsan öz-özinə elədiyi, aləm yığılıb eliyə bilməz.
12. Hər şey nazikliyindən sınar, sən yoğınnığından.
13. Daşın xırdası böyigməz, Allahın xırdası böyügər.
14. Dağ dağa qovuşmaz (və ya rast gəlməz), adam adama qovışar (və ya rast gələr).
15. Adama yaxşılığ yoxtı.
16. Su görəndə su istiyir (və ya: susızlıyır), at görəndə axsıyır.
17. Yeddi arxın suvın bir arxa calıyır.
18. Mən mürdəşirəm, yuvaram, istər cənnətə getsün, istər cəhənnəmə getsün.

---

[8] Tətös-şəxs adı

[9] Mətos-şəxs adı

19. Mərd ələ yapuşar, namərd ayağa, haray!
20. Mərd mərdə qənim olar, murtuzalı hər ikisinə.
21. Namərd yoldaşınnan görər, mərd Allahınnan (və ya özünnən).
22. Namərdi qova-qova mərd edərsən.
23. Bir gördün namərdi, bir də gördün namərdsən.
24. Hər kəs cəldəst, mərdəst.
25. Həm mərd baş, həm cırt?
25. Aldığın verməz, gördüyün deməz.
26. Özinə (özi üçün) yeyər, özgiyə minnət qoyar.
27. Altta qalan namərdi.
28. Əslizadə sözünün üstünə çıxar.
29. Dögilən öz kisəsinnən dögilər (gedər).
30. Namaz qıla-qıla yıxtın öyimi, indi başdamısan haca getməgi!
31. Yeri, yeri kürkü yırtıq, neyindi mənnən artıq.
32. Sənnən (və ya onnan) xeyir görən Allahtan bəla çəkər.
33. Danışana dil vermir, yeriyənə yol.

**Kişi və qadın[10].**

1. Arvadlar hamısı ağappağ, dəlisini seçmək olmaz, qarğalar hamısı qara, qarısını seçmək olmaz.
2. Arvadın yedigi, geydiyi kimi olsa, vay kişinin halına.
3. Arvadın saçları uzun oli, ağlı güdə.
4. Kişi qızı olma, kişi arvadı ol.
5. Kişinin tüklisi Əli cinsidi, arvadın tüklisi ayı cinsidi.
6. Öz öyində başın bağlıyə bilməz, özgə öyində gəlin başı bağlar.
7. Hər arvadun adı bir, hər meymunun dadı bir.
8. Şahsənəm oğlan doğup!
9. Doğan tovuq doğmıyan arvatdan yaxşıdı.
10. Atnan arvada etibar yoxtı.
11. Ərsiz arvad cilovsuz (və ya yügənsiz) at.
12. Arvad üzdi kişidən, kişi üzdi arvatdan.

---
[10] Bax. SMOMPK, XIX bur., II ş, səh. 310, №304

**İnsan bədəninin üzvləri**

1. Ətinən dırnağın arasına girən iyin çıxar.
2. Yüz ağac sağrıya, sağrı bir yol ağriyə.

**Baş**

1. Ağrımıyan başa dəsmal bağlamazlar.
2. Baş gedərsə, ayağ paidar olmaz.
3. Başı əhlət daşına dəgməsə olmaz.
4. Başın böyükligi yiyəsinə donuz güddirər.
5. Yaman baş yiyəsinə donuz qüdtiri.
6. Başın yekəliqi dövlət, ayağın yekəliqi nəqbət.
7. Yekə başın faydası olmaz, içində beyin gərək.
8. Hər kəsin başı dazdı, onın günahi azdı.

**Üz**

1. Üz üzdən utanar.
2. Üz döndi, qönül dolandı.
3. Üz ki var, ətdəndi.
4. Üz döndi, qöz döndi.

**Gözlər**

1. Araz axır, gözün baxır.
2. Göz qənimin tanıyar.
3. Qaşnan gözin arasında vırır.
4. Gögcə mıncığ kimdədi, mənim gözim ondadı.
5. Ağlamaqinan gözdərim, verməsə də, almıyacaq.

**Burun**[11]

1. Burun dolu olduğu üçün kəsib atmazlar.
2. Burunu üzdən kəsməzlər.

**Ağız**[12]

1. Ağzın ətə örgətmə, dalın- ata.
2. Ağzın açtı, qöhər saçtı.
3. Ağzuva bax, tikə götir.

---

[11] Bax:"SMOMPK", XIX bur, Iiş,səh.317, №237

[12] Bax:"SMOMPK", XIX bur. Iiş, səh.305,№237

**Dişlər**[13]

1. Diş verən, dişliq də verər.
2. Diş verən, dişliq da verər.
3. Diş ağrıyanda çıxardıb tulluyarlar.
4. Diş nə qədər şirin olsa, ağrıyanda çıxardıb tulluyarlar.

**Dil**

1. Ağızdan çıxan başa dəgər.
2. Adamın başına nə gəlsə, dilinnən gələr.
3. Dil Allahın qapanıdı, hər nə qoysan, götirər.
4. Dil adam bəyan elər.
5. Dildi nə qoruğı var, nə qaytağı.
6. Dil var bal gətirər, dil var bəla gətirər.
7. Dili bal, işi bala.
8. Dilləri qoyun, işləri oyun.
9. Dilini rəft eliyən başını qutarar.

**Bığlar**

1. Bığının altınnan keçti.
2. Bığdan qötürüb saqqala qoyur.

**Saqqal**

1. Saqqal yox ikən bığ var idi.
2. Buğı buraxmısan, saqqala salam vermiyirsən.
3. Saqqal mənnən çıxtı, istər getsün itin dalında bitsün.
4. Saqqalım yox, sözim ötmir (və ya keçmiyir).
5. Aşağı tüpürrəm saqqal, yuxarı tüpürrəm bığ.

**Əllər**

1. Əl əldən hökm edər.
2. Əl istər, baş buyurar.
3. Əl beş barmağdı, hərəsi bir boyda.
4. Əl yananda ağza təpəllər.
5. Öz əlinnən öz ayağına balta çalır.
6. Barmağın hansın kəssön, ağrısı birdi.
7. Bu əlin rənci, bu ələ haramdı.
8. Əlüvə gələn kazancdı.

[13] Bax:"SMOMPK", I bur.Iiş,səh46,№33 və XIX,II, ş,səh 300, №770

**Ayaqlar**

1. Kıçlarım nə titriyirsən? Almasonda ki, vermiyəcəqsən!
2. Ayağı yarpağ xinədədi.

**Ürək**

1. Ürəqdən ürəqə yol oli (və ya var).

**Ruh**

1. Ruhi hallac bazarda qəzir.
2. Əzizim əzizdi, canım onnan da əzizdi.

**Əlamətlərə görə insanlar**

**Kosa, keçəl**

1. Keçəl başa dəqdi daş, axtı qan, çıxtı can.
2. Keçəl suva getməz.
3. Cərgədən yalan qotur (və ya kəçəl) olar.
4. Keçəlimə baxma, baxtıma bax.
5. Keçəlin papağı düşincə.
6. Keçəl yarar idi, öz başın dara idi.

**Kar**

1. Kar özünə sərf eliyəni yeşidər.
2. Karın qövlindəki.

**Kor**

1. Kor kora necə baxar, tarı da kora elə baxar.
2. Adı bəllı - Koroğlu
3. Heç kəs gözin kor istəməz.
4. Kor atlanar, öz ölkəsin çapar.
5. Kor at minib köndələn çapır.
6. Kora qulluq buyurarsan, qayıdar, sənə nəsiyyət verər.
7. Kor da bilir balığ şordı.
8. Koru dara qısnıyıp.
9. Kor tutdığınnan kəsər.
10. Kor tutdığını əldən qoymaz.
11. Kor-kor, gör-gör.

**Axsaq**[14]

1. Köç qayıdanda axsağ irəli düşər.

---

[14] Bax:"SMOMPK" XYIII bur., I iş, səh. 63, №"26

**İnsanın əlamətləri[15].**

1. Uzun axmax olar, qüdəy fitnəkar.
2. Uzun saqqal axmax olar.

**Ər – arvad[16]**

1. Ərinən arvadın torpağı bir yerdən götirilib.
2. Ər öldi, arvad boşdı.
3. Qılınc – misir, arvad – yesir, döşənəcək həsir.
4. Əri döqmiş arvadı, it də tutti.
5. Əri qoz qırır, arvadı fındıxca sındırır.
6. Arvadın göqçaqi al, işli çıxtı baxtınnan, işsiz çıxtı baxtınnan.
7. Övladın isməti, ərin izzəti.
8. Təpələrcən ərim olsa, dağlarcan hökm elərəm.
9. Ərim (və ya atam) üçün (və ya dədəmə) yer saldım, qəldi qallıcı yattı.
10. Mərəkədə ərim ola, təndirdə əppəyim.
11. Ərli də sızıldasun, ərsiz də?
12. Arvadı bəd olanın saqqalı tez ağarır.
13. Yaman arvad çox danışar, danışmasa, savaşar.
14. Ac saxla, yalavac saxla, yaxşı saxla.

**İkiarvadlılıq[17]**

1. İkiarvadtının övi həmişə süprülməmiş qalar.
2. Şərp (qadın adı) elə bilər Şürptəyəm, Şürp elə bilər Şərptəyəm, nə Şərptəyəm, nə Şürptə, əcəb şarpa-şurupdayam.

**Nikah (evlənmə). Qız (gəlin)[18]**

1. Ağam bir xatın aldı, davanı satın aldı.
2. Övi tikmiş al, arvadı bişmiş (və ya bilmiş).
3. Bablı (taylı) babın (tayın) tapmasa, güni ax-vainan keçər.
4. Kəbinim halal, canım azad.
5. Tez çörəq yeyəninən tez övlənən peşman olmaz.

---

[15] Bax:"SMOMPK" XIX bur. I iş, səh. 299, №164, səh 299№165
[16] Bax: "SMOMPK", XIX bur., I iş, səh.289, №39) səh.302, №196; səh.323, №463; səh.311, №316
[17] Bax:"SMOMPK", XIX bur., I iş., səh. 288, №38
[18] Bax:"SMOMPK", XYIII bur., I iş, səh. 65, №46; səh. 65, №47; XIX, I iş., səh.296, №121, səh.311, №320, səh.315, №370, səh.316, №381; səh.316, №382

6. Əmiqızı, əmioğlu kəbini göydə kəsilip.
7. Ahıla gedən quyruğ yeyər, cahilə gedən yumruğ.
8. Haralısan? Hələ övlənməmişəm.
9. Qardaşına bax, bacısını al.
10. Kor-əst, şil-əst, qəbul-əst.
11. Çıxan qız çığdan baxar.
12. Pis al, çirkin al, bədəsil qözəl alma.
13. Bir qız bir oğlanındı.
14. Ağ dolağım sağ olsun, tapılmayan qız olsun.
15. Ər gərək, tez gərək.
16. Bir də gəlin ollam, oturdığım, durdığım billəm.
17. Gəlin aş bişirdi, gözinə yaş bişirdi, səhərdən axşamacan o da sıyığ bişirdi.
18. Gəlin atlandı, gor kimə düşti.
19. Qız alan gözinnan baxmasun, qulağınnan yeşidsün.
20. Qız alanın ya bir çuval puli gərək, ya bir çuval yalanı.
21. Qızı öz xoşına qoyasan, ya hokkabaza (və ya mütrüfə) gedər, ya aşığa.
22. Qız on beş yaşında ya ərdə gərək, ya görda.
23. Qız övlərdə tanınar, inəq dərgahta.
24. Qız qarıyanda dayısının boinına düşər.
25. Qıznan qızıl gizlin qərək.
26. Qızın isməti atanın dövləti.
27. Qara qız qəlmaseidi, külbəni kim ottarıdı?

**Qohumlar**[19]

1. Atovi, anovi görməseidim, özüvə xan deyərdim.
2. Aton soğan, anon sarmısağ, sən hardan gəldin belə gülməşəkər.
3. Ata olmıyan, ata qədrini bilməz.
4. Atam övi yövcağ, sucığazı sövcağ.

[19] Bax:”SMOMPK”, XVIIIbur., I iş, səh.64, №27; XIX, II ş., səh.288, №35; səh.288, №36; səh.288, №37; səh.294, №107; səh.296, №126; səh.303, №217; səh.306; №255: səh.307, №260, səh.310, №306, səh.312, №336; səh.315, №364 və səh.316, №379

5. Atasınnan artıran qatır olar.
6. Atamı öldirmişəm görına and içməyə.
7. Ata oğul savaştı, əbləh ona inandı.
8. Viran oğul atasın qayişməz (və ya soruşmaz).
9. Oğul qüni oğuldı.
10. Oğlum ağlamır, qızım çattamır.
11. Oğul on iki yaşında ya yəhər atta qərək, ya yer altta.
12. Şüyirri uşağ batırdığından məhlum olur.
13. İşim-gücüm bucağda, Ərzumanım qucağda.
14. Kürd qızınnan bir oğul, oni də Allah saxlasun.
15. Qörməmişin bir oğlı oldu, çəkti çükün çıxarttı.
16. İşə getmiyən oğlım olsın, vələ getmiyən öküzüm.
17. Oğul yönni olsa, neyniyir ata malını, yönsiz olsa, neyniyir ata malını?
18. Babasına uyan, atasının oğlu dögi.
19. Xeyirin görmədiyim oğlun vayına oturum.
20. Öz anasını sövən özqə anasını söqməz.
21. Anası ölsün qızların, gecə yalğuz yatar.
22. Anamda, bacımda olsun, təki məndə olmasun.
23. Bu gün qızını dögmiyən, sabah dizini dögər.
24. Yeddi fərsiz oğuldan, bir fərli qız yaxşıdı.
25. Xarar doldi, xalvar doldi, dağarcığ sənə nə oldi?
26. Qarnımdan çıxtı qada, kimə gedim dada.
27. Bala baldan şirindi.
28. Bala istiyən balasını də istəməq qərəq.
29. Nədən sən dedi? Sovımna.
30. Xaşalam – qardaşam.
31. Qardaşın qanın qardaşdan almazlar.
32. Qardaşım bəq olsun arvadi qöyansün, tumanı qən olsun, dalı qöyənsün.
33. Qardaş yaxşı olseidi, Allah özünə də qardaş yaradardı.
34. Ayrı qardaş yad qonşı.
35. Ər eldəndi, oğul beldəndi, aralığda qardaş tapılmaz (bulunmaz).
36. Anam da bacım kimi, qılları sicim kimi.

37. Dayımın qurd dayısı.
38. Dayı görmiyən elə bilər Şakulli də bir dayıdı.
39. Dayınan dağ dolan, əminən bağ dolanma.
40. Xalamnan bir şey istərəm (və ya dilərəm), versə də xalamdı, verməsə də xalamdı.
41. Can üçün can yanar, yadın harası yanar.
42. Çaydan keçəndə dal-dala dəyiplər.
43. Qovum gedə-gedə yad olar, yad qedə-qedə qovum (yaxın) olar.
44. Anovi alanun yanında dur, balta çalanın yanında durma.

**Qohumlar.Qudalar. Kirvələr**

1. Qeyinatam dövlətti olsun, qeyinanam səxavətti.
2. Övdə qəlinim olsun, bayırda yeznəm.
3. Qızım sənə deyirəm, qəlinim sən eşid.
4. Yaxşı qızımnan pis gəlinim yaxşıdı.
5. Bir başıdı, dörd ayaq, qəlin aşırdı ta biyağ.
6. Qəlin diyəndə qucmağım gəlir, axca diyəndə qaçmağım gəlir.
7. İriz eşşəqindi, feil gəlinin.
8. Xalx qız verər, quda qazanar, bir qız verdiq, qada qazandığ.
9. Bir adam qaida qalsun ki, arvadı öləndə, qız-baldızı olmasun.
10. Gəlin ocağa qələr.
11. Yenqəm ölüp, yeri mənə qalıp.
12. Allahunnan döndün, kirvönnən də dönərsən.

**Dulluq**

1. Alma arvadın dulını, yanınan gələr quluni.
2. Dul arvad özi yetimdi, ama yetimlərə atadı.
3. Dul arvad kişiyə gedəndə gecə yarısı peşman olar.

**Yetimlik**

1. Altun həsir, üstün yesir, yat yetim, tərliyəsən.
2. Yat ki, yetim tərliyəsən.
3. Qarınlar doyannan sonra, yetimlər yada düşər.
4. Analı qızın bədəni böyüqər, anasız qızın sözi.
5. Yetim öləqən olar.
6. Yetim qızsan, bürül yat, neynirsən uzanmağı.
7. Yetimə "qəl-qəl" diyən çox oli, çörəq verən az oli.

8. Yetim yarımaz (və ya yaşamaz), yarısa da (və ya yaşasa da) qarımaz.
9. Yetimi nə döq, nə söq, başına vır, çörəqin əlinnən al.
10. Yetim, kimə zərər verərsən? Mənə çörəq verənə.

**Soy, mənşə**

1. Əsil itməz, yağ iyiməz.
2. Əsilinən daş daşı, bədəsilinnən yemə aşı.

**Mamaça, doğuş**

1. Yüz mamaça gəlsə, güc doğana düşər.
2. Güc doğana düşər.

**Vətən və qürbət**[20]

1. Vətənə gəldim – imana gəldim.

**Nitq**

1. Söz vaxtına çəkər.
2. Sözin başı axrınnan annanar.
3. Sözün yanlışı olar, yalanı olmaz.
4. Sözi ahəstə, ürəqi tasvasta.
5. Qabaqcan diyən bilsə, sovrakı nə diyacaq heç dinməz.
6. Uzun sözün kısası.
7. Ta nə başəd çizaqi, mərdum nə quyad çizaha (fars).
8. Sözi söz açar.
9. Çox danışmaq Qurana yaraşar.
10. Hər şeyin (zadın) erkəqi keçər, sözün dişisi.

**El**

1. El üzinə namaz qılanın arxası Allahadı.
2. El üzi, düşmən qairi.
3. Eli ürküt, axsağına bax.
4. El dəlisini çölə atmaz.
5. Ellər birə, bir ellərə.
6. El elə sıxışar, öv övə sıxışmaz.
7. Elnən olan kara qün bayramdı.

---

[20] Bax:”SMOMPK”, XIX bur., IIŞ, səh.291,№66

**Yoldaşlıq, Ortaqlıq**[21]

1. Ortaklı tovuğdan yalğuz yumurta yaxşıdı.
2. Hamaştığdan ölən seyiddi.
3. Qardaş olağ, yarı (və ya tən) böləq.
4. Qələnə yoldaş olur, gedənə qardaş.
5. Yoldaş yoldaşa baxar, canın oda salar.
6. Yoldaşı övdən qötür, Quşi yuvadan.
7. Yoldaşuva qəyiş, bildiquvi əldən qoyma.
8. Özüvi yorılmış bilson, yoldaşuvi ölmüş bil.
9. İki mənə, bir sənə, onun da yarısı mənə.
10. İşimə getməsən, qapıda hürməsən, dahi niyə qərəqsən?

**Qonaq. Qonaqcıllıq**

1. Canım qurban, yaxşı qonağ, qəl uçaq bir də qonaq.
2. Qonaq çoxdu, qazma dar.
3. Qonaq öv yiyəsinin eşşəyidi (və ya dəvəsidi və ya tərlanıdı) harda bağlasa, orda durar.
4. Hər gün mənə, - gücdi mənə, bir gün sənə, bir gün mənə - toydi mənə.
5. Hər gün gələn hər qız oli, bir gün qələn nərqiz oli.
6. Qonağa aş verərsən, sənə baş vırar.
7. Qonağ övinə motal yüklü qələn, buğda yüklü qedər.
8. Qonağ özgə evində səliqəli olar.
9. Qonağ sövənin süfrası boş olmaz.
10. Qonağı qonşıya tanıdarsan, hər ikisinnən məhrım olarsan.
11. Qonağın ruzisi özinnən qabağ gələr.
12. Qəlməq qonağdan (qonağınən), yola salmaq öv yiyəsinnən.
13. Qonağı öyə qoymullar, oxı yanın qöydən asır.
14. Vaxtsız qonağ öz kisəsinnən yeyər.

**Qonşu**[22]

1. Qonşım qonşu olsa, kor qızım ərə gedər.

---

[21] Bax: "SMOMPK", XIX bur, II ş, səh.298, №144, səh.298, №145, səh.322, №453

[22] Bax: "SMOMPK", I bur., II ş., səh.45, №31; XVIII bur., II ş., səh.62, №9; XIX bur., IIş., səh.288, №32, səh.295, №112; səh.299, №167; səh.300, №168, səh.300, №169

2. Qonşı payı qonşıya layəğ qərəq.
3. Qonşı darısı iri olar.
4. Qonşuvi iki inəkli istə ki, özün bir inəkli olassan.
5. Qonşidən gələnnən inan öynəli olmaz.
6. Qonşı mıncığın götirən gərək gorda taxsun.
7. Qonşı, qonşı, gəl savaşaq!
8. Qovumun kimdi? - Yaxın qonşı.
9. Yaxın qonşı uzaq qohumnan yaxşıdı.
10. Yaman qonşı, kür oğul, qov yanından qadadı.
11. Yaman qonşı, yaman arvad, yaman at birinnən köç, birin boşa, birin sat.
12. Vırım uşağım öldürüm, qonşıma ad qazanım.

**Sevgi. Sevgili**

1. İstəq gözdə oli.
2. Gözdə olmıyan gönüldə də olmaz.
3. Göz gördi, gönül sövdi, mənim nə günahım var?
4. Gözdən iraq (və ya uzaq) olan, gövüldən də iraq olar.
   Hakka ki, doğrı sözdi, məhəbbət nəzərdə olar.
5. Məni xublara möhtac, gözim, sən eləmisən!
6. Hodi, hodi çaxmaxdı, kövdi, əzəldən eşkim varidi, indi vırdı soyidi.
7. Yar mənnən yar olsun, kol dibində öyim olsun.
8. Tumanım, köynəqim özimnən, yerə düşdüm xalxın gözinnən.
9. Burda oturma his olarsan, orda oturma pis olarsan.
10. Vaxtıkan ağla, asığ, el qəli tünniq oli.
11. Eşkın tərs ovandi olamaz.
12. Bir ürəqdə iki sövqi olmaz.
13. Sövqi od döqi, amma oddan yamandi.
14. Qonşıda qız sövənin ürəqində yağ olmaz.
15. Köhnə sövqi köhnəlməz.
16. Könül sövən göiçəq olar.
17. Gec-gec görünən tez sövinər.
18. Oynaşa umud olan ərsiz qalar.
19. Qiniyirəm, gülirəm, heç oynaş yadımnan çıxmiyir (və ya çıxmır).

20. Çirki çirk aparar, heyif oynaş paltari.

21. Dan yerinnən çıxan qün dəqsün sevgilimə, bulut altınnan çıxan qün dəqsün ərimə.

22. Mənə bax, nə keftəyəm, yara bax nə sallanır.

23. Nə yardan doymağ olmaz, nə əldən qoymağ olmaz.

24. Yar baqi, sövbət baqi.

25. Yar getti, yeri qaldi.

26. Gettim yarım yanına, qadam cicim canına.

**Söhbət**

1. Sövbət ki var, darı torbasidi, deşilsə, axacağ.

2. Sövbət dananı qurda verər.

3. Sövbətinən qarıyan qəmdən azad olar.

4. Sövbətin şirin yerində moltani (və ya yerməni) gəldi: Allah saxlasun.

5. Dəm sövbət, dəm ixtilat.

**Məsləhət**

1. Məsləhətə xəyanət yoxti.

**Dost və dostluq. Düşmən və düşməncilik**[23]

1. İstədiqim yar idi, yetirdi Pərvərdiqar.

2. Ayibsiz dost axtaran, dostsız qalar.

3. Bir görən yoldaş, iki görən qardaş.

4. Tikə qarın doyızdırmaz, amma möhübbət actırar.

5. Can de, can eşid.

6. Hər şeyin təzəsi, dostın köhnəsi.

7. Dostlıq üç almadi, gah ikisi səndə, biri məndə, gah ikisi məndə, biri səndə.

8. Ulduzi barışmiyanun salami da savaşdi.

9. Düşmənə quyi qazınca, dosta öv tikərəm.

10. Düşmən səni daşinan, sən düşməni aşinan.

11. Düşmənün “belasinnən” isə dostun silləsi yaxsidi.

---

[23] Bax: “SMOMPK”-da, I bur, II ş, səh. 52, №112; XVIII, II ş, səh 65, №41; XIX II ş, səh. 230, №54, səh 283, №88, səh.304 №226; səh.317, №391, səh.320, №420, №431 və səh.321, №448

12. Duz-çörək, düz-çörək.
13. farsca
14. ərəbcə
15. Özgə özgəni bayatı ilə çağırır.
16. Min dost azdi, bir düşman çox.
17. Ağılli düşmənnən qorxma, dəli dosttan qorx.
18. Ağılli düşman nadan dosttan yaxşidi.
19. Qurban olum düşmənə, məni qoymaz düşməğə.
20. Daş ürəgli düşmənin bağrın yarar mülayimlik.
21. Yarın yara sovqati bir dəstə bulağ oti.

**İgidlik**
1. İgidim igid olsun, köl dibində ovim olsun.
2. İgid öli, adı qali, öküz öli, qani qali.
3. İgid ölər, adı qalar, müxənnəsin neyi qalar?
4. İgid odi ki, ağzın yuma əlin aça.
5. İgid odu ki, apardığın gətirə.
6. İgidin başi qalda (və ya qooqada) gərək.
7. İgidin əli alış-veriştə gərəg.
8. İgidin fərsizi məkani gözdər.
9. İgidin qapısi bağli gərəg.
10. Çox bilməq, az danışmaq-igidin lənqəridi.
11. Qaçmaq da bir iqittiqdi.
12.Yaxşı igid ya dayisına, ya əmisinə oxşar (və ya çəkər, qələr)
13. Yaxşı igidin adın eşit, üzin görmə.
14. Cüratti səhər alar, kəm cürət küncdə qalar.
15. İgid igrarınnan dönməz, dəvə-ovşarınnan.

**Koroğlu**[24]
1. Öli Koroğlı, getməz bu yerdən.
2. Hər atasının gözini çıxarana Koroğlu deməzlər.
3. Koroğlu atlandi, öz elini çağdı.
4. Koroğlu diyipti: “basılani kəsmə”.

[24] Bax: “SMOMPK”, XIX bur, II ş, səh 301.№189

**Pusqu**
1. Puskuda otran yatmaz.

**Xain**
Xain xoflı olar, kor ürkəqən.

**Sirr**
1.Sirrüvi vermə yaruvə, yarun da yarı var.
2. Sirruvi dostuva demə, o da öz dostuna diyər.
3. Ya qarnımda, ya qolımda.
4. Açaram sandığı, tökərəm pambığı.
5. Xəlvəttə halva yiyənün sirrini Allah bilir.
6. Xəlvəttə (gizlin) boğaz olan (nöbrə gələn) aşkara doğar.
7. Nə diş bilsün, nə dodağ.

**Dedi-qodu**
1.Aralığda danışmağ öy yıxar.
2. Xəbərçi köpəg oğlidi, ona qulaq asan əbləh köpək oğlidi.
3. Xəbərçi yalançi olar, yalançi xəbərçi.

**Sovqat**
1.Bir piyala qatığ gəttim kərə kimi, bir başmağ verdi sələ[25] kimi.
2. Hesab var dinar-dinar, baxış var xalvar-xalvar.
3. Sovqatın adi birdi.

**Vasitəçilik**
1. Miyançinun kisəsi gən olar.

**Xahiş edən[26]**
**Dini və mənəvi anlayışlar**
**İnam və dinsizlik**
1. İlqar iman.
2. İldə, ayda bir namaz, onu da şeytan qoymaz.
3. Elə musurman oldun ki, atovun xaçın da tanımadın (və ya unutdun).

[25] Sələ - ev heyvanının selikli qişadan təmizlənmiş mədəsindən bir parça
[26] Bax: "SMOMPK", bur.,2, səh.52, №10 və bur., 2, səh. 317, №395

4. Hər hikmətin başı imandı.
5. Dinin dinara satan dinnən də olar, dünyadan da.
6. Neynirəm o imani ki, yarisi qardaşa yanmır.
7. İmansızın öhtəsinnən dinsiz gələr.
8. İmani satıb əppəyimə qatığ eliyirəm.
9. Ara qatışti, məzhəb itti.
10. Kaya imannandi.
11. Üz görən iman görməyib.
12. Uman əzizdi.

**Cənnət**

1.Cənnəttən gözi pambuğla gəlip.

**Cəhənnəm**

1. Cəhənnəmə gedən gələr, müştərinin gedəni gəlməz.
2. Yanşağı cəhənnəmə apardılar, dedi: odıni yaşti.

**Dua**

1. Bir pakün duvası, bir napakün duvasi.
2. Hər ağızda bir duva var.

**Mərhəmət, xeyir və şər**

1. Sadağa qada qaytarar.
2. Yaxşılığı istiyən qabağca behin verər.
3. Yaxşılığ ilə minnət qoyma.
4. Yaxşılığ bilmiyən adam adam yerinə sayilmaz.
5. Yaxşılığın əcrin Allahdan istə.
6. Yaxşılığa yamanlığ, kör eşşəgə samanlığ.
7. Pis olmasa, yaxşının qədri bilinməz.
8. Pis bildigüvi özgiyə rəva görmə.
9. Xeir Allahdan, şər şeitannan.
10. Xeir sövləməzə dedilər: "Xeir sövlə, səfərdən gələndə sənə sovqat gətirrəm". Dedi: "Bəlkə, gettin gəlmədin".
11. Bir yaxşıdan ötəri; -ha gəzməsön yüz il gəz.

**Minnətdarlıq və yaxşılıq bilməmə**

1. Bilənə bir tikə, bilməyənə min tikə.
2. Çörəg itirən, çörəg tapmaz.
3. Çörəg basan ayağa düşər.

**Düzlük və əyrilik**
1. Doğriya zaval yoxti çəksələr min divana.
2. Doğri danışanın papağı yırtığ olar.
3. Hakk doğrının yaridi.
4. Hakk doğriinən yaridi.
5. Hakkdi-yoxdi.
6. Əgri düzi bəgənməz, bu da bizi bəgənməz.
7. Əl-hakku mürrün(ərəb)

**Həqiqət acıdır**
8. Sordi, şor diyirəm.
9. Əgrini tox gördim, doğrini ac.
10. Bu daş, bu tərəzi.

**İctimai qurumlar**

**Katta(kəndxuda)**
1. Kaxası kilim alanun basına külüm olar (və ya olsun).
2. Yüzbaşının şahidi çavuş olar.
3. Allah verib Pirim köxuya: arvadı qısır, kızı boğaz.
4. Köxani gör kəndi çap.

**Məhkəmə**
1. Bu şər[27], bu meydan.
2. Şər kəsən barmaq ağramaz.

**İctimai vəziyyət və var-dövlət**

**Atlı və piyada**
1. Attınun piyadadan xəbəri olmaz.
2. Attının piyadıya gülən vaxtidi.
3. Piyadanun attiya gülən vaxtidi.
4. At minən dəlidi, minim çağana bilmirəm nə deyim.
5. Sağriyə minən ağrısına qattaşar.

**Tox və ac**
1. Ac qarnıma sovuğ su!
2. Acınnan ayağyalın yatır.
3. Acın zəhləsi sudan gedər.

[27] Şər-müsəlman məhkəməsi

4. Aci dindirmə, toxi tərpətmə.
5. Əlim xəmir, qarnım ac.
6. Bu dari aclığa çatmaz.
7. Toxikən yeyən, qəbrin dişinnən qazar.
8. Az varidi acadan, biri də gəldi bacadan.
9. Aca meitə[28] halaldı.

**Yoxsulluq**

1. Ax-vainan çıxar kasıbın canı, elə diyər: "Allah kərimdi".
2. Əli boş, üzüm kara.
3. Taxçadakı qarnında, baxçadakı əgnində.
4. Az idi arığ-uruğ, budi gəldi dabanı cırığ.
5. Fağıra həmdəm qalmaz, gələr baş ağrısi.
6. Qışı ac, yay yalavac.
7. Kasıb xərcini bilsə, məxmər giyər.
8. Kasıbdan (və yoxsuldan) Allah da bezardi.
9. Kasıbın saxası[29] şeytannandi.
10. Övində yox dari, keçər oturar hamidan yuxari.
11. Çörəq tapmaz yeməyə, itinin adın "Gümüş"qoyar.
12. Nə istiyirsən bacınnan, bacın ölür acınnan.
13. Havar sənin öyində, tavar sənin öyində, daş vırırsan toz qapır, nə var sənin öyində?
14. Ölkə yansa, çöpi yanmaz.
15. Kasıbın sözi yurğunun[30] közi.

**Yolçuluq**

1. Əlli ildi yolçılığ eliyirəm. Cuma axşamıni mənə görsədir.
2. Yalavac üçün yay da borandi.
3. Yoxsulun saci çörəgi qurtaranda qızar.
4. Yoxsul, yaxul oduna, suva da yoxsul?
5. Yolçının torbasınnan tutmasan, ağacın əlindən qoymaz.
6. Yolçidan yolçiya pay olmaz.
7. İştançağın (tumançağın) yuxusuna beş arşın bez girər.
8. Dilənçi bir olsa dirilməğə nə var.

---

[28] Meitə-meyitin əti
[29] Saxa-əliaçıq,səxavətli
[30] Yurğun – yandığı vaxt kömürə çevrilməyib, tez bir zamanda külə çevrilir.

9. Bir ac gülər (və ya qudurğan oli), bir yalançı.

10. Ocağa salson, tüstisi çıxmaz, ağac vırsan, tozi qalxmaz (və ya qopmaz).

**Zənginlik və kasıblıq**

1. Dəvləti yanın qaşiyanda kasıb elə bilər pul verir.
2. Saman arağı çəkir (müflislər haqqında deyilir).
3. Olanda göz qızar, olmiyəndə (və ya qurtaranda) üz.
4. Əgər varındı, aləm yarındı, əgər yoxundi, elnən aron toxundi.
5. Kiminin ələgi olar, kiminin sacı.
6. Varlığa çalışan yoxsulluğa tez düşər.
7. Dövlətti kasıb olsa, kırx il iyi getməz (və ya iyi üstündədi).
8. Kasıbın malı başının altında gərəg.
9. Kasıbın ağli olunca, dövləttinin quli ol.
10. Dokkuz döşakli bala axri kuri yerdə can verir.

**Var-dövlət, əmlak**

1. Diriyə dirli gərəkdi.
2. Dünyanın mali düniyada qalacağ.
3. Sonsiz adaç dövləti çox istər.
4. Mal itti, iman itti.
5. Mal bir yerə gedər, iman min yerə.
6. Mal mənim, məsləhət mənim.
7. Mal gedincə can gedsə yaxşidi.
8. Malım budi, yarısı sudi, alsan da budi, almasan da.
9. Malın tapıldi, üzün kara oldi.
10. Maluvi yaxşı saxla, qonçuvi oğri tutma.
11. Deyilən maldi, qalan miras.
12. Deyilən maldi, qalan qəmdi.
13. Malun getməsinə yiyəsi səbəb olar.
14. Mal yiyəsinə oxşamasa haramdi.
15. Mal yiyəsinə oxşar.
16. Varlığa nə darrığ(və ya darlığ yoxti).
17. Yeyərsən dadundi, verərsən adundi, verməsən yadundi.
18. Yüz gir içində üz.
19. Yanığ mal hara gedirsən?-Yandırmağa.
20. Qazandığını it yeyir, yaxasını bit yeyir.

21. Malımızı it yeyir, canımızı bit yeyir.
22. Farsca

**Bolluq**

1. Süt gölündə üzür.
2. Çəkişməsə bərkiməz.

**Pullar**

1. Ağ puli kara gün üçün yığallar.
2. Abbasını[31] bəyənmiyən beş şahi çıxardar (və ya çıxartsun).
3. Puldan pəs cannan-asi.
4. Pul qazanmaq hasanddi, xərct(l)əməğ çətin.
5. Pul əl kiridi, yüvarsan gedər.
6. Pulivi pulova ver, qızıvı keçələ.
7. Pulu pul qazanar, yaxşı igid palçığ basar.
8. Pulun getməginə baxma, işün getməginə bax.
9. Puli az olanın qüssəsi də az olar.
10. Övdə puli yoxti zır-zıri çoxti.
11. Puli pul, minnəti də dahi artığ.
12. Pul verəndə mollani meçittə alladallar.

**Ticarət**

1. Belə matahun var Cəfərabad[32] bazarına apar.
2. Sövdəni pul elər, davanı qılınc.
3. Sövdənin siftəsi.
4. Sattığın kimi al.
5. Matanın matan olınca, bazarın bazar olsun.
6. BaZəhra pulsız gedən, göra imansız(və ya kəfənsiz) gedər.
7. Öz daş tərəzisinən inan çək!.
8. Yusif bazaridi: hər kəsin matanı varısa, gətirsün.[33]
9. Aldığı bir ignədi, dəmirin batmanını yoxliyir.

---

[31] Abbasi-abbaslıq,iyirmiqəpiklik,sahi-beş qəpik, beş şahı

[32] İranda yerləşən Səfərabad bazarında istifadədən çıxmış köhnə mallar satılır. Yelizavetopol quberniyasının Nuxa qəzasında da Cəfərabad bazarı vardır.

[33] Misirlilər Yusifi-Kənanın onu qardaşlarından satın almış tacir tərəfindən bazarda satıldığını eşitdilər, onu almağa tələsən tacirlərdən hər biri özü ilə əlində olanı gətirirdi. Bir qarı isə özünün bütün var-dövləti olan bir yamağı gətirdi. Müqəddəs müsəlman tarixində belə deyilir.

10. Ovcuma qoy, ovcuna qoyum.
11. Eilə ki, sorçi bir də baZəhra gəlsün.
12. Siftə sənnən, bərəkət Allahtan.
13. Yüknən gələn, taynən gedər. Taynən gələn vaynən gedər.

**Qazanc və itgi (ziyan)**

1. Hər ziyanlığ adama bir ağıl örgədər.
2. Ziyanlığun yarısınnan.
3. Yaman yeyənün (yeyicün) olsun, yaman diyənün (diyicün) olmasun.

**Borc verən və borclu**

1. Borc alan bicdi, borc verən gic.
2. Borclu borclının sağlığını istər.
3. Borclidən bir güvəc, oni da vır sındır.
4. Borcın çıxti yüz tümənə, qırqovul-plov ye (və hər axşam ye kişmiş-plov).
5. Borc borcdi, qırmızı tuman[34] da bir borcdi.
6. Borcun yoxsa, get zamın ol (və ya dur).
7. Beştə alacağım yox, üçtə verəcəgim.
8. Qədədən borcli olma, ya toyda istiyər (istər), ya bayramda (və ya mərəkdə).
9. Yüz fikir bir borci ödəməz.
10. Alacağikən verəcəkli oldum.
11. Əlli əlli üstündə, bir əlli də onun üstündə.
12. Nə ver, nə al.
13. Əli papağın Vəli başına qoyur, Vəli papağın Əli başına.
14. Verib yaman olınca, vermiyib yaman ol.
15. O, haxverməzdi, bu haxbatırmaz.
16. Alacağım olsun, verəcəgim olmasın.
17. Hürmət hürmətə bağlidı.

**Ucuzluq**

1. Ucuz illətsiz, baha hikmətsiz dögi.

---

[34] Tümən-müxtəlif yerlərdə müxtəlif dəyərlərə bərabər olan pul vahididir: Şamaxı tüməni 6 rubla, Tiflis və Nuxa tüməni 10 rubla, Təbriz tüməni isə 3 rubla bərabərdir

**Əmək haqqı**
1. Qazandığın darı olsun, cuvalın səbət.
**Özününkü və başqasınınkı**
1. Özgə bıravi çatı qırar.
2. Özgəsinə baxan özüninkini də itirər.
3. Özgə malına dəgmə, özünkini əldən vermə.

**İnsanın hərəkətləri**
**Yalan**
1. Yalan ayağlanar, yeriməz.
2. Yalançının yaddaşı olmaz.
3. Yalançını mənzilinəcən.
4. Yalaninən dünyani gəzmək oli, amma qayıtmaq olmaz.
5. Yalan olmasa doğri yeriməz.
6. Yalan ki var, doğrının şatıridi.
7. Yalan ki var, doğrının gülidi (quludi).
8. Nahak ayağ tutub yeriməz, amma iki diri bir diri var.
**Yanlış**
1. Çox sövliyən çox da yanılar.
**Qətl, para və qan**
1. "Öldirirəm!"diyənnən qorxma, "ölləm!" diyənnən qorx.
2. Taxsır (və ya günah) öləndə olar, öldirəndə olmaz.
3. Qannını qan tutar.
4. Kəsik baş sövləməz.
5. Gedər qılınc yarası, getməz dil yarası.
6. Söz qılınc yarasınnan pis kəsər.
7. Mənim yaram ağriyir, sənin haran ağriyir?
8. Siyavuş qanidi yatmaz
9. Qani qaninan yuvmazlar, qani suinən yuvallar.
10. Qan yol verməz.
11. Qıcışmıyan yerdən qan çıxardır.
12. Yarası avand olanın təbibi kabağına gələr.

**Yaş, xarici görkəm**
**Gənclik və qocalıq**
1. Qariyə qız ayini yaraşmaz.

2. Qarınınki kırannan keçib
3. Qari-qari xeyratın olsun bir çuval dari.
4. Qıl-qıl yengi oyanıp.
5. Qocanın gözi qazanın dibində olar.
6. Qociya gülən özünə gülər.
7. Köctən azan qariya munnan betər gərək.
8. Qocadan deməg, canlıdan köməg.
9. Qocanın biligi cavanın biləngi.
10. Yoxsulluğinan qocalığ düşüb bir yerə.
11. Nadiri taxtta görüb, şahi kundaxda.
12. Cahılinan daş-daşı, ahilinan yemə aşi.
13. Qocanın istadigi (və ya iştamaği) xeyirdi (kazandi), yedigi zərər.
14. Cavannığda pul qazan, qocalığda qur qazan.
15. Cavanlığda həlimlik, qocalığda səlimlig.
16. Cavannığda daş daşi, qocalığda ye aşi.
17. Cavannığda çək zəhmət, qocalığda ol rahat.
18. Səksənində yaşiyib, indi belin qurşiyib.
19. Bir ahillığda, bir cahilliğda.

**Gözəllik və çirkinlik**

1. Olma gözəl, incimiyəsən.
2. Aydan ari, günnən dari.
3. Çirkin üzün gizlər, gögçək budağlar gəzər.
4. Çirkinsə çirkin, üz yumamağın niyə?
5. Çirkinliyin Allahtan, üz yumamağın nədən?
6. Hər gözəldə bir ayıb olar.
7. Sabınnan üz yuvan bir gün göyçək olar.
8. Gözəl göz üçün, ağıllı gövül üçün.
9. Yarasığın yaraşığı bəzəgnən.

**Xarici görünüş və zahiri görünüş**

1. Üzi bəzəg, içi təzəg.
2. İçərisi məni öldirir (və ya yandırır), çöli özgəni.

**Dəri**

1. A cırım, handansan? Bu yatan gönnən.
2. Baş gön, beş gün.

3. Saxla göni-gələr güni.

**Əhval-ruhiyyə**

1. Dərdüvi qoy dərdim üstə, oni da mən çəkərəm.
2. Dərdi olan danışar (və ya dərdli adam çox sövlər).
3. Dərdli deyingən olar.
4. Qəmli ürəg ölməsə də, dirilməz.
5. Qayğılıya söhbət haramdı.
6. Yüz gün sel oyani, bir gün dərd əyər.
7. Hay-hayi gedip, vay-vayi qalıp.
8. Dəmli hara gedər, aləm ardican (və ya dəminan qəmli hara gedər, qəm ardican).
9. Ağladım başarmadım, güldüm, günün keçirttim.
10. Dərd bir olsa, dirilməgə nə var (və ya nə çarx).
11. Gettin dərdti yanına, o, mənnən narin ağladı.

**Tale**

1. Saydığuvi qoy qırağa, gör fələk nə sayar.
2. Qara işin istər, bizə qalar təşviştər.
3. Farsca
4. Ərəbcə

**Xoşbəxtlik və bədbəxtlik**

1. Axırın gəlsün bez köhnəg!
2. Baxtım olseidi, anadan qız olardım.
3. Taxt yaratmaq oli, baxt yaratmağ olmaz.
4. Kiminin başında tac, kiminin başında xərc.
5. Kiminin başında tax, kimini ayağı yalavac.
6. Kimiyə bir eşşəg, kimiyə min köşəg.
7. Kimiyə lov, kimiyə plov.
8. Xata xata üstinnən gəlməsə, bir xatadan nə var?
9. Xata mənnən, əta sənnən.
10. Şaddığınan şinnig eliyir.
11. Ağ gün hara gedirsən? – Ağarmağa. Kara gün hara gedirsən? - Karalmağa.

13.Ərəbcə

14. Məndə elə tale hayandadi, oynaş koinına girəm, koosım da üstimi örtə.

15. Kada kutarmadi, toibə tükənmədi.

16. Bəkməz almışam, bal çıxıb.

17. Mən qaçıram kadadan, kada məi qarşıliyir (kabaxliyir).

18. Hər vaxti baZəhra gedər, yağış yağar, dəgirmana gedər su kəsilər.

19. Tuti çiyələgi birdən dəgdi.

20. Əzəlki baxtım, qırıldı taxtım, sovraki baxtım qar (xaraba) oldi taxtım.

**Tapıntı və itki**

1. Dəmir taptun yoldaşuva ver.
2. "Dədə bir balta taptım!" "Neynədin?" – "Oni də itirdim".
3. Halal mal heç yerə getməz.
4. İtigi itən sorağ edər.

**Həyat və ölüm**

1. Ölməg var, dönməg yoxti.
2. Ölməg ölməgdi, xırıllamaq nə deməg.
3. Öli kimi ölginən, adam kim ağliyim.
4. Biri ölməsə, ikisi dirilməz (dırılmaz).
5. Biri ölməsə, biri dirilməz (dırılmaz).
6. Gəldi əcəl, vermədi macal (məcəl).
7. Göri varidi ki, kəfini ola?
8. Bayirdə minim ölsün, övdə birim ölməsün.
9. Düniyada üç şey gördüm:oldum, övləndim, öldüm.
10. Qılıncsız qırğına gettiq.
11. Nə ölən var, nə görina gömən.
12. Hər nə gedir, ömürdən gedir.

**Həyati hadisələr**

**Toy, ehsan və yas**

1. Toydan toy törər.
2. Bayramalısız toi olmaz.
3. Toi toğlısı kimi heç aradan çıxmır.
4. Kara qız bəzənnincə toi əldən gedər.
5. Nə tələsirsən? Toyun qarağaca qalmiyib.
6. Toida oinamaz, vaida ağlamaz.
7. İki xeirattan qalan rutullu kəttasına oxşiyir.

8. Xiiməgəhə girən gərəg ağlasun.
9. Yas yiyəsi kiridi, yasa gələn kirimədi.
10. Toydan sonra nağara, xoş gəldin Bayram ağa!
11. Toy günü durub, vay guni oynayır.
12. Toyun yaraşığı oynamaz, vayun yaraşığı ağlamaz.

**Bayram**

1. Orucunnan çox razıyam, şeşasində tuturam.
2. Bayramın yaraşığı dolmainən tərəgdi[35].
3. Bayramda ottan, Qurbanda əttən, Novruzda yemiştən.

**Sağlamlıq və xəstəlik**

1. Sağlığ-soltanlığdi, demə yoxsulam mən.
2. Əzzəldən çox yərar doğirdi, vırdi çiçəg çıxartti.
3. Şadi çox gözəl idi, vırdi çiçəg çıxartti.
4. Azarradım ölmədim, üzüldüm öldim.
5. Tuman gəldi, tımo (rükəm) qaç!
6. Boğazım sağ, ayağım ağsaq.

**Dərman**

1. Dava acı, səmərəsi şirin.

**Ölü**

1. Ölinin üzi sovuğ olar.
2. Ölilər elə bilir, dirilər halva yeyir.
3. Ölivin adın anan ol, adına axşamı, cüma axşamı çoxtı.
4. Ölisi bir gün, şivəni bir gün.
5. Ölən kimdi ki, gorına qoyan kim olsun.
6. Öli kimi ölginən, mürdəşir kimi yuvum.
7. Saçı ölinin üstə kəsəllər.
8. Göri gör yanında hayən üçün qoyallar.
9. Öli mənimdi, ayağını yeyirəm.
10. Ölini bir-bir götirəllər.
11. Ölinin vəsiyyəti özinnən gedər.
12. Ağı bilmiyən, ölüsün mındar eylər.
13. Fərhad ölüp, külüginin səsi gəlmir.

[35] Tərəg – yumşaq halva

**İnsanın fəaliyyəti, istirahət və iş**

1. Az iştən çox törər.
2. Azacıq işim, ağrımaz başım.
3. İşi düşəndə axtarar məni, aşı bişəndə qovar məni.
4. Bir iş var, iki əməl.
5. Sözü ilə işi düz döyi.
6. Tutulmuş iştən gül iyi gələr.
7. Sənnən hərəkət, mənnən bərəkət.
8. Bir əli od, bir əli su.
9. Çox çalışan çarığı yırtar.
10. Bekərrığ kürrük bitrər (və ya gətirər)
11. Bekərrığ böyüg işdi.
12. Hər iş öz ustadının əlində hasanddı.
13. Nə işim var, nə macalım (məcəlim).
14. İstiyirsən bal-çörəg, al əlüvə bel-kürəg.
15. Dünyanın işi hər təhər tutsan, yola gedər.

**Əmək və tənbəllik**

1. İştəməsön, diştəməzsən!
2. Əkiblər yemişiğ, əkirüg yeyəllər.
3. Təmbələ dedilər: "Qapını ört!",-dedi,-"Küləy əsər, örtilər".
4. Təmbəllig azar artırar (və ya törədər), iştəməg cani saf elər.
5. Asnəgi əsnəg artırar, hayıf tövlədəkinin canı[36].
6. Ver yeyim, ört-yatım, gözlə canım çıxmasın.
7. Yeməgin qulu, iştəməgin xəstəsi.
8. Yağ yeyib yaxada gəzir.
9. Ortada yeyib, ucda gəzir.
10. Hər kəs yeyər fətiri, gedər odun gətiri.

**Yuxu**

1. Yuxunun yanlışı olar, yalanı olmaz.

**Müftəxorluq**

2. Müftəxor sahib saliqa olar.

[36] Bu atalar sözü belə izah edilir: arvad öz sevgilisini tövlədə gizlədir və onun görüş vaxtını gözləyərkən əsnəyir, onun əri də əsnəməyə başlayır və o, yatmağa gedərkən tövləyə baş çəkir. Tövlədə arvadının sevgilisini görür və onu ölüncəyədək döyür.

**Yol və səyahət**

1. Səfərə gedən su götürər.
2. Sorağınən kişi Məkkəyə gedər.
3. Yolınan gedən yorulmaz.

**Yük**

1. Yük (və ya tai) əgməsə, daş qəribligə düşməz.

**Ağıl və bilik**

1. Ağıllı bizi tapmaz, dəli bacadan yağar.
2. Ağıllı qəm yeyər, dəli qamçı.
3. Ağıllıya işarə, nadana kötəg.
4. Ağıllı fikir eliyincə, dəlinin oğlu olar (və ya oğlı çaydan keçər) və ya oğlu baZəhra gedər.
5. Bir ağıllı baş min başı saxlar.
6. Danışanın danışığına baxma, ağlına bax.
7. Göz var görməy üçün, ağıl var bilmək üçün.
8. Ağıl başda ikən, övün avadan.

**Axmaqlıq və dəlilik**

1. Axmax özünə düşməndi, özgiyə necə dost olar?
2. Əlisi dəli, vəlisi dəli, qırılmışın hamısı dəli.
3. Gün keçər, ömür gedər, dəli sövinər ki, bayram gəlir.
4. Əbləh odu ki, öz çörəgin yeyə, özgənin sözi danışa.
5. İnsanın dəlisi daşa güc elər, öküzün dəlisi başa.
6. Dəliyə halva, gicə bal neynəsün?
7. Dəliyə zabuta yoxti ( və ya yazılmayıb).
8. Dəli utanmaz, yeyəsi utanar.
9. Dəli dəlini görəndə çomağın belinə sancar (və ya gizlər).
10. Dəli dəlini görəndə xoşına gələr.
11. Dəlini toya apardılar, dedi: bura bizim evdən yaxşıdı.
12. Dəli qırmızı sövər, gic sarı.
13. Dəliyəm - güclüyəm.
14. Dəlinin başında qoz ağacı bitməz.
15. Dəliyə bir hava bəsdi.
16. Ağıllımız Xıdır ağa, barmağın saldı bardağa.
17. Hərcayi sözün mərcayi gələcəsi (qabağı) olar.

**Bacarıqlı və bacarıqsız**

1. Hünərsiz (və ya bihünər) özgəyə güvənər, hünərri özünə.
2. Kür ya burda, ya Bağdadta.
3. Kür kürü tapar, su çuxuri
4. Nə kür baZəhra varsun, nə bazar kürsiz qalsun

**Oxuma, qabiliyyət və bilik**

1.Katibi cahildir, məntiqi küfürdür, fars dili biləndən dan molla olmaz, oxısa yüz min.
2. Oxısaydım, molla olardım.
3. Oxuduğuvi demə, annadığıvu de.
4. Oxumamıştan əvvəl yırğalanmağ örgənir.
5. Elm oxumaq, igneynen qazmaq.
6. Bacarana baş qurban.
7. Bildigüvi əldən buraxma.
8. Bu elmi palanduzidir, nə zır-zır mollalığ?
9. Gördüvi qoyuf, bildigüvə getmə.
10. Çox bilirsen, az danış.
11. Çox yaşıyan çox bilməz, çox gəzən çox bilər.
12. Annıyanın quliyəm, annamıyanın ağası.
13. Annıyan bir quldan da annarız.
14. Farsca.
15. Dərs o dərsdi, katığ əppək əldən çıxtı[37].

**Xatir**

1. Heyvan ölər, sümükləri qalar, insan ölər, işləri qalar.

**Falabaxma**

1. Fala inanma, faldan da qalma.
2. Falçı falçıya fənd vırmaz.
3. Falun fal olsun, falmanun Allah.

**Pıç-pıç**

1. Puç-puç ev yıxar.
2. Puç-puç Mustafa xanı qaçırtdı.

---

[37] Bir şagird Dağıstandakı bir müəllimin sədasını alıb onun yanına gedir, lakin dərs vermədə bir fərq görməyib əvvəlki müəllimin yanında olarkən yediyi əppək və qatıq üçün çox heyfslənir.

**Səbir**

1. Ona dözən on beşə də dözər.
2. Bir dözən minə də dözər.
3. Beşə dözən on beşə də dözər.
4. Səbir eliyyənnəri Allah dost tutar.
5. Səbir cənnət açarıdır.

**Tələskənlik**

1. Təhdi düşən (və ya tələsən) təndirə düşər.
2. Təhdi düşən (və ya tələsən) gəri düşər.
3. Tünd gedən yorulmaz.
4. Çaya çatmamış çarığın çıxardır.

**Tərs**

1. Əsli keç inandırıcılıq olanı yüz eləsən, düzəlməz.

**Yalançılıq, utancaqlıq**

1. Əslin itirən haramzadadı.

**Simiclik**

1. Artığ tamah baş yarar.
2. Artığ tikə baş yarar.
3. Artığ tikə diş qırar.
4. Bir əlinən iki qarpız tutmağ olmaz.
5. Bilmir harda bişib, diyir: "Bir çömçə də bura tök".
6. Çömçənən içdün, doymadun, yalamağınan doyacaqsan?
7. Yeməkinən doymadun, yalamağınən doyacağsan?
8. Birəni ayağınan nallıyar.
9. Kora vermə, şilə vermə, mənə ver.
10. Kora verirsən mənə ver, şilə verirsən mənə ver.
11. Hər nə varsa, ver dayıma.

**Paxıllıq**

1. Paxılın göri cəhənnəmdə.

**Hiylə**

1. Bazi, bazi mənə də bazi?

2. Atam elə fənd idi, kündəni sayardı, anam elə fənd idi, yanınan kəsərdi.

3. Dovşanı arabaynan tutar.

4. Saman altınnan su yeridir.

**Susma**

1. Ləm bir, cim iki

**Tabelik**

1. Baş vurmağnan baş ağramaz.
2. Böyügün sözünə baxmayan uliya-uliya gəzər.
3. Üzi üstə gələni, arxası üstə çökürməzlər.
4. Əgilənin boynun vurmazlar.

**Təkəbbür**

1. Çubuğ çəkər, çırt atar, genə diyər: "pulum var".
2. Qoz kabuxtan çıxdı, kabuxun bəgənmədi.
3. Damağı İstanbuldan gəlir.
4. Ögində tapılmaz bir çərək dari, bardaşın qurar oturar hamıdan yuxarı.
5. İddiası tərlan, özi yapalağ.
6. Bud əti yemir ki,dala yaxındı.
7. Dağ yeriməsə, Abdal yeriyər[38].
8. Dağ yeriyəndə Abdal da yeriyər.

**Vicdan, utanc və tövbə**

1. Arı yeyib, namusu dalına atıb.
2. Namusu yeyib, arı dalına atıb.
3. Həyasızda (və ya bihayada) insaf olmaz, insafsızda haya.
4. Hayası olmayanın imanı da olmaz.
5. Həyalı qıZəhrar, bihaya (və ya həyasız) ağarar.
6. İnsaf dinin yarısıdır.
7. Tövbəsini sındıran məlumdu.
8. Munnan sonrakı peşmançılığ əl verməz.
9. Yoldan çıxmaq ayıb dögi, yola gəlməməy ayıbdı.
10. Arsıza bir şillə kar eləməz.

**Oğru və oğurluq**

1. Oğırlığnan qəhbəliy qırx gün gedər.
2. Oğrıya and verdilər (və ya oğrını anda çəkdilər).
3. Əlin harama qatırsan, barı balına (bulama) qat.

[38] Bir gün şeyx dinləyicilərə təsir etmək üçün dağa müraciət edərək, ona yaxınlaşmasını tələb edir. Dağ onun tələbini yerinə yetirmədikdə o, özü dağa yaxınlaşır.
* müsəlman əlifbasının hərfləri.

4. Özini tövliyə qoymillər, şal qaşov oğırar.
5. İt qorxusunan oğırlığa getməz.
6. Ov ağrısını tutmaq olmaz.
7. Tutulmamış oğrı, xannan bəgdən irəlidi.
8. Hancari eliyim (və ya gəzim) ki, gözim oğrı gözinə oxşamasun?
9. Qışın ağırlığı yayda açılar.
10. Gördi - hənəg, görmədi - gerçək.
11. Yol oğrısı ol, yoldaş oğrısı olma.
12. Kırx il oğrı oldım, bir kərə haram yemədim.
13. Aləmə oğrıyəm, sənə ki doğrıyəm.
14. Harama ağzuvi bulaştırdın, keşkülüvi doldur, göti.
15. Sən ki oldun tülüngi, xub vırginən silingi.
16. Gic doğrıdan bic oğrı yaxşıdı.

**Güc və güc işlətmə**

1. İki yumruq bir başa cəfadı.
2. Zalıma Allah bəla verər.
3. Zülm ərşə dirəndi.
4. Gücü çatanda dovuz qüdtirər.
5. Hayxırmağ gücə yaraşar (və ya baxar)
6. Baskinən, sovra dizdərsən.
7. Kara səni basmamış, sən karanı bas.
8. Heydər, Səftərdi bizim pirimiz, hamuza (və ya doxkunuza) dondi bizim birimiz.
9. Əttən olan duvara etibar yoxdi.

**Qumarbaz**

1. Uduzmuş qumarbaz üzi üstə (və ya üzi quyli) yatar.

**Vəd**

1. İlqarınan dönən namərddi.

**Ehtiyatlılıq**

1. İlqarından dönən namərddi.

**Lənət**

1. İkisinə üç ləhnət, hərəsinə beş ləhnət.

**Şirnikdirmək**

1. Bəg oğlı gördim təmaha düştim

**Ədalət**

1. Kərki olub öz tərəfüvə yonma, mişar ol iki tərəfə yon.

**Vicdan**

1. Abırsızdan aburuvi saxla.
2. Kişinin hürməti öz əlindədi.
3. Kasıblığ (və ya yoxsulluğ) ayıb dögi, oğurluğ və qəhbəlik ayıbdı.
4. Çox ta sidqi duri dögi.

**Mübahisə, dava və hirs.**

1. Bəəsnən Həccə gedən yorulub yolda qalar.
2. Həcət dedük, höcat demədik.
3. Daş daşa, dırnağ daşa, siz savaşa, biz tamaşa.
4. Davanı gögdə axtarır, yerdə əlinə düşür.
5. Davanı iki kərəm salamağ nahaxdı.
6. Davanın çeşnisi cıdıldı.
7. Gənnən döyüş hasand görinər.
8. Acığnan dövlət yola getməz.
9. Davanı qılıc aralar.
10. Dana satmısan, dava?
11. Nığ-nığ ev yıxar.
12. Nığ-nığ qardaşı qardaştan elər.
13. Bir-birinin ətin yeyillər.

**Zəhrafat**

1. Yüz gün nəhəng, bir gün dəgənəg.
2. Gülmə gülünc olana, özün gülünc olarsan.
3. Gülmə gülünc olana, aşı linc olana.
4. Gülmə, gümüş gögdən yağar.
5. Ayıbı kim elər?-Aybecər. Soğanı kim yeyər?
6. Bir batman daş, Zəhrafat?
7. Zəhrafat möhübbətin kaicısıdi.
8. O Zəhrafatın içinə tüpürüm ki, yarısı gerçək olmasun (olmıya).

**Simiclik**

1. Elə biləsən, qayadan tilişkə qopır.
2. Elə biləsən, daştan talaşa qazır (qopır).

3. Boştan bir çıxır, bərkdən iki.
4. Bir qəpik verim, canuvı çıxardım.
5. Aşuğı yığallar oynamaq üçün.
6. Verəndə iman olar, alanda şümür.
7. Əlün verməgi - göylün rəhmi.
8. İlanın ayağın, qarışqanın gözini, mollanın çörəgini heç kəs görməyib.
9. Hələm süfrəsi, naməhrəm üzi görməyib.
10. Diriyə pay verməz, öliyə halva.
11. Çox qazanıb, az yeyər.

**Çaxır və sərxoşluq**

1. Paxırı çaxır açar.
2. İçərəm çaxırı, açaram paxırı.
3. Çaxırı mən içərəm, dağlar fırlanar.
4. Çaxır içən mən, keflənən sən?
5. Nisiyə içən iki kərrə keflənər.
6. İini (erməni sözü) yermənınindiki.
7. Çaxırı töksən, çakkalın boğazına, cənəvəri basar.
8. Çaxırı töksən, keçinin boğazına, varıb dağları aşar.

**Alışqanlıqlar**

**Adətlər**

1. Qaydadan çıxan peşman olur.
2. Aləmə adət oldı, sənə (və ya bizə) bidət.

**Ov**

1. Nə ova gedir, nə ovdan qalır.
2. Ov atanın dögi, yetənindi.

**İnsanın yaşadığı yerlə əlaqəsi**

**Şəhər, kənd və bazar**

1. Kənd koyxasız olmaz.
2. Köhnə şəhərə təzə qaida (və ya nırx) qoyır.
3. Bazar içində it qulağı kəsməy olmaz.
4. BaZəhra girdün, gördün gözi kıpığ, sən də ol gözi kıpığ.

**Məscid**

1. Bu məscidə bu namaz da çoxdı.

**Ev**

1. Öv bizim, sirr bizim.
2. Öv satan bir il dövlətti olar.
3. Mülk alan qırx gün ac ( və ya kasıb) olar. Mülk satan qırx gün tox ( və ya dövlətti olar).
4. Öv kisədə qalıp.
5. Elə yerdə öy tikməmişəm, yıxılanda vay deyim.
6. Bir övdə iki hava olmaz.
7. Öv sözsiz olmaz, meşə çakkalsız.
8. Öv sözsiz, gör əzabsız olmaz.
9. Qapı öz topuğunda (və ya dabanında) fırlanır.
10. Dəmir qapının taxta qapıya ehtiyacı var.
11. Divar qulağı olar.
12. Dam dirəg üstə durar.
13. Divar mus darət, mus-Quş (farsca).
14. Buxarının əgriligínə baxma, tüstinin düz çıxmağına bax.

**Yurd**

1. Köçən yurdın qədri düşən yurdta biləllər.

**İnsanın təbiətlə əlaqəsi**

**Dağlar**

1. Qaya uçanda toz qopar.
2. Qaya uçmasa, dərə dolmaz.

**Çaylar**

1. Araz, altuvi də bilirəm, üstüvi də.
2. Kül başuva, ay Araz, üstünnən təzək attanar.

**Daşlar**

1. Daş quyuya düşən kimi düşti.
2. Daş düşən və ya düştigi yerdə ağır olar.
3. Daş düştigi yerdə qalar.
4. Daş qayıya rast gəlir (və ya oğradı).
5. Kəsən oturub daş üçün ağlar.
6. Yatan daşın altına su keçməz.

**Dünya. Səma cisimləri. Kainat**

1. Dünya –hancarı tutson keçər.

2. Dünya binyət olanı, kazi sünnət olani.

**Günəş**

1. Gün çıxar, aləm görər.
2. Günnən yatar, günnən çıxar.

**Ay**

1. Ayın on beşi qaranlıq olsa, on beşi aydınlıq olar.

**Yer və göy**

**Külək**

1. Yel əsib, qoz tökülüb.
2. Yeli tutmağ olmaz.

**Yağış**

1. Yağıştan qalanı yağmur apardı.
2. Yağmasa da guruldar.
3. Yağıştan götürüb, boran altına qoydı.
4. Dağa yağsa, çöl avadan, çölə də yağsa çöl avadan.

**Qar**

1. Həmişə yağan qar olmaz.
2. Hər yağan qar olmaz.

**Zaman müddətləri**

**İlin fəsilləri**

1. Bir gülnən bahar olmaz.
2. Papağuvi çövürərsən, il gələr, gedər.
3. Payızın savi kasıbın ağzına gendi.
4. Ayaz oldı, bulut oldı, keçən günnər unud oldı.
5. Kabağı yazdı, ömri azdı.
6. Hayıf ki, ömrüm azdı, kuyruğumun dibi yazdı[39].
7. Yaz var, qış var, tələsməyə nə iş var.
8. Malı kır öldirir, kışın adı bədnamdı.
9. Hər fəsilin bir meyvəsi var.
10. Qışta donub ölməgdən, yayda ölmək yaxşıdı.

[39] Qışın ilk qırx günü ( 9 dekabrdan 17 yanvaradək) "böyük çillə", ondan sonra gələn 20 gün (18 yanvardan 6 fevraladək) "kiçik çillə", sonra isə "ala-çalpı" adlanır. Hər iki atalar sözündə "kiçik çillə" ilə bağlı bir növ giley var, lakin bununla da yanaşı yazın yaxınlaşmağından razılıq, məmnuniyyət ifadə edilir.

11. Küləş bastı, qar bastı.

12. Gecə ayaz, gündüz bulut ilin nəsidi, gecə bulut, gündüz ayaz, ilin xasıdı.

**Həftənin günləri**

1. Bu gün çərşəmbədi, qəlbimə düşən nədir?

2. Həftə səkkiz, mən doqquz.

3. Şəmbə şikar, bazar bekar, həftə uçi bənümiyə, çərşənbə tərpənmə.

**Aylar**

1. Mart çıxtı, dərd çıxtı.

2. Mərdim çıxtı, dərdim çıxtı, keçilərim yaza çıxtı.

**Günlər**

1. Axşam isə yat, sabah işə get.

2. Gecə qara, cücə qara.

**Yemək. Bişmişlər, iştah**

1. İştah məndə, çörəg səndə.

**Yeyəcək. Yemək. Bişmişlər**

1. Adın vermisən, dadın da ver.

2. Aşın sıyıqlığı dənin azlığınnandı.

3. Aşı bişirən yağdı, gəlinin üzi ağdı.

4. Əvvəl təam, sonra kəlam.

5. Övində bişməyib, qonşudan gəlməyib.

6. Bir tikə bir dağ aşırar.

7. Bugünün cigərin sabahın qovurmasına dəgişmənəm.

8. Bulamaca[40] və bismillah.

9. Bulamac, səni yemərəm, içüvə tüpürrəm.

10. Aşti, aştı, şorva hamıdan başti, şorva hərəsi bir kaşığ aldı, bəyəm taraştı şorva?

11.Aşınnan yemədim, tüstisinnən kor oldum.

12.Altı daş, üstü aş.

[40] Bulmaca - unu suda, bəzən isə süddə bişirirlər. Sıyıq, horra alınır. Yeyilən (yemək) vaxtı bir qədər yağ əlavə edilir.Dadsız yeməkdir.

13. Süti aş (və ya sütti pılov[41]) o qədər ağzımı yandırıb, doğramacı də piliyə-piliyə yeyirəm.

14. Yumurtanı duz bula, sən də ud.

15. Bir ət girdi kazana, oldı yeməli.

16. Kaz əti ördək əti olmaz, onun ləzzəti, turşluca tovuğ əti, demə, demə ürəgim getti.

17. Aşbaz tükəndi, az verərsən az yeyərsən, çox verərsən çox yeyərsən.

18. Ocağda bişir, bucağda düşir.

19. Çovur ocağa, baş bucağa.

20. Çörək xörəgin başıdı.

21. Çörəgin başı "bismillah", ayağı "əlhəmdülillah".

22. Harda aş, orda baş.

23. Heç kəsün tikəsi (və ya çörəgi) heç kəsün qarnında qalmaz.

24. Xörəgin dadı ağızdadı.

25. Tə yeməsön bilməzsən.

26. Dovğa[42] doxkazacan, qatığlı aş kapıyacan.

27. Sütti aş yaxşı olar, bir gün sizdə, bir gün bizdə.

28. Söznən pilov olmaz, aralığda yağ-dügi gərəg.

29. Sabahın naharı – bədənin mismarıdı.

30. Şahnan şilaplov yemirəm, (yemir), engim (engisi) yağa batar.

31. Quri süfrəyə duva olmaz.

32. Nə yağ var, nə dügi, vay odun dərdi.

33. Yaxşı xörəg qalınca, pis qarın yırtılmalıdı.

34. Əriştə bəylər aşı, tutmac onun yoldaşı, umacnan bulamac kifir arvadlar işi.

35. Ağız yeməsə, üz utanmaz.

36. Bütüni kəsmə, parıya dəgmə, doğra doyunca ye.

37. Rizq artmaz, möhnət artar (türk).

---

[41] Sütti-aş. Bax: "SMOMPK" Vbur, I ş, səh 167, № 18. Süttü pilov-yenə orada № 19.

[42] Dovğa - şorbaya bənzər yeməkdir, ayran və az miqdarda düyüdən hazırlanır, ona suda həll edilmiş bir neçə yumurta və un qarışımı əlavə edilir. Yeməkdən öncə nanə səpilir. Bəzən tatarlar onu qoyun əti ilə də bişirirlər, belə olduqda noxud da əlavə olunur.

38. Nani peynir salamattı.
39. Təzəcə çıxıb təndirdən, minnət çəkmir pendirdən.
40. Dünya yeyənə quyruğdu.
41. Maluva düşti talan, sən də bir yannan yalan.
42. Elə ye ki həmişə yeyəsən.
43. Tərə də yeyən çıxar yaza, kərə də yeyən çıxar yaza.
44. Çox yeməy az yeməgdən qoyar.
45. Hayanda bişibsə, bir çömçə də bura tök.
46. Xəmir yeyənin acızı olmaz.
47. Qarna gedən qazancdı.
48. Qarın qardaştan irəlidi.
49. Qarınquli yeməgdə qoççağ olar (oli), köməgdə-naçaq (və ya kaçağ).
50. Qisməttən artıq yeməg olmaz.
51. Gördün yemək, dahi nə deməg!
52. Loğma ki var, boğmadı.
53. Yırtılmışca qarın olmasa idi, küri-küri pul ( və ya küp-küp axçalar qazanardım).
54. Yeməkdənsə umid.
55. Yeməg var, götürməg yoxti.
56. Yeyici üçün Allah yetirər.
57. Yeyəg dögəg, dögəg yeyəg?
58. Yeyən bilməz, doğrıyan bilər.
59. Yeyən qurtardı, əliyən qurtarmadı.
60. Yeyilim yeyili, qonağım küsli gedir.
61. Şirin-şirin yeməgin acı qusmağı var.
62. Kəm-kəm buxur, həmişə buxur (farsca).
63. Ucuzluqda o qədər yemişəm, bahalığda yadıma düşmür.

**Çörək**

1. Adamın öz yavan çörəgi, özgənin pilovundan yaxşıdı.
2. Bozlamac kırxın yedim, qarnım ac, yuxa beşin yedim tıxa-tıxa.
3. Küt yeməğ savabdı, acdığa da xeyri var.
4. Kütüm də var, itim də var.
5. Çörəgi dizi üstindədi.

6. Çörəginin duzi yoxdu.
7. İki övin urvasınnan bir fətir oli.
8. Adamın təh(k)nədə də çörəgi olmasın.

**Halva**

1. Özgə yerin halvasını hövzaynan dögəllər.
2. Halveyi-təntəhəni yeməsön, dadını bilmərsən.
3. Halvaçı qızı daha şirin.
4. Halvaçı hövsələnən yeyəllər.
5. Tər halva aştan soradı

**Un**

1. Unı əliyəndə duyarsan.

**Düyü**

1. Dögilməmiş dügidən aş olmaz.

**Saxkız**

1. Saxkız çeynənəndə çüriyər (və ya çeynənən saxkız çüriyər).

**İçkilər**

**Ayran**

1. Ayrana gələn çanağın böyrinə qısmaz.
2. Ayrana getməğə utanmaz, çanağın dalında gizdədər.
3. Ayran içməgə gəlmisən, ara açmağa gəlməmisən.
4. Ayranındı, şorindi, indi, nobat korındı.
5. Qatığ dağılar, yeri qalar, ayran dağılar neyi qalar?
6. Gələr, qatığ yeyəriy, gəlməz süt.
7. Ayran içtim, xatiyə düştim.

**Su**

1. Su alçağdan aşar, hündürdən aşmaz.
2. Su axar, çuxuru tapar.
3. Su mındarrığ götürməz.
4. Su sənin dolunca gəlməsə, sən suvın dalınca get.
5. Məni aparan suva dəryə diyirəm.
6. O sudi, o dibəg.

**Silah növləri**

**Ümumiyyətlə silahlar**

1. Yüz gün (və ya min il) yarağı bir gün gərəg.

2. Yaxşı yarağın varıdı, Həmzəlidə qalıb.

**Tüfəng**

1. Boş tüfəngdən iki adam qorxar.
2. Tüfəngin dolısı özgəni qorxıdar, boşı yeyəsini.

**Qılınc**

1. Qılıncının ardı də kəsir, öni də.
2. Qılınc öz qınını kəsməz.
3. Qılınc acmıyan yeri pul açar.
4. Qələmin güci-qılıncın gücü.

**Nizə**

1. Cıdanı oğrıyan yerin tapar.
2. Cıdanı çuvala soxmaq olmaz.

**Ox**

1.Oxi daşa dəgdi.
2. Öldirən ox, günahkar ox atan.

**Alətlər, əşyalar, balta**

1. Baltada varsa, sapında da var.

**Qab-qacaq**

1. Boş çanağı doli canağa vırmazlar.
2. Kazanı özünün, xızani özünün.
3. Farsca.
4. Farsca.
5. Taş girovdadı.
6. Tökilən çanağ dolmaz.
7. Tuva dəlik, taş dəlik, buni da qoyduğ üstəlik.
8. Qazan daşanda çömçənin biri bir altına dəgər.
9. Qazan dedi: "Dibim qızıldı". Çömçə dedi: "İndi gəzib gəlmişəm".
10. Quri qaşığ ağız yırtar.
11. Kasa aştan istidi.
12. Güvəc yumbalanıb qapağın tapar.
13. Güvəcə verə-verə çıxar hafta-hafta bahası.
14. Lüləyin haftafa yerin tutar, girov qoyan da olan olmaz.
15. Lüleyin verə-verə çıxar haftafa bahası.

16. O qədər küp yanında küpəcələr sınıp (b).

**İgnə**

1. İgnənin ucun dügünnə, sora peşman olarsan.

**Süpürgə**

1. Təzə süpürgə təmiz süpürər.

**Ev avadanlığı, nərdivan**

1. Ayaq-ayaq nərduvana çıxallar.

**Yorğan**

1. Ayağuvi yorğanuva tən uzat.
2. Yorğanuva görə ayağuvi uzat.

**Çırağ**

1. Bu öyin çırağın işığı o öyə düşməz.
2. Hiç kəsün çırağı sabahacan yanmaz.
3. Çırağ dibinə işığ salmaz.
4. Söndi bizim çırağımız, yandı sizin çırağuvuz.

**Od**

1. Od gəldi, alov gəldi.
2. Oddan ( və ya yanğıdan) çıxdım, alova düşdüm.
3. Oddan kül törər, küldən od.
4. Odi söndürüp külinən oynayır.
5. Odnan pambuğun nə aşnalığı?
6. Uzun kösö əl yandırmaz.

**Heyvanlar. Dördayaqlı heyvanlar, balıqlar və həşəratlar**

1. Almadığın heyvanın kuyruğınnan tutma.
2. Amanat quvatti oli, kəmxörəq.
3. Öz kövsənində öttiyən mal ac qalmaz.
4. Təpig atma, kısır qalarsan.

**At**

1. Alma kürən, satma kürən.
2. Yüz kürənnən bir kürən.
3. Halın bilmədigin atın dalına keçmə.
4. Xasiyyətini bilmədigün atun quyryğunu əlləmə.
5. At onında, donında.
6. At təpiginə at dözər (və ya tablaşar).

7. Atı at yanında bağlasan, ya halın götrər, ya xuyin.
8. Atı palan saxlar, ölkəni yalan.
9. Arığa batman da gücdi.
10. Arığ ata quyruğu də yükdi.
11. Arığ atta təpər çox, yeriməgə hünər yox.
12. Ucuz aldı: quyruğuni dügünnə.
13. Belə şıllağ atan madyan qulun saxlamaz.
14. Boş torbanan at tutulmaz.
15. Düzdə yeriyə bilməz, yoxuşta şıllağ atır.
16. Kor atın kor da nalbəndi olar.
17. Düzdə minmə, yeniştə yedəgünnən çək, diktə qabağuva sal, yeriməsə mən zamin.
18. Mən Allah-Allahnan da ögrədirəm, sən papağ atıb ürkidirsən?
19. Nə yaraşır arığa, gedə girə qoruğa?
20. Bu bədö mənzilidi, munda kuyruğın yabular bular.
21. Ətün batmanın on manata gördüm atın sağrısında.
22. Yabularda qotur yabu mərd olar, yorılanda yiyəsinə dərd olar.
23. Qocalığda yorğalığ.
24. Yaxşı at yemin artırar, pis at qamçı.
25. Ata ot, itə ət.
26. Həmi dayımgilə gedirəm, həmi daylağımı örgədirəm.
27. Anasınnan kabağa düşən külüni qurd yeyər.
28. Arpa yemiş at mənzil kəsər.
29. At ələ düşər, meydan ələ düşməz.
30. İtin acığı quyruğunnan bilinər, atın acığı qulağınnan.
31. İtin yanına daldan get, atın yanına qabağdan.
32. At özgənün, dal özgənün, kazancının hamısı mənim.

**Eşşək**

1. Acmış eşşək attan yügrəg olar.
2. Eşşəg qazanar, at yeyər.
3. Axsağ eşşəgin kor nalbəndi olar.
4. Eşşək anqırar, tayın tapar.
5. Ölmə, eşşəgim, yonca bitincən.
6. Eşşəg elə o eşşəgdi, amma çulun dəgişib.

7. Eşşəg olasan, çulun məxmər?
8. Eşşəgə güci çatmaz, durup yalanı dögər.
9. Eşşəg bir yerdə palçığa batsa, ölsə ora girməz.
10. Eşşəg tozda ağnıyanda həvəsi gələr.
11. Eşşəgin anqırmağınnan isə qoduğun işkırmağı.
12. Eşşəg ya oduna iştər, ya suva.
13. Eşşəgin ayağı suda olsa, fıştılığ niyə lazımdı.
14. Duymış eşşəgi basmağ olmaz.
15. Dı gəl eşşəgi palçığdan çıxart.
16. Qoduğ ürkəndə anasından qabağ düşər.
17. Minmə qodux, verme cərmə.
18. Əlli ilin eşşəginə dəgirmanın yolun ögrədir.
19. Eşşəg aldım, qatır çıxtı.
20. Həmi ulağı, həmi sulağı.
21. Eşşəgdən adnalığ umur.
22. Nə qədər eşşəgi varıdı, palan axtarırdı, palanı tapan kimi- eşşəgi kurd yedi.
23. Yerpənəgə alınan eşşəgin ölümi sudan olar.

**Dəvə**

1. Dəvə nə qədər ölü olsa, cahazi (chazi) bir eşşəgə yükdi.
2. Dəvə bu boynan həlbət uşağımış.
3. Dəvə Xançobanda olar[43].
4. Dəvə dögirəm ki, iki yerdən boğazlanaram [44].
5. Dəvə dedi: "Hamamnan gəlirəm". Dedilər: "Tökülər (və ya görinər) qıçınan, paçonnan".
6. Dəvəsi ölmüş sarvanam.
7. Dəvələr dəngə gedib.
8. Dəvənin azanı Ağcaqabula gedər[45].
9. Dəvənin biri bir dəngə, vay dəng dərdi.
10. Dəvəni xəlbirnən sulayır.
11. Dəvəni çömçənən sulıyır.
12. Dəvə yaxını otlar, uzağı gözlər.

---

[43] Xançobanlı – Bakı quberniyası Göyçay qəzasının indiki Kürdəmir sahəsi.

[45] Ağcaqabul – Zaqafqaziya dəmiryolunun dəmiryol stansiyası və sahə pristavının iqamətgahı. Sahə elə həmin adı da daşıyır. İndiki Hacıqabul.

13. Dəvəyə dedilər: "Boynun niyə əgridi"? Dedi: Haram düzdi, boynım düz ola".

14. Maya doğar, nər doğmaz.

15. Nərin dizi bağlı gərək.

16. Nə dəvənin süti, nə ərəbin üzi.

17. Ya dəvə öli, ya dəvəçi.

18. Dəvədən böyük fil var.

19. Sarvannan (və ya dəvəçinən) qonağ olanın dərvazası gen gərək.

20. Dəvə durdi, dam yıxtı.

21. Dövləttə dəvə, övləddə nəvə.

22. Dəvə tanımasa, ovsari tanıyar.

23. Dəvə-dəvə höt dəvə, zənciri polad dəvə, daluva vurum oynarsan, sakız verim oynarsan.

24. Dəviyə dedilər: "Eniş yaxşıdı, yoxuş?". Dedi: "Ləhnət hər üçünə".

25. O şahlığ dəvəsidi, yüklənməz.

**Camış**

1. Kamış ola, gomuş ola!

**İnək**

1. İnəg göz eyləməsə, kəl sıçramaz.
2. Təki sən sütti inəg ol, vır, sərri sındır.
3. Dəli inəgün dəli də buzovi olar.

**Dana**

1. Gomuşnan gəzən donanı qurd yeməz.
2. Əzzəl (əvvəl) danovi ( və ya dəvəni) bağla (və ya ovsarla), sora Allaha ismarla.
3. Bir dana bir naxırın adını batırar.
4. Dana böyügər, amma çuli böyüməz (böyüməz).
5. Dana oynar, mıxını bərkidər.

**Öküz**

1. Öküz ihilləməgdən boyundırığ ihilliyir ( və ya cırıllayır).
2. Öküz öldü, ortağ ayrıldı.
3. Öküzü olana göni borc verəllər.
4. Öküzün qaşqasın dögəllər (qovallar)

5. Öküzü durquzun, altınnan buzov istiyir.
6. Cöngə döküz olunca, yiyəsi donquza (dovuza) dönər.
7. Duran öküz yatan öküzün başına sıçar.
8. Yorulmuş öküz ohanı Allahtan axtarır.
9. Dişi düşüg boz öküz koşulup cöngələrə.

**Qoyun**

1. Tək qoyunnan süri olmaz.
2. Qoyun ayağı incələr, quzi ayağı cannanar.
3. Qoyun quzısının ayağın basmaz.
4. Yüz qoyuna da tırıho, bir qoyuna da tırıho[46]
5. Birə də hoydı, minə də hoydı[47].
6. Çox qoyunnan çox quzi olar.

**Keçi və qoyun**

1. Keçi keçi yolında,qoyun qoyun yolında.

**Keçi**

1. Keçi sənün, bez mənim.
2. Keçi çayı bağra-bağra keçər.
3. Keçinin ölümi palıttan olsun.
4. Özüm qoturam, keçim qotur deyil ki?
5. İki keçi bir gəmini batırar.

**Donuz**

1. Ac dovuz (donquz) darıdan çıxmaz.
2. Dovuz xort-xorti boyiginnən örgənər.
3. Quran ( və ya duva) oxımağnan dovuz darıdan çıxmaz.

**İt**

1. Ərkək itin qarnı tox gərəg.
2. Aşpazxanada yeyir, duluzxanada hürür.
3. Ağacı əlüvə alarsan, ögri it özini bildirər.
4. Ala itin balası kara olar, yayılsa döşi (və ya boyni) ala olar, hürəndə anası kimi hürər.
5. Ala ittən (köpəgdən) məşhurdı.
6. Çömbələməmiş hürə bilmir.
7. Köpəgin ayılanı ələ düşməz.

[46] Tırıho-çobanların qoyun sürüləri sürdükləri səs təqlidi.
[47] Ho və ya hoy-bundan yuxarıdakı qeydə bax.

8. İti kuyruğunnan bağlasan, durmaz.
9. İti ittigin tərgitsə, sümsüməgin tərgitməz.
10. İt itnən savaşar, çaya gedəndə bir gedər.
11. İt acınnan ağrılığa gedər.
12. İt adına ügüdüb (alıb), özi yeyir.
13.İt aşığ udan kimi uddi.
14. İt özunnən təmiz bilməz.
15. İt özi nədi ki, süti nə ola?
16. İt əti olsun, şiştə olsun.
17. İt əl çəkti, motal əl çəkmədi.
18. İt özin mındar bilməz.
19. İttən çox başmağ aparan olmaz.
20. İti bir loxma ilə susdurmağ olar.
21. Bir tabağ kütüm olsa, biri sənə yoxtı, ala köpəg.
22. Bir napaktan, bir köpəgdən.
23. İt itün ətin yemiyip.
24.Qərib itün kuyruğu dalında oli.
25. İt ilxısı, köpək sürüsü.
26. Avara itün hürməti olmaz.
27. İt aparan olsun.
28. İt dəmirçi tükəninnən nə aparacaq?
29. İttən də bir əppək borcdıdı.
30. İt də öz qapısında hürər.
31. İt də getti, ip də getti.
32. İtin başın xonçaya qoyarsan digirrənər, düşər.
33. İtin əbləhi (və ya axmağı) koyqanağdan da pay umar.
34. İtin adın tut, ağacı əlüvə al.
35. İt hardan aldı (və ya taptı) iki əppəgi (çörəgi və ya küt) birin yeyə (yesün), birin başı altta qoya (qoysun)?
36. İtə dedilər: "Gündə neçə kərən dögülürsən"? Dedi "Köpəgoğlına ( və ya maZəhrata) rast gəlməknəndi".
37. İti itmiş çobana dönmişəm.
38. İti öldürənə sürittirəllər.
39. İti yuvdığcan mındar olar.
40. İt yediğin qusar.

41. Eşidip parağı qırxallar, bilmir necə qırxallar.
42. İti bilməyən tula olmaz, dərisin kola verməz.
43. Çıxırram eldən ayıb, çıxırmanam it itti.
44. Hərbədən qorxma, it qorxısınnan hürir.
45. Tulanın qulağın kəsməğnən köpəg olmaz.
46. Hürər tutmaz.
47. Hürə-hürə it olar.
48. Hürər, hürər, burnı şişər.
49. Susız it kəhrizə baxar.
50. Qonşı iti qonşıya hürməz.
51. İt ayağ aparmasa, ayağ sındırarsan.
52. İtin gövlı şamda idi, fələk də vırdı, şama saldı.
53. Fit-fitnən gələn köpəgin qoyuna faydası ( və ya etibarı və ya vafası) olmaz.
54. Kənd ( və ya obalar) aşırı it hürməz.
55. Köpəgə səlbə dəgən kimi dəgdi.
56. Köpəgə səlbə yarasan kimi yaraşır.
57. Köpəg köpəgin dayağıdı.
58. Köpəg köpəgi minər.
59. Köpəgin govli kəpəgnən xoş oli.
60. Köpəgi kəpəgnən.
61. Köpəgə (və ya itimə) ümid oldum, özüm də hürmədim.
62. Nüqdidə yiyib Carhanda hürür.
63. Yağ yiyən it, tükünnən məhlim elər.
64. Yava itün, yava kücügi olar.
65. Yiyəsini sövən itinə çörəg doğrar.
66. Ağ itün hallaca zərəri var.
67. Hallacın acığı ağ ittən gələr.
68. Pambığ satan da ittən qorxar.
69. İt olsa daş tez tapılar.
70. İt hürir, çərçi gəlir, elə billəm elçi gəlir.

**İt və dovşan**

1. Tazi hiz olanda, dovşan kənd qırağında gəzər.
2. Tazının hızlıginnən doşan samannığda doğar.

**İt və çaqqal**

1. Ala it çaqqalın dayısıdı.
2. İtin qudursun çakkal.

**İt və qurd**

1. Hürimini bilmiyən köpəg başına qurd gətirər.
2. İt hürər, üstünə qurd gətirər.
3. Qurdun dəvətinə (və ya qonağlığına) get, köpəgi də arduncan apar.
4. İtimüzün qurd dayısı.

**Pişik**

1. Yiyəsinin yanında pişig də it basar.
2. Pişigimiz oğlan doğup.
3. Pişig kimi yeddi canı var.
4. Pişigin ağzı ətə çatmaz, diyər: Mındardı.
5. Pişig arxasını yerə vırmaz.
6. Pişigə dedilər: "Atondı yaxşı, anon?" Dedi: "Nə o, nə o[48]".
7. Pişig siçana mırıttıyan kimi mırıttıyır.

**Pişik və aslan**

1. Pişik olmıyan yerdə sıçannar baş qaldırar.
2. Sən ki (və ya belə ki) qorxırsan pişigdən, niyə çıxırsan deşigdən?

**Siçan**

1. Siçannan olan torba kəsər.
2. Siçan sidiginin dəryaya xeyiri var.
3. Şopərəg gecə gəzər, gündüz gəzməz, elə bilər özi bilər, özgə bilməz.

**Ceyran**

1. Talada iki axsaq ceyran olmaz.

**Porsuğ**

1. Bostana, xırmana girən porsuq yabanı özinə qəbul elər.

**Ayı**

1. Ayı bir bəd (və ya bövüg) canavardı, yumurlatsa da yumurttar.
2. Ayı bərkə düşəndə balasını ayağunun altına alar.

---

[48] Nə o, nə o - söz oyunu " nə o, nə o"deməkdir, pişiyin miyoltusu səs təqlidi.

3. Ayı talaşiyə baxan kimi baxır.
4. Ayıdan bir tük də qənimətdi.

**Ayı və armud**

1. Armudın yaxşısını ayı yeyər.
2. Ayının yüz oyini bir armudın üstündədi.
3. Meşədə yemişün yaxşısını ayı yeyər.

**Tülkü**

1. Tülkini zirəngi iki ayağnan (və ya ayağınnan) təliyə düşər.
2. Tülki tülkiyə buyurdı, tülki də quyruğuna.
3. Tülki hara, quyruğu da ora.
4. Əgər sən tülküsənsə, mən də tülkünün quyruğuyam.
5. Köhnə tülki hiylabaz olar.
6. Tülkünün meydanda nə işi var?

**Çaqqal**

1. Çaqqal güləndə tovuğ qaxkıllar.
2. Çakkal bağ öyində yatan kimi yatır (yattı).

**Çaqqal və qurd**

1. Çaqqal bir görən yırtar, qurdun adı bədnamdı.

**Qurd**

1. Qurd öz örişində ac qalmaz.
2. Qurd uliyə-uliyə, başına bala gətirər.
3. Qurd darttığını bilər, uddığını bilməz.
4. Qurd qaranlığı sövər.
5. Məni sayanı qurd yesün.

**Qurd və qoyun**

1. Qurd süriyə gələndə tək qoyunnının qoyunı aparar.
2. Qoyuna qurd gələndə, vay bir qoyunun dərdi.
3. Qurdtan qorxan qoyun saxlamaz.
4. Qurdnan qoyun qılıncnan oyun.
5. Qurda rəhm eləməg, qoyuna zülmdi.
6. Quzunun taxsırı qurdun acmasıdı.
7. Qoyunu qurda tapşırdı.

**Qurd və çoban**

1. Mən qurd isəm alıram, mən çobanam, vermirəm.

**Qurd və Quş**

1. Qurdın səbəbindən Quşun da qarnı doyar.

**Tısbağa**

1. Bağa (və ya tısbağa) yol gedə bilməz, dayısını dalına götürər.
2. Dağ üstəki tısbağa çöldəki gömuştan böyük görünər.

**Qurbağa**

1. Qudurasan, qurbağa, gəldi bizi vırmağa (və ya udmağa)!
2. Qurbağanı suva vırarsan, iki siçrar.

**İlan**

1. Özgə əlinən ilan tutar.
2. İlan adamın topuğun gözdər, adam ilanın başın.
3. İlanın başın düşmənin əlinnən əz ( və ya dög).
4. İlan öz əgrisini bilməz.
5. İlan ulduz görməsə, ölməz.
6. İlanın başı ağrıyanda yolın ortasına çıxar.
7. İlan hər yerə əgri gedər, amma öz yuvasına düz.
8. İlanın balası anasına qənim olar.
9. İlan vıran ala çatıdan qorxar.
10. İlan vıran yatmaz.
11. İlanı görüb öldirmiyənə ləhnət, öldürüb basdırmayana ləhnət.
12. İlan yeyib əjdaha olub.
13. Hələ bala ilansan, böyüsən, şahmar olarsan.
14. Şirin dilnən, ilanı yuvadan çıxardır.
15. İlana ağı verən kərtənkələdi.
16. Hamı hələdi, hamı kələdi, hamı kərtənkələdi.
17. İlan əvvəl izini qızdıranı öldirər (və ya vırar).
18. Araxtan tiryək gəlincən ilan vıran ölər.
19. Hamsını bir ilan vırıb.

**Balıq**

1. Balığ başınnan iylənər, qamış ayağınnan.
2. Balığın ölməgi sudan çıxmağıdı.
3. Balığı nə vaxt tutsan, təzədi.

**Çibin**

1. Çibin qana yığılar.

2. Çibin mındar dögi, kövl ( və ya gövül) bulandırar.
**Arı**
1. Arının tikanın gördüm, balınnan əl çəktim.
**Baramaqurdu və ipəkçilik**
1. Olmadı qurtan qarnuvi tuttan.
2. İpəg yumuşağ oldığına qılınc kəsməz.
3. Verərsən pendir, elərəm kəndir, verərsən aş, elərəm baş.
**Quşlar**
1. Zirəng Quş dındığınnan cəliyə düşər.
2. Quş qızıl qəfəstə olsa, genə dussağdı.
3. Quşun qanadı özinə ağırlığ eləməz.
4. Quş qənədinnən kirəh istəməz.
5. Quş Quşnan tutular (və ya Quşı Quşnan tutallar).
6. Yerdə yatan yumurta göydə uçan Quş olar.
**Xoruz**
1. Xoruza quyruğu də yükdi.
**Toyuq**
1. Tovuq bir su içər, bir Allaha baxar.
2. Tovuqun qıçı birdi ki bir.
3. Toy da olsa tovuğundu, vay da olsa tovuğundu.
4. Vırram ölər, "kış" diyərəm, getməz.
5. Yumurtamadığı bəs dögi, falı da içir.
6. Yumurttamadı, yumurttamadı, falına nə?
7. Tovuğun döşi, balığın başı.
8. Tovuğun cərməsi yumurtasıdı.
**Toyuq və camış**
1. Tovuğ qaz yerişi yerisə, çeçənəgi çattar.
**Toyuq və qaz**
1. Tovuğ qaz yerişi yerisə, öz yerişini də yadından çıxardar.
**Toyuq və xoruz**
1. Dəgirman xoruzuna oxşayır.
2. Elə qırmızıdı ki, toxum xoruzu kimi.
3. Xoruz olmasa, sabah açılmaz?
4. Xoruz bir kərən bəzənər.

**Qaranquş**

1. QaranQuşa xətər öz dındığınnan toxınar.
2. QaranQuş attığın bilər, uddığın bilməz.

**BayQuş**

1. Öz gözində bayQuşın balası tovuzdan gözəldi.

**Tərlan**

1. Şux tərlan yerinə cürə[49] bağlanır.

**Leylək**

1. Yüz qarıya bir sapanda daşı.
2. Qarğa özin Quş bilər, umac özin aş bilər.
3. Balalı qarğıya yem yoxtı.
4. Qarğalar mənim tovuğumdu, yumurtası görmənəm.

**Qarğa və qaz**

1. Qaz uçtı, qarğa qondı.

**Qaz və sərçə**

**Bitkilər və meyvə**

1. Hər şey öz vaxtında bitər.
2. Barsız ağaca daş atmazlar.
3. Ağac səmtinə yıxılar.
4. Ağac dibinnən su içər.
5. Ağacın yemişin ye, soora qabığın soyma.
6. Hər şeyi vaxtında əksön, düz bitər.

**Ağaclar**

1. Ağac olan yerdə budağ sınar.
2. Ağac başında qora, bilmədim, düştüm tora.
3. Balaca ağaca çıxıb, böyük budaq sirkələyir.
4. Bir budağa çıxıb, min budağ silkələyir.
5. Kəsildi ağaclar, dağıttı (və ya dağıldı**).**

**Çayır**

1. Çayır dedi: "Yeddi il leyləg yuvasında qaldım, yerə düşüb genə atamın vətənin itirmədim".

**Ot**

1. Ot yolun gah altında bitər, gah üstündə.

---

[49] Cürə-tərlanın xırda cinsi.

**Qızılgül**

1. Gül tikansız olmaz, safa-cəfasız.
2. Gülün qədrin bülbül bilər, pencərin kim yerməni**.**

**Şaftalı**

1. Şaftalının beşi bir pula, çəyirdəgi göz çıxardar.

**Şabalıd**

2. Şabalıddan yağ düşməz ( və ya çıxmaz).

**Armud**

1. Armud ağzıma, sapı da Savalana[50].
2. Armud vaxtında dəgər, xəstənin gönli tələsər.
3. Əlim çatmıyan armud atam xeyratına.

**Meyvələr**

1. Hər yemüşün bir dadı var.
2. Bildir bir incil yemişəm, indi içim göynıyır (ya bildir yiyib bir incil (əncir), indi güdəni giciyır).

**Tərəvəz**

1. Qovun çıxtı, tüpür xiyara.
2. Yemişə görə şükür xiyara.

**Odun**

1. Oduna gedər Daşdəmir, suva gedər Daşdəmir, üzüvi yusun mürdəşir.
2. Odunı qoy, beş yanmasa, gözini deş.
3. Tüsti kötigdən çıxar, budağdan çıxmaz.

**Taxta**

1. Ağacın iki başı var.

**Ümumiyyətlə, atalar sözləri**

1. Məsəliyə münaqişə yoxdi.

**Qarışıq**

1. Ağ-ağ yudım, kara-kara sərdim.
2. Axtaxana böyüdi, dağda dana böyüdi, sən niyə böyümədin?
3. Axtaran tapar.
4. Adımı sənə qoyum (qoyım), səni yana-yana qoyum.
5. Adı şıx-kəmal, özü qırışmal.

---

[50] Savalan - görünür, İranda münbit torpaqlı dağdır.

6. Adın tut, qulağın bur.
7. Azdan az qırılar, çoxtan çox.
8. Aşağıda oturmaz, yuxarıda da yeri yox.
9. Aşağa, aşağa, kor Mahmudtan da aşağa?
10. Aş başında qırqovuldu.
11. Ağırlığın yer götürər, ruzısın Allah yetirər.
12. Ala qayada bostan uru olub ( və ya urudı).
13. Asta kaçan namərddir.
14. Ahəstə ( və ya yavaş) gedən yorulmaz.
15. Avaz və nəfəs Haxtan qalı.
16. Avazın yaxşı gəlir, oxuduğun kuran olsa.
17. Ayıbı kim edər? -Aybecər. Soğanı kim yiyər? - Dərdəcər.
18. Əldən qalan əlli gün qalar.
19. Hər nə olursa xeyirliyədi, hər şey Allahın əlindədi.
20. Əlimdəki düğüni dişimə nöşün salım.
21. Alaşanı küləşənə vırır, küləşəni ələşənə.
22. Ələgi əliyib, qıçınnan asıb.
23. Ələgi ələnib, qəlbiri gögdə fırıllayır.
24. Əlidən də oldım, Vəlidən də.
25. Əməl azmasa, qada yeriməz.
26. Əmanətə xəyanət yoxtı.
27. Ənişün yoxuşi da oli, yoxquşun da ənişi.
28. Gecə yoxlaması bizi dayandır.
29. Ətəgin qoznan doldurub, başına kapaz vırır.
30. Başti başın saxlasun, mən başımnan bezərəm.
31. Başı dağcan olsa, dibi qılcandı.
32. Bahasına pul vermişəm, gözlər də çıxsa yiyəcək.
33. Bədrəng də bir rəngdi.
34. "Bəlkə"ni əkərsən, bitməz.
35. Bəndi selə vurma.
36. Bizə gələn bizə oxşar.
37. Bir olan iki olar, iki olan üç.
38. Bir olsun, pir ( və ya pirri) olsun.
39. Bir daş altta, bir daş üstə.
40. Bir diyərsə, iki diyərəm.

41. Bir diyərsən, beş deyərəm, "gözüvə şiş" deyərəm.
42. Bir kazanda iki kəllə ( və ya iki qoçun başı) qaynamaz.
43. Bir gözümi ağladır, bir gözümü güldürür.
44. Birə "bir" diyiblər, birə "iki" demiyiblər.
45. Birini gör fikir elə, birini gör şükür elə.
46. Bir "yemirəm" diyənnən qorx, bir "otımıram" diyənnən.
47. Bu ağıl məndə, o duva səndə, səhərəcən yatırığ.
49. Bu dərdnən pul qazan, apar ver Nur-Cahan yesün. Nur-Cahan da bir Nur-Cahan olsun**.**
50. Bu gün mənəsə, sabah sənədi.
51. Bugünki öpkə sabahkı kuyruğdan yaxşıdı.
52. Bu gedişnən getsön, axşamacan təpəsinə çıxa bilərsən.
53. Bu məzmun, bu günə.[51]
54.Bu yatış sənnəndi, bu duruş mənnəndi, ikimizdən bir qomuş balığı törər.
55. Buğda çörəgin olmadı, buğda dilüvə nə?
56. Bulağa susuz aparar, susuz gətirər.
57.Vır kı beşiği daldadı, Seyidəli xırmandadı.
58. Qiblə hakdı.
59.Qır altınnan işimi gördüm, nahax getti kara dana.
60. Qəlb odu ki, qəlbindəkin demiyə.
61. Qılığlı min öv yiyər, qılığsız bir öv yiyə bilməz.
62. Qorx o kəstən ki, qorxmaz Allahınnan.
63. Quduran gedər, gicikən qalar.
64.Qurdtıca paxlanın qurdtıca alıcısı olar.
65. Qora ikən mövüz oldum.
66. Qulağ asma, öz sözüvü eşidərsən.

---

[51] Şirvanın axırıncı xanı Mustafa xan 1819-cu ildə rus qoşunları Şirvana yaxınlaşdıqda İrana qaçmışdı, sonra isə 1826-cı ildə Abbas Mirzə Zaqafqaziyaya hücum etdikdə o, İran qoşunu ilə Şirvana qayıtmışdı. Abbas Mirzə Şirvana yaxınlaşınca rus qoşunu Qubaya çəkildi. Onunla birlikdə bəzi bəylər də ora çəkildilər. Bəylər öz aralarında məşvərət etdikdə ki, rus ordusu ilə getsinlər və ya Şirvanda qalıb Mustafa bəyi gözləsinlər. Öz hiyləgərlikləri ilə məşhur olan – Umbəy bəy və Kambat bəy Məlcəkliklər basqalarının "onlar burada qalacaqlar, yoxsa ruslarla gedəcəklər?" sualına ikimənalı cavab verirdilər " bu məzmun bu günə". O vaxtdan bu məsəl çəkilməyə başladı.

67. Qulağ günahkarıyam.
68. Qol əti qolda gedər, bud əti budta gedər.
69. Qum gedər qayır qalı, sənə kor Tayır qalı.
70. Qışda onnan buz almaq olmaz.
71. Qəzəcəgin min yerdə olsa, yatacağın bir yerdə olsun.
72. Gəzənin qarnı şişər, oturanın başı.
73. Gəzənin ya başına, ya baldırına.
74. Gəldi gedərdi, saxlamağ olmaz, ağzı güdüldi, bağlamağ olmaz.
75. Güdəg atıldı, vırdı uzunun başına, uzun dedi: "Əcəb yadıma saldun".
76. Gövur çörəginə yiyən, gövur üçün qılınc çalar.
77. Gördügüvi qoyub, eşitdigüvə getmə (və ya eşitd igüvü) demə.
78. Gördün göməgömdi ( və ya taraşdı), sən də bir yannan göməgöm ( və ya taraş).
79. Göz görməz, qönül bulanmaz.
80. Göz verir, işıq vermir.
81. Gönli balıq sövən, künəşin sovuq suva dögər (və ya qoyar).
82. Gah nala vırır, gah mıxa.
83. Gedən gələr, sorışan qalar.
84. Get, övdən gəl.
85. Getdim adına, tüpürdüm dadına.
86.Gecə dırnağ kəsən, gündüz nağıl diyən, həlbət gora gələrsən!
87. Geç gələr, ağır gələr.
88. Gec gəlib, tez örgənib.
89. Gündoğan salamattı, günbatan məlamət.
90. Hədik idi, hüdik idi, bircə sənin yerin gədik idi.
91. Həsən də qəliyən çəkən, Hüsən də qəliyan çəkən, təmbəki bol olanda qəliyan çəkər.
92. Hikməttən saval yoxtı.
93. Harda yorıldın, orda otur.
94. Hardan incəlsə, ordan üzülər.

95. Hamı diyir: Mədrəbazın gözi çıxsın, bilmirəm mədrəbaz kimdi.
96. Hər atılan daşın dalınca baxmazlar.
97. Hər işıldıyana qızıl demənəm.
98. Hər sözün bir maqamı var.
99. Hər şeyin ( və ya zadın) təzası yaxşı olar.
100.Hər kəs öz əktigini biçər (və ya hər nə əkərsən, onı biçərsən).
101. Hər karanlığın bir aydınlığı var.
102. Hər kəs şərarət əksə, peşmannığ biçər.
103. Hər nə gəldi, xoş gəldi.
104. Hər yoquşun bir enişi var.
105. Hər bir yoxuşun enişi var.
106. Hər sahatın bir hökmi var.
107. Haram şirin oli.
108. Hər gələn, zırnən gedər.
109. Heç yatanın dalısınca oyağ olmasın.
110. Beş-beş, on beş, neynəsən də eyni şey olur.
111. Hələm boynı qoltuğ görmiyib.
112. Hillenən tikilən fillenən dağılı.
113. Hovza[52] gəlin altınnan çıxtı.
114. Hələm duzlağa gedir.
115. Dadanan dayanmaz.
116. Dadanannansan, qudurannan?
117. Dağ ola, duman ola, qırmızı tuman ola, mən olmıyım, sən olasan[53].
118. Dama-dama göl olar, axa-axa sel olar.
119. Harda gecə olsa, orda da dərvişin evi olur.
120. Dərvişin oldığınnan.
121. Dəgmə, dağılı.
122. Dəgmə, düşər.
123. Dəgmə mənə, dəgmiyim sənə.

[52] . Hovza və ya dibək.
[53] . Bir arvad ona təcavüz etmiş çobandan xana şikayət etdi, çoban isə özünə haqq qazandıraraq sonralar məsəl olmuş sözləri dedi.

124. Dinmə səni udaram.
125. Donlığım adari, cirəmə kəpəg qatmasun.
126. Dornan[54] doşabı tanımaz.
127. Döranı sürən sürsün, hər kəsün, məcalı var.
128. Duymısan malındı.
129. Dedigi: Bir ağız ağla, demədig İranı başımıza bağla ( və ya elləri başımıza yığ).
130. Dedilər: "Azrahil uşağ paylıyır". Dedi: "Özünki özinə olsun, mənimkinə dəgməsün".
131. Deşig mıncığı yerdə qalmaz.
132. Di(n)clığının Şahmərdan kəsib (və ya Xalığ kəsib).
133. Diyərəm eldən ayıb, dimərəm yandı canım.
134. Diyərəm söz oli, dimərəm dərd olı.
135. Diyəcəgüvi fikir elə, sovra sövlə.
136. Dəgirmana gedənnən soora, ulax verən çox olı.
137. Dəli quş bişirir.
138. Şübhə yarananda sübut öz mənasını itirmiş olur.
139. Caramana car koxiyə xəbər.
140. Cizvi külliyə tabıdı.
141. Cındırınnan cin ürkür.
142. Cins cinsə əsər eləməz.
143. Cocının axır yorğanıdı.
144. Elə elə ki, nə şiş yansun, nə kabab.
145. Elə zılxın[55] belə qazanı olar.
146. Elə yerdə oturmanam ki, altımnan su çıxa.
147. Zərun qədrin zərgər bilər.
148. Zəmanə sənə saz olmasa, sən zəmaniya saz ol.
149. İpində varsa, çöhrəsində də var, oni əqirən həyasızda da var.
150. İt donında kəlləpəslik[56] eliyir.
151. İt sümügi yiyəndə sövinər, amma ..........ulıyər.
152. İki əyağını bir başmağa diriyib.

---

[54] . Dor - başmaqçıların dərini islatdıqları su.
[55] . Zılx - çuğundur.
[56] . Kəlləpas-Kəlləpaçaçı.

153. İkisi birə dəgməz, biri heçə.
154. İki güləşənin biri basılar.
155. İsraf haramdı.
156. İmtahan yerdədi, gögdə dögi.
157. İçim əldən gedir, qırağ-buçağı kömir.
158. Yatanın oyağdan xəbəri olmaz.
159. Ya havardan, ya zəlzələdən.
160. Yazan sən, pozan sən, heç bilmirəm nəsən sən!
161. Yazannansan, pozannan.
162. Yağ da yesə, dirilməz.
163. Ya qora, ya Məmmədqulu.
164. Ya ağa ol, ya Mazandaranı.
165. Yalın qatına tay axtarır.
166. Yanan yerdən tüsti çıxar.
167. Yandırdığın yovşan, ağlattığın dovşan.
168. Ya lələ şələni basar, ya şələ lələni.
169. Yetənə yetir, yetmiyənə daş atır.
170. Yersiz gəldi, yerli qaç!
171. Yersiz gəldi, yersiz qaç!
172. Yiyərsən dadundı, verərsən adundı, koyarsan (və ya verməsən) yadundı.
173. Yol böyügündi, su kiçiyin.
174. Yuxarıda yeri yox, aşağıda oturmaz.
175. Yüz ölç, bir biç.
176. Yügürən yıxıldığına baxmaz.
177. Yıx idi, yıx idi, elə Sərküdə yıx olardı.
178. Yığılın babam ocağına.
179. Yaxşı Xıdır imiş!
180. Yuvulmamış çömçə kimi düşüb ortalığa.
181. Kara kişmiş bəglər cibində, ağ qatığ bəsti dibində.
182. Karadan o yana rəng yoxdı.
183. Kovumım kar qazan, umudum un çuvalı.
184. Kumarı oynallar eşknan.
185. Karvanun buskıda qalıncan, vırılması yaxşıdı.
186. Kəbab iyinə getmişdi, gördi eşşəg dağlanır.

187. Kəsilsün o iki əl ki, bir başı saxlıya bilməz.
188. Ucuz, amma keyfiyyətli.
189. Az-az ye, həmişə ye.
190. Kor əlifə vo demiyib[57].
191. Küli ocağdan götür.
192. Küləgli gündə pamuğ atır.
193. Kol dibində xış yoxdı.
194. Keçənə güzəşt diyəllər.
195. Keçən günə gün çatmaz, calasan güni günə
196. Lazımlı yerə sərf eləməz, lazımsız yerə su kimi axıdar.
197. Ləhnət (və ya nəhlət) heçə!
198. Lotılığ tərk götirməz.
199. Lotıyə bir şillə ar dögür.
200. Lotı lotının sözünə inanar.
201. Mətkəbi dari üstə qoyır.
202. Mən səninən yattığım, sən mənə təpig attığın.
203. Mən ölüm Cəfər, lotıyana bəstilərin (küpələrin)yerin de.
204. Mənim adım Habildi, hər nə desön qabuldı.
205. Mənim adım Həzər, hər vıranda kırxın əzər.
206. Mənə sənnən olar hər nə olsa.
207. Mənzili yaxın, kirah çox.
208. Möhtəsib bazardadı.
209. Məsləhətli don gen olar.
210. Minariyə xərci çıxmıyən elə bilər yerdən göbələg bitib.
211. Munnan Fatıyə tuman olmaz.
212. Mundarı mundar aparar.
213. Min vırannan bir vıran deyən yaxışıdı.
214. Min eşit, bir söylə.
215. Nabələd kor olar.
216. Navar cecim kırağında!
217. Hövdərəməz əyaq tutar, yeriməz.
218. Nuh Nəbidən qalıb.
219. Niyətün hara, mənzilin ora.

57 . "Əlif" və "vo" ərəb əlifbasının hərfləridir. Əlif- ərəb əlifbasının birinci, vo-axırıncı hərfidir..

220. Nə ələdim, nə yoğırdım, hazırca kökə tapdın.
221. Nə qorx, nə qorxını ürəginnən çıxart.
222. Nə ucidi, nə ortası qırılıb qarın qartası.
223. Nə işim naqabilə söz diyəm, damağına ya dəgə, ya dəgmiyə.
224. Nə doğrarsan aşuva, o çıxar qaşığuva.
225. Nə dərin suva girrəm, nə çağırram Xıdır İlyası.
226. Nə vecüvə başun qırxılmaz, şeyin kəsilməz.
227. O sızın şıxlar, bu bizim şıxlar, xonaxa-xonaxa heysabın gölində saxlar.
228. O ki var buğda yiyib cənnəttən çıxıb.
229. O qədər ölidi ki, dəgirmanatan da gələ bilmir.
230. Olacağa çara yoxtı.
231. Oldinən öldiyə çara yoxtı.
232. Onnan, bunnan yığıram, oğluma toy elərəm.
233. Ooha var dağdan endirər, ooha var dağa mindirər.
234. Otırdığım yerdə oyinə düştüm, güldiğim yerdə gürşada.[58]
235. Örişinnən çıxma.
236. Örişində otla.
237. "Özün bil"də qal[59] olmaz.
238. Özümə yer eliyim, gör sənə nə eliyərəm.
239. Özi balaca, sözi böyüg.
240. Özinə umac ova bilməz, özgiyə əriştə kəsər.
241. Öz yağın öz başına.
242. Öküz öldürüb adımı üstümnən götürə bilmənəm.
243. Övi odlanan mən, əli kösövli sən?
244. Övində yatıb, yuxuda Həzrət Süleymanı görür.
245. Papağını meçit (d) ə atsalar, gedib götirməz.
246. Pambuğı yelli gündə atılıb.
247. Payuvı payımın üstünə qoy, ya altınnan ye, ya üstünnən.
248. Qələt etdiyin bəs dögi, bir də həkimlik elər.
249. Rast gəlmiyən işə peşman olma.
250. Rəhmət düzənə, ləhnət pozana.

[58] . Gürşad-leysan.
[59] Qal - mübahisə, çəkişmə.

251. Rəngimə bax, əhvalımı (və ya halımı) xəbər al.
252. Rəhbərə yol göstərmə (və ya görsətmə).
253. Sağa da vırır, sola da.
254. Salavat gücə bağlıdı.
255. Samanın tüstüsü göz çıxardır.
256. Sürməni Allah aparıb paxlanın gözinə çəkib.
257. Sifarişnən hac qəbul olmaz.
258. Sükūt ixtiyardandı.
259. Sən ol, bir də Vərnədə[60] dəvə kəs.
260. Sən vırmadın, mən yıxılmadım.
261. Sənnən yumurta alan sarısın içində görməz.
262. Sənün həftönnən motal[61] olmaz.
263. Soğan yeməmisən içün niyə göyniyir?
264. Söyüp, söyüp kuyrığında sındırdı.
265. Sögmə rəyat atamı, sögmiyim bəy atovı.
266. Sofi soğan yeməz, görsə qabığın qoymaz.
267. Taxça mənə qaldı şeydalı, boxça mən qaldı şeydalı.
268. Uman yerdən küsəllər.
269. Üz vermə, astar da istər.
270. Farsın da öz qələti var.
271. Falun fal olsun, falmanun Allah!
272. Farsın da qələti var.
273. Xamın gözi böyük olar.
274. Xam yer axtarır bastırmağa.
275. Xala, xətrün qalmasun.
276. Xalxın ağzını bağlamağ olmaz.
277. Xıdır Nəbinin tövləsi görip.
278. Xərrat bazardan keçmiyib.
279. Çağrılan yerdən qalma, çağırılmayan yerə varma.
280. Çuvala girməyən canım doğarcığaza girib.
281. Çoxlığ-qarışıqlıqdır.
282. Çörəg tapmaz yeməgə, turp axtarır gəyirməgə.

---

[60] Vərnə - Şamaxı qəzası, Vərnə məntəqəsində kənd adı

[61] Çobanlar öz əməkləri müqabilində həftədə bir dəfə sürü sahibindən süd alırdılar, alınan bu süd sağılan bütün inəklərin süd payı idi.

283. Çörəgə qatson, it yeməz, arpaya qatsan, at yeməz.
284. Sapalağnan üz qızardır.
285. Şirinliği şirinliy, şakkıldaması dahi artığ.
286. Şalıvi elə bağla, götürəndə gücün çatsın.
287. Şey qurtarar duz səpəllər, duz qurtarsa nə səpəllər?

**Müəllifdən**

Atalar sözlərinin yazılmasında (yazıya alınmasında) Göyçay məktəbindən olan iş yoldaşlarım iştirak etmişlər. Şəriət müəllimi molla Əhməd Mirzə Hüseyn Babazadə və müəllim Mahmudbəy Mahmudbəyov – birincisi, tatar mətnlərini ərəb hərfləri ilə yazmış, axırıncısı isə rus dilinə tərcümə etmişdir. Bundan başqa bu işdə aşağıdakılar da iştirak etmişdir;

a) Bakı rus-tatar məktəbinin nəzarətçisi Soltan Məcid Qəniyev 1894-cü ilin martında əlyazmanı gözdən keçirərkən 1300-ə qədər atalar sözü artıq yazılmışdı və o, 100-ə yaxın atalar sözü əlavə etdi.

b) Kəlvin Zemstvo məktəbinin müəllimi İskəndərbəy Əlibəyov Göyçay məktəbində olarkən, atalar sözlərini söyləmiş və 100-ə yaxınını rus dilinə tərcümə etmişdir və Məlik kənd məktəbinin keçmiş müəllimi Samidbəy Hacıbəyov az olmayan qədər atalar sözü söyləmiş, tərcümə etmiş və korrektura vərəqlərini nəzərdən keçirməkdə kömək etmişdir.

**26-cı buraxılış, 1899-cu il**
**Zaqafqaziyada tatar xalq filologiyası**

# I ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## BAKI ŞƏHƏRİ HAQQINDA RƏVAYƏT

Çox illər bundan əvvəl Xəzər dənizi yox idi. Onun yerində Şəərbail adlanan qədim Bakı şəhəri yerləşirdi. O, yunanlarla (əvvəllər bütün xalqlar yunan idilər) məskun idi. Bu Şəərbailda böyük alim və həkim Əflatun hökmranlıq edirdi. O, heç kimin bilmədiyi elmləri bilirdi, kimi istəsəydi heyvana və ya Quşa çevirər, hər cür xəstəlikləri və s. müalicə edə bilərdi. Əflatunun bilikdə, elmdə öz müəllimindən geri qalmayan Ərəstun adında tələbəsi var idi. Bir dəfə Əflatun kitablarını özü ilə götürüb qartala çevrildi və dünyanı gəzməyə çıxdı. Ərəstun müəlliminin yoxluğundan istifadə edərək, onun sehrli çubuğunu götürüb qayalara (qayaların üstünə) qalxdı. Ərəstun içindən su axan bir qayaya yaxınlaşıb sehrli çubuğu qayaya vurdu. Birdən qaya iki yerə ayrıldı, qayanın ortasında su sel kimi axdı. Su bütün ətraf yerləri, Şəərbail şəhərini örtdü. Ərəstun qaçmaqla canını qurtardı, şəhərin yerində isə Xəzər dənizi əmələ gəldi. Bu arada isə Əflatun da gəzintidən qayıtdı. Şəhərin vəziyyətini görüb işin nə yerdə olduğunu başa düşdü. O, qanad çalıb Firəngistana uçdu. Ərəstun qorxunc müəlliminin uzaqda olmasından istifadə edərək qaçmış sakinləri bir yerə yığdı və indi bir hissəsi Bayıl adlanan Bakı şəhərinin əsasını qoydu. Rəvayətə görə, hər yerdən Xəzər dənizində görünən daşlar qədim Şəərbailin uçmuş divarlarından başqa bir şey deyildir.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi A.Babalyan Bakı şəhərində Hacı Vahab Kərimovun dilindən yazıya aldı.***

## PƏHLƏVAN
## (Müsəlman əfsanəsi)

Belə nəql edirlər ki, Məhəmməd peyğəmbərin tez-tez dişi ağrıyırdı və hər dəfə ona əziyyət verirdi. Bir dəfə Kəbədə xalqa vəz edəndə də dişi ağrıdı. Bu vaxt Cəbrail peyğəmbərə dedi:

– Böyük peyğəmbər, şəhərdə çox qocalmış pəhləvan yaşayır, o qədər qocadır ki, alnının qırışları peysərində qarmaqlarla saxlanılır. Əgər o, öz həyatından sənə bir şey danışsa, Allahın köməyi ilə dişinin ağrıması həmişəlik dayanar.

Cəbrail bunu deyib qeyb oldu. Peyğəmbər vəzini qurtarıb əmr etdi ki, həmin qoca pəhləvanı onun yanına gətirsinlər. Qoca peyğəmbərin yanına gəldi, baş əyib oturdu. Pəhləvan nəql etməyə başladı:

– Böyük peyğəmbər, ayaqlarının altında qurban olum. Cavanlığımda padşah məni bazarda darğa təyin etmişdi. Həftə ərzində mən heç nə yemirdim, cümə günü gələndə mən bazardan on pud düyü, o qədər də yağ və ət yığırdım, plov bişirir və bir oturuma yeyirdim, sonra yenə gələn cümə gününədək heç nə yemirdim.

Bir dəfə cümə günü adəti üzrə düyü, yağ yığarkən gördüm ki, bir dərviş bir dükanın qabağında durur və qəmli nəğmələr oxuyur, camaat isə ona pul atır. Nəğmə mənə elə təsir etdi ki, əlimi cibimə salıb oradan tam bir ovuc pul çıxardıb dərvişə verdim. Dərviş nəğməsini oxuyub qurtardıqda mən ona yanımda gecələməyi təklif etdim. Dərviş pulları üçün qorxaraq razı olmadı. Onda mən dərvişi vicdanlı bir mollanın yanına apardım və dərvişin pullarını öz yanında saxlamağı tapşırdım. Plov hazır olanda biz yeməyə başladıq, amma mən bilmədim dərviş doydumu? Plovdan sonra dərvişi başqa otaqda yatırtdım, özüm isə başqa otağa keçdim, şamı keçirtdim, qapını bağladım, yatmağa uzandım.

Gecə yuxudan ayılanda dərvişin otağından işıq gəldiyini gördükdə təəccübləndim, qapıya yaxınlaşdım və yarıqdan baxmağa başladım. Dərviş bir şəklə baxaraq əlini sinəsinə vurur, acı-acı ağlayırdı. Bunu görüb qışqırdım:

– Dərviş baba, qapını aç!

Dərviş dedi ki, o yatır.

Onda mən hirslə qışqırdım:

– Dərviş baba, əgər qapını açmasan, başın çiyinlərində durmayacaq!

Dərviş qorxdu və qapını açdı. Mən otağa daxil oldum və ondan şəkli tələb etdim. O, qorxaraq şəkli də verdi. Baxdım və

gördüm ki, bu, gözəl bir qızın şəklidir. Qızın gözəlliyinə təəccüblənərək dərvişdən onun kim olduğunu xəbər aldım. O, belə nəql etdi ki, qız onun əmisi qızıdır, padşahın qızıdır, ağlamağının səbəbi də odur ki, onu başqasına ərə verirlər. Mən şəkli götürdüm və bir rəssamın yanına gedib əmr etdim ki, bu şəklin dəqiq surətini çıxartsın. Rəssam hər şeyi dediyim kimi yerinə yetirdi. Köhnə şəkli mən dərvişə qaytardım, yenisini hər vaxt yanımda saxladım. Səhər dərviş mollanın yanına getdi, pullarını ondan alıb çıxıb getdi.

Bir dəfə mən atımı yəhərlədim, özümün pəhləvan libasımı geyindim və ora getdim. Gecəni meşədə keçirtməli oldum. Gecə bu gözəl qız yadıma düşdü, onun şəklini çıxartdım və baxmağa başladım. Lakin birdən ağlıma belə bir fikir gəldi: "Mən necə də axmaq adamam, onun özünü əldə etmək və onun gözəl üzünə baxıb həzz almaq mümkündürsə, mən nə üçün onun şəklinə baxmalıyam?"

Səhər mən atıma mindim, gözəl şahzadə qızın yaşadığı şəhərə yollandım və gecəyə gedib çatdım. Şəhər hələ uzaqdan məni özünün gözəl sarayları, qala bürcləri və bağları ilə heyrətləndirdi. Şəhərin qapıları bağlı idi. Mən divardan aşdım, qapını açdım və atımı içəri saldım, sonra isə qapıları hələ bağlı olan karvansaraya getdim. Mən karvansarayın sahibini səsləməyə başladım, amma o dedi:

– Hələ vaxt deyil, çıx get!

Bu sözlər məni hövsələdən çıxartdı və mən dedim:

– Qapını aç, yoxsa başçığazın çiyinlərində oturmayacaq, mən o pəhləvanam ki, adım çəkiləndə bütün yer əsim-əsim əsir.

Karvansarayın sahibi məni tanıyıb qapıları açdı və ayaqlarıma düşüb məndən üzr istədi, sonra məni ən yaxşı otağa apardı. Mən elə bu gecə gözəl şahzadə qızı qaçırtmaq istəyərək yatmadım. Atı karvansarayda qoyub saraya yollandım. Saray divarla əhatə olunmuşdu. Burada da qapılar bağlı olduğundan mən divardan aşdım və saraya gəldim. Sarayda qapıların arxasında on iki nəfər yatırdı, onların yanında isə çox böyük bir daş var idi. Mən bilirdim ki, bu padşahların belə bir adəti var idi – sarayın sağ tərəfində padşah və arvadı yaşayırdı, sol tərəfində isə uşaqlar. Bu

padşahın isə təkcə bir qızı var idi. Bundan istifadə edərək şahzadə qızın qapısını döydüm. O, qapıya çıxdı və xəbər aldı:

– Sən kimsən və nə üçün gəlmisən?

Mən cavab verdim:

– Mən filan pəhləvanam, səni qaçırmağa gəlmişəm.

O, məmnuniyyətlə mənimlə getməyə razı oldu. Mən öz-özümə dedim: "Mən necə də axmaq adamam, yaxşısı budur, mən günorta gedib onu zorla apararam". O, mənimlə getməyə hazırlaşmışdı ki, mən dedim:

– Gözlə, səhər gələrəm və səni götürərəm. Sən mənə bir de görüm, qapının yanında yatan adamlar kimdi və oradakı daş nədir?

O, mənə başa saldı ki, bu adamlar pəhləvandırlar, axşam düşəndə onlar daşı birtəhər qaldırır, onun altından açarı götürür və onunla sarayın qapısını bağlayırlar, sonra isə açarı yenidən öz yerinə qoyurlar.

Mən bir çeçələ barmağımla daşı bir tərəfə atdım, açarı götürdüm, qapını açdım və saraydan çıxdım.

Səhər mən saraya gəldim, eyvana qalxdım və şahzadə qızın qonaq otağına yönəldim. Padşah məni gördü, on iki pəhləvan onu dövrələmə almışdı, onlardan ən ucası və ən güclüsü arxada dayanmışdı. Padşah öz pəhləvanlarından birini göndərdi ki, onun qızının qonaq otağına gedən kimdir? O, gələndə mən ona dedim ki, bir nəfər söz deyəndə mən eşitmirəm və xahiş etdim ki, o biri pəhləvanı da çağırsın. Hər iki pəhləvan gələndə mən ikisinin də saçlarından tutub onları yerə elə çırpdım ki, ikisi də ölü düşdü, mən eyni şeyi o qalan pəhləvanlara da etdim. Padşah qorxuya düşdü və xəbər aldı:

– Sən kimsən və nə üçün gəlmisən?

Mən adımı dedim və dedim ki, onun qızını aparmaq üçün gəlmişəm. Padşah mənim adımı eşidib sevincək öz qızını mənə verməyə razı oldu. Mən onu götürdüm və öz şəhərimə getdim. Gedərkən meşədən keçməli olduq, meşədə ikən gecə düşdü, meşəyə girərkən gördük ki, on altı yaşında bir gənc hündür bir ağacın altında yatır. Bu gənc pəhləvan - dərviş idi. Mən şahzadə qızı özüm üçün götürməyib onu dərvişə ərə verdim. Dərviş heç

bilmirdi, mənə necə təşəkkür etsin. Şam yeməyi yeyib yıxılıb yatdıq. Gecəyarısı gördük ki, şahzadə qızın adaxlısının başçılığı altında böyük bir qoşun bizim arxamızca gəlir. Bunu görüb mən yaraq əsləhəyə qurşandım, atıma mindim, qoşunun üstünə getmək istəyirdim ki, şahzadə qız yuxudan oyandı və hara getdiyimi xəbər aldı. Mən yaxınlaşmaqda olan qoşunu ona göstərdim. O, mənim getməyimə razı olmadı və dedi:

– Əgər sən mənim qoşunla döyüşməyimə razı olmasan, ərimə deyəcəyəm ki, sən gecə məni narahat etmişdin.

Mən razı oldum. O, silah götürüb qoşunun qabağına çıxdı. Dərviş səs-küy eşidib yuxudan oyandı, şahzadə qız barədə bir şey soruşmayıb, o da qoşunun qarşısına çıxdı. Dərviş şahzadə qızın qoşunun arasında olduğunu bilmədiyindən qabağına çıxanı öldürürdü. Pəhləvan-dərviş hamını qırıb-çatıb geri qayıdanda bilmirdi ki, şahzadə qız da onunla bərabər vuruşub. O, şahzadə qızın mənim yanımda olmadığını görüb onu xəbər aldı. Mən cavab verdim ki, şahzadə qız da onunla bərabər vuruşurdu.

Pəhləvan-dərviş ucadan dedi:

– Ah, deməli, o mənim arxamca gəlir və məni müdafiə edirdi. Ay Allah, doğrudanmı, mən onu da öldürmüşəm?

O, döyüş meydanına getdi və ölənlər arasında şahzadə qızı da görəndə dedi:

– Mənim sevgilim sağ olmasa, mən niyə yaşamalıyam?

Dərviş-pəhləvan bu sözləri deyib özünü xəncərlə vurdu və o saat da öldü.

Mən dərvişin və şahzadə qızın qayıtmasını çox gözlədim, axırda mən də döyüş meydanına getdim və gördüm ki, onların ikisi də ölmüşlər. Mən çala qazıb ikisini də bir qəbirdə basdırdım, onların qəbirləri üstündə iki qovaq ağacı əkdim. İndi bu iki ağac böyüyüb boy atmış və meh əsdikdə bir-birilə öpüşürlər. İndi isə, Böyük Peyğəmbər, dişinin ağrısı kəsdimi?

Peyğəmbər cavab verdi:

– Kəsdi.

– Sən mənim bir xahişimi yerinə yetir, onları dirilt!

Peyğəmbər dedi:

– Onların qəbrini göstər və mən sənin xahişini yerinə yetirərəm.

Onların qəbirləri olan yerə gəldikdə Peyğəmbər əllərini göyə qaldırıb Allahdan onları diriltməyi xahiş etdi. Allah Peyğəmbərin xahişini eşidib onları diriltdi və onların ikisi də - dərviş və şahzadə qız asqırıb qəbirdən çıxıb dedilər:

– Ah, biz nə qədər çox yatmışıq.

Onlar hadisədən xəbər tutub Peyğəmbərdən xahiş etməyə başladılar ki, qoca-pəhləvan da onlar kimi cavan olsun və peyğəmbərin duası ilə o da cavan oldu.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi İsmayıl Əfəndiyev Şuşa qəzasının Ağdam kəndində yazıya aldı.***

## OVÇU PİRİM
(Rəvayət)

Rəvayətə görə, bir dəfə ovçu Pirim ovda idi və ov ovladıqdan sonra evinə qayıdırdı, gecə düşdü və ovçu Pirim qəbiristanlıqda gecələməli oldu. O, ocaq qalayıb ovladığı Quşların ətindən kabab bişirməyə başladı. Bu vaxt o, qəbirlərdən birindən insan səsinə bənzər bir səs eşitdi. Ovçu Pirim qəbirdən insan səsinin gəlməsinə təəccübləndi və həyəcanla qulaq asmağa başladı və əmin oldu ki, bu gələn səs, doğrudan da, insan səsidir. O, həmin qəbrə yaxınlaşdı və qəbirdən çıxmaq üçün kömək istəyən səsi aydın eşitdi. Ovçu Pirim qəbri açdı və orada canlı adam gördü, ona öz çuxasını verdi. Həmin adamı tonqalın yanına gətirdi, yedizdirib-içizdirib, kim olduğunu, hansı xəstəlikdən öldüyünü və necə dirildiyini xəbər almağa başladı. Həmin adam xəstəliyindən və dirilməsindən danışmağa başladı:

– Mən sətəlcəm olmuşdum, qanımı almaq heç kimin ağlına belə gəlmədi, qəbirdə isə Allahın mərhəmətindən burnumdan çoxlu qan axdı və birdən ayılıb özümü qəbirdə gördüm. Düzü, yaxşı insan, sən olmasaydın, mən gerçəkdən ölmüşdüm. Sən məni ata-anamın yanına aparanda onlar necə sevinəcəklər.

Səhər ovçu Pirim həmin adamı da yanına alıb onun evinə yola düşdü. Onlar evə yaxınlaşdıqda kişi ovçu Pirimə dedi:

– Sən qabaqda get və mənim ata-anamdan bir şey xahiş et!

Ovçu Pirim kişinin istəyini yerinə yetirdi, onların evinə gəldikdə gördü ki, onlar hamısı ağlaşırlar və matəm libasındadırlar. Ovçu Pirim onları salamladı və onun atasına müraciətlə dedi:

– Ağlama, mənə qulaq as! Əgər mən sənin ölən oğlunu yanına gətirsəm, mənə nə vəd edərsən?

Sevinmiş qoca dedi:

– Mən arvadımı və oğlumu götürüb gedərəm, evim isə içindəklər ilə qoy sənin olsun. Əgər bacarırsansa, Allah adına, qoy bir sevimli oğluma baxım!

Ovçu Pirim onun oğlunu gətirdi. Yazıq ata oğlunu görüncə Allaha razılıq etdi. Oğlanın atası bir məclis düzəldib, hamını, o cümlədən ovçu Pirimi də qonaq çağırdı. Sonra isə öz vədini yerinə yetirmək məqsədi ilə arvadı və oğlunu götürüb getmək istədi. Ovçu Pirim onları saxlayıb dedi:

– Sən mənim atamsan, arvadın da mənim anam, oğlun isə qardaşımdır. İndiyədək necə yaşamışsınızsa, öz evinizdə yaşayın! Qoy Allah oğlunuzu sizin ata-ana sevginizə layiq etsin!

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi Musa Quliyev Yelizavetpol quberniyasının Cavanşir qəzasının Mamurlu kəndində yazıya almışdır.***

## II NAĞILLAR

## 1. QUŞ VƏ AQİLİN NAĞILI

Biri var idi, biri yox idi, bir mərd və ədalətli şah var idi. Bu şahın çoxlu var-dövləti var idi, amma taxtına bir varisi yox idi. Şahın bir vəziri var idi, onun da uşağı yox idi. Şahın saqqalına dən düşmüş, qocalmışdı.

Bir gün o, taxtında oturub fikrə qərq olmuşdu ki, öləndən sonra onun şahlığı, var-dövləti kimə çatacaq. Bu vaxt bir dərviş şahın hüzuruna gəldi, cibindən iki alma çıxardı və onları şaha verəndə dedi:

– Qibleyi-aləm, bu almaları götür, iki yerə böl, yarısını arvadına ver, yarısını da özün ye. İkinci almanı isə vəzirə ver, qoy o da eyni şeyi etsin. Allahın köməyi ilə sənin də, vəzirin də uşaqları doğular.

Bu işin üstündən aylar keçdi, axır bir gün şahın bir oğlu oldu, vəzir-vəkillər şahı təbrik etdilər. Həmin gün vəzirin də bir oğlu oldu. Şahzadənin adını Quş, vəzirin oğlunun adını isə Aqil qoydular. Şahla vəzirin sevincinin həddi-hüdudu yox idi. Şah əmr etdi ki, hər iki uşağa bir yerdə tərbiyə verilsin, yetişdirilsin.

Beş yaşından Quş və Aqil mədrəsəyə getməyə başladılar. Vəzirin oğlu mədrəsədə şahzadədən yaxşı oxuyurdu, çox ağıllı, fərasətli uşaq idi.

Onlar on beş yaşına çatdılar. Bir dəfə mədrəsədən qayıdanda Aqil Quşa dedi:

– Quş, sənin atan qocalır, tezliklə o öləcək, sən onun tək oğlu və varisisən. Sənə atanın nə kimi var-dövləti olduğunu bilmək lazımdır.

Quş bunu eşidən kimi birbaşa atasının yanına qaçdı və ondan xəzinənin açarlarını istədi. Şah oğlunun istəyini yerinə yetirdi. Şahzadə atasının var-dövlətini gözdən keçirməyə getdi. O, qızıl, gümüş və almazlarla dolu xəzinəyə daxil oldu. Şahzadə hesaba gəlməyən var-dövlətə baxaraq sevindi. Birdən o, kənarda böyük qıfılla bağlanmış bir qapı gördü. Şahzadə fikirləşməyə başladı, görəsən, digər qapılar balaca qıfıllarla bağlanmışkən bu qapı nədən böyük qıfılla bağlanıb? O, öz-özünə belə qərara gəldi ki, orada daha qiymətli var-dövlət olmalıdır. Şahzadə bu qapını açmaq istədi, lakin əlindəki açarların arasında o qapının açarı yox idi. Şahzadə oradan düz atasının yanına getdi və atasından həmin qapının açarını ona verməsini xahiş etdi. Şah bağlı otaqdakı var-dövləti oğluna göstərmək istəmədiyi üçün razılıq vermədi. Şah dedi:

– Oğlum, sən hələ cavansan, sənə bu otağı görmək olmaz. O, əl çəkməyib atasından xahiş etməyə başladı. Nəhayət, şah razı oldu və həmin otağın açarını oğluna verdi. Şahzadə sevincindən bilmirdi nə etsin, o, qapını açdı, otaqda qapıya tərəf günəş kimi işıq saçan bir gözəl qız oturmuşdu. O, belə bir qızı nə görmüş, nə

də haqqında bir şey eşitmişdi. Şahzadə qıza yaxınlaşdıqda onun cansız bir şəkil olduğunu gördü. Şahzadə qorxdu və huşunu itirib yerə yıxıldı. Haçandan-haçana özünə gəlib atasının yanına getdi. Şah işin nə yerdə olduğunu bilib susdu. O gündən şahzadə fikirli oldu, oxumağı bir tərəfə atdı, elə hey yatağında uzanır və gündən-günə də zəifləyirdi. Şah qorxaraq oğlundan nə baş verdiyini, kədərinin səbəbini xəbər aldı. Şahzadə dedi:

– Qibleyi-aləm, otaqda olan gözəl qıza vurulmuşam. Heç bilmirəm ona necə çatıb yetişə bilərəm? Bu fikir məni öldürür.

Şah dedi:

– Oğul, bu qız varlı və güclü bir padşahın tək varisidir. Bir çox şah və şahzadələr ondan ötrü öldülər, heç kim onu ala bilmədi, sən bu fikri başından çıxart.

Şahzadə atasının sözlərini dinləyib dedi:

– Qibleyi-aləm, bir ordu dəstəsi ver, mən bu qızın ardınca gedəcəyəm, əgər onu əldə edə bilsəm, yaxşı olar, yox, əgər bu mənim qismətim deyilsə, mən də ölənlər arasında olaram.

Şah oğlunun sözünü yerə sala bilmədi, o, böyük bir qoşun tədarük etdirdi, amma qoşun əhlini öyrətdi ki, səfərə çıxdıqdan bir az sonra bir bəhanə ilə oğlunu tək buraxıb geri qayıtsınlar.

Şahzadə saray adamları ilə qoşunun başında yola çıxdı, bir qədər gedəndən sonra gecə vaxtı bir dəniz sahilinə çatdılar, burada gecələməli oldular. Səhər şahzadə baxıb gördü ki, hamı dağılıb gedib, qoşundan bir əsər-əlamət də yoxdur, bir özüdür, bir də Aqil. Aqil də ona məsləhət gördü ki, geri qayıtsın. Şahzadə atasının əmrinə görə qoşunun geri qayıtdığını başa düşərək utanc hissi ilə geri qayıtmaqdansa, yad yerlərdə ölmək qərarına gəldi. Quş və Aqil Allaha dua edib yola düşdülər.

Çoxmu getdilər, azmı getdilər, heç kim bilmir, nəhayət, bir çox şah və şahzadələri öldürmüş qızın atasının padşah olduğu vilayətə çatdılar. Onlar bir qarının evində qonaq qaldılar. Qarı onları çox mehribanlıqla qarşıladı. Ertəsi gün gənclər ürəklərini ona açıb qarıdan xahiş etdilər ki, şahzadə qızın yanına getsin. Əvvəlcə qarı razı olmadı, dedi ki, heç kim saraya getmir və onu saraya heç buraxmazlar. Aqil cibindən bir ovuc qızıl çıxardıb

ona verdi. Bundan sonra qarı qonaqlarını inandırmağa başladı ki, o, hər gün şahzadə qızın yanında olur, şahzadə qız onunla çox nəvazişlə davranır və onu hətta "ana" adlandırır.

Ertəsi gün qarı şahzadə qızın yanına getdi və qonaqlarının bura gəlmələrinin məqsədini ona danışdı. Qarı şahzadə qıza ata evindən qaçmağı təklif etdi. Şahzadə qız öz kənizlərinə qarını qızılgül çubuqları ilə döyməyi əmr etdi. Kənizlər qızılgül çubuqlarını gətirmək üçün bağçaya gedəndə qarı evinə götürüldü, qorxudan yarımcan özünü evə saldı. Aqil qarıdan onun başına gələnlərdən xəbər tutub dedi:

– Qorxma, şahzadə qız səni qızılgül çubuqları ilə cəzalandırmağı əmr edərək Quşu qızılgül bağına dəvət edir.

Quşun Aqilin sözləri ağlına batdı, o, qızılgül bağçasına getdi. O, qızı çox gözlədi, axırda qızılgül kollarının kölgəsində yuxuya getdi. Bu vaxt şahzadə qız başında qırx kənizlə bağa gəldi. Kənizlər gözəllikdə bir-birindən geri qalmırdılar. Şahzadə qız onlara qızılgül dəstələri yığmağı əmr etdi, özü isə təkbaşına bağçada gəzməyə getdi. Bağçada gəzəndə yatan şahzadəni gördü. Şahzadə qız onun cibinə bir kiçik top qoydu, sonra isə kənizlərin yanına qayıtdı. Şahzadə yuxudan ayılanda cibində kiçik top gördü, amma bunun nə demək olduğunu bilmədi. Axşam vaxtı şahzadə Aqilin yanına gəldi. Aqil topu görüb işin nə yerdə olduğunu başa düşdü və dedi:

– Quş, bu top o deməkdir ki, sən hələ uşaqlarla oynamalısan.

Aqil qərara gəldi ki, özü şahzadə qızın yanına getsin və bu məqsədlə qarını yenidən onun yanına göndərdi. Qarı bu dəfə saraya ürəklə getdi və şahzadə qıza dedi:

– Əzizim şahzadə qız, mənim bir qızım var, bu vaxtadək bir xanımın xidmətində olub, sən onu öz yanında xidmətə götürmək istərdinmi?

Şahzadə qız hiyləni başa düşdü və qarıya özünün yalançı qızını saraya gətirməsinə icazə verdi. Qarı sevincək evinə gəldi.

Ertəsi gün o, Aqilə qız libası geyindirib onu şahzadə qızın yanına apardı. Aqilin saraya gəlməsi ilə şahzadə qız yaxındakı xidmətçi və kənizlərini sərbəst buraxdı. Aqil şahzadə qızla tək

qaldıqda ona qaçmağı təklif etdi. O, əvvəl razı olmadı. Aqil onunla çox götür-qoy etdi Axırda şahzadə qız razı oldu və qaçmaq üçün vaxt da təyin etdi.

Bir aylı gecədə şahzadə qız özünün bütün daş-qaşını, cəvahiratını yığıb qarının evinə getdi. Quş bu vaxt iki ayğırı hazır saxlamışdı. Şahzadə və şahzadə qız dörd gün at sürdülər, at sürməkdən çox yoruldular. Axırda bir bulağın yanında oturdular ki, bir az dinclərini alsınlar, atları da açıb buraxdılar ki, onlar da ot yeyib dincəlsinlər. Şahzadə ilə şahzadə qız darıdan yeyib-içib bir ağac kölgəsinə uzandılar ki, dinclərini alsınlar, çox keçmədən hər ikisi də dərin yuxuya getdi. Aqil isə atların keşiyini çəkirdi. Birdən onların üstünə böyük bir qara buludun gəldiyini gördü. Bu şahzadə qızın atasının göndərmiş olduğu qoşun idi. Yatanları oyatmaq Aqilin ayıbına gəldi, odur ki, o, yaraq-əsləhəsini götürüb atının belinə sıçradı və kamandan buraxılmış ox kimi böyük bir dəstənin üstünə şığıdı. Döyüş başladı. Aqil gah sağdan, gah soldan, gah qabaqdan, gah arxadan düşmənin üstünə ildırım kimi şığıyırdı, qılıncını bir dəfə yellətməklə on beş baş yerə dığırlanırdı. Günortayadək Aqil böyük qoşunun sayını yarıladı, özü də bir neçə yara aldı. O, gördü ki, artıq yorulmağa başlayır, əvvəlki gücü, qüvvəti, cəldliyi qalmayıb. Bu arada birdən şahzadə qız yuxudan oyandı. Aqilin böyük bir qoşunla təkbaşına vuruşduğunu görüb cəld yerindən qalxdı. O, şahzadənin yaraq-əsləhəsini götürüb ayğıra mindi, pərən-pərən olmuş qoşuna tərəf ildırım kimi elə hücum etdi ki, döyüşçülər qorxudan qaçmağa başladılar. Aqil və şahzadə qız qaçanların dalınca düşdülər, çox az döyüşçü canını qurtara bildi.

Aqil padşahın qoşununu təqib edib qayıtdıqdan sonra olanları Quşa nəql etdi. Şahzadə qız və şahzadə Aqilin yaralarını bağladılar, sonra isə yollarına davam etdilər.

Çoxmu getdilər, azmı getdilər, bunu Allah bilir, gəlib çayın sahilinə çatdılar. Onlar orada dayanıb atları suvardılar və onları otlamağa buraxdılar, özləri isə bir kölgəlikdə uzandılar. Bir qədər sonra şahzadə ilə qız şirin yuxuya getdilər. Aqil isə yatmamışdı, oyaq idi. Bu vaxt üç göyərçin gəlib onun kölgəsində dincəldiyi ağaca qondu. Göyərçinlərdən biri o birilərinə dedi:

– Bunları görürsünüzmü? Onlar böyük zəhmət hesabına bu gözəl qızı əldə edə bilmişlər. İndi onlar bütün əziyyət və çətinliklərin arxada qaldığını hesab edirlər, amma yanılırlar, onları üç cadu gözləyir. Birincisi, yolda qızıl ata rast gələcəklər, əgər onlar onu tutsalar, onların hamısı daşa çevriləcək. İkincisi, qızıl ov iti görəcəklər, kim onu tutsa, həmin adam da daşa çevriləcək. Üçüncüsü, şahzadə və qız toydan sonra gərdəyə girəndə onları böyük bir əjdaha udacaq.

Sonra elə həmin göyərçin dedi:

– Yaxşı olardı ki, onlardan kimsə bunu eşidib tədbir görəydi, əgər məni eşidən kimsə eşitdiyini başqasına danışsa, onun özü daşa çevriləcək.

Göyərçinlər bunu deyib uçdular. Aqil göyərçinin sözlərini eşitdi və onları ürəyində saxladı.

Şahzadə ilə qız yuxudan oyandılar, bulaq suyu ilə əl-üzlərini yudular, sonra da hamısı yollarına birlikdə davam etdilər. Bir qədər yol getdikdən sonra qızıl at gördülər. Quş sehrli atı görüb dedi:

– Bax, şah belə bir atla gəzməlidir, Quş bunu deyib atı tutmaq istədi. Aqil bir söz demədən sehrli atı oxla vurdu. At şüşə kimi çiling-çiling oldu. Aqilin bu hərəkəti Quşun xoşuna gəlmədi, çox hirsləndi, amma qız Aqilin hərəkətini ağıllı hesab etdi və şahzadəni sakitləşdirdi.

Bir az da yol gedəndən sonra qızıl itə rast gəldilər. Aqil şahzadənin xəbərdarlığına baxmayıb iti öldürdü. Belə olanda Quş çox hirsləndi, qeyzlənərək hətta Aqili vurmaq da istədi, amma şahzadə sakitləşib Aqillə barışsa da, ondan şübhələnməyə başladı, elə fikirləşdi ki, Aqil ona qarşı düşmənçilik edir.

Bir neçə gün keçdi, onlar artıq öz vilayətlərinə yaxınlaşmaqda idilər. Onlar məktub göndərib gəlməkdə olduqlarını xəbər verdilər. Şah oğlundan məktub alıb öz vəzir-vəkillərinə, əyanlarına, qoşununa əmr etdi ki, oğlunu və onun yol yoldaşlarını qarşılamağa hazırlaşsınlar.

Ertəsi gün şah və arvadı, vəzir arvadı ilə, digər saray adamları və şəhər əhli onları qarşılamağa çıxdı. Şahın sevincinin həddi-

hüdudu yox idi, o, oğlunu bir daha görmək ümidini itirmişdi. Şah Aqillə mehriban görüşdü, onu özünün ikinci oğlu adlandırdı.

Qırx gün, qırx gecə Quşla Aqilin qayıtmasını bayram etdilər, qırxıncı gün isə şahzadə ilə gözəl qızın toyunu etdilər. Gecə evlənənlər toydan sonra özlərinin yataq otaqlarına keçdilər. Aqil də onlardan gizlin həmin otağa keçərək, pərdənin arxasında gizlənib əjdahanın gəlməyini gözlədi. Birdən otağın tavanından bir deşik açıldı və oradan böyük bir əjdaha aşağı enməyə başladı. Aqil qılıncını çəkib əjdahanı yarı böldü. Quş güclü zərbə səsi eşidib pərdəni çəkdi və Aqili əliqılınclı gördü, elə fikirləşdi ki, Aqil onu öldürmək üçün gəlib. Quş Aqili məzəmmət etməyə başladı. Şahzadə qızın səylərinə, Aqilin and-amanına baxmayaraq, şahzadə sakitləşmədi. Şahzadə dərhal bunu atasına danışdı. Şah əmr etdi ki, Aqili həbs etsinlər.

Ertəsi gün Aqilə məhkəmə qurdular. Hakim Aqildən olanları danışmağı tələb etdikdə, o dedi:

– Mən bilirdim ki, toy gecəsi şahzadəni təhlükə gözləyir və qərara gəldim ki, onu təhlükədən qoruyum.

Hakim etiraz edib dedi:

– Səndə gələcəyi xəbər vermə vergisi yoxdur, sən gələcəkdən xəbər verə bilməzsən, düzünü söylə.

Aqil göyərçinin dediklərini onlara söylədi və özü də o saat daşa çevrildi. Belə olduqda hakim onun günahsız olduğunu bildi. Quş dostunun günahsız olduğundan əmin oldu, peşmançılıq çəkdi, daşı qucaqlayıb ağladı. Hamıdan çox bu vəziyyət şahzadə qızı kədərləndirdi. Günlərin birində şahzadə qız şahzadə Quşu Aqilin göyərçinlərin söhbətini eşitdiyi yerə göndərdi. Quş həmin yerə getdi və Aqilin dincəldiyi ağacın altında atdan düşdü. Birdən göyərçinlər uçub gəldi, onlardan biri Quşu görüb dedi:

– Öz dostu ilə qəddarcasına davranmış bu nankora baxın! Əgər o öz oğlunu öldürsə və onun qanı ilə Aqilin daşını al qırmızıya boyasa, Aqil yenidən insana çevrilər.

Bundan sonra şahzadə Quş evə qayıtdı və eşitdiklərini şahzadə qıza nəql etdi. Şahzadə qız dərhal əmr etdi ki, öz körpəsini Aqilin çevrildiyi daşın üstündə kəssinlər, elə ki körpənin qanı

daşın üstü ilə axdı Aqil sıçrayıb ayağa qalxdı. Şah və arvadı, vəzir arvadı Aqili qucaqlayıb öpməyə başladılar. Elə bu vaxt başı kəsilmiş körpə də dirildi. Sevinc üstə sevinc gəldi.

Sonra hamı bir yerdə şad və xürrəm yaşamağa başladı.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi Hacı Kərim Sanıyev Qazax qəzasının Çaylı kəndində Süleyman Cəfər oğlundan yazıya aldı.***

## 2. PƏHLƏVAN GƏLİN

Biri var idi, biri yox idi, Allahdan başqa heç kim yox idi, bir vilayətdə bir padşah var idi, padşahın üç oğlu var idi. Padşah ölümündən əvvəl oğlanlarını yanına çağırıb, onlara vəsiyyət elədi ki, onlara naməlum olan bağa heç vaxt getməsinlər. Padşah bunu deyib canını tapşırdı Allaha.

Oğullar atalarını basdırıb öz həyatlarını sürdülər, öz-özlərinə düşündülər ki, görəsən, ataları onlara bağa getməyə niyə qadağan etmişdir? Atasının ölümündən bir neçə il sonra böyük oğul həmin bağı görmək istədi. O, özü ilə bir dəstə qoşun götürüb bağa getdi. Böyük qardaş bağa girdikdə gördü ki, buranın çox gözəl mənzərəsi var. O, ucadan dedi:

– Atamız görəsən nə üçün bu bağın gözəlliyini bizə qadağan etmişdi?

O, bunu deyib əsgərlərini bağda gəzməyə və meyvə yeməyə buraxdı. Günortaya yaxın onlar gördülər ki, ağ atlı bir pəhləvan onlara tərəf çaparaq gəlir. Bu at əsgərləri dişləri ilə tutub yerə çırpır və ayaqları ilə tapdayırdı, beləcə o, bütün əsgərləri öldürdü, sonra isə Şahzadəni də öldürüb, çapıb getdi. Ortancıl qardaş böyük qardaşının gəlməyini gözləməyərək onun dalınca getdi. Böyük qardaşın başına gələn onun da başına gəldi.

Axır ki, növbə kiçik qardaşa çatdı. O da bağa yola düşür, öldürülmüş əsgərlərin və onların arasında qardaşlarının meyitlərini tapır. Kiçik qardaş onları dəfn etməyi tapşırır və sonra isə əsgərləri bağda gəzməyə buraxır. Günortaya yaxın yenə də ağ atlı pəhləvan rəvan olur. Əvvəl olduğu kimi bu dəfə də əsgərləri

öldürüb şahzadəyə yaxınlaşır. At onu dişləri ilə tutub yerə çırpmaq istəyəndə şahzadə yumruqla atı elə vurur ki, o, titrəyib yerindən tərpənə bilmir. Atın belindəki pəhləvan bunu görüb atdan endi və şahzadə ilə güləşməyə başladı. Bu arada günorta namazının vaxtı yaxınlaşdı, şahzadə dedi:

– Ey kafir, qoy mən gedim namaz qılım, sonra davam edərik.

O, razı oldu. Şahzadə namaz qıldı, sonra yenidən güləşməyə davam etdilər. Çox keçmədən şahzadə pəhləvanı yerə yıxdı. Onun sinəsinə çökdü. Pəhləvan vəziyyəti belə görüb dedi:

– Ey pəhləvan, mən belə əhd eləmişəm ki, kim məni yıxsa, qoy o da sinəmdəki düymələri açsın.

Şahzadə pəhləvanın istəyini yerinə yetirdi və gördü ki, onun libasının altındakı arvad sinəsidir. Heyrətlənmiş şahzadə özünü itirdi, onun rəqibi isə bundan istifadə edərək ağ atın belinə atıldı və tufandan tez evə çapdı. Şahzadə özünə gəldi, atına süvar oldu və qızın izi ilə çapdı.

Az getdi, üz getdi, gəlib qızın yaşadığı yerə çatdı və ağ atın hər gün su içdiyi bulağın yanında dayandı. Şahzadəyə dedilər ki, o bulağın yanında bitmiş ağacın arxasında gizlənməlidir. Ağ at gəlib su içdikdən sonra evə getmək üçün geri qayıdanda onun belinə atılıb möhkəm oturmalıdır.

Şahzadə necə demişdilərsə, elə də etdi və bir gün səhər ağ at su içib evə getmək istəyəndə, o atın üstünə sıçradı. Ağ at belində yad atlını hiss edib başını çevirdi, istədi onu yerə çırpsın, lakin şahzadə özü yumruğu ilə onun burnuna vurdu, at öz sahibəsinin qapısına çaparaq getdi. Bu vaxt şahzadə uca səslə dedi:

– Ey kafir, çıx güləşimizi qurtaraq!

Qız titrək səslə dedi:

– Evə gəl, burada güləşimizi qurtaraq.

Şahzadə atdan endi və evə keçdi, burada da qızla güləşməyə davam etdilər. Çox güləşdikdən sonra şahzadə qızı yerə yıxdı, onu öldürmək istəyəndə qız dedi:

– Oğlan, mən əhd etmişdim ki, mənə qalib gələnə ərə gedim.

Onda şahzadə onun sözünə razılıq verdi. Bundan sonra şahzadə qızla öz vilayətinə yola düşdü.

Onlar az getdilər, üz getdilər, nəhayət, gəlib böyük bir imarətə çatdılar. İmarətdən onların qarşısına bir bədheybət div çıxdı, div onlara dedi ki, yolda onun yeddi oğlunun yanından ötüb keçməli olacaqlar. Onun oğlanları yollarına davam etməyə imkan verməyəcəm.Div bunu deyib, onları evinə aparıb qonaq saxladı. Onlar yollarına davam etmək istəyəndə div şahzadəyə dedi:

– Sənin başına bir iş gəlsə, mənə xəbər ver.

Şahzadə ona bir qızıl üzük verib dedi:

– Başıma bir iş gəlsə, bu üzükdən qan axacaq.

Div isə öz növbəsində ona bir tilsim verdi və dedi:

– Yolda oğlanlarıma göstərib yoluna rahat davam edərsən.

Şahzadə ilə arvadı divlə görüşüb yola düşdülər. Yolda şahzadəyə rast gələn divin oğulları dara düşəndə ondan xəbər tuta bilmək üçün bir əlamət istədilər. Şahzadə onların hər birinə saçından tük verib dedi:

– Hərgah bu tükdən qan damsa, bilin ki, işim dara düşüb, onda köməyimə gəlin.

Divin oğullarından hər biri bir sənət bilirdi, biri necə saat suyun altında üzməyi bilir, digəri uzanaraq qulağını yerə dirəyib uzaq yerlərdə nə baş verdiyindən xəbər tutmağı bacarırdı.

Şahzadə az getdi, üz getdi, gəlib dənizin sahilinə çatdı. Burada sahibsiz gözəl bir ev gördü. O, bu evdə bir neçə gün qalmaq fikrinə düşdü.

Şahzadə arvadı ilə bu evdə qaldılar. O, hər gün arvadını evdə qoyub, özü ova gedirdi. Bir gün ovda olarkən ov Quşları görüb onları vurmaq istəyəndə gözəl-göyçək arvadını yadına salıb, yerə huşsuz yıxıldı, axşam özünə gəlib əliboş evə qayıtdı. Arvadı ondan belə qəmgin olmağının səbəbini xəbər aldıqda, şahzadə hər şeyi ona nəql edib, şəklini istədi. Arvadı ona dedi:

– Şəklim sənə çox ziyan vurar.

Şahzadə dediyindən dönmədi, axırda arvadı naəlac qalıb şəklini ona verdi.

Şahzadə arvadından şəkli alıb həmişəki kimi ova getdi. Onda onun qarşısına bir maral çıxdı, şahzadə maralı nişan alıb vurmaq istəyəndə, yenə arvadı yadına düşdü, arvadının şəklini çıxarıb

baxmağa başladı. Həmin gün hava çox küləkli idi, işin tərsliyindən şəkli cibindən təzə çıxarmışdı ki, külək şəkli onun əlindən alıb, dənizin o biri sahilinə apardı. O vilayətin padşahı öz vəzirini hansısa iş üçün göndərmişdi. Öz evinin qapısının ağzında şahzadənin arvadının yerə düşmüş şəklini gördü. Vəzir şəkli yerdən götürüb baxanda onun gözəlliyini görüb huşunu itirib yerə yıxıldı. Padşah vəziri çox gözlədi, onu gəlmədiyini görüb, vəzirin dalınca getdi. Padşah vəziri yerə yıxılmış görüb ona yaxınlaşdı. O da şəkli görüb huşsuz yerə yıxıldı. Padşahın adamları hər yandan tökülüşüb onu huşa gətirib ayıltdılar. Padşah ayılan kimi vəzirə əmr edir ki, şəkildəki arvadı tapıb gətirsin. Vəzir dərd-qəm içində anasının yanına gedir. Vəzirin anası isə cadugər idi, o, oğlunu belə görüb nədən belə fikirli və qəmli olduğunu xəbər alanda vəzir anasına hər şeyi nəql edir. Anası onu dinləyib deyir.

– Oğul, heç fikir eləmə, get padşahdan qırx gün möhlət istə, mən onu tapıb gətirərəm.

Vəzir padşahın yanına gedib, qırx gün möhlət aldı. Küpəgirən qarı öz küpünə girib dənizin üstündən birbaşa şahzadənin evinə düşdü. O, öz küpünə qızılgül qoydu. Küpünü otaqda saxlayıb, özü dəniz sahilinə gedib, şahzadənin yolu üstə oturdu. Şahzadə ovdan evə qayıdanda küpəgirən qarı onu görüb ağlamağa başladı. Şahzadə ondan xəbər aldı:

– Ay nənə, nə üçün ağlayırsan?

O cavab verdi:

– Ay bala, yolu azdım və adamlarımdan geri qaldım.

Şahzadə xəbər aldı:

– Əgər səni özümlə götürsəm, arvadıma qulluq göstərərsənmi?

Qarı sevincək razılıq verdi, şahzadə onu atına oturtmaq istədi, amma hər şeyi hiss edən ağ at müqavimət göstərməyə başladı. Şahzadə ağ atın başına vurdu və qarını özünün arxasında oturtdu. Küpəgirən qarı o gündən şahzadənin evində yaşamağa başladı. Bir gün o, şahzadənin arvadını dilə tutur ki, ərindən onun canının harada olmasını xəbər alsın. Şahzadənin arvadı ərindən qarının dediklərini xəbər aldıqda, şahzadə arvadına bir şey demək istəməyərək süpürgəni göstərib deyir:

– Əgər bu süpürgəyə bir şey olarsa, mən də ölərəm.

Küpəgirən qarı bu sözləri yadında saxladı və bir gün evi süpürəndə süpürgəni bilərəkdən oda atdı. Axşam şahzadə sap-sağlam evə qayıtdı, onda küpəgirən qarı başa düşdü ki, o, arvadını aldadıb. Onda küpəgirən qarı yenidən şahzadənin arvadını dilə tutur ki, ərindən canının harada olmasını bir də xəbər alsın. Bu dəfə şahzadə arvadına deyir:

– Mənim çiynimin üstündə balaca bıçaq tikilmişdir. Əgər o bıçağı məndən götürsələr, bıçaq yenidən yerinə qoyulana qədər özümdən gedərəm.

Bir gün şahzadə yatarkən küpəgirən qarı ondan bıçağı götürüb dənizə atır. Səhər arvadı görür ki, şahzadə özündən gedib. O, ərinin bu halını görüb ağlayaraq qarıdan kömək istəyir. Küpəgirən qarı ona deyir ki, şahzadəni diriltmək üçün qızılgül lazımdır. Belə olduqda o, qarı ilə birgə qızılgül axtarmağa başlayır, amma tapmayıb əliboş evə qayıdır. Evdə küpəgirən qarı küpünün içindəki qızılgülü göstərir. Şahzadənin arvadı qarıdan xahiş edir ki, əyilib küpün içindəki qızılgülü götürsün. Küpəgirən qarı ona dedi:

– Mən artıq qocayam, əyilə bilmirəm, sən isə cavansan. Əyil, küpün içindəki qızılgülü götür.

Şahzadənin arvadı əyilir ki, küpün içindəki qızılgülü götürsün. Elə bu vaxt küpəgirən qarı arxadan onu itələyib küpə salır, küpün ağzını bağlayıb, özü də küpün üstünə minib birbaşa öz evinə uçur. Orada şahzadənin arvadını məcbur edirlər ki, padşaha ərə getsin. Şahzadənin arvadı vaxt udmaq üçün deyir:

– Mənim qardaşım ölüb, mən qırx gün yas saxlamalıyam. Ona görə də toyu o vaxtadək təxirə salmaq lazımdır.

Padşah bu şərtlə razılaşmağa məcbur olub, onun arzusunu yerinə yetirir.

Bunlar burda qalmaqda olsun, eşit divdən. Şahzadənin qızıl üzük verdiyi div bir gün baxıb görür ki, üzükdən qan damır. O saat başa düşür ki, şahzadənin başı dərddədir, o oğlanlarının yanına gedir. Elə bu vaxt tüklərdən də qan damcıları axır, divin oğulları da bilirlər ki, şahzadə dardadır. Div oğullarının yanına gəlib deyir ki, şahzadəyə kömək etsinlər. Onlar uzaqdan xəbər

verən qardaşa məsələni öyrənməsini tapşırırlar. Həmin qardaş qulağını yerə yaxınlaşdırıb şahzadənin başına gələnlərdən onları hali edir. Qardaşlar gedib, şahzadənin huşsuz halda yatdığı yerə çatırlar. Suyun altında çox qala bilən qardaş dənizə baş vurub, bıçağı axtarmağa başlayır. O, əvvəlcə bıçağın dəstəyini tapır. Bıçağın dəstəyini şahzadənin çiyninə tiksələr də, o dirilmir. Onda qardaşlardan biri deyir ki, yəqin küpəgirən qarı bıçağı dənizə atanda onun tiyəsini balıq udub. Suyun altında qala bilən qardaş yenidən suya baş vurur və həmin balığı tutur. Qardaşlar həmin balığın qarnını yarıb, qarnından bıçağın tiyəsini çıxarırlar. Onlar bıçağın tiyəsi ilə dəstəyini bərkidib şahzadənin çiyninə tikirlər. Şahzadə o saat yerindən qalxıb deyir:

– Ah, mən nə çox yatmışam!

O, başına gələnlərdən xəbər tutur, qardaşlara "çox sağ olun" deyib arvadını axtarmağa gedir. O, arvadının yaşadığı şəhərə gəlib, şəhərin girəcəyində çoxlu adamlar toplaşdığını görür. Şahzadə onlara yaxınlaşıb, nə üçün bura toplaşdıqlarını xəbər alır. Adamlardan biri ona deyir ki, burada bir ağ at var, heç kimi yaxına buraxmır, kimini boğur, kimini dişləyir, adamlar da ona daş atırlar. Şahzadə ağ atını tanıyıb, adamlardan xahiş edir ki, onu da ağ atı tutmağa izn versinlər. O, atı tutub, padşaha hədiyyə aparır. Padşah şahzadəyə əmr edir ki, onun mehtəri olsun. Şahzadə padşahın əmrinə tabe olur. O, hər gecə arvadını yadına salıb ağlayır.

Artıq padşahın şahzadənin arvadına verdiyi vaxt yaxınlaşırdı. Bir gün şahzadənin arvadına xəbər çatdı ki, padşahın tövləsinə çox qəribə at gətiriblər. Bu at mehtərdən başqa bir kimsənin sözünü eşitmir. Bu xəbər şahzadənin arvadını çox maraqlandırdığı üçün o, tövləyə gedir ki, ata baxsın. Gəlib, nə görür? Şahzadə ağ atın yanında oturub ağlayır. O, özünü saxlaya bilməyib, ərinin üstünə atıldı. Onlar danışmağa söz tapa bilməyib qucaqlaşdlar. Bir müddətdən sonra şahzadə özünə gəlib, ağ atı özü üçün, başqa bir atı isə arvadı üçün yəhərlədi. Onlar atlara suvar olub, çapıb getdilər. Şəhərdən çıxanda şahzadə dedi:

– Gecəni burda qalarıq, qoy padşah görsün ki, mən səni qaçırtmıram.

Çox keçmədən hava işıqlanmağa başladı. Padşah hadisədən xəbər tutub, böyük bir qoşun topladı, onların olduğu yeri mühasirəyə aldı. Şahzadənin arvadı böyük qoşunu görüb ağladı. Şahzadə arvadının ağlamağını eşidib yuxudan ayıldı, ondan ağlamağının səbəbini xəbər aldı. Arvadı padşah qoşununun onları mühasirəyə aldığını dedi. Belə olduqda şahzadə arvadına əmr etdi ki, qoşuna sol tərəfdən hücum etsin. O, özü isə sag tərəfdən qoşunu ləşkərə vurdu. Əlqərəz, onlar padşahın qoşunu vurub-dağıdıb, sağ-salamat öz evlərinə gedib çatdılar.

Göydən üç alma düşdü, biri mənim, biri dərvişin, üçüncüsü də dinləyənin.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi Əli Cəbrayılov Qazax qəzasınınn Salahlı kəndində yazıya aldı.***

## 3. ŞƏRƏF

Yer üzərində əzəmətli bir padşah var idi. O, öz bəndələrini rəiyyətini dilər. Onun şahlığı geniş və böyük idi, müxtəlif xalqlar onun hökmü altında yaşayırdılar. O, müdrik və ürəyiyumşaq idi, onun hökmü altında olan xalqlar ondan çox razı idilər.

Bir axşam padşah fikrə daldı və uzun müddət yata bilmədi. Onun ağlına bir fikir gəldi, görəsən, dövlətdə elə bir zəif sərhəd varmı ki, oradan dövlətə təhlükə gələ bilsin? Padşah bu haqda çox düşünərək öz-özünə deyirdi:

- Filan sərhəddə bu qədər, digər sərhəddə iki dəfə artıq, üçüncüdə isə daha çox qoşun var. O, təkəbbürlə deyirdi: “Heç bir şah mənim qarşıma çıxa bilməz və bu haqda heç düşünməyə cəsarət də edə bilməz”.

Padşah belə xəyallar edərkən Allahı unutdu və onun dikbaşlığı isə elə hey böyüyüb artdı. Axırda şirin yuxu onu üstələdi.

Ertəsi gün padşah səhər tezdən yuxudan oyanıb nökərnaibinə və saray adamlarına dedi ki, o, tam qüsul etmək üçün hamama getmək niyyətindədir. Nökərlər dərhal hamamçılara xəbəri çatdırdılar. Onlar hamamı təmizləyib səliqə-səhmana salıb, padşahı gözləməyə başladılar.

Nəhayət, padşah əyan və saray adamları ilə hamama gəldi. Padşah tam qüsul edib dincəlməyə başladı və şirin yuxuya getdi.

Bu vaxt Allah tərəfindən padşahın surətində bir mələk göndərildi. Mələk hamama gəlib saray adamlarına yaxınlaşaraq dedi ki, hərəmxanaya getmək istəyir. Saray adamları, əyanlar və nökərlər padşahı hərəmxanaya ötürdülər. Burada yalançı padşah öz arvadları ilə söhbət etməyə başladı və onların hamısı düşünürdü ki, o, həqiqi padşahdır, heç kimin ağlına belə gəlməzdi ki, hərəmxanadakı padşah həqiqi padşah deyil.

Bu vaxt hamamda yatan padşah yuxudan oyandı və baxıb gördü ki, yanında heç kim yoxdur, qapı isə bağlıdır. Padşah adəti üzrə hamamçını yanına çağırdı və ondan nökərlərinin harada olduqlarını xəbər almağa və söyüşlər yağdırmağa başladı. Sonra padşah qeyz içində özü öz saqqalını, başını yudu və hamamdan çıxdı ki, hamamçını tutdursun. Lakin heç kim onu saraya almadı. Axırı, o, təkbaşına saraya getdi. O, saraya yaxınlaşdıqda və içəri keçmək istəyəndə qapıçı və digər nökərlər ona içəriyə buraxmadılar. Bədbəxt padşah bundan çox təəccübləndi və qapıçıya dedi:

– Mən padşaha çox mühüm bir xəbər çatdırmalıyam, əgər məni buraxmasan, böyük bəla baş verəcək.

Onda qapıçı onu içəri buraxdı. O, saraya daxil oldu və taxtda onun özünə bənzər bir adamın oturduğunu gördü.

Utandırılmış padşah taxtdakı padşaha baş əyərək dedi:

– Bir saat ərzində səni belə ucaltmış və məni belə alçaltmış böyük Allahın xatirinə, bir de görüm, sən kimsən və mənim taxt-tacımı necə ələ keçirdin?

Taxtda oturan ondan xəbər aldı:

– Dünən sən bu taxtda oturanda nə haqda düşünürdün?

Padşah cavab verdi:

– Mən öz dövlətim haqqında düşünürdüm, sonra isə yuxuya getdim.

Mələk dedi:

– Sən öz dövlətin haqqında düşünərkən öz böyüklüyün və qüvvətinlə çox qürrələndin, dikbaşlıq etdin. Bu da böyük Allahın xoşuna gəlmədi, buna görə də məni göndərdi sənə göstərsin

ki, əgər ən güclü padşah öz gücüylə qürrələnir, dikbaşlıq edir və Allahı unudursa, belə padşahın taxtını əlindən almaq çox asandır. Əgər sən indi tövbə etsən, taxt-tacını geri alarsan.

Təkəbbürlü padşah tövbə etdi, taxtına əyləşdi, öz dövlətinin təkəbbürsüz hökmdarı oldu, göydən gələn mələk isə gözdən itdi.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi T.Qulubəyov tərəfindən Şuşada yazıya alındı.***

## 4. ƏLİXAN

Biri var idi, biri yox idi, bir məmləkətdə Hacı Murad adında varlı bir tacir var idi. Bu tacirin gözəllikdə günəşdən də geri qalmayan Gülüstan xanım adlı bir arvadı var idi. Onların Əlixan adlı oğulları da var idi. Onun saçlarının bir tərəfi qızıl, o biri tərəfi gümüş idi.

Əlixanın on beş yaşı tamam olanda atası onu məktəbə qoydu, özü isə bir aydan sonra ticarət məqsədi ilə uzaq səfərə getdi. O, getməmişdən qabaq oğluna bir qara at bağışladı, bu at adi at deyildi, o, insanların sirlərini bilir, özü də insan kimi danışa bilirdi. Əlixan adətən hər gün məktəbə gedir, məktəbdən də gələndə qara ata baş çəkirdi.

Bir gün Gülüstan xanım təkbaşına şəhərə gəzməyə çıxdı. Həmzə bəy adlı bir nəfər onu görüb ona yaxınlaşdı və onun ayaqlarına düşüb dedi:

– Ey yer üzünün günəşi, mən çoxdan öz qəlbimi sənə açmaq istəyirdim, mən sənə vurulmuşam, Hacı Murad gələnədək sənin ərin olmalıyam. Əgər sən razı olmasan, səni də, özümü də öldürəcəyəm.

Gülüstan xanım deyir:

– Mən bunu çoxdan istəyirdim.

Həmzə bəy deyir:

– Bəs necə edək ki, Əlixan bizə mane olmasın?

O cavab verdi:

– Canım mənim, sən bu haqda düşünüb narahat olma, mən işi elə düzəldəcəyəm ki, Allahdan başqa heç kim bundan xəbər tutmayacaq.

O biri gün Gülüstan xanım mollaya əmr edir ki, Əlixanı axşamadək gəştə[62] buraxmasın, nökərlərə isə əmr edir ki, darvazadan qapının astanasınadək bir neçə dərin quyu qazsınlar, quyuların da üstünü xalılarla örtsünlər ki, Əlixan axşam məktəbdən evə ac-yalavac qayıdanda quyulardan birinə düşüb ölsün. Axşam düşdü. Əlixan evə qayıdır və görür ki, qarşısında düz yolun əvəzinə üstü xalılarla örtülmüş quyular var. O saat başa düşür ki, burada nəsə bir iş var. O, birtəhər özünü atın yanına çatdırıb görür ki, at başını aşağı salıb ağlayır, ayaqları ilə yeri döyür. Əlixan ata deyir:

– Ey mənim varım-dövlətim, ürəyim, bir mənə de, sənə nə olub, evimizdə nə sirr var? Hər şeyi olduğu kimi mənə de!

– Ey Əlixan, sənin anan atana xəyanət edərkən, sənin ölümünü istərkən mən necə də ağlamayım, kədərlənməyim. Sabah sən evdə olmayanda onun əmrinə görə məni öldürəcəklər. Mən üç dəfə kişnəyəcəyəm, sən mənim səsimi eşidəndə köməyimə gəl, mollanın sözünə baxma!

Ertəsi gün atın dediyi kimi oldu və atı elə öldürmək istəyirdilər ki, Əlixan gəldi. O, gözlərində yaş anasına dedi:

– Ana, ata bu atı mənə bağışlayandan mən bir dəfə də olsun onu minməmişəm, qoy heç olmasa bir dəfə onu minib gəzim, sonra isə nə istəyirsən onunla et.

Anası onun istəyinə razı oldu. Budur, o, geyinib keçindi, silahlandı, ata süvar oldu, gah sağa, gah sola çapdı və axırda qılıncı ilə anasını doğrayıb ildırım sürətilə çapıb getdi. Onun arxasınca nə qədər ox atsalar da, heç biri də ona dəymədi.

Əlixan azmı getdi, çoxmu getdi, bunu Allah bilir, axır bir çöldə dayandı, burada bir çoban sürü otarırdı. Əlixan qara atdan endi, onu sərbəst buraxdı, at isə ona bir dəstə tükündən verib dedi:

– Əlixan, əgər bir şeyə ehtiyacın olsa, bu tük dəstəsinə üfür, onda istəyin yerinə yetəcək və mən sənin qarşında olacağam.

Əlixan tük dəstəsini götürdü, atla vidalaşdı və çobanın yanına gəlib salamlaşdı. Çobana dedi:

[62] Gəşt-gəzmək

– Çoban qardaş, mənimlə libasını dəyişmək istəyirsənmi? Mən sənə öz libasımı, sən də mənə öz libasını verərsən?

Çoban dedi:

– Əgər sən razısansa, niyə də dəyişməyim?

O, Əlixanı südə qonaq edib onunla libasını dəyişdi. Əlixan çobanın libasını geyinib yoluna davam etdi.

Az getdi, düz getdi, gəlib bir vilayətə çatdı. Bu vilayətin padşahı Ağaməmmədxan idi. Əlixan Ağaməmmədxanın bağının hasarının yanında dayanıb acı-acı ağlamağa başladı. Bağban onun səsinə çıxıb dedi:

– Əzizim, ağlama, bir adını de görüm, kimsən, sənə nə lazımdır?

– Adım Keçəldir, tərəkəmə oğluyam, ata-anam köçüb gedəndə mən burada qalmışam, acından ölürəm, məni özünə nökər götür!

Bağbanın ona yazığı gəldi, onu öz evinə apardı, bir vaxtdan sonra isə onu oğulluğa götürdü, çünkü özünün oğul-uşaqdan bir kimsəsi yox idi.

Padşah Ağaməmmədxanın biri-birindən gözəl üç qızı var idi – Gülzar xanım, Asya xanım və Xurşid xanım. Bir dəfə onlar padşah atalarının bağına gəzməyə gəlirlər və orada Keçəli görüb təəccüblənirlər, bağbandan xəbər alırlar:

– Bu kimdir və bura necə gəlib düşübdür?

Bağban Keçəl haqqında nə bilirdisə, hamısını onlara nəql etdi. Onların Keçələ yazıqları gəldi və hər biri ona əşrəfi bağışladılar və əmr etdilər ki, hər birinə bir gül dəstəsi hazırlasın.

Keçəl onların əmrini yerinə yetirdi, iki böyük qızılgül dəstəsini qaytanla bağladı, amma Xurşid xanımın gül dəstəsini özünün qızıl və gümüş saçları ilə bağladı. Xurşid xanım bir öz gül dəstəsinə, bir də bacılarının gül dəstələrinə baxır təəccüblənir, öz-özünə deyir: “Burada bir sirr vardır”. Bağdan qayıdandan sonra onlar atalarına deyirlər:

– Qibleyi-aləm, bizim ərə getmək vaxtımızdır...

Ertəsi gün padşah əmr edir ki, onun rəiyyəti meydana yığılsın və qızlarının hər birinə bir alma verib deyir:

– Hər biriniz əlindəki alma ilə xoşuna gələn adamı vursun.

Böyük qız Gülzar xanım vəzirin oğluna, ortancıl qız Asya xanım vəkilin oğluna vurdu, Xurşid xanım isə dayanıb baxırdı. Padşah ondan xəbər alır ki, o, kimi gözləyir.

Xurşid xanım deyir:

– İstədiyim cavan oğlan hələ gəlməyibdir.

Padşah xəbər alır:

– Kim hələ gəlməyib?

Camaat deyir:

– Qibleyi-aləm, sənin bağbanının oğlu Keçəl.

Padşah əmr edir.

– Dərhal onu bura gətirin.

Budur, onu cırcındırın içində gətirdilər və Xurşid xanım onu alma ilə vurdu.

Padşah qışqırdı:

– O səhv etdi, səhv etdi, məni - yaşlı atasını biabır etdi, qoy bir dəfə də seçsin!

Lakin o, ikinci və üçüncü dəfə də yenə onu seçir. Padşah hirslənir və deyir:

– Özü bilər, nə istəyir qoy onu da etsin, bundan sonra o mənim qızım deyildir.

Böyük qızların toyu yeddi gün, yeddi gecə çəkdi, balaca qız isə salavatla[63] yola salındı.

Bunun üstündən bir ay keçir, padşah birdən bərk xəstələnir. Təbiblər məsləhət görürlər ki, ona maral əti verilsin. Padşah özünün sevimli kürəkənlərini çağırtdırır və əmr edir ki, onlar maral əti gətirsinlər. Kürəkənlər dərhal silahlanıb ova gedirlər. Keçəl isə bu arada düzə çıxıb tük dəstəsini üfürür və deyir:

– Marallar, hamınız yanıma yığışın.

Marallar onun ətrafına yığıldılar, o da onların yanında uzanıb dincəlirdi. Bu vaxt onun bacanaqları çox gəzib dolaşdıqdan sonra əliboş onun yanına gəlib çıxdılar. Bacanaqlar onu tanıya bilməsələr də, keçəl onları tanıdı. Onlar Keçəldən soruşdular:

– Birini neçəyə satırsan?

[63] Salavat – toysuz, təntənəsiz.

O cavab verdi:

– Pula satmıram, mən maralı yalnız o adama verirəm ki, üzünə damğa vurmağıma icazə versin, bir də bu şərtlə ki, maralı özüm kəsim, baş və ayaqlarını özümə götürüm.

Bacanaqlar deyirlər:

– Yaxşı, qoy sən deyən olsun.

Keçəl maralı kəsəndə öz-özünə dedi:

– Bütün dad başa və ayaqlara yığışsın.

Deyildiyi oldu. Bacanaqlar əti götürüb evlərinə qaydırlar. Hər biri ətdən bir yemək bişirib qızıl qablarda padşaha apardılar. Padşah yeməklərdən daddı, lakin halı daha da pisləşdi. Keçəl isə maralın baş və ayaqlarından yemək hazırladı və mis qabda padşaha gətirdi. Padşah qızının xətrinə ürəksiz bir qaşıq yedi, özünü yaxşı hiss etdi, daha bir qaşıq, halı daha da yaxşılaşdı, yeməyi dibinədək yeyəndə isə özünü sapsağlam gördü. Keçələ "sağ ol" deyib, ona bir daxma verdi və əmr etdi ki, özünün yaxınlığında yaşasın.

Bu işdən bir il keçdi. Bir dəfə padşah bir şahdan məktub alır, məktubda şah ona müharibə elan edir. Padşah Ağaməmmədxan çox qəm-qüssə edib əllərini üzünə vurub deyir:

– Ay Allah, mən kiminlə müharibəyə gedəcəyəm, mənim vur-tut beş min əsgərim var!

Çox fikirləşdikdən sonra o, böyük kürəkənlərini yanına çağırıb onlara deyir:

– Mənim qəhrəmanlarım, balalarım, mənim işim belədir ki, siz müharibəyə getməyə hazırlaşmalısınız.

Qoşun padşahın kürəkənlərinin başçılığı altında yola düşdü.

Bu vaxt isə Keçəl düzə çıxıb tük dəstəsinə üfürüb deyir:

– Sevimli atım, qarşımda hazır ol!

At qaçır, yer titrəyir, atın qulaqlarından alov, burnundan tüstü çıxırdı, at qaçıb gəldi və Keçəlin qarşısında durub dedi:

– Mənim sağ qulağıma gir, sol qulağımdan çıx!

Keçəl qara atın sağ qulağından girib, sol qulağından çıxdı, misli olmayan bir qəhrəman oldu. Keçəl atına minib ildırım kimi düşməninin qoşununun üstünə şığıdı, hər dəfə qılıncını yellədikcə düşmən qoşunundan qırdı. Bu arada onun əli yaralandı, pad-

şah Ağaməmmədxan o saat öz ipək yaylığını çıxarıb onun yarasını bağladı, nə padşah, nə də qoşun onu tanıya bilmədilər. Keçəl atını çapıb evinə gəldi, yenə qara atı sərbəst buraxdı, özü isə cır-cındırını geyinib evinə gəldi. Padşah Ağaməmmədxan təntənə ilə geri qayıtdı.

Ertəsi gün Xurşid xanım gördü ki, ərinin qolu atasının yaylığı ilə bağlanıb, o, çox təəccüblənib dərhal atasına xəbər verdi. Padşah qələbənin kimin sayəsində baş verdiyini anladı.

O, Keçəli yanına çağırdı, qucaqlayıb öpdü, yenidən böyük məclis düzəldib qızı Xurşid xanımla onun toyunu etdi, Keçəli özünə vəliəhd təyin etdi. O gündən Keçəl arvadı ilə sarayda yaşamağa başladı, padşah öləndən sonra isə onun yerinə keçdi.

***Şuşa şəhərində Zeynal bəydən Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi Məmməd bəy Məlik Yeqanov yazıya aldı.***

## 5. YƏHUDİ VƏ QIZI

Bir şəhərdə varlı yəhudi tacir yaşayırdı. Onun Gülpəri adında gözəl bir qızı var idi. Bir müddət keçdi, yəhudinin arvadı öldü, yəhudi dul qaldı. O, hər yerdə ərlik qız axtarırdı, amma ürəyinə yatan bir qız tapmadı. Baxıb gördü ki, şəhərdə onun qızından gözəl bir qız yoxdu və onunla evlənmək qərarına gəldi. Amma niyyətini qızına deməyə utandı. Onda yəhudi bir hiylə işlətmək fikrinə düşdü və bir söz buraxdı ki, kim ölmüş arvadının libasını geyinsə, onunla evlənəcək. O, öz məqsədinə çatmaq üçün qızına libas, geyim almaqdan vaz keçdi. Qız atasının niyyətini başa düşdü və özünə söz verdi ki, heç vaxt anasının libasını geyinməsin. Bir vaxt keçdi qızın libasları geyilməkdən dağıldı, geyinməyə bir şey qalmadı. O, öz-özünə dedi:

– Ay Allah, mən nə edim?

Nə etməli? O, atasının bir neçə saatlığa evdə olmamasını fürsət bilib anasının bir libasını geyindi. Yəhudi isə qızını izləyirdi, hər gün üç-dörd dəfə bazardan gizlicə gəlir, anasının libaslarını geyinib-geyinmədiyini öyrənirdi. Günlərin bir günü

həmişəki kimi evinə gəldi və gördü ki, qızı anasının libasını geyinib həyətdə paltar yuyur. O, qızına yaxınlaşıb dedi:

– Arvad, nə edirsən?

Qız cavab verdi:

– Ata, sən nə deyirsən, mən sənin qızınam.

Ata ona israrla dedi:

– Yox, sən mənim qızım deyil, arvadımsan.

O, atasına etiraz edərək yalvarırdı ki, bu fikrindən əl çəksin. Yəhudi isə elə öz dediyini deyir, niyyətindən dönmürdü. O, toy gününü təyin etdi və gələcək arvadı üçün qızıldan ziynət, bəzək şeyləri sifariş verdi. Qız isə öz növbəsində atasının evindən qaçmaq məqsədi ilə özünə kişi libası sifariş verdi. Toy günü gəlib çatdı, gün qüruba yaxınlaşırdı, qonaqların başı yeyib-içməyə qarışmışdı. Qız fürsətdən istifadə edib əvvəlcədən hazırladığı kişi libasının üstündən kürkünü geyinib yola düşdü. Toy qurtardı, gənc qızın ər otağına girmək vaxtı gəldi. Baxıb gördülər ki, qız yoxdu. Yəhudi başa düşdü ki, Gülpəri qaçıb. Ertəsi gün yəhudi bütün var-dövlətini satıb qızı axtarmağa getdi.

Gülpəri isə az getdi, ya çox getdi, bunu Allah bilir, axırda Dəməşq şəhərinə gəlib çatdı. O, yazığın getməyə yeri yox idi və o məmləkətin padşahının bağına girdi. Qız uzun yolda yorulduğundan bir ağacın altında uzandı ki, yorğunluğunu alsın və o saat da yuxuya getdi. Elə bu vaxt padşahın arvadı bağda gəzirdi, birdən ağac altında yatan çirkin bir qız gördü. Padşahın arvadı onu yuxudan oyadıb xəbər aldı:

– Sən kimsən?

Gülpəri dedi:

– Mən yetiməm və getməyə bir yerim yoxdur, odur ki, sizin bağda dincəlmək qərarına gəldim.

Padşahın arvadı onun adını xəbər aldı, qız adını ona söylədi. Padşahın arvadının ona yazığı gəldi və qızı özünə qulluqçu götürdü. Gülpəri padşahın ailəsinə vicdanla və dürüst xidmət edirdi. Padşahın övladlarının hamısı onu sevir və hörmət edirdilər. Amma şahzadə Əhməd ona hamıdan çox hörmət edirdi.

Günlərin bir günü şəhərdə vəzirin qızının toyu idi, padşahın ailəsi də çağırılmışdı. Padşahın ev adamları toya getməyə hazırlaşanda Gülpəri təvəqqe etdi ki, onu da toya aparsınlar, amma padşahın arvadı razı olmadı və qıza əmr etdi ki, evdə qalsın. Hamı gedəndən sonra Gülpəri kürkünü çıxardı, niqabını üzündən götürdü, təzə libaslarını geyinib toya getdi, orada heç kim onu tanımırdı. Toyda Gülpəri doyunca rəqs etdi və əyləndi, hamı onun gözəlliyinə baxıb həzz alırdı, şahzadə isə dəlicəsinə ona vuruldu. O, hamıdan qabaq toydan çıxdı və saraya gələn kimi kürkünü, niqabını və çaxcurunu geyindi. Hamı evə gəldi. Gülpəri padşahın arvadından xəbər aldı:

– Xanım, toy necə keçdi?

Padşahın arvadı dedi:

– Hə, Gülpəri, toy şən keçdi, orada dünyada misli-bərabəri olmayan bir gözəl qız var idi. Onu heç kəs tanımadığı üçün belə düşündülər ki, cənnətdən gələn huri imiş.

Şahzadə isə toydan qəmgin qayıtdı. Toyda rəqs etmiş gözəl qız onun ağlından çıxmırdı. Çox götür-qoy etdikdən sonra şahzadə belə qərara gəldi ki, o gözəl qızı axtarıb tapsın. Onun fikrincə qızı tapmaq üçün cadugər və divlərlə döyüşmək lazım gələcək, ona görə də nökərlərə əmr etdi ki, yol tədarükü görsünlər. Şahzadənin bu qərarından sarayda hamının qanı qaraldı, bircə Gülpəri şən idi. O, yeməyi şahzadəyə həmişə özü verirdi. Səfərə çıxacağı gün adəti üzrə şahzadəyə plov verdi, amma əvvəlcədən yeməyə öz üzüyünü və kürkündən bir yun qoydu. O, bununla şahzadəyə bildirmək istəyirdi ki, həmin gözəl o özüdür, onu yad ellərdə axtarmasın.

Şahzadə yemək yeyərkən plovda üzük və kürkdən yun tapdı, dərhal başa düşdü ki, o gözəl qız Gülpərinin özüdür. Onda şahzadə bu nəğməni oxudu.

Sevilən qız bizim evdədir,
Biz isə dünyanı gəzirik.
Su bizim bardaqdadır,
Biz isə su axtarırıq.

Şahzadə səfərə çıxmaqdan imtina etdi, əmr etdi ki, Gülpəri onun yanına gəlsin. Gülpəri onun yanına gələndə əmr etdi ki,

hər gün geyindiyi libaslarını çıxarsın. O, libaslarını çıxardı və onun gözlərinin qabağında çoxdan bəri arzuladığı gözəl qız dayandı, o, özünü saxlaya bilməyib, ona tərəf atıldı və qızı öpməyə, qucaqlamağa başladı.

Padşah öz oğlunu Gülpəri ilə evləndirdi, qırx gün, qırx gecə toy çaldılar.

Doqquz ay, doqquz gün, doqquz dəqiqə keçdi və Gülpəri Məmməd adlandırdığı bir oğlan uşağı doğdu. Padşah nəvəsini o qədər sevdi ki, hər səhər onu öpməmiş namaz qılmazdı. Dəməşq padşahı çox yumşaq xasiyyətli və dindar adam idi. O, dərvişləri çox sevir, tez-tez onlarla vaxt keçirir və onların xahişini yerinə yetirməyə çalışırdı.

Gülpərinin atası dərviş libasında şəhərləri ziyarət edərək Dəməşq şəhərinə gəlib çıxdı və ilk olaraq padşahın sarayına gəldi. Padşah onunla görüşdü, onu öz ailəsi ilə tanış etdi ki, ona xeyir-dua versin. Yəhudi dərviş qızını burada gördü, qızı da atasını görüb onu tanıdı. O, əvvəldən heç kimə sirrini açmadığı üçün indi də onu açmaq istəmədi və bu səbəbdən özünü elə apardı ki, buraya gəlib çıxmış dərvişi guya heç tanımır.

Dərviş gecə şahzadənin otağında yatmaq istədi, onun arzusu yerinə yetirildi. Gecə hamı yatanda yəhudi dərviş heç yata bilmirdi, qızından necə intiqam almağı fikirləşirdi. Arada bir qərara gəldi, yerindən qalxıb sakitcə Gülpərinin yatağına yaxınlaşdı, onun cibindən cib bıçağını çıxardı və həmin bıçaqla yazıq uşağın gözlərini çıxartdı, sonra da bıçağı bədbəxt anasının cibinə qoydu. Dərviş sonra öz yerinə uzanıb rahat yatdı.

Səhər tezdən padşah adəti üzrə nəvəsinə yaxınlaşdı ki, onu öpsün, kor edilmiş körpəni görüb dəhşətə gəldi. Padşah çox kədərləndi, əllərini başına vurur və dərindən iztirab çəkirdi, axırda padşah qeyzlə qışqırdı:

– Kimin bu vəhşi cinayəti törətdiyini öyrənmək lazımdır. Dərviş, öyrən gör bunu kim etmişdir!

Dərviş məsləhət verdi:

– Qibleyi-aləm, əmr et, cibləri axtarsınlar, kimdə cinayət aləti tapılsa, deməli, bu cinayəti o törətmişdir.

Hamını axtardılar və qanlı bıçaq Gülpərinin cibindən çıxdı. Hirslənmiş padşah yazıq ananın gözlərinin çıxarılmasını, uşağın ona verilməsini və onların səhraya aparılaraq qurd-Quşa, vəhşi heyvanlara yem olmaları üçün orada buraxılmalarını əmr etdi. Padşahın əmri yerinə yetirildi. Gülpəri anlayırdı ki, cinayəti atası edib, amma bunu heç kimə bildirmədi. Fikirləşdi ki, özünü və atasını biabır etməkdənsə ölmək daha yaxşıdır.

Gülpəri təkbaşına öz oğlu Məmməd ilə iki gün səhrada qaldı, aclıq və susuzluq onu əldən salmışdı və artıq ölməyə hazırlaşırdı ki, üçüncü gün iki göyərçin uçub gəldi, onlardan biri dedi:

– Bacı, Gülpəriyə yazığım gəlir, o günahsızdır. Biz isə hər vaxt günahsız, əzab çəkmiş adamlara kömək etməliyik.

O biri göyərçin dedi:

– Belədir, mən indi yerə bir lələk atacağam, qoy lələyi yerdən götürsün, onu öz gözlərinə və bir də uşağının gözlərinə sürtsün və onlar sağalacaqlar.

O, göyərçinlərin dediyi kimi də elədi, onun və uşağının gözləri sağaldı. Gülpəri yaxınlıqda gözəl bina gördü və ora yönəldi. Binaya girdikdə orada heç kimi tapmadı. Bu gözəl evdə səliqəli yığışdırdımış otaqlar var idi, otaqlardan birində bitməz-tükənməz ərzaqlar var idi. Gülpəri bu evdə Məmmədlə yaşamağa başladı.

Şahzadə Əhməd Gülpəri qovulduqdan sonra özünə söz verdi ki, heç kimlə evlənməsin və o, arvadı üçün yas saxladı.

On il keçdi. Şahzadə bir dəfə ova getmişdi, o, çöldə bir ev gördü və evə daxil oldu. Gözlənilmədən onun qarşısına Gülpəri və Məmməd çıxdılar. Burada onlar bir-birlərini tanıdılar, öpüşməyə, qucaqlaşmağa və sevincdən ağlamağa başladılar. Şahzadə burada Gülpərinin günahsız olduğunu bildi və onu saraya apardı. Hamı Gülpərini görüb sevindi, o, başına gələnləri padşaha nəql etdi. Padşah özünə söz verdi ki, bir daha dərvişlərə inanmasın. Padşahın əmri ilə bir çox dərviş edam edildi. Gülpəri isə o vaxtdan xoşbəxt və şən həyat sürdü.

***Nehrəm ikisinifli məktəbinin müəllimi***
***Kərimbəy İsmayılov yazıya aldı.***

## 6. RƏHİMLƏ[64] NAMAZIN NAĞILI

Belə nəql edirlər ki, ən xeyirxah adamlardan biri olan Rəhim bir cütçünün yanından keçərkən görür ki, o, xışa bir öküzü və bir adamı qoşaraq yer sürür. Gördüyündən təəccüblənən Rəhim cütçüdən bu hərəkətin səbəbini xəbər aldı. Cütçü dedi:

– Namaz adlı bu adam mənə borcludur. Mənim iki öküzüm vardı, onlardan biri öldü, mən Namazdan pulumu istədim, lakin onun pulu olmadı, onda mən onun özünü xışa qoşdum və indi isə öz tarlamı əkirəm.

Rəhim xəbər aldı:

– Namaz sənə nə qədər borcludur?

Cütçü dedi:

– Əlli dirhəm.

Rəhim Namazın borcunu ödədi və onu köləlikdən azad etdi. Namaz Rəhimə təşəkkür edəndə o dedi:

– Dostum, dünya belə də qalmayacaq!

Rəhim bunu deyib çıxıb getdi.

Bunun üstündən neçə il keçdi, dünyada çox şeylər dəyişdi. Rəhim səyahətindən geri qayıdanda bir şəhərə gəlib çıxdı və qarşılaşdığı bir adamdan xəbər aldı:

– Bu şəhərdə ən varlı adam kimdir?

Həmin adam dedi:

– Namazdır.

Bu adı eşitdiyində sanki daxildən bir səs ona pıçıldadı: "Bu, sənin vaxtı ilə köləlikdən qurtardığın həmin adamdır".

Rəhim buradan birbaşa Namazın evinə getdi. Namaz öz xilaskarının gəldiyini eşidib onu çox böyük bir ehtiram və şərəflə qəbul edərək qonağ etdi:

– Ey mənim xilaskarım, mənə etdiyin yaxşılığa görə sənə təşəkkür edirəm və Allaha yalvarıram ki, sənin yaxşılığının əvəzini yaxşılıqla verə bilim. Mən öz həyatımla sənə borcluyam, sən məni əzab-əziyyətdən qurtardın.

Rəhim dedi:

---

[64] Rəhim səyyah olmuş və bütün həyatını səyahətlərdə keçirmişdir.

– Ey dost, dinimizin qanununa görə biz hamımız bir-birimizə yardım etməliyik, belə ki, bizim yaşamağımızda məqsəd məhz bundadır. Sözümü xatırlayırsanmı, -"Dünya belə qalmaz"?

Rəhim Namazın evində bir neçə gün qonaq qalıb yoluna davam etdi.

Bunun üstündən çox illər keçdi və Rəhim dostu Namazın yaşadığı şəhəri bir dəfə də ziyarət etməli oldu. Namaz artıq bu şəhərin padşahı idi, o, böyük ehtiramla Rəhimi qarşıladı və Rəhimin əvvəlki yaxşılığının əvəzini verməyi düşünərək ona vəzirlik məzhəbini təklif etdi. Rəhim isə bu təklifi qəbul etmədi, ona təşəkkür edib əvvəlki sözünü təkrarladı: "Bu dünya belə qalmaz", - deyib çıxıb getdi.

Bir müddət sonra o yer əkən bir cütçünü görüb xəbər aldı.

– Bu tarla kimindir?

Əkinci dedi:

– Əvvəllər bu tarlanın yerində gur bir şəhər var idi. Zəlzələ baş verdi, gur şəhərin olduğu yerdə şəhəri və onun əhalisini udan bir uçurum əmələ gəldi.

Bu sözləri eşidəndə Rəhim dostu Namazı yadına salıb acı-acı ağladı və əkinçiyə dedi:

– Dünya belə qalmaz.

***Yelizavetpol quberniyasının Cavanşir qəzasının Mamurlu kəndində Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi Musa Çuliyev yaziya aldı.***

## 7. ŞAHZADƏ CANŞAH VƏ ŞAHZADƏ QIZ HƏYATƏNNÜFUS HAQQINDA

Bir məmləkətdə padşah var idi. Bu padşahın Canşah adında gözünün ağı- qarası bir tək oğlu var idi. O, erkən yaşlarından elmlərə böyük meyl göstərirdi və bütün qəlbi ilə onları öyrənirdi. Atası oğlunun elmlərə olan sevgisini görüb bir alimi ona lələ təyin etdi və özünün gözəl bağçasında müxtəlif elmləri öyrənmək üçün hər şəraiti olan xüsusi bir otaq tikdirdi. Canşah 15 yaşınadək burada elmləməşğul oldu.

Gözəl gecələrin birində 15 yaşlı gənc oğlan çıraq işığında məşğul olarkən onun gözəlliyinə məftun olmuş iki mələyin diqqətini cəlb etdi. Bu mələklər göydə − Canşahın sarayının damının üstündə görüşdülər. Mələklərdən biri uzun müddət sarayın üstündə şahzadənin gözəlliyini seyr etdi. Həmin mələk başqa bir mələyi görəndə ona şahzadəni göstərdi. Mələk bu şahzadə ilə başqa vilayətdə gördüyü gözəl şahzadə qız arasında bir bənzərlik gördü. Hər iki mələk qərara gəldilər ki, onların görüşünü təşkil etsinlər. Onlar Canşahın yuxuya getməsini gözlədilər.

Şahzadə çox məşğul olduqdan sonra özünün qızıldan olan çarpayısına uzandı. O, yuxuya getdikdən sonra onu müşahidə edən mələklər yerə endilər, çarpayı ilə bərabər götürüb ona oxşayan şahzadə Həyatənnüfusun yaşadığı şəhərə uçub gəldilər. Onlar saraya girib şahzadəni təsviredilməz qədər gözəl olan şahzadə qızın çarpayısına qoydular. Özləri isə birələrə çevrilib, gənc şahzadə qızı dişləməyə başladılar. O, yuxudan oyandı və yanında uzanmış gəncin gözəlliyindən heyrətə düşdü, həmin saat ona vuruldu. Şahzadə qız Canşahı qucaqlayıb öpməyə başladı. Sonra onun ciblərini axtarmağa başladı və “Şahzadə Canşah” yazılı gözəl bir bıçaq tapdı. Şahzadə qız bıçağı gizlədib şahzadəni öpdü və onun gözəlliyinə baxıb həzz aldı. Sonra başını yatan şahzadənin sinəsinə qoyub yuxuya getdi. İndi isə birələr Canşahı dişləməyə başladılar. O, yuxudan oyanıb bura necə gəlib düşdüyünə çox təəccübləndi və sinəsində yatan qızın gözəlliyinə valeh oldu. Canşahın həyəcanı sakitləşəndə, qızın barmağından “Həyatənnüfus” yazılı üzüyü çıxardıb öz cibinə qoydu, şahzadə qızı bərk-bərk qucaqlayıb, yuxuya getdi, mələklər isə əvvəlki cildlərinə girib, şahzadəni öz çarpayısında geriyə uçurtdular. Çarpayını onun otağına qoyub, özləri isə gözdən itdilər.

Səhər tezdən şahzadə qız yuxudan oyandı və şahzadəni yanında görməyib fikirləşdi ki, yəqin onu yuxuda görübmüş. Amma yadına saldı ki, onun cibindən kiçik bıçaq götürmüşdü, həmin bıçağın özündə olduğunu gördükdə qəm-qüssəyə qərq oldu. O, gündən-günə arıqlamağa, xəstələnməyə başladı və axırda qüvvətli sevgidən dəli oldu.

Atası bunu bilib, dünyanın hər yerindən təbib və loğmanları çağırtdırıb gətirtdi. O bəyan etdi.

– Əgər kim mənim qızımı sağaltsa, qızımı ona verəcəyəm. Ondan əlavə həmin adama çoxlu var-dövlət də verəcəyəm. Amma kim sağalda bilməsə, onun boynunu vurduracağam.

Çoxları gözəl qıza sahib olmaq istəyərək bu işə girişdilər, amma həyatlarından oldular.

Şahzadə oğlan da yuxudan oyanıb şahzadə qızın barmağından çıxardığı üzüyü özündə tapdıqda elə hey fikirləşməyə başladı və nə olursa olsun, öz sevgilisini axtarıb tapmaq qərarına gəldi. Padşah oğlunun səfərə çıxmaq qərarına uzun müddət razılıq vermədi. Axırda oğlunun təkidini görüb razılıq verdi və bir neçə saray əyanını da ona qoşdu. Canşah bir neçə əyanın müşayiətində yola düşdü.

Allah bilir, çoxmu getdilər, azmı getdilər, gəlib bir keçilməz meşəyə çatdılar və orada gecələməyə yerləşdilər. Onlar yeyib-içəndən sonra yatmağa uzandılar. Hamısı yuxuya getdikdən sonra onları izləyən həramilər hücum etdilər. Bəzi əyanlar öldürüldü, digərləri isə qaçmaqla canlarını qurtardılar. Şahzadə isə bir neçə həramini öldürüb atına süvar oldu və təkbaşına yola rəvan oldu.

Yolda hər hansı bir müsəlmanı tutmaq və öldürmək məqsədi ilə ataları tərəfindən ova göndərilmiş yeddi yəhudi oğluna rast gəldi. Ovçular Canşahı gördüklərində sevindilər, amma onların sevinci kədərə döndü. Canşah onların niyyətini bilib onlarla mübarizəyə başladı və yəhudinin üç oğlunu öldürdü. Yəhudi oğullarının ölümündən xəbər tutub yoldaşları ilə Canşahı tutmağa getdi. Canşah çox keçmədən tutuldu, amma yəhudinin qızı sayəsində yəhudi Canşahı öldürə bilmədi. Qız onu pəncərədən gördü və ona vuruldu. O, Canşahı yola gətirdi ki, onunla evlənsin və söz verdi ki, onu azad edəcək. Şahzadə razı oldu, amma fürsətdən istifadə edib atına süvar olub, qaçıb getdi.

O, uzun müddət at sürdü. Axırda bir dağın başında parıldayan nəsə gördü. O, bunun nə olduğunu bilmək üçün dağın başına qalxdı, gördü ki, uzaqdan parıldayan, bərq vuran böyük saray imiş. Bu sarayın qapısında əliqılınclı div durmuşdu. Onlar

Canşahın sorğu-suallarına cavab verdilər ki, artıq on ildir ki, onlar burada qaravul çəkirlər və bu vaxtacan heç bənni-insan saraya qalxmağa cəsarət etməmişdir. Burada gözəl bacıları olan yeddi pəhləvan qardaş yaşayır. Özləri evdə olmayanda bacılarını qorumağı iki divə tapşırmışlar. Onlar Canşahdan xəbər aldılar:

– Bəs sən bu dağa qalxmağa necə cürət etmisən? Məgər özünə yazığın gəlmir?

Bu vaxt balkonda durmuş gözəl qız Canşahı gördü və divlərə əmr etdi ki, onu saraya buraxsınlar. Gözəl qız qardaşlarının ovda olmalarından istifadə edərək şahzadəni öz otağına apardı və ondan bura necə gəlib çıxdığını xəbər aldı. Canşah ona başına gələnləri nəql etdi və "Qılman" (sevgilisi Həyatənnüfusun yaşadığı şahlıq belə adlandırılır) axtardığını söylədi.

Gözəl qız onu dinləyib Canşaha təklif etdi ki, onunla evlənsin. Şahzadə susurdu, o bilirdi ki, əgər imtina etsə, qız inciyəcək.

Gözəl qız bilirdi ki, qardaşları bir azdan ovdan geri dönəcəklər. Canşahı onun otağında görməsinlər deyə bağbana əmr etdi ki, Canşahı evinə aparsın və qonaq saxlasın.

Bağban xanımın əmrini yerinə yetirdi. Çox keçmədən qardaşlar gəlib çıxdılar. Qız qardaşlarına dedi:

- Bizim saraya adi bənni-insana bənzəməyən bir yadelli gəlib çıxıb, görünür, o, padşah nəslindəndir. Gedin onun kim olduğunu öyrənin, o, bağbanın yanındadır. Əgər onu öldürsəniz, lənətlənəcəksiniz!

Qardaşlar tələm-tələsik bağbanın yanına gəldilər. Onlar bağbanın evinə girdikdə Canşah ayağa qalxdı və ehtiramla baş əydi. Canşah onlara başına gələnləri nəql etdi. Onlar şahzadəni dinləyib ona dedilər:

– Göründüyü kimi, sən nəcib ailədənsən. Bizim sənə ürəyimiz yanır. Biz istəmirik ki, sən uzaq səfərində həlak olasan. Çoxları bu yol ilə getmiş, amma heç kim geri dönməmişdir. Ən yaxşısı burada qal və biz bacımızı sənə ərə verərik, sən də bizim səkkizinci qardaşımız olarsan.

Canşah qardaşlar narazı qalmasınlar deyə onlara yenə də gəlməyi və bacıları ilə evlənməyi söz verdi. Qardaşlar ona

inandılar və şahzadəyə təhlükəsiz yolu göstərdilər. Şahzadə qardaşlarla və onların bacıları ilə görüşdü. Onlar Canşahı yemək-içmək tədarükü ilə yola saldılar.

Canşah az getdi, üz getdi, dərə-təpə düz getdi. Axır gəlib sevgilisinin yaşadığı şəhərə çatdı. O, şəhərin kənarında bir qarının evində qonaq oldu. Qarı qara libas geyinmişdi. Şahzadə ondan nə üçün qara libas geyindiyini xəbər alanda qarı dedi`:

– Ağam, bizim padşahın qızı yarım ildən çoxdur ki, ağır xəstədir. Dünyanın ən yaxşı loğman və təbibləri onu sağalda bilməyiblər. Padşah onu sağaltmağa gələn, amma sağalda bilməyən təbibləri edam etdirib, amma kim onu sağaltsa, əhd edib ki, onu həmin təbibə ərə versin.

Ertəsi gün Canşah təbib libası geyindi və padşahın sarayına getdi. O, padşaha dedi ki, onun qızını sağaltmağa boyun olur, əgər sağalda bilməsə, qoy onun da boynunu vursunlar. Padşah razı oldu. Canşah padşahın nökərlərinə əmr etdi ki, şahzadə qızın otağını pərdə ilə iki yerə ayırsınlar. Nökərlər onun əmrini yerinə yetirdikdən sonra hamıya əmr etdi ki, otağı tərk etsinlər, özü isə şahzadə qızın barmağından çıxardığı üzüklə onun otağına girdi və onu tanımasın deyə pərdənin arxasında oturdu. Canşah hər şeydən əvvəl qızdan xəstəliyinin səbəbini xəbər aldı. Şahzadə qız cavab vermədi. Sonra Canşah öz qabağına su ilə dolu fincan qoydu, üzüklə fincanın kənarına vurub dedi:

– Şahzadə qız, suda mənə görünür ki, sən vurulmusan! Elədirmi?

Amma şahzadə qız cavab vermədi. Canşah yenə də üzüklə fincanın kənarına vurub dedi:

– Şahzadə qız, sən öz sevgilinin cibindən xatirə olaraq kiçik bıçaq götürdün, o isə üzərində sənin adın yazılmış üzük götürdü.

Həyatənnüfus bunu eşidib özünü saxlaya bilmədi və danışanın kim olduğuna baxmaq üçün pərdə tərəfə atıldı. O, qarşısında təbibi deyil, bir il bundan əvvəl gözəlliyinə vurulmuş həmin gənci gördü. O, özünü Canşahın qucağına atdı. Təbii ki, bu andan onda dəliliyin heç bir əlaməti qalmadı. Canşah isə özünü padşaha təqdim etdi və qızının sağaldığını xəbər verdi.

Padşah çox sevinib, onların toyunu etdi və onlara çoxlu var-dövlət verdi. Canşah bu gözəl qızla xoşbəxt həyat sürdü. Canşah Qılmanda on il yaşayıb padşahdan təvəqqe etdi ki, onu arvadı ilə öz vilayətinə buraxsın. Padşah onları böyük var-dövlətlə buraxdı və onları qorumaq üçün böyük bir qoşun da verdi. Canşah yeddi qardaşın sarayına çatıb, bir neçə gün onlarda qaldı və onların bacısını özünə arvad etdi, sonra ailəsi ilə yola düşüb, sağ-salamat öz vilayətinə çatdı.

Onun ata-anası onun gəlib çıxmasına çox sevindilər və onlar öz doğma şəhərlərində xoşbəxt yaşadılar. Çox keçmədən padşah öldü, Canşah padşah seçildi.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi***
***Soltan Məcid Əfəndiyev Şamaxı şəhərində***
***Səftər Əzizovdan yazıya aldı.***

## 8. ŞAMİL

Biri var idi, biri yox idi, bir şah var idi. Bu şahın altmış yaşı var idi. Amma uşağı heç yox idi ki, yox idi. O, Allaha nə qədər qurban-niyaz etsə də, Allah onun dualarını eşitmirdi. Şah görür ki, ölüm də ona yaxınlaşmaqdadır, odur ki, öz yaxınlarını yanına çağırıb onlara dedi:

– Hə, bir deyin mən nə etməliyəm? Mən öləndən sonra mənim var-dövlətim, cahi-cəlalım kimə qalacaq?

Yaxın adamlar, əyanlar ona təskinlik verib dedilər:

– Qibleyi-aləm, heç kədərlənmə, Allah mərhəmətli və kərimdir.

Bir il keçir, iki il keçir, bir gün bu şəhərə cır-cındır geyinmiş uzunsaqqal, axsaq qoca dərviş gəlir. Şah onun gəlməyindən xəbər tutub əmr edir ki, həmin dərvişi onun yanına gətirsinlər. Dərviş saraya gələndən sonra şah öz dərdini ona açıb ondan kömək istəyir. Dərviş deyir:

– Qibleyi-aləm, sənin dərdinə çarə etmək olar. Sənin həyətində qoca qırmızı xoruz var, mən gedəndən sonra onu kəsərsən, bu xoruzun çinədanında bir qara yumurta var. Yumurtanı

götür və onu bişir, yarısını özün ye, o biri yarısını isə arvadına verərsən. Doqquz aydan sonra sənin vəliəhdin olacaq. On bir aydan sonra isə qızın olacaq.

Şah qoca dərvişə razılıq edib əmr etdi ki, ona gözəl libaslar və çoxlu qızıl verib ehtiramla yola salsınlar. Dərviş gedəndən sonra şah onun dediyini yerinə yetirdi. Doğrudan da, doqquz ayın tamamında onun bir oğlu, bunun üstündən on bir ay keçəndən sonra isə bir qızı oldu. Oğlanın adını Məlik Cümşüd, qızın adını isə Məstan qoydular. Məstan elə gözəl idi, sanki günəşə deyirdi: sən çıxma, qoy mən çıxım. Onu görən dünyada hər şeyi unudurdu. Şahın sevincinin həddi-hüdudu yox idi. Amma şahın sevinci çox sürmədi. Məlik Cümşüd çiçək xəstəliyindən öldü. Padşahın arvadı bu dərdə dözməyib, o da üç gündən sonra öldü.

Bu dərd-qəmdən məyus olan şah ağıllı və gözəl qızı ilə tək qaldı.

Bu şahın yaşadığı şəhərdə Parabaş adlı biri arvadı və Şamil adlı oğlu ilə yaşayırdı. Bir dəfə Parabaş baZəhra getdi və gördü ki, burada odun satırlar. O bu işə çox təəccübləndi, çünkü bu vaxtadək bazarda heç kim odun satmamışdı. O, bazardan gələndə hal-qəziyyəni arvadına nəql etdi, özü də ertəsi gün kəndir, balta və çuval götürüb meşəyə odun qırmağa getdi.

O, sıx meşəliyə girib orada azdı. Gecə düşdü, hava qaraldı, artıq göz-gözü görmürdü. Parabaş bir ağaca çıxdı, gördü ki, uzaqda işıq görünür, tez ağacdan düşdü və gedə-gedə bir komaya çatdı. O, komaya girdi və gördü ki, evin bir küncündə bir qalaq qızıl, gümüş, daş-qaşlar var. Qapının dalında isə qulaqlarının altında bir div yatır. Parabaş ehmalca divin üstündən hoppanıb, çuvalını qızıl və daş-qaşlarla doldurub yola düşdü, gəlib evinə çatdı. Qapını döydü, arvad qapıya çıxanda Parabaş arvadına dedi:

– Arvad, qapını aç, gör nə gətirmişəm.

O bunu deyib çuvalın içindəkilərini arvadına göstərdi. Arvad bu var-dövləti görüb sevincindən bilmədi nə etsin. Dedi:

– A kişi, bir de görüm bunları necə əldə etmisən?

Parabaş hər şeyi olduğu kimi arvadına nəql etdi. O gündən onlar kasıbçılığın daşını atıb yaxşı yaşamağa başladılar.

Bu işin üstündən üç gün keçdi, div yuxudan oyandı, baxıb gördü ki, onun evinə oğru gəlib, var-dövlətini də çalıb aparıb. Div barmağını kəsib, yarasına duz səpdi ki, yatmasın. Başladı oğrunu gözləməyə.

Bir neçə gündən sonra Parabaş arvadına tapşırdı ki, çuvallar hazırlasın, bəs o, yenə həmin yerə gedib var-dövlət gətirmək istəyir. Arvadı dedi:

– A kişi, bəsdi, bir daha getmə, gətirdiklərin ömrümüzün axırına kimi bizə bəsdir. Çox yemək adamı az yeməkdən də qoyar.

Amma Parabaş onun dediklərinə qulaq asmadı, o, iki çuval götürüb qızılın dalınca getdi. Gəlib həmin yerə çatdı. Qapıdan içəri girən kimi div onun üstünə atıldı və onu bütünlüklə uddu.

Parabaşın getməsindən bir gün keçdi, iki gün keçdi, üç gün keçdi, amma o, gəlmədi ki, gəlmədi. Arvadı başa düşdü ki, kişisinin başına iş gəlib və ona yas məclisi düzəltdi.

Bu arada isə Parabaşın oğlu ilbəil deyil, günbəgün deyil, dəqiqəbədəqiqə, saniyəbəsaniyə böyüyürdü. Bir gün o, anasının yanına gəlib deyir:

– Ana, bütün dostlarımın atası var, bəs mənim atam niyə yoxdur?

Anası atasının başına gələni ona nəql etdi. Şamil dedi:

– Mən necə olursa olsun, atamın intiqamını almalıyam, əgər intiqamımı ala bilməsəm, qoy sənin südün mənim üçün qan olsun.

Budur, Şamil yola düşdü, çoxmu getdi, azmı getdi, Allah bilir. Birdən onun rastına bir dəstə adam çıxdı. Onlar Şamilin yanına qızmış qoç, dəvə və camış gətirib dedilər:

– Əgər sən onları yıxsan, atanın intiqamını alacaqsan.

Şamil onların hamısını yıxdı, hər birinin budundan özünə kabab bişirib yoluna davam etdi. Çoxmu getdi, azmı getdi, pərvərdigar bilir, birdən cinar ağacında Zümrüd Quşunun yuvasını gördü. Elə bu vaxt da bir əjdaha Quşun balalarını yemək üçün ağaca qalxırdı. Şamil tez ox atıb əjdahanı öldürdü, parça-parça edib Zümrüd Quşunun balalarına verdi. Şamil yorğunluğunu almaq üçün elə həmin ağacın altında uzanıb dərin yuxuya getdi. Bu vaxt Zümrüd Quşu yuvasına gəldi. Ağacın altında yatan

Şamili gördü. Qanadlarının üstünə yeddi dəyirman daşı alıb, onları yatan Şamilin üstünə atmaq istəyəndə balaları qışqırdılar:

– Ey Quşların şahı, ona toxunma, o bizim qəddar düşməni öldürdü.

Zünrüd Quşu dəyirman daşlarını bir tərəfə atıb Şamilin yanına gəldi, qanadlarını açıb onlarla onun üstünü örtdü. Bir müddət sonra Şamil yuxudan oyandı. Zümrüd Quşu ondan xəbər aldı:

– Ey gözəl cavan oğlan, bu xeyirxah işinin müqabilində məndən nə istəyirsən?

Şamil dedi:

– Heç bir şey istəmirəm, sənin balalarını belə bir qəddar düşməndən xilas etməyi özümə müqəddəs borc sayıram.

Zümrüd Quşu ona razılıq edib, bir lələk verib dedi:

– Əgər bir şeyə ehtiyacın olsa, bu lələyə üfür və sənin arzun həmin saat yerinə yetəcək.

Şamil lələyi götürüb yola düşdü. Çoxmu getdi, azmı getdi, Allah bilir. Axırda başı göyə dəyən bir dağa çatdı. Divin koması bu dağın arxasında idi. O, lələklə dağa vurub dedi:

– Düz və qısa yol istəyirəm.

Elə o dəqiqə onun qarşısında divin komasına gedən düz və qısa yol açıldı. O, komaya daxil oldu və gördü ki, divin qızı komanın küncündə oturub, div isə bu vaxt ovda idi. Şamil dedi:

– De görüm, atanın canı haradadır? Deməsən, səni öldürəcəyəm.

Divin qızı qorxdu və rəfdəki şüşə qabı göstərdi. Şamil şüşə qabı rəfdən götürən kimi div həmin saat onun qarşısında peyda oldu. O, yerə yıxılıb ona yalvarmağa başladı.

– Şamil, məni öldürmə, bu gündən ölənədək sənin nökərin olaram.

Amma Şamil onun sözlərinə qulaq asmadı. Şüşə qabı yerə elə çırpdı ki, div o saat cəhənnəmə vasil oldu. Şamil divi parça-parça doğradı, atasını divin mədəsindən sapsağlam ağ uzunsaqqallı çıxartdı. Şamil divin bütün var-dövlətini yığıb-yığışdırıb, atası ilə bərabər evə qayıtmaq üçün yola düşdü. Yolda Şamil dincini almaq üçün yatmaq istədi. Atasından xahiş etdi ki, ona,

bir də var-dövlətə göz olsun. Şamil bunu deyib bir dərin çalanın yanında yatdı, o saat dərin yuxuya getdi. Atası oğlunun var-dövlətinə paxıllıq edib, onu dərin çalaya itələyib atdı, sonra isə onun bütün var-dövlətini yığışdırıb yoluna davam etdi.

Bir müddət sonra Şamil yuxudan ayıldı. Ətrafa baxıb gördü ki, dərin çaladadır. O saat başa düşdü ki, atası onu itələyib çalaya salmışdır. O, tez çaladan çıxdı, atasının dalınca yola düşdü. Atasına çatıb öldürdü. Özü isə var-dövlətlə evə gəlib hər şeyi anasına nəql etdi. Anası onu qucaqlayıb dedi:

– Oğul, sən öz borcunu yerinə yetirdin.

Ana və oğlu beləcə yaşayıb dolanmağa başladılar.

Çox keçmədən padşaha xəbər çatdı ki, divi öldürüblər, amma kimin öldürdüyünü heç kim bilmirdi.

Bir il də belə keçdi. Bir gün xəbər gəldi ki, şah vilayətində olan camaatı ən yaxşı atları ilə meydana yığır və hər kim öz atının belində şahzadə qızın olduğu köşkə siçrayıb çatsa, qızını ona ərə verəcək. Və onu özünün vəliəhdi edəcəkdir.

Şamil çölə çıxıb, lələyə üfürüb dedi:

– Qırat[65], bəndə Allahının qarşısında durduğu kimi sən də mənim qarşımda dur.

At qaçaraq gəldikcə yer titrəyir, qulaqlarından alov, burun deşiklərindən buğ çıxırdı. At çaparaq gəldi və onun qabağında dayandı. At dedi:

– Hə, Şamil, sağ qulağımdan gir, sol qulağımdan isə çıx!

Şamil atın sağ qulağından girdi, sol qulağından çıxdı və elə bir cavan igid oldu ki, gəl görəsən!

Onda Şamil ata süvar oldu, sarayın qabağından meydana tərəf çapdı və baxıb gördü ki, padşahın gözəllər gözəli qızı uca köşkün pəncərəsinin yanında oturub. Sarayın qabağında isə saysız-hesabsız adam var. Vəzir, vəkil, oğulları kəhər atların belində ordan bura, burdan ora at çapırlar, at oynadırlar. Şamil onları görüb özündən çıxdı, atına bir qamçı vurdu. At da acıqlandı, sıçradı və pəncərəyə çatdı. Şamil də qızın bal

---

[65] Qırat-vəhşi at

dodaqlarından öpərək bir busə aldı. Atın başını döndərdi və vəzir, vəkil oğlanlarının başlarından elə vurdu ki, onlar torpağa girdilər. Bu vaxt padşah, vəzir, vəkil qışqırmağa başladılar:

– Tutun, tutun onu!

Şamil dayandı, şaha yaxınlaşıb dedi:

– Qibleyi-aləm, mən sənin rəiyyətindən olan həmin Şamiləm ki, divi öldürdüm, xalqı əzab-əziyyətdən qurtardım.

Şah onu qucaqlayıb öpdü, onun əlindən tutub qızı Məstanın yanına apardı. Dedi:

– Ey mənim gözəl qızım, bax bu sənin nişanlın və mənim vəliəhdimdir. Bu gündən sən də onunsan.

Bir gün sonra Şamil ilə şahzadə qızın toyunu elədilər, yeddi gün, yeddi gecə toy çaldılar.

Göydən üç alma düşdü. Biri mənim, biri Məmməd bəyin, üçüncüsü isə nağılı söyləyənin.

***Yelizavetpol quberniyasının Şuşa şəhərində Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi Məmməd bəy Məlik Yeqanov yazıya aldı.***

## 9. ÇOBAN İBRAHİM

Biri var idi, biri yox idi. Çox uzaq vilayətdə bir qoca kişi yaşayırdı. Bu kişinin iki oğlu var idi. Birinin adı Rüstəm, o birinin adı isə İbrahim idi. Vaxt gəldi, qoca kişi öldü. Atasından oğullara kiçik qoyun sürüsü qaldı.

Oğlanlar boya-başa çatıb öz sürülərini otarmağa başladılar. Axşam isə analarının yanına qayıdırdılar.

Beləliklə, bir neçə il keçdi. Bir dəfə qardaşlar çöllü-biyabanda gecələməli oldular. Kiçik qardaş yuxusunda gördü ki, ay göydən düz onun sürüsünün üstünə endi. O, yuxudan oyanıb qardaşını oyatdı və yuxusunu ona nəql etdi. Rüstəm qardaşının yuxusunu belə yozdu:

– Sənin yuxun sənin böyük gələcəyindən xəbər verir.

Bundan sonra İbrahim yuxusunu o biri qardaşlarına da nəql etdi və hamısı böyük qardaşı Rüstəmin dediklərini dedilər. O, ata-

sından ona qalan payı öz qardaşına, anasına, yaxın qohumlarına bağışladı. Özü ilə yalnız üç pudluq çomağını götürüb yola düşdü.

İbrahim az getdi, üz getdi, bir xeyli vaxtdan sonra gəlib bir şəhərə çatdı. Bu şəhərin yaxınlığında bir uçuq qala var idi. Axşam vaxtı olduğundan İbrahim qərara gəldi ki, elə bu qalada gecələsin, səhər isə şəhərə getsin.

İbrahim burada qalmaqda olsun, sizə bu şəhərin padşahından danışım. Bu şəhərin bir padşahı var idi. Onun da gözünün ağı-qarası bir qızı var idi. Padşahın qızı ilə vəzirin oğlu İbrahim bir mədrəsədə oxuyurdular. Elə burada da bir-birinə könül vermişdilər. Bir dəfə onlar mədrəsədən qayıdanda vəzirin oğlu şahzadə qıza dedi:

– Biz bir-birimizə məhəbbət bağladıq. Sənin atan şah, mənimki isə vəzirdir. Buna görə də o, səni mənə verməyəcək. Əgər razı olsan, mən səni başqa vilayətə apararam.

Şahzadə qız razı oldu və dedi:

– İndi ki, belədir, mən evə gedib vəzndə yüngül, qiymətdən ağır nə varsa götürərəm. Üstəlik iki at da götürüb gecə şəhərin yaxınlığındakı köhnə uçuq qalaya gələrəm. Sən isə indi o qalaya get və məni orada gözlə!

Sonra ayrılıb hərəsi öz evinə getdi. Axşam düşəndə vəzirin oğlu öz-özünə dedi:

– Gülşad padşah qızıdır, dediklərini yerinə yetirə bilməz, indi də yəqin yatır.

Bu arada isə şahzadə qız necə demişdisə, elə də etdi. O, çoxlu qızıl götürdü, iki at yəhərlədi və gizlicə saraydan çıxdı. Gülşad həmin qala olan yerə gəlib vəzirin oğlunu səsləməyə başladı. Bu vaxt çoban İbrahim yuxudan ayıldı, qulaq verməyə başladı ki, görsün onu səsləyən kimdir. O, kiminsə onu adı ilə səslədiyini eşidəndə cavab verdi. Şahzadə qız onu vəzirin oğlu bilib ondan xahiş etdi ki, tez qaladan çıxsın və ata minsin. İbrahim şahzadə qızın qabağına çıxdı. Şahzadə qız qaranlıqda onun kim olduğunu görməyərək ondan tez ata minib çıxıb getməsini istədi. Çoban İbrahim onun istəyini yerinə yetirdi.

Gülşad atın üstündə qabaqda, çoban İbrahim isə onun arxasında gedirdi. Hava işıqlanmağa başlayanda şahzadə qız arxaya

çevrildi və çox təəccübləndi. Atın üstündə əlində böyük bir çomaq tutmuş cındır paltarlı bir oğlan oturmuşdu. Şahzadə qız ondan kim olduğunu xəbər aldı. Çoban İbrahim ona başına gələnləri nəql etdi. Gülşad da başına gələnləri İbrahimə danışdı. O, öz səhvindən çox pərt olmuşdu. Nə etməli, olan olmuşdu, qismət bu imiş. O, İbrahimə əmr etdi ki, onun arxasınca gəlsin.

Onlar az getdilər, üz getdilər, axır gəlib bir bulaq başına çatdılar, gəlib burada dayandılar ki, susuzluq və aclıqlarını yatırsınlar. İbrahim bu bulağın həndəvərində yumurta böyüklüyündə bir ağ daş tapdı. İbrahim daşı şahzadə qıza aparıb göstərdi. Şahzadə daşa baxıb onun çox bahalı olduğunu dedi. İbrahim daşı cibinə qoydu və əlindəki çomağı bir tərəfə tullayıb şahzadə qızla yoluna davam etdi.

Onlar bir neçə günə gəlib bir şəhərə çatdılar. Burada bir ev tutdular. Gülşad İbrahimə yaxşı əyin-baş alıb, gözəl bir saray tikdirib, şad-xürrəm yaşamağa başladılar.

Şahzadə Gülşadın atası səhər yuxudan oyanıb qızının evdə olmadığını gördü. Gülşadı çox axtardılar, amma heç bir yerdə tapmadılar. Padşah uzun illər qəm-qüssə içində yaşayıb, axırda sakitləşdi.

İbrahimlə Gülşadın yaşadıqları şəhərdə Məlikaslan adında bir padşah hökmranlıq edirdi. Şahzadə qız onunla tanış olmaq istədi. O, bir boşqabı ləl-cəvahiratla doldurdu. Onların üstünə də İbrahimin bulağın yanında tapdığı daşı qoyub padşaha hədiyyə göndərdi. Sonra isə özləri də padşahın yanına getdilər. Padşah onları xüsusi hörmətlə qarşılayıb hədiyyələrini qəbul etdi. Padşah və onun vəziri Məmmədəli onlara həsəd aparıb bir-birlərinə dedilər:

– Görəsən, onların bu qədər var-dövləti haradandır. Bizim bu qədər var-dövlətimiz yoxdur.

Burada onlar məsləhət eləməyə başladılar ki, İbrahimin var-dövlətini necə əlindən alsınlar. Vəzir padşaha dedi:

– Qibleyi-aləm, sən özünü naxoşluğa vur, mən isə İbrahimi çağırım. İbrahim gələndə sən ona de ki, xəstəsən, gərək mənə hədiyyə etdiyin daşlardan bir neçəsini gətirəsən ki, mən sağalım.

Vəzirin tədbiri padşahın xoşuna gəldi və əmr etdi ki, İbrahimi çağırsınlar. İbrahim padşahın yanına gələndə padşah əmr etdi ki, ona bir neçə ağ daş gətirsin ki, naxoşluqdan sağalsın. İbrahim dedi:

– Qibleyi-aləm, ya ölərəm, ya da bu daşlardan sənə gətirərəm.

Bunu deyib o, evinə getdi və səfərə hazırlaşmağa başladı.

Ertəsi günü səhər tezdən İbrahim ata minib həmin bulağa tərəf çapdı. Bulağa çatıb atdan endi, atı ağaca bağladı, özü isə bulağa girdi. Bulaqda su dərin idi. İbrahim bulağa girər-girməz bulağın dibinə endi və orada suyun altı ilə gəzməyə başladı. Bir müddət sonra o, quruya çıxdı və yenidən yoluna davam etdi. Onun qarşısında bir böyük qapı açıldı. O, qapını açdı və başqa qapı gördü, ikinci qapını açdı, üçüncü qapını da açdıqda səliqə-səhmanlı bir otağa girdi. Bu vaxt otaqda gözəl qız yatırdı. İbrahim bir baxışdan qıza vuruldu və onun qarşısında durub gözəlliyindən həzz aldı. Bu vaxt həmin qız yuxudan oyandı və qarşısında tanımadığı adamı görüb çox təəccübləndi. Qız ona dedi:

– Ey cavan oğlan, sən bura necə gəlib çıxmısan və necə cürət edib burada dayanırsan? Bu yer bir divindir. İndi ovdadır, bir azdan qayıdacaq. Əgər səni burada görsə, məni və səni parça-parça edəcək. Nə qədər imkan var, çıx get. Mən özüm şahzadəyəm. Bir dəfə bu bulağa gəzməyə gəlmişdim. Div burada məni gördü, özü ilə apardı və bu otaqda məni həbs etdi.

İbrahim onu sakitləşdirib dedi:

– Ey gözəl, qorxma, mən divi öldürməyə və səni əsirlikdən qurtarmağa gəlmişəm.

Gözəl qız İbrahimdən yer altında adam yaşadığını necə öyrəndiyini xəbər aldı. İbrahim bura nə üçün gəldiyini ona nəql etdi. Şahzadə qız İbrahimə dedi ki, axtardığı daşlar onun özünün yanında əmələ gəlir və qiymətdə çox bahadır.

Elə bu vaxt göy guruldadı, yel əsdi və bütün bina hərəkətə gəldi. Gözəl qız İbrahimə dedi:

– Ey cavan, sənə yazığım gəlir, bir yerdə gizlən, div artıq gəlir.

Onda İbrahim qılıncını sıyırıb qapının arxasında gizləndi. Div otağa girən kimi İbrahim qapının arxasından sıçrayıb divin başına qılıncla elə güclü zərbə endirdi ki, o, yerə ölü düşdü. Sonra İbrahim qızla birgə divin xəzinəsini də götürüb yola düşdü. Onlar bulağa çatıb ata mindilər və evə yol aldılar.

Sən demə, bu gözəl qız cinlər padşahının qızı Şahsənəm imiş. Onlar evə çatıb bir neçə gün dincəldilər. İbrahim padşahın yanına getmək istədi. Onda Şahsənəm xahiş etdi ki, ona içində su olan bir boşqab versin. İbrahim ona istədiyini verdi. Qız əli ilə burnuna vurdu və burnundan axan on iki damcı qan o saat on iki daşa çevrildi, o daşlara ki, padşah İbrahimdən tələb etmişdi. İbrahim bu daşları götürüb, saraya padşahın yanına getdi. Padşahın hüzurunda durub ona təzim etdi və daşları onun qabağına qoydu. Padşah İbrahimdən daşları alıb onu yola saldı. İbrahim getdikdən sonra padşah vəziri çağırıb onunla məsləhət etdi ki, onun başını necə batırsın. Padşah vəzirdən bu iş üçün tədbir istədi. Bir neçə gündən sonra vəzir Məmmədəli padşahın hüzuruna gəlib padşaha dedi:

– Qibleyi-aləm, İbrahimi çağır və ona de ki, daşlar mənə kömək etmədi. Əgər sən "ətri-lalə" deyilən qızılgülü tapıb mənə gətirsən, şəfa taparam.

Padşah əmr etdi ki, İbrahimi çağırsınlar. Fərraşlar gedib İbrahimi evindən çağırdılar. İbrahim o saat gəib padşahın hüzurunda dayandı. İbrahim padşahdan "ətri-lalə" qızılgülünü gətirmək əmrini alıb evinə gəldi və səfərə hazırlaşmağa başladı.

Bir neçə gündən sonra İbrahm yola düşdü. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib bir çölə çatdı. Burada atını otlamağa buraxdı, özü isə bir ağacın altında yatmağa uzandı. Bir ağacın başında Zümrüd Quşunun yuvası var idi. İbrahim elə yenicə yuxuya getmişdi ki, bir güclü çığırtı eşitdi. Çığıran Zümrüd Quşunun yuvadakı balaları idi. Bir əjdaha yuxarı qalxıb onları yeməyə hazırlaşırdı. İbrahim bunu görüb yerindən sıçradı. İlana ox atdı, ilan o saat yerə düşdü. İbrahim onu tikə-tikə edib, ağacın altına atdı, özü isə yerə yıxılıb yatdı.

Bir qədər vaxt keçdikdən sonra Quş balalarının anası uçub gəldi. O, yatan İbrahimi görüb elə düşündü ki, hər il onun balalarını yeyən düşmənidi. Buna görə də o, geri uçub getdi və çox keçmədən caynaqlarında bir dəyirman daşı gətirdi. O, həmin daşı İbrahimin başına salmaq istəyirdi. Bu vaxt Quşun balaları analarına qışqırdılar:

– Bu adam bizi yemək istəyən əjdahadan xilas etdi. O, əjdahanı tikə-tikə edib ağacın altına atdı. Əgər o olmasaydı, biz hamımız ölmüşdük.

Zümrüd Quşu bunu eşidib, öldürülmüş əjdahanı ağacın altında görüb caynaqlarındakı dəyirman daşını bir tərəfə atdı. Günəş şüalarının İbrahimin yatmasına əngəl olduğunu görüb, qanadlarını onun başı üstdə açdı və o, yuxudan oyananadək belə durdu. İbrahim yuxudan oyanıb başının üstündə bir Quşu gördükdə çox təəccübləndi. Bu vaxt Quş adam dili ilə onunla danışmağa başladı.

– Sən ki mənim düşmənimi öldürdün və uşaqlarımı ölümdən xilas etdin, mən sənin bu yaxşılığının əvəzini çıxmalıyam, bir de görüm, sən buraya nə üçün gəlmisən, mən sənə kömək edərəm.

İbrahim “ətri-lalə” qızılgülündən ötrü gəldiyini söylədi. Zümrüd Quşu dedi:

– Bu qızılgül iki qıza məxsus olan bir kolda bitdiyindən onu tapmaq çox çətindir. Qızların da harada yaşadıqlarını heç kim bilmir. Mən bu qızılgülü tapmağın yalnız bir yolunu bilirəm. Bura yaxın bir yerdə bir yol var, onun da yanında həmişəyaşıl bir ağac durur. Hər gün bu qızlar göyərçin cildində uçub gəlir, soyunub bənni-adəmə çevrilir və çimməyə başlayırlar. Sən gölə tərəf get, ağaca çıx və gözlə. Göyərçinlər uçub gələndə gizlincə onların libaslarını götür və yenidən ağaca çıx. Qızlar sənə yalvarmağa başlayacaqlar ki, libaslarını onlara qaytarasan. Onda sən onların libaslarını qaytar və onlardan qızılgülü istə.

İbrahim tez-tələsik gölə tərəf getdi, ağaca çıxdı və göyərçinləri gözləməyə başladı. Çox keçmədən göyərçinlər uçub gəldilər, libaslarını soyundular, iki gözəl qız olub çimməyə başladılar. İbrahim onların libaslarını oğurlayıb yenidən gizləndi. Qızlar libaslarını tapa bilməyib oğrunu tapmaq üçün yan-yörəni axtarmağa başladılar. Bu vaxt onlar İbrahimi ağacda görüb dedilər:

– Ey oğlan, libaslarımızı bizə qaytar, sənə nə lazımdırsa de, istəyini yerinə yetirək.

İbrahim onların libaslarını verdi və dedi ki, ona “ətri-lalə” qızılgülü lazımdır. Onda qızlardan biri gülümsədi və o saat onun gülüşündən “ətri-lalə” qızılgülü əmələ gəldi. İbrahim bu gülləri götürdü qızlara təşəkkür etdi və geri qayıtmaq istəyəndə qızlar onu saxladılar, İbrahimə saçlarından bir neçə tük verib dedilər:

– Əgər sənə bir şey lazım olsa və ya bir təhlükə qarşısında olsan, bu tükləri yandır və biz o saat qoşunla sənin yanında olacağıq.

Qızlar bu sözləri deyib göyərçinlərə çevrildilər və uçub getdilər. İbrahim isə Zümrüd Quşunun yanına getdi. Zümrüd Quşu ona bir lələk verdi. Qızların ona dediklərini o da İbrahimə dedi. İbrahim onunla halallaşıb atına mindi və evinə yola düşdü.

İbrahim evə qayıdıb, ertəsi gün qızılgüllərdən bir dəstə bağlayıb padşahın yanına yola düşdü. İbrahimin sağ-salamat gəlməyi padşahla vəziri təəccübləndirdi.

İbrahim evinə qayıtdıqdan sonra padşah vəzirə dedi:

– Biz bu vaxtadək onun var-dövlətinə sahib olmağa çalışırdıq, indisə onun özündən qorxmaq lazımdır. Çünkü o, axırda bizi öldürəcək, özü isə padşah olacaq.

Vəzir bir qədər fikirləşib padşaha dedi:

– Qibleyi-aləm, yenə də özünü xəstəliyə vur, əmr et ki, İbrahimi çağırsınlar. Ona Göy dənizin o tayında yalnız bir bağda bitən, gözəl dadı olan armudlardan gətirməyi əmr et! Əgər o, bu dəfə də sağ-salamat gəlib çıxsa, onda onunla açıqdan-açığa vuruşmalı olacağıq.

Padşah İbrahimi hüzuruna çağırtdırıb əmr etdi ki, Göy dənizin o tayından ona armudlar gətirsin. İbrahim yenə bir söz deməyib evinə gedib səfərə tədarük gördü. Evdə arvadları heç razı olmadılar ki, o, armudların dalınca səfərə çıxsın. Çünki onlar bilirdilər ki, padşah onun başını batırmaq istəyir. Amma İbrahim heç onlara qulaq asmaq da istəmədi və çox keçmədən yola düşdü. O, çox çətinliklərdən sonra Göy dənizə gəlib çatdı və gördü ki, dənizin o tayında çox uzaqlarda bir bağ qaralır. Göy dənizin üstündən keçmək müşkül iş idi. Ətrafından ötüb keçmək isə yeddi aydan çox çəkirdi. İbrahim atdan endi, atı cidarladı və çölə otlamağa buraxdı, özü isə yerdə oturub fikirləşməyə başladı ki, nə etsin. Birdən o, Zümrüd Quşunu xatırladı, onun lələyini götürdü və oda tutdu. Zümrüd Quşu o saat yanında hazır oldu. Və ona nə lazım olduğunu xəbər aldı. İbrahim ona dedi ki, padşah çox xəstədir və onu Göy dənizin o tayına göndərib ki, bir bağda bitən armudlardan ona gətirsin. İndi isə bilmir ki, dənizi necə keçsin. Zümrüd Quşu onu sakitləşdirib dedi:

– Buradan o bağadək yeddi aylıq yol var, amma sən qorxma, mən səni iki saata ora çatdıracağam.

İbrahim çox sevindi, atı Göy dənizin yanında qoyub Zümrüd Quşunun belinə oturdu və onlar bağa tərəf uçdular, iki saatdan sonra onlar artıq orada idilər. Bağda yetişmiş çoxlu alma və armud var idi. Zümrüd Quşu İbrahimə dedi:

– Əgər kimsə bu almalardan yesə, həmin adamın quyruğu əmələ gələcəkdir və o, yerindən tərpənə bilməyəcək. Əgər ona yeməyə bu armudlar verilsə, onun quyruğu yox olacaq, özü isə gümrah olacaqdır.

Bundan sonra İbrahim bağa girib bütöv bir çuval alma və armud yığdı. İbrahim yenidən Zümrüd Quşunun belinə minib Göy dənizin o biri tayına uçdu. Burada o, Zümrüd Quşu ilə halallaşdı, atına minib evinə yola düşdü.

Ertəsi gün bir neçə armud götürüb padşahın yanına getdi. Padşah və vəzir İbrahimi görüb yenə də çox təəccübləndilər və ona dedilər:

– Biz səndən ehtiyat edirik, sən bizim vilayətə sahib olmaq istəyirsən, buna görə də biz səni öldürməliyik.

İbrahim bunu eşidib çox qeyzləndi və padşaha dedi:

– Qibleyi-aləm, bu vaxtadək sənə hörmət etdiyimdən sənin hər tapşırığını yerinə yetirmişəm. Əgər sən indi məni öldürmək və ya mənimlə vuruşmaq istəyirsənsə, mənə iki günə möhlət ver ki, mən də müharibəyə hazırlaşa bilim.

Padşah razı oldu. İbrahim qanıqara kədər içində evə qayıtdı. Arvadları onu bu halda görüb nə olduğunu xəbər aldıqda o, başına gələni onlara nəql etdi. Onlar onu bir az sakitləşdirib dedilər:

– Qorxma, Allah haqqın arxasındadır.

İbrahim başına gələnləri çox fikirləşdi, aşındı-daşındı və axırda Zümrüd Quşu və saçlarından ona tük verən iki qız yadına düşdü. İbrahim o saat Zümrüd Quşunun lələyini, qızların saçlarını oda tutdu və onlar dərhal qoşunları ilə onun yanına gəldlər. İbrahim bu qoşunları özündən arxada saxladı. Onlardan xahiş etdi ki, nə qədər ki, yorulmayıb ona kömək etməsinlər. Təyin olunan gün döyüş başladı. İbrahim döyüş libasını geyinib, yaraq əsləhəsini əlinə alıb

atının belində düşmənin qabağına çıxdı. Padşahın qoşunundan bir pəhləvan onun qabağına gəldi. Onlar çox vuruşdular, axırda İbrahim onu cəhənnəmə vasil etdi. Beləliklə, İbrahim padşahın qoşunundan bir neçə pəhləvanı şil-küt edib öldürdü. Axırda İbrahim qılıncını sıyırıb padşahın bütün qoşununu pərəm-pərəm etdi. O, qoşunla qurtarıb, padşahla vəziri də cəhənnəmə vasil etdi. Sonra isə öz qoşununun yanına qayıdıb, razılıq edərək onları yola saldı. Bundan sonra İbrahim padşah olub, ədalətlə hökmranlıq etdi.

Göydən üç alma düşdü, biri mənim, nağılı danışanın, biri nağılı dinləyənlərin, biri də qapıda pay istəyən dərvişin.

***Zaqafqaziya Müəllimlər Seminariyasının yetişdirməsi Rüstəm Məlikaslanov Qori şəhərində Borçalı qəzası Sarvan kənd sakinindən yazıya aldı.***

## 10. YETİM İBRAHİM VƏ XƏSİS BAQQAL HAQQINDA

Biri vardı, biri yoxdu, bir vilayətdə bir Quştutanla arvadı var idi. Onların günü-güZəhranı çox ağır idi. Bəzən ər arvadını tək qoyub uzaq vilayətlərə gedir, orada Quş ovlayıb, onları dəyər-dəyməzinə satır və bu yolla da öz başını dolandırırdı. Arvad isə onun-bunun evində bir qarın əppəyə işləyirdi. Çox keçmədi ki, arvadın başına daha ağır bir bəla gəldi, əri öldü. Yazıq dul arvada hamının ürəyi yandı. Bütün bunlarla yanaşı, arvad hamilə imiş və daha əvvəlki kimi işləyə bilmirdi. Elə ki, vaxt-vədə tamam oldu, onun bir oğlu oldu. İndi o, təkcə özünü deyil, oğlunu da dolandırmalı idi. Uşağın adını İbrahim qoydular.

Ay dolandı, il dolandı, İbrahim on iki yaşına çatdı. O, anasının gecə-gündüz işləyib əldən düşdüyünü görüb bir dəfə anasına dedi:

– Ana, mənim atam var? Əgər varsa, haradadır, nə işlə məşğul olur?

Anası cavab verdi:

– Sənin atan vardı, amma indi ölübdür. O, Quş tutmaqla məşğul olurdu, ondan tor və tütək yadigar qalıb. Atan bunlarla Quş tuturdu.

Oğlan xəbər aldı:

– Bu miras haradadır?

Anası əli ilə sandığı göstərərək dedi:

– Bax, istifadəsiz sandıqda yatıb qalıb.

İbrahim həvəslə sandıq tərəfə atıldı, atasından qalmış bekara mirası çıxartdı və onu nəzərdən keçirməyə başladı. Bu vaxt o atasının yolu ilə getmək və onun sənəti ilə məşğul olmaq qərarına gəldi.

Günlərin bir günü İbrahim anasına dedi ki, o, Quş tutmağa gedir və ondan təvəqqe etdi ki, ona yol azuqəsi hazırlasın. Anası oğlunun gözlənilməz niyyətinə təəccüblənərək hara getdiyini xəbər aldı. İbrahim anasına dedi ki, o, o vaxtadək gəzib dolaşmaq istəyir ki, Allahın onlara yazığı gəlsin və ona öz bərəkətini göndərsin. Bu sözlər onun bədbəxt anasına təsir etdi və o, oğlunu gözüyaşlı səfərə hazırlamağa başladı. O, bir dövlətlidən yarım il onlara işləmək şərti ilə bir az pul borc elədi. Bədbəxt ana bu pula çörək, pendir aldı və beləliklə, oğlunu uzaq səfərə hazırladı.

Beləcə, bir gün səhər İbrahim anası ilə vidalaşıb yola düşdü. O, gecə-gündüz yol getdi, üçüncü gün tanımadığı bir meşənin kənarına gəlib çıxdı. İbrahim burada özünə bir koma düzəltdi ki, bir neçə gün orada yaşasın və Quş ovlamaqla məşğul olsun. İbrahim orada qısa müddət yaşamalı oldu. O, toru qurub tütəyi yenicə çalmağa başlamışdı ki, bir qeyri-adi Quş uçub gəldi. Onun hər lələyinin xüsusi rəngi var idi. İbrahim Quşun gözəlliyinə baxdıqca həzz alırdı. Quş tora düşəndə isə onun sevincinin həddi-hüdudu yox idi. İbrahim onu torla bərabər tutub, çox götür-qoy etmədən sevincini anası ilə bölüşmək üçün evə geri döndü. İbrahimin anası oğlunun belə bir yaxşı qənimətlə geri dönməsinə çox sevindi. O arxayın idi ki, hər bir adam bu Quş üçün həvəslə pul verəcəkdir. Amma İbrahim onu satmaq fikrində deyildi, o, Quşu qəfəsə qoyub onun gözəlliyindən həzz alırdı. Bir müddətdən sonra bu Quş bir yumurta yumurtladı. Yoxsul ailə yumurtanın Quşun özü qədər gözəl olduğunu görəndə çox sevindilər. İbrahimin anası yumurtanı götürüb satmaq üçün baqqalın yanına getdi. Baqqal yumurta üçün ona bir az pul verdi,

vəd etdi ki, əgər yenə belə yumurta gətirsə, ona ikiqat pul verəcək. İbrahimin anası son dərəcə razı halda evinə qayıtdı.

Baqqal isə yumurtanı götürüb padşahın yanına getdi ki, bu yumurtanı padşaha hədiyyə etsin. Padşah belə bir hədiyyəyə çox sevindi və baqqalı səxavətlə mükafatlandırdı. Baqqal evinə dönər-dönməz İbrahimin anası ona daha iki yumurta gətirdi. Baqqal yenə də onları padşaha apardı. Padşah ona əmr etdi ki, xəzinədən bacardığı qədər pul götürsün. Baqqal padşahın əmrini yerinə yetirməyə tələsdi. Beləliklə, baqqal qısa müddətdə şəhərin ən varlı adamlarından biri oldu. İbrahimin anası onun belə tez varlanmasının səbəbini öyrənib, ona yumurta satmadı, halbuki o, hər yumurta üçün böyük pullar təklif edirdi.

Bir dəfə İbrahim bu yumurtalardan bir neçəsini götürüb padşahın yanına getdi. Padşah İbrahimi baqqaldan daha yaxşı mükafatlandırdı, ona xəzinədən istədiyi qədər pul götürməyə izn verildi. İbrahimin padşahın yanına getməyindən baqqal xəbər tutdu və onun arxasınca getdi. Yolda padşahın yanından qayıdan İbrahimə rast gəldi və ondan xahiş etməyə başladı ki, aldığı pullardan ona da versin. Amma İbrahim ona heç bir şey vermədi. O, İbrahimdən bərk incidi və ondan intiqam alacağına and içdi. Bundan sonra İbrahim bir neçə dəfə hədiyyələrlə padşahın yanına getdi və hər dəfə onun tərəfindən səxavətlə mükafatlandırıldı. Baqqal isə İbrahimi var-dövlətindən necə məhrum etmək barədə fikirləşirdi.

Bir səhər vaxtı, o, padşahın yanına yollandı və ona dedi:

– Qibleyi-aləm, İbrahimdən yumurtaları almayın, ən yaxşısı, belə gözəl yumurtalar yumurtlayan o qəribə Quşu tapıb gətirməsini tələb edin. O, padşaha layiqdir.

Padşah bir qədər fikirləşdi və baqqalın fikri ilə razılaşdı. Ertəsi gün İbrahim yenə yumurtalarla padşahın yanına gəldi. Padşah adəti üzrə onu mükafatlandırıb əmr etdi ki, ertəsi gün bu yumurtaları yumurtlayan Quşun özünü gətirsin. Padşahın təklifi İbrahimə çətin göründü. O, evə qayıdıb, başına gələni anasına nəql etdi. Bu Quşdan məhrum olmaq onlar üçün böyük bədbəxtçilik idi, halbuki padşahın onları səxavətlə mükafatlandıracağını bilirdilər. Ana-oğul bu barədə çox düşündülər, amma heç bir

nəticəyə gəlmədilər. Onlar padşahın əmrini yerinə yetirməli və Quşu padşaha verməli idilər.

Ertəsi gün İbrahim Quşla padşahın yanına getdi. Padşah bu Quşu görəndə heyrətləndi. O, İbrahimə xəzinədən apara biləcəyi qədər qızıl götürməyə izn verdi. O vaxtdan İbrahim varlanmağa başladı. Baqqal ona çox qibtə edirdi. Belə ki, hətta onu həyatına öldürməyi də düşünürdü. Bundan əlavə, İbrahim padşahın yaxın adamlarından biri oldu və o, hər gün onun yanına gedirdi. Padşahın İbrahimə olan bu münasibəti baqqal üçün çox xoşagəlməz idi. O, hər cür tədbirlərlə ona zərər vurmağa çalışırdı.

Günlərin bir günü o, padşahın yanına getdi və dedi:

– Qibleyi-aləm, İbrahimin sizə gətirdiyi Quş həftədə üç yumurta yumurtlayır. Bir müddətdən sonra isə heç yumurtlamayacaq, çünki erkəyi yoxdur. İbrahimə erkəyi tutmağı və gətirməyi əmr edin.

Padşah baqqalın sözünə qulaq asdı və ertəsi gün İbrahim adəti üzrə onun yanına gələndə dərhal erkək Quşu gətirməyi əmr etdi, əks halda onu edam etdirməklə hədələdi.

İbrahimin qanı qaraldı, evinə geri döndü və başına gələni anasına nəql etdi. Anası İbrahimi sakitləşdirib dedi:

– Yenə də bu Quşu tutduğun həmin yerə yola düş. Görünür, erkəyi də onunla imiş. Sən toru qur və tütəyi üflə, erkək uçub gələndə, onu tutanadək gözdən qoyma!

Anasının sözləri İbrahimi bir qədər ruhlandırdı. O, yenə səyahətə hazırlandı. Dördüncü gün İbrahim tanış meşənin kənarına gəlib çıxdı. O, qabaqkı kimi burada yerləşib səbrsizliklə qəribə Quşun gəlməsini gözləməyə başladı. Nəhayət, Quş uçub gəldi, İbrahim elə bir zəhmət çəkmədən onu tutdu. Yenicə tutduğu Quş əvvəlkindən daha gözəl idi. İbrahim sevincindən özünə yer tapmayıb dərhal evə geri döndü. O, yoldan elə yorulmuşdu ki, evə geri döndükdən sonra tam üç gün yatdı. Dördüncü gün o, Quşu özü ilə götürdü və padşahın yanına yola düşdü. Padşah yeni Quşun gözəlliyinə heyran oldu və adəti üzrə İbrahimi səxavətlə mükafatlandırdı.

Baqqal bunu eşidib çox qeyzləndi, paxıllıq ona daha çox əziyyət verirdi. O, İbrahimin şan-şöhrətini zəiflətməyə çalışırdı.

İbrahim isə getdikcə padşahın daha artıq hüsn-rəğbətini qazanırdı. Baqqal İbrahimin zərərinə bir şey fikirləşməyə çalışırdı, axırda padşaha qəribə bir qızılgüldən danışmaq fikrinə düşdü, onu əldə etmək mümkün olsa idi, tam bir ilin ərzində onun gözəlliyindən həzz almaq olardı. Amma bu qızılgülü əldə etmək çox müşkül iş idi, çünki o gül divin bağındakı bir kolda bitirdi. Bu gülü əldə etmək istəyən bir çox insanı div məhv etmişdi. Bu bir yana, divin bağı bir sajın[66] enində divar ilə əhatə olunmuşdu. Bu bağa iki şirin qoruduğu yalnız bir qapıdan girmək mümkün idi.

Baqqal səhər tezdən padşahın hüzuruna getdi. Padşah onu gülərüzlə qarşıladı. Baqqal bir qədər susduqdan sonra danışmağa başladı:

– Qibleyi-aləm, sən son dərəcə zəngin və əzəmətlisən, yanına çoxlu qonaqlar gəlir, sarayında çatışmayan bir tək şey vardır, o da qeyri-adi qızılgüllərdir.

Padşah onun cavabında dedi:

– Mənə o qeyri-adi qızılgüllərdən birini gətirən adamı var-dövlətdən qəni edərdim, eşitmişəm ki, çoxları o gülləri gətirmək üçün gedirlər, amma geri qayıtmayıblar.

Baqqal dedi:

– Qibleyi-aləm, bu işin öhdəsindən gəlmək olar, sənin mərhəmətinlə var-dövlətli olan yetim İbrahimin sehrli bacarıqları vardır. Axı o, sehr vasitəsi ilə sənə cənnət Quşlarını gətirə bildi, yer üzündə onun bacarmadığı iş yoxdur.

Padşah baqqalın sözlərinə inandı və hətta onu fərasətinə görə özünə əyan təyin etdi. Bu vaxt İbrahim də padşahın hüzuruna gəldi, padşah ona baqqalın dediyini yerinə yetirməyi əmr etdi. İbrahim belə qeyri-adi qızılgül haqqında birinci dəfə idi ki, eşidirdi, heç bilmirdi onu harada və necə əldə emək olar. O, gözüyaşlı evinə geri döndü. Anası nə qədər etdisə, onun ağlamasının səbəbini öyrənə bilmədi. İbrahim bir söz belə demək halında deyildi. Axırda anası da oğlunu belə görüb, o da ağlamağa başladı. Onlar yuxuya gedənə kimi ağladılar. Səhər yuxudan

---

[66] Sajın- üç arşına və ya 2,134 metrə bərabər uzunluq ölçüsü

ayılanda o, hal-qəziyyəni anasına nəql etdi. Anası qeyri-adi qızılgül haqqında çox eşitmişdi, onu əldə etməyin necə çətin olduğunu bilirdi. O, oğlunun gedər-gəlməzə getdiyinə inanırdı. Nə etməli, padşahın əmrini yerinə yetirmək lazım idi. İbrahim ümidsizlik içində, olacağa çarə yoxdur deyə düşünüb yola düşmək qərarına gəldi, o, özü ilə çoxlu pul götürdü, bilirdi ki, səfəri çox çəkəcək. İbrahim anası ilə görüşüb, halallaşıb yola düşdü.

İbrahim az getdi, üz getdi, dərə-təpə düz getdi, səfərinin üçüncü ili qəribə qızılgülün olduğu həmin bağa gəlib çatdı. O, burada bir neçə gün dincəldi və yeddinci gün yavaş-yavaş bağa yaxınlaşdı. Bağ o qədər böyük idi ki, İbrahim bağı gəzməkdən yoruldu. İbrahim bağın divarının ətrafında çox dolaşdı, amma içəri keçmək üçün bir yol tapa bilmədi. O, elə dincəlməyə hazırlaşırdı ki, gördü bir div ona tərəf gəlir. Bu bağın sahibi div idi. İbrahim çox qorxdu və kolların arasında gizləndi. Beləliklə, div İbrahimin gizləndiyi kola yaxınlaşdı. Xoşbəxtlikdən div onu görmədi. Div bağın divarına yaxınlaşıb divara bir yumruq vurdu, divarın bir hissəsi dərhal aralanıb yol verdi və div bağa girdi. İbrahim bu vaxt gizləndiyi yerdən çıxıb divin ardınca getdi. O, gözünü divdən çəkmədi və gördü ki, div saraya girdi. İbrahim saraya girməyə ürək etmədi, bilirdi ki, div onu orada görüb, tikə-tikə edəcək. Amma bir qədər götür-qoy etdikdən sonra gizlincə saraya girmək qərarına gəldi. İbrahim saraya girib, otaqları bir-bir gəzməyə başladı və gəlib gözəl otağa çatdı. Otağa baxanda çox bahalı xalçanın üstündə oturmuş huri mələk kimi gözəl bir qız gördü, həmin div də yerdə uzanıb başını bu qızın dizi üstə qoymuşdu. O, tanımadığı gənc oğlanı gördükdə ona yazığı gəldi və əli ilə işarə etdi ki, çıxıb buradan getsin. Amma İbrahim ona qulaq asmadı. Onda gözəl qız əli ilə divi göstərib dedi:

– Ey bədbəxt insan, sən bu nəhəngi görürsən? O, elə indicə yuxuya getdi, bir gündən sonra yuxudan ayılacaq və səni tikə-tikə edəcək, nə qədər ki, vaxt var, çıx get!

İbrahim qıza cavab verdi ki, onu gördükdən sonra divin əlində buraxıb gedə bilməz, ya öləcək, ya da onu özü ilə götürüb aparacaq. Gözəl qız dedi:

– Məni azad etməyə çalışma. Bir çox cəsarətli adamlar məni azad etməyə çalışsalar da, məhv oldular. Mən sənin də məhv olmağını istəmirəm. Mənə bir de, sən bura nə üçün gəlmisən?

İbrahim ona cavab verdi ki, artıq iki ildir ki, o yoldadır, bura onu azad etmək üçün gəlmişdir. Gözəl qız bunu eşidib divin başını dizinin üstündən götürüb yerə qoydu, ayağa qalxdı və İbrahimi bir otağa apardı və ona tapşırdı ki, burada dincini alsın və yatsın. Onlar öz aralarında belə danışdılar ki, div adəti üzrə yuxudan durub ova gedəndə onlar da nə edəcəklərini məsləhət edərlər. Bundan sonra gözəl qız yenidən öz otağına qayıtdı və divin başını öz dizinin üstünə qoydu. Ertəsi gün div yuxudan ayıldı və gözəl qıza dedi ki, bəni-adəm iyi gəlir. Gözəl qız ona dedi:

– Yəqin ovda bir bədbəxt adamı tikə-tikə etmisən, odur ki, ağzında onun iyi qalıbdır. Yoxsa bura hansı adam cəsarət edib gələ bilər?

Div onun sözünə inanıb ova getdi. Gözəl qız isə qonağın yanına gedib gördü ki, hələ yatır. Qız İbrahimi yuxudan ayıltdı və onlar bir yerdə divdən qaçmaq qərarına gəldilər. Divin yeyin gedən atları var idi. Gözəl qız onların arasından altı ən yaxşısını seçdi və İbrahimə əmr etdi ki, onları yəhərləsin. İbrahim qızın əmrini yerinə yetirdi. Sonra qızılların saxlanıldığı otağa keçdilər, səkkiz torbanı qızılla doldurub dörd ata yüklədilər. İki ata isə özləri minib yola düşdülər.

Axşam div ovdan qayıtdı, öz sevgilisini evdə görməyəndə çox qeyzləndi. O, bütün otaqları ələk-vələk etdi, bağı başdan ayağa gəzib dolaşdı, amma əbəs yerə, heç yerdə Xurşidənin (qızın adı belə idi) izi-sorağı yox idi. Sonra div tövləyə girdi və özünün sevimli yeyingedən atı Qıratı yəhərləmək istədi, amma o da yerində yox idi. Onda div başqa ata mindi və onların arxasınca at çapdı. İbrahim və Xurşidə durmadan tam bir gün at çapdılar. İkinci gün Xurşidə İbrahimə dedi:

– Arxaya bax və nə gördüyünü de.

İbrahim cavab verdi ki, üfüqdə dumana bənzər bir şey görür. Onda Xurşidə dedi:

– Bu duman deyil, bəs divin ağzının deşiklərindən çıxan buxardır. O/ çox hirslidir və bizi təqib edir.

Bir qədər vaxt keçdikdən sonra İbrahim yenə də arxaya baxdı. Bu dəfə o, dumandan başqa küləyə bənzər bir səs eşitdi. Gözəl qız dedi:

– Bu divin fısıltısıdır, o deməkdir ki, div bizdən uzaqda deyil.

İbrahim üçüncü dəfə arxaya baxdı və gördü ki, güclü duman yaxınlaşıb onları bürüyüb və hətta xırda yağış da çisələyir. Bu hadisəni Xurşidə belə izah etdi:

– Güclü duman divin çox yaxınlıqda olmasıdır, yağış isə divin tüpürcəyindən əmələ gəlir.

Bu vaxt onlar atları daha yeyin sürməyə başladılar ki, divdən xilas olsunlar. Bir qədər vaxt keçəndən sonra Xurşidə İbrahimə dedi ki, qorxmaq lazım deyil, belə ki, onlar sərhədi keçiblər və div onu keçməyə cəsarət etməz.

Onlar yolun qalan hissəsini iki aya sürüb getdilər və üçüncü ayda isə artıq evdə idilər. İbrahimin anası öz oğlunu görəndə gözlərinə inanmadı, onun sevincinin həddi-hüdudu yox idi. İbrahim isə öz anasını tanımadı, çünki anası çox arıqlamışdı. O, öz oğlu ilə vidalaşdıqdan bəri nə yeyir, nə də içirdi və bütün günü olaraq ağlayırdı. İbrahim və Xurşidə yolda o qədər yorulmuşdular ki, heç bir aya belə özlərinə gələ bilmədilər. İbrahim gündən-günə gözəl Xurşidəyə daha çox bağlanırdı. Xurşidə də bir padşahın qızı imiş, səkkiz il bundan əvvəl öz rəfiqələri ilə gəzintidə olarkən div onu oğurlayıbmış. Onda Xurşidənin on beş yaşı var idi.

İbrahim evə qayıtdıqdan sonra çox keçmədən Xurşidənin sözü ilə özünə saray tikməyə başladı. Bu saray gözəlliyinə görə padşahın sarayını ötüb keçməli idi. Sonra isə İbrahim Xurşidə ilə evlənməyi düşünürdü. İbrahim evə qayıtdıqdan iki ay sonra birdən qeyri-adi qızılgülü xatırladı. O, Xurşidəni divin sarayında görüb gülü unutmuşdu və evə gülsüz qayıtmışdı. İndi o, ikinci dəfə qızılgülün dalınca yola çıxmalı idi, ya da var-dövlətini yığışdırıb gizlincə başqa bir vilayətə köçməli idi. O bu fikirlər içində sarayın tikintisini buraxıb ölü kimi halsız evə gəldi. Xurşidə gələcək ərinin solğun üzünü görüb çox qorxdu və ondan

solğunluğunun səbəbini xəbər aldı. Bu zaman İbrahim ona nəql etdi ki, o, səfərə çıxmamışdı, padşah onu qızılgülün dalınca göndərmişdi. O, isə gülü gətirməyi unudub.

Gözəl qız İbrahimə təskinlik verdi və xahiş etdi ki, ona bir boşqab versin. Sonra şəhadət barmağı ilə öz burnuna vurdu. Dərhal burnundan iki damcı qan düşdü və onlar qeyri-adi gözəlliyi olan iki dəstə qızılgülə çevrildilər. İbrahim bundan çox heyrətləndi və sevincindən Xurşidəni öpüşlərə qərq etdi və sonra da qızılgül dəstələrini götürüb, tez padşahın sarayına getdi. Padşah İbrahimin sağ-salamat qayıtmağına çox sevindi və səxavətlə mükafatlandırdı. Baş əyan keçmiş baqqalın isə qanı qaraldı. O, İbrahimi görəcəyinə inanmırdı, onu ölmüş sayırdı. İbrahimin şan-şöhrəti ona rahatlıq vermirdi. O, İbrahimi adi insanların heç vaxt görə bilməyəcəyi bir işin dalınca göndərməyi fikirləşdi və onun üçün yeni bir tapşırıq tapdı.

Bir gün o, fürsət tapıb padşaha dedi:

– Qibleyi-aləm, siz tamamilə öz valideynlərinizi unutmusunuz. Onlar axı beş il bundan əvvəl ölüblər. İbrahimi o dünyaya göndərək, onların hal-əhvallarından bizə xəbər gətirsin.

Padşah ona valideynlərini xatırlatdığı üçün təşəkkür etdi və özünə söz verdi ki, nə olursa olsun onun təklifini yerinə yetirəcək.

Ertəsi gün padşah əmr etdi ki, İbrahimi onun hüzuruna çağırsınlar. İbrahim dərhal padşahın hüzurunda hazır oldu. Padşah ona öz valideynlərinə yazdığı məktubu verdi və əmr etdi ki, ertəsi gün o dünyaya yola düşsün.

İbrahim bərk tutuldu və əvvəlcə belə eşidilməmiş tapşırıqdan imtina etmək istədi. Amma ona əmr edilmişdi ki, heç bir bəhanə ilə bu tapşırıqdan boyun qaçırmasın. Bədbəxt İbrahim tabe olmağa məcbur idi. O, ümidsiz halda evinə gəldi, gözəl Xurşidəni padşahın tapşırığından xəbərdar etdi. Xurşidə ona təskinlik və ağıllı məsləhət verdi:

– Əzizim, görünür, sənin padşahının ağlı azdır və buna görə də onu aldatmaq çox da çətin deyil. Bir il müddətinə bir yerə get, sonra isə geri qayıt və padşaha de ki, onun valideynləri sağsalamatdılar və diqqətinə görə ona təşəkkür edirlər.

Xurşidənin məsləhəti İbrahimin ağlına batdı, o, anası və gözəl Xurşidə ilə vidalaşıb yola düşdü.

O, az getdi, üz getdi, dərə-təpə düz getdi, üçüncü ayda böyük bir şəhərə gəlib çıxdı. Burada İbrahim tam bir il yazıb oxumağı, hətta bir neçə dil də öyrəndi.

İbrahim getdikdən sonra Xurşidə sarayın tikintisi ilə məşğul oldu. Bir müddətdən sonra İbrahim gəlib çıxdı. İbrahim düşməni baqqaldan birdəfəlik canını qurtarmaq üçün belə bir şey fikirləşib tapdı. O, padşahın hüzuruna getdi və ona dedi:

– Qibleyi-aləm, sizin valideynləriniz sağ-salamatdılar və sizə təşəkkür edirlər, amma onlar incidilər ki, siz onların yanına yaxın əyanınızı deyil, məni göndərmisiniz. O valideynlərinizin yanına getmiş olsaydı, sizə daha çox xəbər gətirərdi.

Padşah İbrahimə inandı, onu mükafatlandırdı, burada olan əyan isə bunu eşidib qorxudan ağardı. Əyanın İbrahim üçün qurduğu hiylə öz başında çatladı, bilmədi bu işdən canını necə qurtarsın. O, çox düşünüb-daşındı, axırda kömək üçün İbrahimin yanına getmək qərarına gəldi.

Ertəsi gün o, bütün var-dövlətini yığışdırıb İbrahimin yanına gəldi, onun ayaqlarına düşdü, gözlərində yaş ondan kömək istədi və bütün var-dövlətini ona verdi. İbrahim əvvəlcə ona kömək etməkdən imtina etdi, sonra isə o dünyaya getməyin yolunu ona göstərdi. O, əyanı qırx arşın dərinlikdə olan bir quyunun yanına gətirib dedi:

– Bu quyuya atıl, onun dibində biri şərqə, digəri isə qərbə gedən iki yol görəcəksən, əgər birinci yol ilə getsən, üç ilə o dünyaya çatacaqsan, amma çox əziyyətlər, məşəqqətlər çəkəcəksən, ikinci ilə getsən, beş ilə çatacaqsan və heç bir yorğunluq hiss etməyəcəksən.

Ağılsız əyan tamamilə İbrahimə inandı və ona kömək üçün təşəkkür etdi, gözlərini yumdu. Həmin dəqiqə qəbir olan quyuya atıldı. İbrahim isə evinə qayıtdı və toya hazırlaşmağa başladı. Padşah öz əyanının qayıtmasını çox gözlədi, sonunda həmişəlik qohumlarının yanına – o dünyaya yola düşdü. İbrahim çox

keçmədən gözəl Xurşidə ilə evləndi, qırx gün, qırx gecə toy etdi və onunla xoşbəxt həyat sürdü.

***Zaqafqaziya Müəllimlər Seminariyasının şagirdi Rüstəm Məlikaslanov tərəfindən Yelizavetpol quberniyası, Şuşa qəzasının Tuğ kəndində çoban Fəzləli Əlişoğlundan yazıya alındı.***

## 11. PƏHLƏVAN İBRAHİM

Biri var idi, biri yox idi, bir vilayətdə ərlə arvad üç qızı ilə yaşayırdı. Ər hər gün balıq tutur və bununla da öz ailəsini dolandırırdı. Günlərin bir günü onun arvadı bərk nasazladı və az müddətdən sonra öldü. Balıqçı gözəl, amma çox zalım dul arvadla evləndi. Ögey ananın gözü qızları heç götürmürdü. Bir gün o, ərinə deyir:

– Öz qızlarını meşəyə apar ki, bir də gözlərim onları görməsin.

Kişi uzun müddət razılaşmadı, amma sonra arvadının istəklərinə görə qızlarını meşəyə apardı və onları orada tək buraxdı. Qızlar meşədə tək qaldıqlarını görüb ağlamağa başladılar, amma bu onlara kömək etmədi. Onlar nə qədər çalışsalar da, meşədən çıxa bilmədilər. Meşədəki meyvələrdən yeyib üç gün qaldıqdan sonra buradan birtəhər çıxa bildilər. Onlar çox yol getdilər, çox aclıq çəkdilər, axırda belə qərara gəldilər ki, ötüşməyə başlasınlar, kim geri qalsa, onu yesinlər. Qaçışdılar, kiçik bacı geri qaldı, böyük bacılar onu yemək istədilər. Bu zaman kiçik bacı dedi:

– Əziz bacılarım, az səbr edin.

O bunu deyib, yerdən bir çubuq götürdü və onu yerdə gəzdirməyə başladı. Birdən iki kişmiş tapdı. Qız sevinərək onları bacılarına verdi, daha sonra bir ovuc kişmiş tapdı, onları da bacılarına verdi. Beləliklə, Şah Abbasın yerin altındakı tövləsinə gedən yolu tapdılar. Orada atlar kişmiş yeyirdilər. Qızlar acından ölməmək üçün atların kişmişini yedilər.

Bir gün Şah Abbas saray adamlarına əmr etdi ki, atlara baxış üçün həyətə çıxarsınlar. Şah atları arıq görüb hirsləndi və əmr etdi ki, atların yeməyini artırsınlar və onların yemini oğurlayan oğrunu tapsınlar. Saray adamlarından biri gecə vaxtı kəndli

qızlarını tutdu və onları Şah Abbasın hüzuruna apardı. Şah saray adamlarına ənamlar verdi, qızlardan isə xəbər aldı:

– Siz nədə məharətlisiz?

Böyük qız dedi:

– Mən elə bir xalı toxuya bilirəm ki, sənin bütün qoşunun onun üstündə yerləşər.

Ortancıl qız dedi:

– Mən bir yumurtanın qabığında bir qayğanaq bişirərəm ki, onunla sənin bütün qoşunun doyar.

Kiçik bacı dedi:

– Birinin saçı qızıl, o birinin isə saçı gümüş olan iki uşaq doğa bilərəm.

Şah Abbas kəndli qızlarını dinləyib kiçik qızla evlənmək qərarına gəldi. Vəzirlər isə o biri qızlarla evləndilər.

Bir müddət keçdi. Kiçik qızın iki uşağı oldu, biri oğlan, o biri isə qız. Onların saçları qızıl və gümüş idi. Oğlanın adını İbrahim, qızın adını isə Gülnaz qoydular. Böyük bacılar öz vədlərini tuta bilmədilər və kiçik bacıya paxıllıq etməyə başladılar. Onlar bir küpəgirən qarını yanlarına çağırdılar ki, ondan məsləhət alsınlar. Qarı onlara kömək etməyə razılıq verib dedi:

– Şahın bir iti küçükləyibdir, uşaqların yerinə küçükləri qoyun, uşaqları isə yeşiyə qoyun, yeşiyi də mıxlayın, sonra isə dənizə atın.

Bacılar elə də etdilər. Saray adamları şahın hüzuruna gəlib dedilər ki, arvadın qızıl və gümüş saçlı uşaqlar deyil, küçüklər doğubdur. Şah hirsəndi, əmr etdi ki, onun gözlərini çıxarsınlar və quyuya atsınlar, gün ərzində bir parça çörək və bir stəkan su versinlər. İçində uşaqlar olan yeşiyin üzdüyü dənizin sahilində bir abid yaşayırdı. O, yeşiyi görüb sudan çıxardı və onun içindən uşaqları buraxdı. O vaxtdan Allahın mələkləri hər gün abidə yemək gətirirdilər, o, dərd bilmədən yaşayırdı. Beləcə, şah uşaqları yeddi il abidin yanında yaşadılar. O, səkkizinci il onlara dedi:

– Çox keçməz ki, mən öləcəyəm, məni dəfn edərsiniz, özünüz isə çayın axarına əks istiqamətdə gedin.

Abid dediyi kimi də oldu, bir neçə gündən sonra o öldü. Uşaqlar onun üstündə ağladılar və onu dəfn etdilər və göstərilən istiqamətdə yola düşdülər. İbrahim və bacısı çox yol getdilər. Axırda gəlib bir bağa çatdılar. Onlar ac olduqlarına görə bir-birilərinin barmaqlarını sorurdular. Bağban bağda iki uşaq görüb dedi:

– Mənim uşaqlarım olmaq istəyirsinizmi?

Onlar çox sevindilər və bağbanın yanında yaşamağa başladılar. Bu bağ Şah Abbasın yaşadığı və uşaqların anadan olduğu vilayətdə yerləşirdi. Günlərin bir günü bu vilayətdə bir bayram keçirilirdi. Şahın baldızları bağbana bir neçə gül dəstəsi bağlamağı əmr etdilər. Onlara bir neçə gözəl gül dəstəsi bağladılar. Bağban gülləri baldızlarına aparanda onlar gül dəstələrinin gözəlliyini görüb çox təəccübləndilər və bu barədə şaha xəbər apardılar. Şah Abbas əmr etdi ki, bağbandan gülləri kimin bağladığını öyrənsinlər. Bağban dedi ki, onun yanında qızıldan və gümüşdən saçları olan iki uşaq vardı. Şah Abbas bağbana əmr etdi ki, elə sabah uşaqları onun yanına gətirsinlər. Səhər bağban yalnız oğlanı gətirdi və şah xəbər alanda ki, niyə qızı gətirməmişdir, o dedi ki, qız xəstələnib. Şah oğlana müxtəlif suallar verməyə başladı. Oğlan ürəklə və ağılla cavablar verirdi. Onda şah oğlana dedi ki, onun yanında gecələsin. Oğlan cavab verdi ki, o, əziz bacısı olmadan yata bilmir. Ona icazə verdilər ki, bağbanla getsin. İbrahim gedəndə şahın baldızları uşağı tanıyıb küpəgirən qarını çağırdılar. Küpəgirən qarı onların dərdinə çarə edəcəyinə söz verdi. O, İbrahimin bacısı Gülzarın yanına getdi, onu kədərli görüb dedi:

– Sən niyə qəm-qüssə çəkirsən? Qardaşına de ki, sənə adamla danışan və yarpaqları nəğmələr oxuyan möcüzəli ağac gətirsin.

Gülzar küpəgirən qarının məsləhətini dinlədi və İbrahim evə gələndə ona dedi:

– Əziz qardaşım, sən çıxıb gedəndə və məni tək qoyanda mən çox darıxıram, xahiş edirəm ki, sən mənə adamla danışan və yarpaqları nəğmələr oxuyan ağac tapıb gətirəsən.

İbrahim bu sözləri eşidib bacısına olan sevgidən bu möcüzəli ağacı axtarıb tapmaq üçün yola düşmək qərarına gəldi. Amma yola düşməmişdən əvvəl Şah Abbasın hüzuruna gəlib dedi:

– Qibleyi-aləm, mənim bacım adam kimi danışa bilən və yarpaqları oxuya bilən möcüzəli ağaca sahib olmaq istəyir və mən ona olan sevgimdən bu möcüzəni axtarıb tapmağa gedirəm.

Şah belə bir çətin işin dalınca getməyi ona məsləhət görmədi, amma gənc oğlan ona qulaq asmadı və dediyində durdu. Onda şah uzaq səfər üçün ona xeyir-dua verdi və ona pəhləvan yaraq-əsləhəsi bağışladı. İbrahim hamı ilə görüşüb yola düşdü. İbrahim azmı getdi, çoxmu getdi, bunu Allah bilir, kiçik daxmaya yetişənədək yol getdi. Daxmadan qarı İbrahimi görüb xəbər aldı:

– Belə gənc və gözəl oğlan buralara necə gəlib çıxdın?

İbrahim başına gələn hal-qəziyyəni ona nəql etdi və dedi ki, nə olur olsun, möcüzəli ağacı bacısına tapıb gətirməlidir. Qarı ona məsləhət gördü ki, bu işin dalınca getməsin, çünkü bu işin dalınca gedən hər kəs səssiz-soraqsız yox olur. İbrahim qarıya qulaq asmadı və yoluna davam etdi. O, az getdi, üz getdi, axır gəlib möcüzəli ağaca çatdı. O, ağacı kökü ilə qoparıb çıxarmaq istədi. Ağacı elə torpaqdan çəkib çıxarırdı ki, dizinədək torpağa batdı, bir də çəkdi, belinədək torpağa batdı, var gücünü toplayıb bir də çəkib dartdı və ağacı kökləri ilə çəkib torpaqdan çıxartdı. Sonra ağacı evnə gətirdi və evinin həyətində əkdi. Az vaxtdan sonra şahın hüzuruna getdi. Şah Abbas onu görüb çox sevindi, bu işi üçün onu təriflədi. Zalım xalalar onu sağ-salamat görüb küpəgirən qarını öz yanlarına çağırdılar və onu məsələdən halı etdilər. Küpəgirən qarı onlara yenə kömək edəcəyinə söz verdi və onu ağacın tərcüman Quşunun dalınca göndərmək qərarına gəldi. O, münasib bir vaxt tapıb Gülzarın yanına gəlib dedi:

– Qardaşın sən istədiyin ağacı gətirsə də sən onun nə dediyini və onun oxuduğu mahnını başa düşə bilməyəcəksən. Bir Quş var, həmin Quş bu ağacın tərcümanı ola bilər. O bunu deyib, çıxıb getdi. Çox keçmədən İbrahim gəldi və bacısını qəmli görüb ondan xəbər aldı:

– Mənim gözüdoymaz bacım nə üçün kədərlisən?

Qız həmin Quş haqqında ona nəql etdi və dedi:

– Əziz qardaşım, bizim möcüzəli ağacın bu tərcüməçi Quşunu mənim üçün tap gətir!

İbrahim bacısına onun xahişini yerinə yetirəcəyini deyib, onu sakitləşdirdi. Ertəsi gün o, yenə şahın hüzuruna getdi və bacısının dediklərini şaha çatdırdı. O, şah Abbasdan xeyir-dua alıb yola düşdü. İbrahim atın belində çox yol getdi, yenə qarının yaşadığı daxmaya gəlib çatdı. Qarı İbrahimi görüb xəbər aldı:

– Yenə nədən ötrü yanıma gəlmisən?

İbrahim cavab verdi ki, tərcüman Quşun dalınca gəlmişdir. Qarı dedi:

– Mən bilirəm ki, sən mənim məsləhətimə qulaq asmayacaqsan. Hər halda mənə qulaq as, ağaclığa çatanda bil ki, bu ağaclıq elə Quşun yurdudur. O səni axtarır və əgər səni görsə, yəqin ki, zərər vuracaq. Sən ağaclığa çatan kimi quyu qaz və orada gizlən, Quş uçub quyunun yanına gələndə və səni axtarmağa başlayanda sən cəld onu tut, onda o sənə heç bir şey edə bilməyəcək.

İbrahim qarının məsləhətini dinlədi, söz verdi ki, onun dediyinin hamısını yerinə yetirəcək və yola düşdü. İbrahim atla çox yol getdi, axır gəlib ağaclığa çatdı. O saat quyu qazdı və onun içində gizləndi. Quş quyunun yanına uçub gələn kimi onu tutdu və bacısına gətirdi. O vaxtdan Quş ağacın dediklərini izah edirdi. Bir müddət keçdi. Xalalar yenə küpəgirən qarını çağırdılar və İbrahimdən canlarını qurtarmaq üçün qarıdan yenə məsləhət istədilər. Qarı onların dərdinə bir çarə edəcəyinə söz verdi, yenə də Gülzarın yanına gedib dedi:

– Qardaşına de ki, o hurilər şahının qızı ilə evlənsin, çünki onsuz nə ağac, nə də Quş qala bilmirlər.

O bunu deyib getdi. İbrahim gəldi və bacısını yenə kədərli görüb ondan xəbər aldı:

– Əziz bacım, mənə bir de, indi nə üçün kədərlisən? Sənin ki hər şeyin artıqlaması ilə var.

O cavab verdi:

– Sevimli qardaşım, mən istəyirəm ki, sən hurilər padşahının qızı ilə evlənəsən.

İbrahim bunu eşidib dedi:

– Yaxşı sevimli bacım, mən sənin bu istəyini də yerinə yetirəcəm.

O bu sözlərlə bacısına təskinlik verdi, sonra Şah Abbasın hüzuruna gedib dedi:

– Qibleyi-aləm, hurilər padşahının qızının dalınca getməyimə və onunla evlənməyimə mənə icazə verin.

Şah Abbas ona belə bir çətin işin dalınca getməyi məsləhət bilmədi, çünki bilirdi ki, hurilər padşahının qızının dalınca getmiş heç kəs sağ-salamat geri qayıtmırdı, amma İbrahim ona qulaq asmadı və yola düşdü. Bir neçə gündən sonra o gəlib həmin daxmaya çatdı. Qarı yenə ondan hara getdiyini xəbər aldı. İbrahim cavab verdi ki, hurilər padşahının qızının dalınca gedir və onunla evlənmək istəyir. Qarı ona xeyir-dua verdi və o, yoluna davam etdi. İbrahim çox getdi, axır gəlib bir bulağa çatdı.Sən demə, bu bulaq cinlər şahının imiş. O, atdan düşdü, su içmək və dincəlmək istədi. Cinlər padşahının saray adamları onu görüb, padşaha xəbər verdilər ki, onların sarayına bir nəfər adam gəlib. Cinlər padşahı əmr etdi ki, onu hüzuruna gətirsinlər. İbrahimi padşahın hüzuruna gətirəndə əvvəlcə onu edam etmək istədi, amma onun səmimi üzünü görüb ona kömək etmək qərarına gəldi və dedi:

– Sən haradan gəlmisən və haraya gedirsən, adın nədir?

İbrahim cavab verdi:

– Mən Şah Abbasın məmləkətindən gəlirəm, adım İbrahimdir, özüm isə evlənmək üçün hurilər padşahının qızının dalınca gedirəm.

Cinlər padşahı ona dedi:

– Mən sənə dörd şey bağışlayacam, bunlar – uçan xalı, ağac, gözəgörünməz papaq və süfrədir. Bunları götür. Hurilər şahlığına gələndə sənə bir kötük göstərəcəklər. Onda sən bu ağacı götür və onu kötüyə vur, o sənə getmək üçün yol verəcəkdir. Sonra sənə əmr edəcəklər ki, qırx qazan plov yeyəsən, onda sən süfrəni aç və de ki, ye, süfrə, ye. Süfrə hamısını yeyəcək, sən isə süfrəni cibinə qoy. İbrahim cinlər padşahına təşəkkür edib xalıya mindi və dedi:

– Xalı, məni hurilər padşahının sarayına apar!

O, sözünü deyib qurtarmamış hurilər padşahının sarayında peyda oldu. Saray adamları padşaha xəbər apardılar. Padşah əmr

etdi ki, onu hüzuruna gətirsinlər. İbrahim gəlib çıxanda padşah ona kötüyü göstərib dedi:

– Bu kötüyün üstündən keç!

Onda İbrahim əlindəki taxtanı kötüyə vurdu və kötük ona yol verdi. O bunu yerinə yetirib padşahın yanına gəldi. Padşah dedi:

– Get hamamda çim!

İbrahim hamama girdi, papağı başına qoydu və hamamda çimmiş kimi padşahın yanına gəldi. Padşah ona qırx qazan plovu yeməyi əmr etdi. İbrahim ayrı otaqda süfrəni sərib dedi:

– Ye, süfrə, ye!

Süfrə o saat plovun hamısını yedi. Sonra İbrahim süfrəni yığdı və cibinə qoydu. Padşah İbrahimin plovun hamısını yediyini görüb, qızını ona verdi. Sonra İbrahim padşaha öz vilayətinə qayıtmaq istədiyini dedi. Padşah ona izn verdi. Onda İbrahim və arvadı xalıya oturdular və o dedi:

– Xalı, bizi şah Abbasın sarayına apar.

O bunu deyər-deməz, o saat Şah Abbasın sarayında oldular. İbrahim sağ-salamat evinə çatdı və böyük məclis qurdular. Sah Abbasın özü də bu qonaqlığa gəlmişdi. Yemək yeyəndə şah İbrahimi də yeməyə dəvət etdi. İbrahim dedi:

– Yeyin, qollarım, yeyin!

Şah dedi:

– Məgər qollar yemək yeyə bilir?

İbrahim cavab verdi:

– Bəs qadın küçüklər doğa bilər?

Onda şah olanları yadına saldı və zalım xalaların edam edilməsini əmr etdi, İbrahim və onun gənc arvadı şad və xürrəm yaşadılar.

***Zaqafqaziya Müəllimlər Seminariyasının şagirdi Ziyad Şərifov Tiflis quberniyasının Borçalı qəzasının Təcis kəndində həmin kəndin sakini Məşədi Əli Qulu oğlunun sözlərindən yazıya aldı.***

## 12. BAĞDADLI CƏFƏR

Çox qədim vaxtlarda Bağdad şəhərində ər ilə arvad yaşayırdı. Onlar var-dövlət içində yaşayır, kasıb və dilənçilərə sədəqə verir, heç kimi incitmirdilər.

Bir müddət sonra elə oldu ki, onlar var-dövlətlərini itirdilər. Kasıbçılıq etməyə başladılar. Kasıblamış Cəfər gecə-gündüz özünün halını düşünürdü və axırda öz vilayətini tərk edib qazanc dalınca başqa bir yerə getmək qərarına gəldi. O, yola çıxmazdan əvvəl arvadına dedi:

– Əziz və sədaqətli arvadım fələk bizi kasıbçılığa düçar etdi, görünür, təqdiri belə imiş. Ümidim yenə də Allahadır. Mənə səndən ayrılmaq nə qədər çətin olsa da, mən özgə vilayətə getməliyəm. Bəlkə, orada özümə bir məşğuliyyət taparam və çörək pulu qazanaram.

Arvadı istər-istəməz ərinin qərarına tabe oldu. Ertəsi gün Bağdaddan Şiraza bir karvan yola düşürdü. Cəfər də onlara qoşuldu, o, arvadı ilə vidalaşanda ona dedi:

– Əzizim, kədərlənmə, heç kim öz qədərindən qaça bilməz, məni üç il gözlə, əgər bu müddət ərzində gəlməsəm, istədiyin adama ərə gedə bilərsən.

Cəfər az getdi, üz getdi, dərə-təpə düz getdi, Allah bilir, nə qədər getdi, axır ki, uzaqdan Şiraz şəhəri göründü. Cəfər şəhərə çatıb meydana yollandı ki, özünə bir iş tapsın. Bir şəhər sakini onu özünə nökər götürdü və o bu adama qulluq etməyə başladı. Bir il keçdi. Sahibkar yaxşı adam idi və vicdanlı adamları qiymətləndirə bilirdi. Bir gün sahibkar Cəfəri yanına çağırıb dedi:

– Cəfər, sən mənə vicdanla qulluq etmisən. Bunun qarşılığında sənə vicdanla qazanılmış beş çervon[67] təklif edirəm, istədiyini götür.

Cəfər sahibinə təşəkkür etdi və on beş çervonu götürüb, arvadına pay almağa getdi. O, çox fikirləşməyib dörd böyük nar aldı. O bu narları bir tanış yerlisi ilə arvadına göndərdi. Yazıq arvad ərinin göndərdiyi hədiyyəni alanda çox sevindi və onun

[67] Çervon-əşrəfi, beş və ya on manatlıq qızıl pul

hal-əhvalını xəbər aldı. O, narlardan birini kəsdi ki, yesin, amma dənələrin yerinə narın içindən almaz və bahalı daş-qaşlar səpələndi. Bu var-dövləti görəndə arvadın üzündə xoşbəxtlik işartıları parıldadı. O, bütün bahalı daşları yığışdırıb gizlətdi. Yazıq Cəfər isə bu arada öz sahibinə xidmət etməkdə davam edirdi. O, bir il xidmət edib, sahibkarın yanına gəlib dedi:

– Ağam, iki ildir ki, mən canla-başla sənə qulluq edirdim, amma vətən və ailə həsrəti mənə çox əzab verir, məni evə burax.

Cəfərdən ayrılmaq sahibkar üçün çox ağır idi, hər zaman vicdanlı nökər tapmaq mümkün olmur, amma onun zəhməti qarşılığında onu mükafatlandırıb dedi:

– Doğrudan da, sən mənə vicdanla xidmət etmisən və mən səni saxlaya bilmərəm. Arvadının yanına, vətəninə yola düş, amma mən sənə iki məsləhət verəcəyəm:

– Alaqaranlıq səni harda yaxalasa orda da gecələ və hər işdə səbrin olsun. Qoy mənim məsləhətlərim sənə xoşbəxtlik gətirsin.

O,vicdanla nökərinə xeyir-dua verib yola saldı. Cəfər xeyir-xah sahibkarına təşəkkür edib karvanla yola düşdü. Onlar yolda olarkən gecə düşdü. Karvanbaşı yola davam etməyi əmr etdi, amma Cəfər sahibinin sözünü yadına saldı və yoldaşlarına dedi ki, burada qalacaq, nə olur olsun yola davam etməyəcək.Yoldaşları onu nə qədər yola gətirmək istədilərsə, o dediyində durdu. Belə olduqda yol yoldaşları onu kimsəsiz səhrada tək buraxmaq istəməyib, öz qərarlarını dəyişdilər və burada gecələməli oldular. Səhər tezdən onlar yuxudan oyanıb yola düşdülər. Heç beş verst belə getməmiş gördüklərindən dəhşətə gəldilər.Yolun hər iki tərəfində eybəcər hala salınmış cəsədlər vardı. Onlar öyrəndilər ki, onlardan bir gecə əvvəl tacirlər bu yoldan keçirmişlər, quldurlar onların üstünə basqın edib, özlərini öldürüb malları da oğurlayıb getmişlər. Beləliklə, onlar sağ olduqları üçün Cəfərə borclu idilər, hamısı ona təşəkkür etməyə başladılar. Karvanbaşı isə əmr etdi ki, onlardan hər biri pullarının bir hissəsini Cəfərə versin. Uzun səfərdən sonra Cəfər gəlib Bağdada çatdı və öz evinə tərəf yollandı. Cəfər baxıb gördü ki, onun komasının yerində əzəmətli bir saray ucalır. O, sarayın pəncərəsinə yaxınlaşıb içəriyə baxanda zər-ziba

geyinmiş gözəl arvadını gördü. Bədbəxt Cəfərin başına hər cür fikirlər gəldi, bəlkə, sevdiyim qadın mənə xəyanət edib, ya bir varlıya ərə gedib. O, otağa soxulub xain arvadını tikə-tikə etməyə hazır ikən öz sahibkarının sözünü xatırladı. Sədaqətli arvadı ikiillik ayrılıqdan sonra ərini gördükdə onun boynuna sarılıb qucaqladı. Amma Cəfər onunla çox soyuq davrandı. Arvadı dedi:

– Əzizim, bəlkə, fikirləşirsən ki, mən ərə getmişəm. Xeyr, elə deyil, hər bir vaxt sənə sadiq qalmışam. Sənin olduğun bu saray isə bizə məxsusdur. Mən bu sarayı mənə göndərdiyin narların içində olan almazların hesabına tikdirmişəm.

O bu sözləri deyib sonuncu narı gətirdi və kəsdi. Almazlar və digər bahalı qaşlar Cəfərin ayaqları altına səpələndi. Arvadı dedi:

– Narları yemək üçün kəsəndə belə olmuşdu.

Cəfər öz arvadının sədaqətinə inandı və sevinc içində onu qucaqladı. Bundan sonra onlar yenə əvvəlki kimi yaşamağa və kasıblara kömək etməyə başladılar. Bir müddətdən sonra Cəfər möhkəm xəstələndi və həyatının sonu gəldiyini hiss edərək arvadını yanına çağırıb dedi:

– Biz vicdanla yaşayırdıq və kasıblara kömək edirdik. Bunun qarşılığında Allah bizə var-dövlət verdi. Uşaqlarım boya-başa çatanda onları vicdanlı düz yola yönəlt, qoy vicdanla gündəlik çörəklərini qazansınlar.

O bu sözləri deyib öldü.

***Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi Abbas Minasazov Qori şəhərində yazıya aldı.***

## 13. ŞAHZADƏ QƏZƏNFƏR

Biri var idi, biri yox idi, bir məmləkətdə Məlik Nadir adında bir şah var idi. Onun var-dövlətinin sayı-hesabı yox idi. Onun Qəzənfər adında gözünün ağı-qarası bir oğlu var idi, qızları isə yox idi. Çünki əmr etmişdi ki, doğulan kimi onları öldürsünlər.

Günlərin bir günü o, uzaq səfərə çıxmalı oldu. Bu vaxt padşahın hərəmi boylu idi, odur ki, oğluna tapşırdı ki, işdir, əgər qız doğarsa, dərhal onu öldürsün. Doğrudan da, iş elə gətirdi ki,

arvadı qız doğdu. Şahzadə atasının əmrinə görə onu öldürməli idi. Amma onun bacısına yazığı gəldi və o, atasının əmrini yerinə yetirmədi. On il keçəndən sonra şah gəlib məmləkətinə çıxdı. Şahzadə atasının gəlib çıxmasını eşidib qorxuya düşdü və anasına əmr etdi ki, atasının gözünə görünməsin. Amma çox keçmədən şah hal-qəziyyədən xəbər tutdu və əmr etdi ki, oğlunun, həm də qızının boynunu vursunlar. Onda saray əyanlarından biri ona dedi:

- Qibleyi aləm, özünün günahsız uşaqlarını öldürmə, ən yaxşısı əmr et ki, hər ikisini məmləkətdən uzaqlaşsınlar.

Bu sözlər padşaha təsir etdi və onlara əmr etdi ki, bir neçə əyanla onun məmləkətindən çıxıb getsinlər.

Onlar az getdilər, üz getdilər və axırda gəlib gördülər ki, bir çölün düzündə, sal qayanın yanında kiçik ev var. Şahzadə bacısına tapşırdı ki, onu burada gözləsin, özü isə atını sürüb evə yaxınlaşır və görür ki, yeddi bədheybət div bahadır yuxusuna gedib yatırlar. Şahzadə qılıncını sıyırıb divlərin hamısını şil-küt etdi və sonra onların meyitlərini həyətdəki zibil quyusuna atdı. Sonra o, şahzadə qızın yanına qayıtdı və onu evə apardı. Onlar burada qalıb yaşamağa başladılar. Şahzadə hər gün ova gedir, ov ovlayıb evə gəlirdi. Qardaş bacısına möhkəm tapşırmışdı ki, quyuya heç nə atmasın. Şahzadə qız isə işin nə yerdə olduğundan xəbərsiz olub qardaşı evdə olmayanda quyuya sümük, yemək qalıqları atırdı.

Divlərdən biri sağ qalmışdı və o, yemək qalıqlarını yeyib, əvvəlki güc-qüvvətinə çatmışdı. Bir dəfə şahzadə qız həmişəki kimi quyuya yaxınlaşanda oradan bir səs eşitdi. O, əyilib quyuya baxanda yalvarıb kömək istəyən bir adam gördü. Şahzadə qız çox götür-qoy etdi, düşündü-daşındı, nə edəcəyini bilmədi və axırda həmin adamı quyudan çıxartdı. Çox keçmədən onlar bir-birlərini sevdilər və şahzadə oğlanı öldürmək fikrinə düşdülər. Günlərin bir günü şahzadə ova gedəndə div şahzadə qıza dedi:

– Qardaşın gələndə özünü xəstəliyə vur və ona de ki, xəstəliyinə çarə olsa-olsa, bir bostanda bitən qovunlar ola bilər. İşdir, əgər o səndən xəbər alsa ki, bunu haradan bildin, de ki, bu, yuxuda mənə əyan olub. Bu bostan isə bütün divlərin başçısınındır və onlar onu parça-parça edəcəklər.

Xain bacı divin ona dediyini yerinə yetirdi. Şahzadə canından artıq sevdiyi bacısının sözünü yerə salmayıb qovunu gətirmək üçün yola düşdü və bir neçə gündən sonra hər tərəfdən bağ-bağatla əhatə olunmuş bir həyətə gəlib çıxdı. Birdən bu həyətdən bir pəhləvan çıxdı. O, şahzadəyə tərəf gəldi və onlar vuruşmağa başladılar. Axırda şahzadə onu üstələyib başını kəsmək istəyəndə gördü ki, həmin pəhləvan qadın imiş. Şahzadə onun gözəlliyinə vuruldu. Sonra onlar bir-birlərinə aşiq oldular. Gözəl qız şahzadənin səfərinin məqsədini bilib ona özünün yelqanadlı atını verdi və dedi:

– Qorxma, hara istəyirsən, sür get! Yelqanadlı at səni hər təhlükədən qurtaracaq!

Şahzadə yelqanadlı ata mindi. At onu elə həmin gün qovunların bitdiyi bostana çatdırdı. Şahzadə Qəzənfər qovunu dərib geriyə yola düşdü. Qanadlı divlər onun dalınca uçdular, amma ona çata bilmədilər. Yelqanadlı at kamandan qopmuş ox kimi uçdu və çox keçmədən onlar artıq evdə idilər. Ertəsi gün şahzadə evə yola düşdü və sağ-salamat bacısının yanına gəlib çıxdı.

Səhər şahzadə həmişəki kimi ova getdi, div isə şahzadə qıza dedi:

– Sən yenə özünü xəstəliyə vur və qardaşını yeddibaşlı divin bağında bitən almanın dalınca göndər. Bu dəfə o, ölümdən canını qurtara bilməyəcək.

Şahzadə Qəzənfər lap uşaqlıqdan bacısını çox sevdiyindən onun xahişini yerə sala bilməzdi və o, almanın dalınca yola düşdü. Şahzadə Qəzənfər hər şeydən əvvəl həmin gözəl qızın yanına gəldi və məqsədini ona əyan etdi. O, şahzadəni bu təhlükəli səfərə buraxmaq istəmədi. Amma şahzadə dedi ki, nə olursa olsun, almalardan birini bacısı üçün gedib gətirməlidir.

Gözəl qız ona dedi:

– Görünür, bacın sənin həyatına qəsd edir. Bu bağ yeddibaşlı divindir, Quş Quşluğuyla o bağın üstündən uçub keçə bilmir. Əgər sən nəyin bahasına olursa olsun, öz məqsədinə çatmaq istəyirsənsə, yenə də mənim yelqanadlı atıma min, özünlə zənbil götür və Allah sənə yar olsun... Sən yolda bir böyük itə və körpüyə rast gələcəksən. İtə doyunca ət yedizdir, körpüyə isə baş əy.

Şahzadə yelqanadlı ata süvar oldu və yola düşdü. Doğrudan da, onu parçalamağa hazır olan bir böyük, qaniçən itə rast gəldi. Şahzadə onu doyunca yedizdirdi və sağ-salamat yanından atını sürüb keçdi. Sonra o, qorxunc körpüyə rast gəldi, körpünü salamladı və sağ-salamat buradan da ötüb keçdi. Axır o, bağa çatdı, ora girdi və zənbilini almalarla doldurdub geri qayıtmağa başladı. Bu vaxt bağda hay-küy qopdu və divlər onun dalınca düşüb onu təqib etməyə başladılar. Yeddibaşlı div körpüyə və itə əmr etdi ki, almanı oğurlayanın qabağını kəssinlər. Amma nə it, nə də körpü əmri yerinə yetirmədilər. Körpü dedi ki, şahzadə onu salamladı, it də dedi ki, şahzadə ona doyunca ət yedizdirdi.

Beləliklə, şahzadə rahat yol gəldi və sağ-salamat evə gəlib çatdı. Şahzadəyə məsləhətlər verən gözəl qız almanın şəfalı olduğunu bildiyindən bir neçə alma özünə götürdü. Ertəsi gün şahzadə öz atına mindi və bacısının yanına getməyə tələsdi. Bu dəfə də bacısı və div onun belə möcüzəli qurtuluşundan çox təəccübləndilər. Div şahzadənin bacısına dedi:

– İndi isə onu elə yerə göndərərik ki, həmin yerdən o, bir daha geri qayıtmayacaq. Şimalda bir dağın mağarasında haçabuynuzlu gözəl vəhşi bir qoç var. O, bir buynuzunun vurması ilə hər yeri dağıdıb uçurur. Sən qardaşına de: "Sevimli qardaş, bu gecə yuxumda gördüm ki, bu qoçun quyruğundan bir kiçik parça yesəm, tamamilə sağalaram. Mənə onu gətir!". Mən düşünürəm ki, qardaşın sənin istəyini yerinə yetirmək istəyəcək.

Elə də oldu. Şahzadə yola düşdü ki, haçabuynuzlu qoçu axtarıb tapsın. O, öz sevgilisinin yanına gəldi. O, hər şeyi bilib dedi:

– Sənin bacının, heç şübhəsiz, sevgilisi var və çalışır ki, birtəhər sənin başını batırsın.

Amma şahzadə onun sözlərinə inanmadı və bacısının istəyini yerinə yetirmək qərarına gəldi. O, yelqanadlı atın belinə sıçradı və atın yüyənini boşaltdı ki, o, istədiyi yerə getsin. Yelqanadlı at onu birbaşa bacısının dediyi yerə gətirdi. Şahzadə qılıncını sıyırıb bu qoçun quyruğundan kiçik bir parça kəsdi və tez də geri qayıtdı. Amma yırtıcı heyvan ağrını hiss etdi və iti buynuzlarını yellədib yelqanadlı atı yüngülcə yaraladı, Yelqanadlı

aldığı yaraya baxmayaraq Quş kimi uçdu və çox keçmədən evə çatdı. Şahzadənin sevgilisi onu sağ-salamat görüb, çox sevindi, amma onun gətirdiyi quyruğu özünə götürdü, onun yerinə isə gizlincə adi quyruq qoydu. Şahzadə öz evinə qayıtdı. Yenə də div və onun bacısı şahzadəni görüb təəccübləndilər.

Axırda div dedi:

– Mən indi başqa şey fikirləşib tapdım. Qardaşın evə gələndə sən nəvaziş göstərib ondan xəbər al ki, bu güc, qüvvət ona haradandır. O sənə əllərini göstərəndə sən ona de ki, gəl sənin böyük barmaqlarını iplə bağlayım, görək sən ipi parçalaya bilərsənmi? Əgər o razı olsa və ipi parçalasa, sən növbəti dəfə onun barmaqlarını məftil iplə bağlamağa çalış və onda onu öldürmək üçün məni çağır.

O, divin dediyi kimi etdi. Əvvəlcə qardaşının barmaqlarını köhnə iplə bağladı və o, həmin ipi asanlıqla parça-parça etdi, sonra isə məftil iplə onun barmaqlarını möhkəm bağladı. Şahzadə artıq bu ipi parçalaya bilmədi. Şahzadə ondan təvəqqe etdi ki, ipi açsın, amma gec idi, div əlində siyirmə qılıncla gəldi və onu tikə-tikə etdi. Sonra o, şahzadənin meyitini götürüb bir çuvala qoydu, eşşəyin belinə bağladı, sonra da eşşəyi bir çıxılmaz meşəyə aparıb orada buraxdı ki, vəhşi heyvanlar onu yesinlər. Amma xoşbəxtlikdən şahzadənin iki sevimli ov tulası var idi, onlar eşşəyi hər cür meşə heyvanlarından qoruyurdular.

Bir dəfə şahzadənin sevgilisi elə həmin meşəyə ova çıxmışdı. O, şahzadənin meyitini tapdıqda çox ağladı və axırda onu evinə gətirdi. Şahzadənin sevgilisi bir vaxt özündə saxladığı quyruq və almadan bir məlhəm düzəltdi və məlhəmlə ölünün bütün kəsilmiş hissələrini yapışdırdı. Sonra o, sidq ürəkdən durmadan Allaha dualar etməyə başladı. Onun duaları eşidildi. Allahın qüdrətindən şahzadə birdən yerdən qalxdı və dedi:

– Mən nə qədər çox yatmışam!

Amma çox keçmədən başına gələnləri anladı və özünə söz verdi ki, dərhal xəyanətkar bacısını və divi öldürsün. Şahzadə həmin məqsədlə də sevgilisi ilə bacısının divlə yaşadığı yerə getdi. O, əvvəlcə divin başını və əl-ayaqlarını ayırdı, sonra bacısının üstünə nöyüt töküb yandırdı.

Bundan sonra şahzadə öz sevgilisi ilə bərabər yaşamağa başladı. Onların xoşbəxt həyatı uzun sürmədi, çox keçmədən onun sevgilisi öldü. Şahzadə isə dərddən səyahətə çıxdı. Uzun vaxtdan sonra öz məmləkətinə geri qayıtdı. Atası onun geri qayıtmasını eşidib çox sevindi və coşqunluqla onu qarşıladı. O vaxtdan şahzadə əvvəlki kimi atasının yanında yaşamağa başladı.

Günlərin bir günü şahzadə atasının pul sandığını açdı və orada Şahbaz Pəri adlı bir gözəl qızın şəklini gördü. O, qızın gözəlliyindən heyrətə düşdü və o gündən nə yedi, nə içdi, elə hey onu fikirləşdi. Axırda o, atası Məlik Nadirə dedi ki, əgər o, sandıqda şəkli olan gözəl qızı tapmasa, özünü öldürəcək.

Oğlunun bu sözləri şahı böyük çətinliyə saldı, Şahbaz Pərinin olduğu məmləkət dünyanın sirli və uzaq güşələrindən birində yerləşirdi. O, çox qüdrətli bir padşahın qızı idi. Onun gözəlliyi haqqında xəbərlər dünyanın hər yerinə yayılmışdı. Bir çox padşah və şahlar bu gözəl qızın dalınca səfərə çıxmış, amma heç biri məqsədinə çatmamışdı. Onlardan bəziləri susuz səhralarda ölmüş, bəziləri isə o məmləkətə çatsalar da vəhşi, qaniçən heyvanlar tərəfindən parçalanmış, bəziləri isə zalım, cadugər qadınlar tərəfindən ömürlük daşlara çevrilmişlər. Amma buna baxmayaraq Məlik Nadir şah oğlunun qətiyyətli niyyəti qarşısında onun arzusunu yerinə yetirmək üçün cəhd etmək istəyirdi. O, çoxsaylı qoşun üçün tədarük edib yola çıxdı. Şahın qoşunu yolda çox əziyyət çəkdi. Çoxu susuz səhralarda acından öldü. Axırda qoşunu padşah Məlik Nadiri tərk edib geri qayıtmaq qərarına gəldi. Bir səhər padşah gördü ki, onun qoşunundan iki nəfər qalıb. Bir oğlu Şahzadə Qəzənfər və vəziri. Padşah çox qorxdu və oğluna geri qayıtmağı təklif etdi, amma şahzadə razı olmadı və təkbaşına yola davam etmək qərarına gəldi. Şah və vəzir geri qayıtmaq qərarına gəldilər. Ata və oğul görüşüb ayrıldılar.

Şahzadə Qəzənfər azmı getdi, çoxmu getdi, bunu heç kim bilmir, bir neçə gündən sonra bir kəndə gəlib çatdı. Bu kənddə nə uşaq, nə də cavan var idi. Qoca kişi və qarılardan başqa heç kim yox idi. Təəccüblənmiş şahzadə onlardan xəbər aldı:

– Nə üçün sizin aranızda cavan adamlar heç görünmür?

Ona belə cavab verdilər:

- Bu kənddə bizim körpələrin hamısını məhv etmiş Qara Qulaməli adında adamyeyən pəhləvan yaşayır.

Onda şahzadə Qəzənfər xahiş etdi ki, həmin adamı ona göstərsinlər. Kənd adamları ona dedilər:

- Bu adamyeyən pəhləvan hal-hazırda zəncirlənibdir, əgər onu zəncirdən açsaq, o bizim yeməyimizin hamısını yeyəcək.

Şahzadə dedi:

– Qorxmayın, onu mənim yanıma gətirin, mən onu özümlə götürəcəyəm və sizi də ondan azad edəcəyəm.

Kəndlilər razı oldular və onu şahzadənin yanına gətirdilər. O, ucaboylu idi və əlində ucu dəmir qarmağa bənzər bir taxta gəzdirirdi. O, bu taxtanı bir əlində bir dəfə yelləməklə ətrafı qırıb çatırdı. Şahzadə onu özü ilə götürüb aparanda kəndlilər çox sevindilər. Şahzadə yolda başına gələn hal-qəziyyəni ona nəql etdi. Qara Qulaməli təskinlik verdi və söz verdi ki, onu çox tezliklə sevgilisi Şahbaz Pəriyə çatdıracaq. Sonra şahzadənin atını yedi və şahzadəni çiyninə alıb iti addımlarla yola düşdü. Gecələrin birində onlar qızıl kərpiclərdən tikilmiş yeddimərtəbəli böyük bir saray gördülər. Qara Qulaməli şahzadəni saraydan bir qədər aralıda olan ağacın altında buraxdı, özü isə saraya yaxınlaşdı. Xoşbəxtlikdən bu vaxt sarayda hamı dərin yuxuda idi. O, sarayı ələk-vələk eləyib şahzadə qızı sarayın ən axırıncı mərtəbəsində tapdı. O, qızıl taxtda uzanıb mürgüləyirdi. Qara Qulaməli onun gözəlliyinə heyran olmuşdu. O, barmaqlarının ucunda ona yaxınlaşdı, bahalı xalçanı götürdü, onu xalçaya bükdü və saraydan çıxdı.

Şahzadə isə bu vaxt rahatca yatırdı. Birdən o, yuxusundan oyanıb başının üstündə öz sevgilisini gördü. Burada onlar söhbətə başladılar və bir-birlərinə aşiq oldular. Şahzadə qız buradan dərhal uzaqlaşmağı israr edirdi. Qara Qulaməli çox yorulmuşdu və uzanıb yatdığında onlar ertəsi günü gözləməyə başladılar.

Ertəsi gün səhər tezdən sarayda böyük hay-küy qopdu. Şahzadə qızı qaçırdanları təqib etmək üçün o saat çoxlu qoşun yığıldı. Çox keçmədən saray əyanları saraydan bir qədər aralıqda şahzadə qızı iki adamla gördülər. Bütün qoşun onların üzərinə

atıldı. Amma Qara Qulaməli öz taxtasını götürüb döyüşçülərin hamısını şil-küt etdi. Sonra o, iki yaxşı at götürdü, şahzadəni və şahzadə qızı onlara mindirib dedi:

– İndi biz ayrılmalıyıq, ona görə də dediklərimi unutma. Yolda siz əldən düşmüş bir qocaya rast gələcəksiniz, o sizə yalvaracaq ki, onu azad edəsiniz, amma sən ona heç fikir vermə, o, sizə çox ziyan vuracaq yeddibaşlı divdir. Sonra sənin atan sizi qarşılayanda sizin yolunuza qiymətli daşları olan xalılar döşətdirəcək və sizə böyük hədiyyələr edəcək, sən heç bir hədiyyəni qəbul etmə və döşənmiş xalının üstü ilə getmə, çünki atan gözəl qızı görüb sənə həsəd aparacaq və səni öldürməyi fikirləşəcək.

Bundan əlavə o, şahzadə Qəzənfərə bir neçə tük verib dedi:

– Əgər nə vaxtsa, bir çətinliklə rastlaşsan və ya bir bədbəxtçilik baş versə, bu tükü özünə qarşı tut və mən dərhal sənin yanına gələrəm.

Bundan sonra onlar ayrıldılar. Şahzadə Qəzənfərlə şahzadə qız Şahbaz Pəri az getdilər, üz getdilər, bir neçə həftədən sonra Qara Qulaməlinin onlara dediyi həmin qoca ilə qarşılaşdılar. Qoca onlara yalvardı ki, onun qanadlarını açsınlar. Şahzadə uzun müddət imtina etdi, amma qoca onlardan əl çəkmədi. Axırda şahzadə Qəzənfər qılıncını sıyırıb qocanın zəncirlərini kəsdi. Qoca zəncirlərdən azad olub şahzadəyə qüvvətli yumruq zərbəsi vurdu. Şahzadə huşunu itirib yerə yıxıldı. Qoca isə şahzadə qızı götürdü və öz evinə tərəf uçdu. Bir müddət keçəndən sonra şahzadə özünə gəlib Qara Qulaməlinin sözlərini yadına saldı, tükü götürdü və onu saxladı. Qara Qulaməli o saat yanında hazır oldu. O, şahzadəni ehtiyatsızlığı üçün məzəmmət etməyə başladı, sonra isə onlar yeddibaşlı divin yanına getdilər. Onlar gələndə div ovda idi. Onlar şahzadə qız ilə görüşdülər, ona təskinlik verdilər və dedilər:

– Div evə qayıdanda sən ona de: "Sən səhər ova gedirsən, mən isə evdə tək qalıb darıxıram, sənin canın olan şüşəni mənə göstər ki, sən evdə olmayanda mən tək darıxmayım, onunla günümü keçirim". Div, yəqin ki, razılaşacaq! Sən isə o, ova gedəndə bizə xəbər ver.

Elə də edildi. Şahzadə qız şüşəni aldı və div çıxıb gedəndən sonra onu Qara Qulaməliyə verdi, o, şüşəni çiling-çiling edib sındırdı. Elə bu vaxt div çox sürətlə gəlib çıxdı və onlar vuruşmağa başladılar. Çox keçmədən Qara Qulaməli divə üstün gəldi, onu yerə yıxdı və başını kəsdi. Bundan sonra o, sağ-salamat onları yola saldı, özü isə dünyanı dolaşmağa başladı. Onlar uzun yoldan sonra şahzadə Qəzənfərin atası Məlik Nadirin yaşadığı şəhərə gəlib çıxdılar. Şah Məlik Nadir oğlunun gəlib çıxması xəbərini eşidib böyük qoşun topladı və oğlunu qarşılamağa çıxdı. O, əmr etdi ki, oğlunun gəldiyi yola qiymətli daşlarla bəzədilmiş xalılar döşəsinlər, amma şahzadə xalıların üstü ilə getməkdən vaz keçdi. Bundan əlavə o, atasının nə hədiyyələrini, nə də onun sarayında yerləşməsi təklifini qəbul etmədi. Şah Məlik Nadir hər cür çalışırdı ki, necə olursa olsun, oğlunun başını batırsın və özü şahzadə qızla evlənsin.

Günlərin bir günü o, şahzadəni onunla ova getməyə dəvət etdi. Şahzadə razı oldu. Ov vaxtı Şah Məlik Nadir öz vəzirinə oğlunu öldürməyi tapşırdı. Vəzir bu məqsədlə bir dolça su və duzlu çörək götürdü. Onlar uzun müddət susuz səhrada ov etdilər. Bir gün vəzir şahzadəyə yeməyə duzlu çörək verdi. Şahzadə susuzluqdan yanmağa başladı. O, vəzirdən su istədi, vəzir ona dedi:

– Əgər gözünü çıxartmağa izn versən, mən də sənə su verərəm, yoxsa, susuzluqdan öləcəksən!

Şahzadə dedi:

– Əgər mənə yazığın gəlmirsə, gəl çıxart!

İnsafsız vəzir onun bir gözünü çıxartdı, amma su vermədi. Su istəyəndə onun o biri gözünü də çıxartdı, sonra isə onu dərin bir quyuya atdı.

Şahzadənin bir iti var idi. Həmin it onu quyuya atanda görmüşdü. O, hər gün ona qızardılmış ət və digər yeməklər gətirirdi.

Bu arada Şah Məlik Nadir qızı güclə ona ərə gəlməyə məcbur etdi. Şahzadə isə quyuda oturmuşdu və axırda Qara Qulaməlini yadına saldı, tükü götürdü və qarşısına tutdu. Qara Qulaməli gecikmədən gəlib çıxdı. Onu quyudan çəkib çıxartdı və kor şahzadəni bir bulağa gətirdi. Şahzadə başına gələn hal-

qəziyyəni Qara Qulaməliyə nəql etdi və özündə saxladığı çıxardılmış gözlərini ona verdi. Qara Qulaməli onları su ilə yaxşıca təmiz yudu və oğlanı yatırtdı, özü isə onun qarşısında oturdu. Bu vaxt özlərindən bir qədər aralıqda iki göyərçinin bir ağacın budağında oturduqlarını və öz aralarında söhbət etdiklərini gördü. Göyərçinlərdən biri o birinə deyirdi:

– Bu yatan şahzadəni görürsən? O, uzun və inadcıl mübarizədən sonra muradına çatmadan zərbələrdən məhv olur.

Digər göyərçin ona dedi:

– Onu belə sağaltmaq olar. Mənim lələklərimdən birini götürüb, gözləri əvvəlki yerlərinə qoymaq, bu lələyi gözlərin ətrafına gəzdirmək lazımdır. Bu vaxt gözlərinə işıq gələcək.

Göyərçinlər bu sözləri deyib uçub getdilər. Şahzadənin bəxtindən göyərçinin qanadından bir lələk yerə düşdü. Qara Qulaməli sevincək bu lələyi götürdü, şahzadənin gözlərini yerinə qoydu və şahzadənin gözlərinə işıq gələnədək lələyi onların ətrafında gəzdirdi. Şahzadə ona ürəkdən gördüyü işə görə təşəkkür etdi və onlar birlikdə Şah Məlik Nadirin yanına getdilər. Onlar elə toyun qızğın vaxtı şəhərə gəlib çatdılar. Qara Qulaməli saraya girib əyanların hamısını öz ağacı ilə qırıb çatdı. Şahın özünü isə vəziri ilə odda yandırdı. Bundan sonra şahzadə ilə nişanlısının kəbini kəsildi. Şahzadə böyük bir toy məclisi qurdu.

Qara Qulaməli əvvəlki işinə davam etdi, şahzadə Qəzənfər isə öz arvadı ilə şad-xürrəm yaşadılar.

***Zaqafqaziya Müəllimlər Seminariyasının məzunu Dadaş Məmmədov Yelizavetpol quberniyası Şuşa qəzasının Yuzbaşlı kəndində Ə.Əhmədovdan yazıya aldı.***

## 15. SƏLİMXAN

Günlərin bir günü Şah Abbas cənnətməkan başına dəstəsini yığdı və ova yola düşdü. Onlar iki gün gəzib dolaşdılar, heç bir Quşa rast gəlmədilər. Ovdan tamamilə əliboş evə qayıdanda ovçular düzdə durub onlara baxan bir maral gördülər. Onlar maralın sağ üzündə ona bəzək verən bir ziyil gördülər. Şah nə

olursa olsun, bu maralı tutmaq istədi və elan etdi ki, kim onu diri tutub ona gətirsə, böyük mükafat alacaq. Amma maral elə şahın özünün yanından ötüb qaçdı. Şah işi belə görüb özü onu təqib etmək qərarına gəldi. O, dəstəsinə əmr etdi ki, geri qayıdıb onun gəlməyini gözləsinlər, əgər o ləngisə, şahlığı idarə etməyi arvadına tapşırdı. Dəstə evə qayıtdı və şahın arvadını hal-qəziyyədən agah etdi. O qədər çox vaxt keçdi ki, şahın dəstəsi onun geri dönməsinə ümidini kəsdi və ona xəyanət etdi, şahlığa çaxnaşma düşdü. Şahın arvadı zəif və təcrübəsiz idi, nə xalqı nə də dəstəni itaətdə saxlaya bilmirdi. Dəstə şahlığı öz arasında bölmək istəyirdi. Şah isə bütün bu müddəti maralı təqib edirdi. Çox keçmədən o, maralı gözdən itirdi və yolun üç yolayrıcına gəlib çıxdı. Burada o dayandı və hara gedəcəyini bilmədi. Gecə düşdü, şah atı otlamağa buraxdı. Özü isə bir az dincini almaq üçün bir yerdə oturdu. Çox keçmədən yavaş-yavaş yuxu ona üstün gəldi və o yatdı. Şah səhərə yaxın bir səs-küy eşidib yuxudan ayıldıqda qarşısında ona təzim edən bir adam gördü. Şah ondan xəbər aldı:

– Sən kimsən, haradan gəlib haraya və hansı yolla gedirsən? Yaxşı məsləhət üçün yaxşı da mükafat alacaqsan. Mən İranın yiyəsi Şah Abbasam.

Burada Şah Abbas ona maralı tutmaq istəyini nəql etdi. Adam belə bir məsləhət verdi:

– Buradan bir qədər aralıda üstündə yazılar olan üç dirək var. Mən özüm savadsız adamam, amma bu dirəklərin üstündəki yazılar hər üç yol haqqında sənə təfsilatlı məlumatlar verərlər. Dalınca düşdüyün maral isə orta yoldadır. Şah sevindi və dirəklərə tərəf getdi. Birinci dirəyin üstündəki yazı belə idi: Həlak olma yolu. Orta dirəkdəki yazı: Xoşbəxtlik yolu və axırıncı dirəyin üstündə isə bu yazı var idi: Bədbəxtlik yolu.

Şah həmin adamın yanına qayıdıb onu səxavətlə mükafatlandırdı və xoşbəxtlik yolunu tutub getməyə başladı. Bir müddətdən sonra o, tərk edilmiş köhnə bir qalaya rast gəldi. O, atı sürüb qalanın darvazasına yaxınlaşdı. O, qalada insan yaşayıb yaşamadığını bilmək üçün qışqırmağa başladı.

– Ey qalanın sahibləri, mən səyyaham, mənə qalmağa yer verin!

Amma heç bir cavab gəlmədi. Onda Şah Abbas atdan endi, yerdən daş götürdü və darvazaya vurmağa başladı. Səsə bir qoca çıxdı. Şah dedi:

– Gecə düşüb, mənə səhərədək qalmağa yer ver. Pulunu ödəyərəm.

Qoca onu içəri buraxdı və öz otağına apardı. Onlar arasında söhbət başladı. Şah Abbas ov haqqında söhbətə keçdi və özünün gözəl maralını təsvir etdi. Qoca gülümsünüb dedi ki, bu, əsl maral deyil, onun qızıdır, əgər o istəsə, qızını onun yanına gətirə bilər. Şah Abbas ona yalvarmağa başladı. Bir vaxtdan sonra qocanın qəddi-qamətli gözəl qızı Şah Abbasın qarşısında durdu. Ziyil onun sağ yanağına bəzək verirdi. Şah Abbas çox sevindi və təqib etdiyi maralın qocanın qızı olması ilə bağlı heç bir şübhəsi qalmadı. Ertəsi gün şah qocaya təklif etdi ki, qızını ona ərə versin. Qoca uzun müddət razı olmadı və belə bir bəhanə gətirdi ki, onun Ziba adlı qızı bu yaxınlıqda olan meşədəki qalada yaşayan bir cəngavərlə nişanlıdır. Şah Abbas qocaya bildirdi ki, o nə adi səyyah, nə də ovçu deyil, İranın şahıdır. Qoca çox təəccübləndi, sonunda onun təklifinə razılıq verərək dedi:

– Ey İranın hakimi, əgər qızım buna razılıq versə, sənin xahişini yerinə yetirərəm.

Bir müddət keçdikdən sonra o, razılığını bildirdi. Cəngavərin oğlu Yuvelim bunu eşidib Şah Abbası təkbətək döyüşə çağırdı, lakin məğlub oldu. Bundan çox keçməmiş toy oldu və cavanlar xoşbəxt yaşamağa başladılar. Bir neçə aydan sonra Şah Abbas çoxdan atıb buraxdığı şahlığını yadına saldı. Amma onun arvadı atasının yaşlı olduğunu, onu tək buraxmaq istəmədiyini bəhanə gətirərək onunla getməkdən imtina etdi. Şah tək getmək məcburiyyətində qaldı. Şah Abbas arvadından ayrılarkən cibindən üstündə şahzadə sağ əl, şahzadə qız sol əl yazısı olan böyük bahalı bazubənd çıxartdı onu arvadına verdi və dedi:

– Əzizim, bu bazubəndi götür, uşağın doğulan günədək özündə saxla. Qızın olsa sol əlinə, oğlun olsa, sağ əlinə taxarsan.

Şah Abbas bundan sonra atına süvar olub yola düşdü. O, az getdi, dərə-təpə düz getdi, gəlib öz vilayətinə çatdı. Baxıb gördü ki, şahlığında dəyişikliklər baş verib, təcrübəli bir adam olaraq bütün işləri iki ilin içində nizama saldı, pis adamları uzaqlaşdırdı, gənc, çalışqan, zəhmətkeş adamları ətrafa cəm etdi.

Beləliklə, Şah Abbas işləri əvvəlkindən də daha yaxşı təşkil etdi.Yalnız bir şey ona əziyyət verirdi, bu da birinci arvadından uşağı olmurdu və əgər ikinci arvadından da varis doğulmasaydı, o şahlığını kimə verəcəyini bilmirdi. Günlərin bir günü şah bir neçə yaxın adamını özü ilə götürüb ova çıxdı. Həmin maral yenə də onların qarşısına çıxdı. Onun adamlarından bəzisi ona ox atmaq istədilər, amma şah onları durdurdu. Maral isə qaçmağa üz qoydu, şah Abbas da onun dalınca at çapdı. O, düz iki gün at çapdı, üçüncü günün səhəri çox böyük çətinliklə sevimli arvadı yaşayan qalaya çatdı. Qoca onu qarşıladı və gəlişinə çox sevindi. Şah Abbas ondan xəbər aldı:

– Hə, qoca, mənim əziz Zibam sağ-salamatdırmı? Onun uşağı varmı ?

Qoca cavab verdi:

– Bu günlərdə sənin arvadın Ziba gözəl, sağlam bir oğlan uşağı doğmuşdur.

Şah şox sevindi, qocanı qucaqlayıb dedi:

– Belə xoş xəbər üçün sənə ən yüksək mükafatı bağışlayıram.

Şah burada bahalı daşlarla bəzədilmiş qızıl qılıncı çiynindən çıxartdı və onu qocaya verdi, sonra Şah Abbas arvadının otağına cumdu. O, oğlu ilə birgə Şah Abbası qarşıladı. Şah sevincək onu götürüb ətrafındakılara dedi:

– Gördüyünüz kimi, oğlum sağlam və gözəl uşaqdır, onu varis təyin edirəm, o məndən sonra İranın şahı olacaqdır. O, arvadım Zibadan olan oğlumdur.

Ertəsi gün şah geriyə, öz vilayətinə yola düşdü. O, yola düşən vaxt Zibaya tapşırdı ki, oğluna yaxşı tərbiyə versin.

Şah getdi, onun oğlu, İranın varisi Səlimxan yavaş-yavaş boya-başa çatmağa başladı. O, qeyri-adi gözəlliyi ilə seçilirdi. Onu hələ uşaqlıqdan Gözəl xan adlandırırdılar. Anası onun

tərbiyəsinin qayğısına qalırdı. Oğlunun böyük qabiliyyəti və yaxşı xasiyyəti vardı.

Səlimxanın tay-tuşu olmadığından və camaat arasında olmadığından onda adamsevməzlik az-az özünü göstərirdi. Bunu dəyişdirmək üçün onun anası hər yerə adamlar göndərdi ki, səkkiz-doqquz yaşında qız və ya oğlan tapsınlar. Onlar çox axtardılar, axırda bir əzəmətli qəsrə rast gəldilər. Bu qəsrdə bir iranlı şahzadə yaşayırdı, onlar Zibanın bir uşağı tərbiyə məqsədi ilə götürmək istədiyini ona çatdırdılar. İranlı şahzadə öz uşağı səkkiz yaşlı qızı Zibeydəni verməyə razı oldu, amma bu şərtlə ki, uşaqlar bir il Zibanın, bir il isə onun yanında yaşayacaqlar. Təklif qəbul edildi və Zibeydə Səlimxanın yanına köçdü. Onlar ilk gündən çox mehriban olmağa başladılar və çox keçmədən bir-birlərini sevdilər.

Bir il keçdi və iki yeni dost şahzadənin yanına getdilər. Şahzadə öz xanımı ilə çıxıb onları qarşılayıb qalaya apardı. Şahzadə və arvadı qızlarında yaxşılığa doğru böyük dəyişiklik gördülər. Beləliklə, uşaqlar bir yerdə tam yeddi il yaşadılar. Səlimxanın on iki yaşı tamam olanda Ziba Şah Abbasdan bir məktub aldı. O, məktubda öz arvadından təvəqqe edirdi ki, Səlimxanı atasının yanına göndərsin, amma Ziba oğluna bu haqda bir söz deməyə qorxdu. Bunun üstündən bir ay keçdi və Ziba həmin məsələ haqqında ikinci məktubu aldı. Amma Ziba yenə də oğluna bir söz demədi. O da oğlu ilə birlikdə getməli idi, amma o Şah Abbasın birinci arvadı ilə yaşamaq istəmirdi. Şah Abbas bundan çox hirsləndi, oğlunun və arvadının dalınca adamlar göndərdi. Yalnız indi Səlimxan atasının əmrindən xəbər tutdu, uzun müddət nə etməli olduğunu bilmədi. O, ayrı qala bilmədiyi qız dostunu tərk etməli idi, qalaya getməyə isə onun valideynləri razı deyildilər. O, Zibeydə ilə bir yerdə qaçmaq qərarına gəldi və ona bu haqda xəbər verdi. Qız razılaşdı və onlar yola düşdülər. Bu vaxt onların hər ikisinin on altı yaşı vardı. Onlar düz on beş gün yol getdilər və meşədə dayandılar. Gecə düşürdü, onlar vəhşi heyvanları görüb çox qorxdular. Bu vaxt iki qadın səsi eşidildi, onlar danışıq səsləri eşidib çox sevindilər. Qadınlar onlardan kim olduqlarını, haradan haraya getdiklərini xəbər aldılar. Səlimxan cavab verdi:

– Mən şahzadəyəm, bu qız isə mənim həmyaşıdımdır. Biz ata evini tərk etdik, bir yerdə sığınacaq istəyirik. Bizə mərhəmət göstərin, heç olmasa, bir gecəliyinə yer verin. Biz sizə çox minnətdar olarıq. Qadınların cavanlara yazığı gəldi, onları yaxınlıqdakı tarlalar olan evlərinə apardılar. Səlimxan və Zibeydə gizlincə burada yerləşdilər.

Bu arada Ziba öz oğlunun və şahzadənin qızının qaçmağı barədə öz ərinə xəbər verdi. Şah Abbas bundan xəbər tutub İranın hər tərəfinə qasidlər göndərdi ki, qaçqınları tapsınlar və onun yanına gətirsinlər. Səlimxanla Zibeydəni boş yerə çox axtardılar, onlar bütün bu axtarışlardan xəbər tutub Zibeydənin valideynlərinin yanına qayıtmaq qərarına gəldilər. Hamı onların geri qayıtmasına çox sevindi və onları kəbinlə birləşdirmək qərarına gəldilər. Amma Səlimxan atasının yanına getməli və ondan icazə almalı idi. Şahzadə isə onun qızı ilə evlənmək istəyən hər kəsə etiraz edirdi. Səlimxan onlarla vidalaşıb anasının yanına getdi. Atası ilə görüşmək istəyini anasına bildirdi. Anası şahın ona verdiyi bazubəndi sandıqdan çıxarıb oğlunun sağ əlinə taxdı. Səlimxan yola düşdü və atasının vilayətinə gəlib çıxdı. O, birdən-birə atasının yanına getmək istəmirdi, odur ki, bir tacirin dükanına işə düzəldi. Onun gözəlliyi hamının diqqətini çəkdi. Şahın yaxın adamlarından birinin qızı ona vuruldu və valideynlərinin evini buraxıb getdi. Həmin adam şaha müraciət edib təvəqqe etdi ki, o bu gənci şəhərdən uzaqlaşdırsın. Şah əmr verdi ki, Səlimxanı onun yanına gətirsinlər. Səlimxan gəldi, İran qanununa görə onu edam etmək lazım idi, amma şahın birinci arvadının xahişi ilə onun canına qıymadılar və zindana saldılar. Bütün qızlar Səlimxanla maraqlanırdılar və onlardan hər biri ona ərə getmək istəyirdi. Onda Şah Abbas qərara gəldi ki, Səlimxanı edam etdirsin. Cəlladı çağırdılar ki, onun boynunu vursun. Səlimxanı soyunduranda onun qolunda şahın yazısı olan bazubənd gördülər və bu haqda xəbəri şaha çatdırdılar. Onda şah onun ikinci arvadından olan oğlu, İranın varisi olduğunu bildi.

Səlimxan atasının yanında sarayda yaşamağa başladı. O, çox keçmədən Zibeydə üçün darıxmağa başladı. Bu vaxt şah ovda

xəstələndi və öldü. Atasının ölümündən sonra Səlimxan İran taxtına çıxdı, doqquz il bir yerdə olduğu Zibeydə ilə evlənmək qərarına gəldi. O bu haqda hamıya elan etdi və öz adamlarını götürüb anasının razılığını almaq üçün onun yanına getdi. Ziba nəinki bu işə razılıq verdi, hətta buna çox sevindi və onlara öz xeyir-duasını verdi. Çox keçmədən onlar təmtəraqlı toy edib, xoşbəxt yaşamağa başladılar.

***Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi Cəmil bəy Axundov Şuşa şəhərində yazıya aldı.***

## III MOLLA NƏSRƏDDDIN HAQQINDA LƏTIFƏLƏR

### 1. MOLLA NƏSRƏDDİNİN RÜTBƏSİ

Müsəlmanlar hər cümə böyük məscidlərdə rütbələr oxunur. Bunun üçün camaat tərəfindən xüsusi din xadimi (cümə imamı) seçilir. Belə bir cümələrdən birində Molla Nəsrəddin camaat tərəfindən birsəslə rütbə oxumaq üçün seçilmişdi. Bir çox tərəddüdlərdən sonra o, axırda razılığını verdi və minbərə qalxıb məsciddəkilərə bu sözlərlə müraciət etdi:

Siz kainatın Yaradıcısına təşəkkür etməlisiniz ki, O, insanlara ağıl verdiyi kimi dəvələrə qanad verməmişdir. Yoxsa onlar havaya qalxa bilərdilər və onda onların ağıllarına sizin evlərin damlarına qonmaq gəldiyində sizin evləriniz uçardı və siz özünüz də dağıntıların altında qalıb həlak olardınız.

### 2. MOLLA NƏSRƏDDİNİN FƏRASƏTİ

Molla Nəsrəddinin özü kimi bir zarafatcıl yaylıqda on beş yumurta aparırdı. O, molla ilə rastlaşıb ona dedi:

– Əgər mənim yaylığımda nə olduğunu bilsən, bu yumurtaların yarısını sənə pulsuz verəcəyəm. İşdi əgər onların sayını bilsən, on beş yumurtanın hamısı sənin olacaq!

Molla çox düşündü-daşındı və axırda dedi:

– Qardaş, sən axmaqsan! Mən Allah deyiləm və onun bacısı oğlu da deyiləm və fikirləşirəm ki, Allahdan başqa heç kim

sənin yaylığında nə olduğunu bilə bilməz. Amma sən bəzi əlamətlərdən məni agah etsən, mən ola bilsin güman edə bilərəm.

Müsahibi dedi:

– Kənardan ağ rəngdədir, içəridən sarı rəngdədir, özü isə uzunsov şəklindədir.

Onda molla sevincək qışqırdı:

– Tapdım, bu içi sarı zəncəfillə doldurulmuş şalğamdır.

## 3. QASİD

Molla birinci arvadı öləndən sonra başqa arvadla evləndi və o, toydan üç ay sonra oğlan doğdu. Bir müddətdən sonra Molla Nəsrəddinin və arvadının qohum əqrabası yığıldılar ki, təzə anadan olmuş uşağa ad qoysunlar. Müxtəlif adlar təklif etdilər. Amma Molla hamıya dedi:

– Bu uşağa mən özüm ad qoyacağam və mən onu Qasid adlandırıram.

Qohumlar xəbər aldılar:

– Sən nə üçün ona belə ad verirsən?

Molla:

– O, doqquzaylıq yolu üç aya keçib gəlib və buna görə də tamamilə Qasid adına layiqdir.

## 4. MOLLA UZUNQULAQ ROLUNDA

Mollanın yaşadığı şəhərin əmiri idi və bütün gününü öz hərəmxanasında keçirirdi. Molla Nəsrəddin məsləhətlərilə əmiri bu əxlaqsızlıqdan uzaqlaşdırmaq fikrinə düşdü. Budur, o, əmirlə söhbətində ona sübut etməyə çalışdı ki, onun tutduğu o yüksək mənsəbə layiq deyildir və qadına öz üzərində hökmranlıq etməyə imkan verən hər kəs özünü təəbələrin gözündə alçaldır.

Mollanın sözləri əmirə çox təsir etdi. Əmir hərəmxananın bütün imtina etdi və özü özünə söz verdi ki, öz arvadlarının mühitindən uzaq dursun.

Əmirin xüsusi olaraq seçdiyi gözəl xadimə əmirin ona qarşı indi soyuduğunu hiss edərək ondan bunun səbəbini xəbər aldı. Əmir cavabında ona başa saldı ki, Molla Nəsrəddin onu qadınla qadınla heç bir əlaqə saxlamamaqla tamamilə inandırmışdır.

Onda xadimə mollanın qadına olan öz münasibətini dəyişdirəcəyini ona vəd edərək onu müvəqqəti olaraq Mollaya bağışlamasını təvəqqe etdi.

Əmir gözəl xadimənin təvəqqesinə tabe olaraq onu Mollaya bağışladı.

Gözəl qız çox tez özünün yeni ağasını məftun etdi. Molla Nəsrəddin onunla daha çox yaxın olduqca ona qarşı olan sevgisi ona daha çox sahib olurdu. Budur, axırda o onun qarşısında diz çökərək ehtiras çoşqunluğunda ona dedi:

– Ey ruhumun gülü, səni sevirəm və sənin mənim olmağa razılıq vermən üçün hər şeyə hazıram.

Gözəl qız cavab verdi:

– Mən razıyam, amma sənin doğru danışdığını görməm üçün mənə izn ver, səni yəhərləyim və belinə minim gəzim.

Molla şadlıq içində idi, o, daha çox şey gözləyirdi və hətta ölümə də hazır idi və buna görə canla başla özünü şıltaq xadiməsinin ixtiyarına verdi.

Onda gözəl qız əmirin tez onun yanına gəlməsini tərəqqe edərək gizlicə onun yanına bir adam göndərdi. Gözəl xadimə yəhərlənmiş mollanın belində oturanda və o, onunla çapanda əmir gəldi və otağa girdi. Zahidlik həyatında təngə gəlmiş əmir danlaqla mollanın üstünə düşdü:

– Ay utanmaz sən necə də çox rahatlıqla qadına tabe oldun?! Sən, yaramaz, bundan sonra hələ də mənə davranışlarıma görə məzəmmət etməyə cəsarət edirsən və özünün etmədiyini mənə məsləhət edirsən?!

Hazırcavab molla:

– Bu doğrudur. Amma məsələnin mahiyyətinə yaxşıca həqiqət mənim tərəfimdə olar. Mən qadınlara yaxınlaşmağın gərəkmədiyini söylərkən haqlı deyildimmi? Sən isə məni söyməyib Allaha şükürlər etməli idin ki, bu qadın tərəfindən sən yox, əsl uzunqulaq kimi yəhərlənmişəm.

## 5. DƏRZİ MOLLA

Mollanın atası o, hələ cavan olanda onu bir dərzinin yanına şagird apardı. Üç il keçdikdən sonra atası oğluna baş

çəkdi ondan bu üç il ərzində nə öyrəndiyi xəbər aldı. O, atasına dedi ki, təqribən dərzilik işini yarıyacan mənimsəmişdir. Artıq iynəni gözünə sapı necə keçirməyi bilir. İndi isə yalnız iynəni işlətməyi öyrənmək qalıbdır.

## 6. QOCALIQ VƏ GƏNCLİK

Molla Nəsrəddinin iştirak etdiyi bir yığıncaqda yeri gəlmişkən gənclik və qocalıq haqqında söz düşdü. Yığıncağın üzvlərindən hər biri insanın qocaldıqda fiziki gücünün azaldığı haqda danışdı. Molla Nəsrəddinin də bu məsələ ilə bağlı fikrini öyrənmək istədilər və o yığıcaqdakıların hamısı

– Bizim evdə gəncliyimdə nə qədər çalışsam da hətta yerindən belə tərpədə bilmədiyim böyük bir daş var. İndi qocalığımda da nə qədər güc sərf etsəm də, onu yerindən tərpətmək halında deyiləm. Deməli güc gənclikdə də qocalıqda da eynidir.

## 7. İNŞALLA[68]

Molla Nəsrəddin özünə uzunqulaq almaq üçün bazara yola düşdü. Dostlarından biri onun qarşısına çıxır. O xəbər alır:

– Xeyirdirmi, hara belə tələsirsən?

– Bazara, özümə uzunqulaq alacağam.

Qonşusu deyir:

– İnşalla de!

Molla evinə davam edib deyir:

– Bu nə üçündür, pullarım cibimədədir, bazarda isə uzunqulaqlar yetərincədir.

Bazarda mollanın pullarının hamısını cibindən çıxardırlar və o, əliboş evinə qayıdır. O, geri qayıdanda həmin dostuna rast gəlir. Dostu ondan xəbər alır:

– Hə, uzunqulaq aldın?

Acı təcrübədən dərs almış Molla ona qabaqcadan

– İnşalla pullarımı oğurladılar, inşallah sənə lənət olsun.

O vaxtdan Molla artıq söhbətini bu ifadə ilə başlayırdı.

---

[68] Hər bir dindar müsəlman bir işə başlayanda və ya öz niyyəti haqqında danışanda "İnşalla" ifadəsini işlədir ki, bu da "əgər Allah" deməkdir.

## 8. FƏRASƏT

Bir gün Molla Nəsrəddin yaylıqda şaftalılar aparırdı. O, bir dəstə tanışının yanından ötüb keçərkən onlarl zarafat etmək fikrinə düşdü. O, onlara dedi:

Sizlərdən kim mənim yaylıqda nə apardığımı bilsə, mən həmən adama ə böyük şaftalını verəcəyəm.

Əlbəttə ki, onlardan biri qışqırdı:

– Şaftalı aparırsan!

Molla vəd etdiyi ən böyük şaftalını ona verərək dedi:

– Hansı alçaq sizə bunu dedi.

## 9. MOLLA ÖZGƏNİN BAĞINDA

Molla Nəsrəddin əlində səbət özgənin bağına girdi və orada bağbanı görməyib səbətini müxtəlif meyvələrlə doldurmağa başlayır. Amma bağban çox da özünü gözlətmədi. O, əlində dəyənək mollaya tərəf qaçıb gəldi və qışqırdı.

– Sən kimsən və bu bağa necə gəlib düşmüsən?

Bağbanın belə gözlənilmədən gəlib çıxması Mollanı elə o, o saat deməyə söz də tapmadı və axırda

– Mən yolla gedirdim, güclü külək qalxdı və mən bədbəxti hasarın üstündən bu bağa atdı.

Bağban dedi:

– Yaxşı, bəs nə üçün sən bu meyvələri çəkib dartdın?

– Əziz bağban, hirslənmə, yaxşı budur ki, fikirləşəsən belə güclü külək əsəndə mən meyvələrdən yapışmasaydım mən belə bir küləkdə necə dura bilərdim. Görünür külək məni bağda oradan-bura atanda mən bu meyvələrdən yapışaraq çəkib dartmışam.

Bağban etiraz edib dedi:

– Yaxşı, ki, külək meyvələri çəkib dartıb, amma onları belə səliqə ilə səbətə yığmışdır?

Bu etiraz Mollanı təşvişə salmadı, o, sakitcə cavab verdi:

– Mən də bu barədə düşünürdüm. Amma sən gəlişinlə mənə mane oldun və mən əsl səbəbi başa düşə bilmədim.

Bu söhbət bağbanı o qədər əyləndirdi ki, o, nəinki Mollaya əksinə, topladığı bütün meyvələri də ona bağışladı.

## 10. MOLLA ALLAHI XİLAS EDİR

Molla Nəsrəddinin arvadı ailəsini dolandırmaq üçün hər hansı bir işlə məşğul olmaq istəməyən ərini yedizdirib-içirmək təngə gətirmişdi. O, bütün vaxtı bir iş görmür və işsizlikdən müxtəlif boş-boş işlərlə məşğul olurdu.

Budur, günlərin bir günü arvadı onu evdən qovdu və hədələdi ki, əgər o, axşamadək iyirmi qəpik qazanmasa, onu gecələməyə evə buraxmayacaq.

Molla axşamadək bazarda gəzib dolaşdı və bir qəpik də qazanmadı. Bu arada hava qaralmağa başladı. Molla düşünübdaşınır ki, hara getsin, evə getmək olma, arvadı evə buraxmaz. Axırda o, bir xarabalığa yaxınlaşır və bir yerdə oturur və burada açıq havada gecələmək istədi.

Birdən o, gördü ki, bir dərviş belində torbası bu xarabalıqlara girdi. Molla onu izləməyə başladı. Dərviş ehmalca yerə oturdu, tornadan şamdan götürdü, şamı yandırdı və mumda isə cidd-cəhdlə bir surət yapdı. Dərviş mumdan olan heykələ müraciət edərək dedi:

– Ey Adəm, Allah belə əliaçıqlıqla sənə hər cür nemətlər bəxş etmişdir. Sənə davamlı olaraq cənnətdə yaşamaq və oradakı meyvə və giləmeyvələrdən istifadə etmək izn vermiş və sənə yalnız buğdaya toxunmaq qadağan etmişdir. Ey Adəm bəs nə üçün sən özünün acgözlüyünün ehtiraslarını cilovlandırmadın və Qadir Allahın əmrini yerinə yetirmədin? Əgər sən Allahın əmrlərini pozmasaydın, sən özün cənnətdən qovulmazdın, insanlar isə özlərinə gündəlik çörək qazanmaq üçün bu qədər çox işləməyə və ölümlərindən sonra isə bundan əlavə qiyamətə dözmək və bütün hərəkətləri cavab verməyə məcbur olmayacaqlardı. Ey Adəm, sən bütün bunların günahkarısan!

Dərviş cəza olaraq taxtanın bir zərbəsi ilə Adəmin heykəlini əzdi.

## 11. RİYAZİYYATÇI MOLLA

Həmsöhbətlərindən biri Molladan riyaziyyat sahəsində özünü necə hiss etdiyini soruşduqda o deyir ki, bu elmi elə yaxşı

bilir ki, hələ bu sahədə elə bir məsələ yoxdur ki, ona əziyyət vermiş olsun. Mollanı sınamaq üçün ona dörd dirhəmi üç yoldaş arasında bərabər bölməyi təklif edirlər. Molla Nəsrəddin dedi:

– Bunu etmək çox asandır. Yoldaşlardan hər ikisinə iki dirhəm verərik, üçüncü yodaşdan da xahiş edərik ki, gözləsin, Allah yenə iki dihrəm verəndə həmin yoldaşı da razı salarıq.

## 12. PİŞİK TƏRƏZİNİN ÜSTÜNDƏ

Molla üç girvənkə ətlə evə qayıdıb arvadına tapşırdı ki, axşama bir bozbaş bişirsin. Arvadı bozbaş bişirdi, öz oynaşı ilə birlikdə özü yedi.

Axşam düşdü. Molla bütün günü acıyıb evinə qayıdır. O, həmin günü ağzına bir şey də almamışdı ki, bozbaşı böyük iştaha ilə yesin. Molla evə girib deyir:

– Arvad, bozbaşı və çoxlu çörək gətir.

Arvadı uca səslə deyir:

– Kül mənim başıma, sənə neçə dəfə demişəm ki, bu oğru pişiyi evdən rədd etmək lazımdır, sən isə sözlərimə heç fikir verməmisən və o, bu gün ətin hamısını yedi.

Aclıqdan onsuz da hirsli olan Molla yerindən sıçradı, pişiyi tutdu və onu tərəzinin bir gözünə qoydu, o biri gözünə isə hər iki gözlər bərabər olanadək daşları qoymağa başladı. Sonunda nə oldu? Pişik üç girvənkədən az yüngül oldu. Onda Molla qışqırdı:

– Sən nə utanmaz arvadsan, sən günahsız pişiyi necə günahlandırırsan? Əgər o, doğurdan da üç girvənkə əti yemiş olsaydı, bir onun çəkisi üç girvənkədən artıq olmalı idi.

## 13. OĞURLUQ ÜSTÜNDƏ TUTULMUŞ MOLLA

Bir gün Molla buğda ilə dolu çuvalla dəyirmana yola düşdü ki, onu üyütsün. O, dəyirmana çatanda gördü ki, dəyirmançı başqa bir işlə elə məşğul idi ki, heç onun gəlməsindən xəbər tutmadı. Molla Nəsrəddin bu fürsətdən istifadə etdi və buradakı buğda ilə dolu çuvalların hər birindən gizlincə bir ovuc buğda götürüb öz çuvalına tökməyə başladı. Dəyirmançı Mollanın

oğurluğunu görüb çevrilib baxdı və Mollanın qulaqlarından tutub dedi:

– Ay axmaq sən nə edirsən?

Molla tez cavab verdi:

– Heç! Dediyin kimi mən doğurdan da axmağam, və axmaq adama çox bənd olmayıblar!

Dəyirmançı dedi:

– Əgər sən doğurdan da axmaqsan, onda nə üçün öz çuvalından özgələrinə buğda tökmürsən əksinə özgəninkini öz çuvalına tökürsən?

Molla cavab verdi:

Onda mən artıq sadəcə ağılsız deyil, ən axmaq insan olardım.

## 14. MOLLA QARƏT EDILDI

Molla Nəsrəddin başqa bir şəhərdən geri qayıdarkən əlində silahı hazır tutmuşdu. Bir əlində qılıncı, o biri əlində isə tapançanı. Birdən bir nəfər onun qabağına çıxır. Həmin adam onu dayandırır əlində nə var idi isə hamısını alıb götürür, hətta arxalıq və şalvarını da.

Molla dostlarının yanına gəlir və başına gələnləri və yolda bir nəfərin onu necə qarət etdiyini onlara nəql edir. Dostları ondan xəbər alırlar:

– Məgər yanında silahın yox idi?

Molla deyir:

– Mən nə edə bilərdim, axı mənim hər iki əlim də tutulmuşdu bir əlimdə qılınc və o birisində isə tapança var idi. Əgər əllərim boş olsa idi, mən onu boğardım.

## 15ÖZ PULLARINI XILAS ETMƏYIN ROLU

Mollanın həmsöhbəti ondan xəbər aldı:

– Sən nə üçün qozları qabıqla yeyirsən?

– Əzizim ona görə ki, mən qabıqlar üçün də pul vermişəm. Daha yaxşı olardı ki, sən vicdansız boqqalardan xəbər alaydın ki, onlar nə üçün qozları qabıqla satırlar?

## 16. QOYUN KƏLLƏSI

Atası Molla Nəsrəddini kəllə yanına göndərdi ki, onun üçün qoyun kəlləsi alsın. O, atasının tələbini yerinə yetirdi. Amma yolda qoyunun başında olan ətin hamısını yedi və atasının qabağına yalnız hamar kəllə qoydu. Atası təəccüblə kəllə baxdı və dedi:

– Oğul, bu yalnız kəllədir. Bu başın qulaqları haradadır?

Nəsrəddin cavab verdi:

– Onun görünür doğulanda heç qulaqları olmamışdır.

– Bəs gözləri haradadır?

– Görünür o, kor doğulubmuş.

– Bəs dili haradadır?

– Görünür o, lal doğulubmuş.

– Bəs başının dərisinə nə olub?

– Bəlkə o, keçəl imiş. Amma ata bir bax, dişləri necə də möhkəmdir. Bu vaxtadək biri də düşməmişdir.

## 17. MOLLANIN YUXUSU

Molla yuxusunda görür ki, bir nəfər ona doqquz qızıl sikkə bağışlayır, o, isə imtina edir və həmin adamdan təvəqqe edir ki, bir qızıl sikkə də əlavə etsin ki, düz on yuvarlıq rəqəm olsun. Bu mübahisə əsnasında Molla yuxudan ayılır və əlində bir qəpiyin də olmadığını görür. Molla etdiyi səhvə görə edir və səhvini düzəltməyi düşünür. O, yenə gözlərini örtür və özünü yuxuya vurur, əlini uzadıb deyir:

– Hə, heç nə olmaz, qoy sən deyən olsun, doqquzu bura ver...

## 18. PENDİRİN KEYFİYYƏTİ

Bir axşam Molla Nəsrəddinin xətrinə yemək düşdü, amma evində bayat, quru çörəkdən başqa yeməyə bir şey yox idi. Molla deyir:

– Arvad, bir az pendir gətir. Bu çox gözəl və faydalı yeməkdir, pendir adama güc və enerji verir.

Arvad istehza ilə tez cavab verdi:

– Hayıf ki, bizdə hətta bir balaca pendir tikəsi də yoxdur.

Molla arvadının sözlərini eşidib dedi:

– Yaxşı ki, pendir yoxdur, o, mədəni korlayır, dişləri zəiflədir və heç bir dadı da yoxdur.

Mollanın arvadı ucadan dedi:

– İndi nəyə inanaq, sənin təriflərinə yoxsa.

Molla dedi?

– Arvad, qışqırma. Məsələ son dərəcə aydın və sadədir. Əgər pendirin varsa, birinciyə inana, işdi əgər yoxdursa, ikinciyə.

## 19. İNCƏ MƏSƏLƏ

Bir dəfə iş elə gətirdi ki, Molla Əmirlə nahar yemyii yeməli oldu. Müxtəlif yeməklərin içində bişmiş dana başı da var idi. Əmir Molla Nəsrəddinlə zarafat etmək istədi. O dedi:

– Molla, sənə dananın başını yeməyi məsləhət görürəm, ondan yeyən adamın başında beyini çoxalır.

Molla dərindən fikirləşərək dedi:

– Cənabınız hər gün dana başı yeyir, əgər sizin sözlər həqiqətdirsə, onda sizin başınız hər hansı uzunqulağın başındakından daha çox beyin olmalıdır.

## 20. AYIN XILAS EDILMƏSI

Aylı gözəl gecələrin birində Molla Nəsrəddinin ağlına quyuya baxmaq gəldi. O, Ayı quyunun dibində görüb ucadan dedi:

– Yazıq, bədbəxt Ay suda batır!

O çox da fikirləşməyib hardansa bir qarmaq tapdı, onu bir ipin ucuna bağladı və quyuya salladı. Qarmaq daşlara ilişdi. Molla düşünür ki, qarmaq Aya ilişibdir və cidd-cəhdlə ipi dartmağa başlayır və ip qırılır və molla arxası belini bərk zədələyərək arxası üstə yıxılır. O, bu vəziyyətdə yerdə uzanarkən birdən göydəki Ayı görür, ucadan deyir:

– Allaha şükürlər olsun, belimi zədələsəm də, hər halda bədbəxt Ayı məhv olmaqdan qurtardım.

## 21. ŞƏRİN KÖKÜNÜ QOPARMAQ LAZIMDIR

Molla Nəsrəddin öz danasını tutmaq istəyirdi, amma dana ona şıllaq ataraq ondan qaçıb getdi. Pərt olmuş molla dananın

anasının yanına gəlib amansızcasına onu döyür. Arvadı onun üstünə qışqırır:

– Axmaq, inəyin günahı nədir?

– Günahkar odur, əlbəttə ki, ona belə ustalıqla şıllaq atmağı və adamlardan qaçmağı o öyrətmişdir. Yoxsa, altıaylıq dana məgər belə məharətlə şıllaq atmağı və qaçıb getməyi və acıq verərək quyruğunu yuxarı qaldırmağı bilərdimi?!

## 22. YAXŞI ƏLAMƏT

Bir dəfə Molla böyük cidd-cəhdlə torpaq qazırdı. Yoldan ötənlərdən biiri dayandı və ondan xəbər aldı:

– Sən nə üçün belə əlləşirsən?

Molla cavab verdi:

– Nə vaxtsa mən burada xəzinə basdırmışdım, indi isə nə qədər çalışıramsa, nə qədər axtarırımsa, tapa bilmirəm.

Yoldan keçən xəbər aldı:

– Məgər xəzinəni basdırarkən sən ona heç olmasa bir əlamət qoymadınmı?

Molla dedi:

– Əlbəttə, xəzinəni basdıranda həmin yerin üstündə kiçik qara bulud dururdu.

## 23. TƏNQİDÇİ MOLLA (s. 143)

Molla Nəsrəddinin yaşadığı şəhərin əmiri şeiri çox sevirdi, özü də ara-sıra şeir yazmaqla məşğul olurdu. O, bir şeir yazıb mollanı yanına çağırdı, şeiri ona oxudu və onun tərəfindən şeiri haqqında tərifəlayiq rəy gözlədi. Əmiri təəccübləndirən və onu pərt edən o oldu ki, molla onun şeirini bəyənmədi və buradakı nöqsanları göstərməyə başladı. Dilxor olmuş əmir onda əmr etdi ki, mollanı həbs etsinlər və danlasınlar.

Başqa bir vaxt mollanı əmirin dəvəti ilə gətirəndə əmir ona yeni yazdığı başqa bir şeirini oxudu. Molla heç bir şey söyləmədən qapıya təf getdi. Əmir onun dalınca qışqırdı:

– Sən hara gedirsən, şeirim haqqında bir fikrini söylə.

Molla ona cavab verdi:

– Mən artıq zindana gedirəm.

Mollanın cavabı əmirin xoşuna gəldi və o, onu bu dəfə onu zindandan azad etdi.

## 24. MOLLA CANLA BAŞLA ÖZ VƏZIFƏSINI YERINƏ YETIRIR

Bir gün Mollanın anası bir tanışının dəfninə getməli oldu. O, ora getməmişdən əvvəl oğluna tapşırdı ki, o, evə qayıdanadək evdə otursun və gözü qapıda olsun. Molla evdə oturur və gözünü qapıdan çəkmir. O, anasını çox gözləməli oldu. Bu vaxt bazara getmək istədi və daha anasının gəlməyini gözləməyib böyük əzab-əziyyətlə qapıları həncamələrindən çıxarıb belinə aldı və bazara gəzməyə getdi. Anası evə qayıdanda nə oğlunu, nə də qapıları görüb onu axtarmağa getdi və axırda onu çox axtardıqdan sonra çox ağır yükün altında əldən düşmüş onu gördü. Molla anasının məzəmmətlərinə belə cavab verdi:

– Mən axı bir pis iş görməmişəm, əksinə, sənin tapşırığını canla başla yerinə yetirmişəm.

## 25. SOVM-QƏZA[69]

Molla Nəsrəddin zeytun yağı satırdı. Bir alıcı ona yaxınlaşıb deyir:

– Sən mənə nisyə bir az zeytun yağı verərsənmi?

Molla cavab verir:

– Məmnuniyyətlə, mən heç vaxt sənin kimi hörmətli insana imtina etmərəm.

Molla yağı tərifləyərək alıcıdan xahiş edir ki, yağdan dadsın.

Alıcı ona deyir:

– Bağışla, zəhmət olmasa. Mən onu dada bilmərəm, çünki bu gün mən vaxtında oruc saxlaya bilmədiyim üçün orucun əvəzinə orucam.

Bir qədər düşünüb molla götür-qoy etdi ki, Ramazandan on ay keçmişdir, buna görə də alıcıdan yağını geri alıb onu qovdu və dedi:

---

[69] Ramazan ayında tutulmayan orucun yerinə tutulan oruc

– Əgər sən Allahın borcunu vaxtında ödəyə bilmirsənsə, fikirləşirəm ki, mənim borcumu heç ödəməyəcəksən.

## 26. XAHİŞİ RƏDD ETMƏYİN YOLU

Qonşusu Molla Nəsrəddindən örkən istədi. Molla bəhanə gətirir:

– Arvad çovdarı qurutmaq üçün örkənin üstünə səpib.

Qonşu etiraz etdi:

– İnsafın olsun, sən nə danışırsan, heç örkənin üstündə də çovdar qurutmaq olar? Daha olardı ki, açıqdan-açığa rədd edərdin.

Molla özünü təmizə çıxardır:

– Əgər mənim rədd etmək niyyətim olsa idi, sənə deyərdim ki, arvadım örkənin üstünə çovdar deyil, un səpmişdir.

## 27. MOLLANIN MÜDRİK ADAMLA YARIŞMASI

Molla Nəsrəddinlə bir vaxtda başqa bir müdrik adam yaşayırmış. O, bütün elmlərdə o qədər qüvvətli idi ki, heç kim onunla mübahisə edə bilmirdi. Hər cür çətin suallar onun tərəfindən asanlıqla həll edilirdi. O, Mollanın yaşadığı şəhərə gəlib çətinlik çəkdiyi bəzi sualları həll edə biləcək müdrik adamın olub olmadığını adamlardan soruşdu. Hamı ona Molla Nəsrəddini nişan verdi. Müdrik adam onu axtarmağa getdi, amma o, Mollanı çox da axtarmalı olmadı. O, uzunqulağının üstündə yol gedərkən özü onun qarşısına çıxdı. Müdrik adam deyir:

– Salamun əleykum!

Molla cavab verir:

– Əleykum əssalam!

Müdrik adam deyir:

– Mənim səndən bir xahişim var.

Molla cavab verir:

– Buyur, de!

– Mənə çətinlik yaradan bir neçə sualları sənə vermək istərdim.

Molla cavab verdi:

– Suallarını ver!

– Yer kürəsində hansı yeri onun mərkəzi adlandırmaq olar?

Molla cavab verir:

– Yer kürəsinin mərkəzi uzunqulağımın indi durduğu yerdir. Əgər inanmırsan, ölç!

Mollanın cavabından çaşmış müdrik adam çıxılmaz vəziyyətə düşdü, etiraz edə bilməyərək ikinci sualı verməyə tələsdi:

– Sənin fikrincə göydə nə qədər ulduz var?

Molla cavab verir:

– Uzunqulağımda olan tüklərin sayı qədər, əgər şübhə edirsənsə, say!

İkinci cavab müdrik adamı daha çox çaşdırdı. O, ələ salaraq Molladan xəbər aldı:

– Sən bəlkə saqqalımda neçə tükün olduğunu biləsən?

– Sənin saqqalında uzunqulağın quyruğunda olduğu qədər tük var. Əgər istəyirsən, yoxlaya bilərsən!

## 28. MOLLANIN PEYĞIMBƏRLIYI

Günlərin bir günü Molla Nəsrəddin peyğəmbərlik etmək fikrinə düşür və o, camaatın qarşısında xütbə ilə çıxış edir və adamları tövbə etməyə çağırmağa başlayır. Amma heç kim onun peyğəmbərliyinə inanmır, bəziləri zarafat üçün ondan peyğəmbər olmasına sübutlar istədilər. Onlar deyirdilər:

– Sən nə ilə sübut edərsən ki, sən peyğəmbərsən? Həqiqi peyğəmbərlər kimi sən dəhər hansı bir möcüzə yarada bilərsənmi? Hə, budur, sən də peyğəmbərlər kimi özünün gələcəyi görmə qabiliyyətini göstər və indi bizdən hər birimizin nə haqda düşündüyümüzü tap!

Molla Nəsrəddin buna cavab verdi:

– Sizlərdən hər biri indi düşünür ki, Molla bizimlə zarafat edir və ya bizi aldadır.

## 29. UĞURSUZ ŞIKAYƏT

Molla Nəsrəddinin arvadı gah bu qonşunun, gah da o biri qonşunun evini gəzməyi xoşlayırdı. Qonşular onun vaxtının boş keçirtməsindən sonra gəlib onun ərinə şikayət etmək qərarına gəldilər. Molla gülümsəyərək onlara cavab verdi:

– Siz qəribə adamlarsınız, məgər sizin şikayətlə bağlı arvadımla söhbət etməkdən ötrü və onu cəzalandırmaq üçün mən heç onu evdə tapa bilirəmmi?

## 30. HUŞSUZLUQ

Molla Nəsrəddin hamama gedəndə arvadına tapşırdı ki, o, qayıdana kimi plov bişirsin. Arvadı plov bişirdi, amma əri qayıdana kimi onu yanına gəlmiş oynaşı ilə yedi. Molla evinə qayıdır və arvadına deyir ki, yeməyi gətirsin.

Arvadı qışqırır:

– Sən elə indicə hamamdan qayıtmışsan, elə indicə də yemək yeməyə başlamaq istəyirsən. Mən heç cürə belə tez sənə yemək verə bilmərəm, indi sən dincəlməlisən, uzan və dincəl, onda sən heç göstərişin olmadan da plov olacaq.

Molla vasvası idi, xəstələnəəcəyimdən qorxaraq yatağına uzandı və çox keçmədi yuxu ona üstün gəldi. Arvadı isə elə bunu istəyirdi. O, ustalıqla plovun qalıqlarını ərinin dodaqlarını, saqqal və bığlarını buladı. Bir qədər vaxt keçdikdən sonra Molla yuxudan oyanır və yenidən arvadından plov gətirməsini xahiş edir.

Arvadı təəccüblə ərinə baxır və uca səslə deyir:

– Pah, adam da belə huşsuz olar.

O, bunu deyib ərinə güzgü verir və deyir:

– Əgər mən desəm ki, sən artıq plovu yemişsən, sən olsun ki, inanmayacaqsan. Yaxşısı budur sən güzgüdə hələ yumağa macal tapmadığın öz dodaqlarına, saqqal və bığlarına bax və sən əyani şəkildə əmin olacaqsan ki, sən artıq plovu yemişsən.

Yazıq Molla güzgüdə saqqalındakı plov dənələrin görüb fikirləşdi ki, o, səhv etmiş və boş yerə arvadını narahat edirmiş və ondan üzr istəməyə başladı.

## 31. MÜFTƏ GÜNORTA YEMƏYİ

Günlərin bir günü Molla Nəsrəddin evinə qayıdıb yeməyə bir şey tapmadı, bununla belə eşitdi ki, qonşuda plov bişiriblər və günorta yeməyi yeməyə hazırlaşırlar. Onda Molla belə bir hiyləyə əl atdı. O, arvadına deyir:

– Arvad, mən ağacı götürəcəyəm və səni vuracağam, sən isə elə bil kömək üçün qonşunun evinə qaç. Beləliklə, bir ikimiz də onun evinə girəcəyik, onlar məni səni döyməyə qoymayacaqlar və bundan əlavə oturub yemək yeməyi xahiş edəcəklər və biz səninlə plov yeyəcəyik.

Necə deyilmişdi elə də edildi. Doğurdan da mollanın arvadına bu müftəgünorta yeməyi baha başa gəldisə, həmin günü molla arvadı ilə qonşugildə günorta yeməyini yedilər.

## 32. XƏSTƏ SAĞALDI

Molla Nəsrəddin çox möhkəm xəstələnmişdi. Qohumlar və dostları onu yoluxmağa gəldilər və onun yanında o qədər çox otururdular ki, axır onu çox təngə gətirdilər. Molla ziyarətçilərdən canını qurtarmaq üçün yerindən qalxıb onlara deyir:

– Sevinin, Allahn sizin xəstəyə yazığı gəldi və o, sağaldı. İndi isə gedə bilərsiniz.

## 33. MOLLANIN TƏƏCCÜBÜ

Molla bir şəhərdə gördü ki, bir yerə toplanmış adamlar diqqətlə yeni Ayın görünməsini izləyirlər. Bu, Mollanı o qədər karıxdırdı ki, o, uca səslə dedi:

– Allah, nə qədər axmaq adamlar var! Bir kiçik Ayı görmək üçün bir yerə yığışşırlar, amma bizim şəhərdə dəyirman daşı boyda olanda belə heç kim ona fikir də vermir.

## 34. MOLLANIN DİRİLMƏSİ

Molla Nəsrəddin böyük bir çətinliklə bir ağaca dırmaşıb çıxdı və məhz özünün üstündə oturduğu buğdayı mişarlamağa başladı. Yoldan keçən bir nəfər mollanın düşüncəsizliyini görüb dedi:

– Molla, yıxılacaqsan!

Molla yoldan keçənin xəbərdarlığına fikir vermədi və budaqla, əlindəki mişarla, üzü və əlləri sıyrılmış yerə yıxılanadək mişarlamağa davam etdi. Qana bulaşmış Molla yoldan keçənin peyğəmbərliyinin gerçəkləşdiyini görüb onun dalınca qaçdı və çatıb dedi:

– Sən ya Allahın oğlusan, ya da Onun bacısı oğlusan! Lütfən söylə, mən nə vaxt öləcəyəm.

Yoldan keçən əvvəl peyğəmbərlik etməkdən boyun qaçırtdı, amma Mollanın əl çəkmədiyini görüb və ondan canını qurtarmasını istəyərək dedi:

– Uzunqulağın üç dəfə büdrəyərək, sən də onda öləcəksən.

Molla öz uzunqulağının yanına qayıdıb onun üstünə mindi və evinə yola düşdü. Yolda onun uzunqulağı iki dəfə büdrədi. Molla öz-özünə fikirləşir: "Çox keçməz hər şeyin sonu olacaq, ölüm yaxınlaşır". Uzunqulaq üçüncü dəfə büdrəyəndə molla zəifləyib uzunqulaqdan yerə yıxıldı və əl-ayaqlarını uzadıb özünü ölmüş təsəvvür etdi.

Mollanın uzun müddətli yoxluğundan təşvişə düşmüş qohumları axtarmağa getdilər və uzun axtarışlardan sonra onu axtarıb tapdılar. Amma molla yığılıb gələn adamların heç bir xahişlərinə və səylərinə baxmayaraq özünü ölmüş bilərək onların çağırışlarına, haylamalarına cavab vermirdi. Yığışıb gələnlər axırda fikirləşməyə başladılar ki, Molla doğurdan da ölübdür və onu dəfn etməyə hazırlaşdılar. Onlar xərək gətirdilər, Mollanı onun üstünə qoydular və onu çiyinlərinə qaldırıb qəbiristanlığa tərəf yönəldilər. Yolda onlar çaydan keçməli oldular. Çayda su bol idi, amma körpü yox idi, çiyinlərində xərəyi aparlar haradan keçməyi bilmirdilər. Molla onların çaydan keçməsini çox gözlədi və axırda dözməyib və başını xərəkdən qaldırıb ucadan dedi:

– Mən sağ olanda uca çinarın durduğu yerdən çayı keçirdim. Siz də elə oradan keçin.

Hamı gülüşdü və ucadan dedilər:

– Molla dirildi.

## 35. NAMAZ QILMAĞIN XÜSUSİ ÜSULU

Bir dəfə Molla ibadət etmək istəyərək dəstəmaz almağa başladı, amma su çatmadı və o bir ayağını yuya bilmədi. Molla öz-özünə fikirləşdi: "Kimdi suyun dalınca gedən, mən belə də namaz qıla bilərəm". Molla məscidə girib yumadığı ayağını qaldırır və bir ayağı üstündə duraraq namaz qılır. Məscidə gələnlər

çox heyrətləndilər ki, Molla belə bir qeyri-adi üsulla dua edir və ondan xəbər aldılar:

– Məgər digər ayaq olarkən bir ayaq üstündə namaz qılmağa şəriət izin verirmi?

Molla cavab verdi:

– Mənim bu ayağım yuyulmamış qalıbdır və buna görə də mən onu namaza buraxmıram.

## 36. SEYR[70]

Molla təsadüfən bir bağa gəlib çıxdı. Burada bir neçə adam oturmuşdu. Molla onlara yaxınlaşıb yanlarında bir tərəfdə oturdu. Oturanlardan biri dedi:

– Gəlin seyr təşkil edək və tam bir həftəni bu bağda keçirək.

O birisi cavab verdi:

– Mən tamamilə razıyam və yeməklə bağlı həftəlik xərcləri öz boynuma götürürəm.

Üçüncüsü dedi:

– Mən isə musiqi və müğənnilərin xərcini...

Dördüncüsü əlavə etdi:

– Mən isə qənd və çay gətirərəm.

Sonra isə onlar Molladan özünün üzərinə nə götürəcəyini xəbər aldılar.

Molla dedi:

– Mən isə bütün vaxtı burada olacağam və əgər bir həftədən əvvəl buradan çıxıb getsəm qoy lənətli olum!

## 37. ACLIĞI YATIRTMAQ ÜÇÜN HƏR ŞEY VAR!

Molla Nəsrəddin alış-veriş işləri ilə başqa bir şəhərə gedəndə özü ilə çörək götürməyi unutdu. Bu arada aclıq yolda ona çox əziyyət verirdi, onu yatırtmaq üçünsə bir şey yox idi. O, yolda bir bulağın başında torbasından çörək və pendir çıxardıb iştaha ilə yeyən öz həmşəhərlisini görür, o, uzun müddətli səyahətdən sonra geri qayıtdı. Molla istəmədən dedi:

[70] Şəhər ətrafında gəzinti

– Allaha şükürlər olsun ki, aclığı yatırtmaq üçün birv şey vardır!

Molla bu görüşə xəzinə tapmış bir kasıb adam kimi sevindi və həmşəhərlisinə yaxınlaşıb onunla mehribancasına salamlaşdı:

– Salam, yerli, inşallah haradan belə?

– Əzizim Tehrandan. Budur artıq on ildir ki, mən qərib idim və son vaxtlar öz ailəm haqqında heç bir məlumatım yoxdur. Bir de, lütfən mənim uşaqlarım və evim haqqında mənə bir şey xəbər verə bilərsənmi?

Molla cavab verdi:

– Allaha şükürlər olsun, hamı sağ-salamatdır.

O, belə bir xoş xəbərlə öz həmşəhərlisini sevindirmək və onda özünə qarşı rəğbət doğurmaq istəyirdi o, ona qəlyanlatı etmək təklif etsin. Amma Mollanın yerlisi isə onun qayğısına qalmadan sakitcə qəlyanaltı etməklə davam edirdi. Onda Molla azuqələri yerlisindən digə üsulla almaq qərarına gəldi.

Öz ailəsinin sağ-salamat halından sevinən həmşəhərli daha təfsilatlı suallar verməyə başladı:

– Lütfən söylə, mənim bir əl ceyranım var idi, o, sağdırmı?

– Bəli, çox gözəl ceyran idi, o, sizin oğlunuzla eviniz yanında gəzişəndə mən tez-tez onu görürdüm. Amma bədbəxtlikdən sizin ceyran əbədi dünyaya köçmüşdür.

– Allahım, ona nə oluşdur?

– Sənin arvadın və oğlun vəfat etdikdən sonra (Allah onlara rəhmət eləsin1) qohumların dərdən o qədər dəhşətə gəlmişdilər ki, sənin ceyranını tamam unutmuş imişlər və o da aclıqdan öldü.

– Məgər arvadın və oğlum ölmüşlərmi? Ay oğul, ay oğul!

Bədbəxt həmşəhərli bu sözləri eşidib hönkür-hönkür ağladı.

Molla cavab verdi:

– Bəli ölmüşlər, Allah onlara rəhmət eləsin!

– Onlar, yazıqdan hansı xəstəlikdən ölmüşlər. Onları məhv edən vəba olmasın?

– Yox, onlar heç xəstə də deyildilər, sizin evdə yanğın olmuşdu, evin arvadınla, oğlunla və içində olan hərv şeylə birlikdə yanmışdır.

Yazıq həmşəhərli Mollaya inandı, içində çörək və pendir olan torbanı da qoyub başına döyə-döyə və yanıqlı iniltilər içində evinə tərəf qaçdı. Molla isə bulağın başında sakitcə oturaraq özünün aldadılmış yerlisinin azuqəsini özünə sərf etdi.

## 38. PEYĞƏMBƏRLƏRİN ADLARI (TƏRCÜMƏ EDİL)

Molla Nəsrəddinin yaşadığı şəhərin əmiri böyük bir məclis düzəltmişdi. Əmir bu məclisə Molla Nəsrəddini də dəvət etmişdi ki, o, özünün məzəli, ağıllı zaraftları ilə qonaqları əyləndirsin.

Məclisin sonunda qonaqlar dağılıb gedəndə molla əmirin ayaqlarına düşüb dedi:

– Ey hökmdarım, mənim səndən bir xahişim var.

Əmir mollanın xahişinin çox da ağır və çətin olmayacağını ehtimal edərək dedi:

– Nə xahişin var söylə, yerinə yetirməyi sənə söz verirəm.

Molla dedi:

– İşləmək iqtidarında olmayan mən qocanı təmin et! Mən maaş gətirməsəm arvad məni evə buraxmır, axı mən pulu haradan alım? Sənn xəzinən doludur, əmr et mənə peyğəmbərlərin sayı qədər qızıl sikkə versinlər.

Əmir isə öz-özünə fikirləşir ki, bu böyüklükdə məbləği ona necə versin, əgər verməsə, vədinin yerinə yetirilməsindən necə qurtulsun? Axırda bu işin həllini tapdı və əmr etdi ki, bir kisə qızıl sikkə gətirsinlər. O dedi:

– Molla, sənin xahişini yerinə yetirməkdən imtina etməyəcəyəm, budur qızılla dolu kisə və sən peyğəmbərlərin sayı qədər qızıl sikkə alacaqsan, bu şərtlə ki, sən adbaad onlardan hər birinin adını çəkəsən. Hər hansı bir peyğəmbərin adını çəksən, onun şərəfinə bir sikkə alacaqsan.

Molla peyğəmbərləri adbaad sadalamağa başladı. Onlardan yalnız iyirmisinin adını çəkə bildiyi üçün danışıldığı kimi iyirmi qızıl sikkə aldı. Amma sonra isə nə qədər çalışsa da birinin də adını yada sala bilmədi, axırda ağlına nə gəldisə onları deməyə başladı:

– Firon, Nimrud və s.

Məclisdə olan vəzirlər ona dedilər:

– Molla, bir dayan, axı bunlar peyğəmbər deyildirlər.

Molla incik halda dedi:

– Bağışlayın, ağalar! Mən sizə lazım olduğundan daha çox verirəm. Belə ki, Firon və Nimrud özlərini Allah kimi qələmə verirdilər və çoxları onları belə də etiraf edirdilər, siz isə onlar peyğəbər kimi də qəbul etmək istəmirsiniz!

## 39. MOLLA QIZINA ELÇİ GÖNDƏRİR

Molla Nəsrəddin bazarda inək satırdı. O, bazarda çox durdu, amma heç kim yaxınlaşıb inəyin qiymətini xəbər almadı. Axırda bir nəfər ona yaxınlaşıb və deyir.

– Gəl, bu inəyi mənə ver, onu elə indi satım.

Sevinmiş Molla ona təşəkkür edib inəyi onun sərəncamına verdi və özü isə onu izləməyə başladı. Tanınmayan adam inəyin yaxşı cəhətlərini tərifləyərək onu bütün bazar boyu gəzdirir.

– Ağalar, çox gözəl inəyi alın, budur altı aydır o, boğazdır bu yaxınlarda buzovlayacaq!

Alıcılardan biri inəyə diqqət yetirdi və onu Mollanın satmağa düşündüyü qiymətdən daha böyük qiymətə satdı. Molla sevincindən özünün gözlənilməyən xeyrxahın səxavətlə əvəzini verdi.

Bu işin üstündən bir müddət keçdi. Mollanın yanına qaızına elçiliyə adamlar gəldilər. Molla tanınmayan adamın dərsini yadına saldı və qızını tez ərə vermək üçün tərifləməyə başladı. O, dedi:

– Xahiş edirəm diqqət edəsiniz ki, qızım məftunedici xarici görkəmindən, üzünün gözəlliyindən və özünün yaxşılıqlarından başqa artıq altı aydır ki, hamilədir və çox tezliklə özünəbənzəri dünyaya gətirəcək.

Elçilər belə tərifləri eşidib Molla ilə tez görüşüb ayrıldılar, arvadı isə sərt məzəmmətlərlə Mollanın üstünə düşdü ki, o, həmişəlik qızının adını batırdı.

## 40. MOLLA DƏLLƏYİN YANINDA

Molla Nəsrəddin yaşadığı şəhərdə başın qırxılmasına dəlləklər adətən iki qəpik alırdılar. Bir dəfə dəllək Mollanın

dəvəti üzrə onun başını qırxdı. İş qurtarandan sonra Molla ona yalnız bir qəpik verdi. Təəccüblənmiş dəllək Mollaya deyir:

– Sən niyə adəti pozur və bir qəpiyi kəsirsən, bir qəpik də əlavə et! Mən tələsirəm, məni saxlama!

Molla etiraz etdi:

– Sən necə də diribaş oğlansan, mənim başım axı keçəldir, deməli onun yarısı Allahın elə özü tərəfindən qırxılmışdır, buna görə mən səhər axşam ona təşəkkür edirəm, sən isə istəyirsən ki, Allahın zəhmətinə görə sənə pul verim!

Yazıq dəllək Mollanın dəlilinin qarşısında deməyə söz tapmadı.

## 41. İLTİFATLI QONAQ

Molla Nəsrəddin evinə bir neçə axta xoruz gətirdi və arvadına tapşırdı ki, onları mümkün qədər tez bişirsin, çünki onlara çox hörmətli bir qonaq gələcək. Arvadı axta xoruzları bişirdi və onları Mollanın qonağından qabaq onun yanına gəlmiş oynaşı ilə birlikdə yedilər. Molla qonağı ilə birlikdə evə gəlir və arvadına yeməyi gətirməsini tapşırır. Arvadı ona deyir:

– Bizdə yeməyə heç bir tikə çörək də yoxdur.

Molla tələm-tələsik qara çörək almağa gedir, arvadı isə bu arada qonağın yanına gəlir və öz şikayətini etməyə başlayır:

– Sən bilirsənmi, axı mənim ərimin son vaxtlar tamamilə ağlı lap çaşıb. O, hansısa bir xəstəliyə düçar olub və bir təbabət kitabında oxuyub ki, bu xəstəlikdən qurtulmaq üçün o, insan gözlərilə şorba yeməlidir.

Qonaq bunu eşidib fikirləşir ki, Molla onu evinə elə onun gözlərindən faydalanmaq üçün çağırmışdır. O, papağını da götürüb var qüvvəsilə Mollanın evindən qqaçmağa başladı.

Molla isə evinə qayıdır, nə qonağı, nə də axta xoruzları görməyib arvadından xəbər alır:

– Qonaq və yemək haradadır?

Arvadı cavab verir:

– Azğın adamın elə qonağı da özü kimi olur. Sənin qonağın çox oturub səni gözlədi. Birdən o, yerindən sıçradı və axta

xoruzları da əlindən qapıb qaçdı. Ola bilsin o, fikrləşib sən onu aldatmışsan və onu məsxərəyə qoymuşsan.

Molla qonağı axtarmağa getdi. O, öz qonağının dalınca çox qaçdı və əldən düşmüş halda onun dalınca qışqırdı:

– Ey, qonaq, belə insafsızcasına hərəkət etmə, qoy biri sənin olsun, biri də mənim.

Molla Nəsrəddinin bu sözləri qonağı daha da inandırdı ki, o, xəstəliyindən qurtulmaq üçün onun gözlərindən faydalanmaq istəyir və o, daha da sürətlə qaçmağa başladı. O qışqırdı:

– Mənə çatsan hər ikisi sənin olacaq!

## 42. MOLLA UZUNQULAĞINI SATIR

Molla Nəsrəddin uzunqulağını satmaq üçün qovub bazara apardı. Yolda uzunqulaq palçığa düşdü və quyruğunu çirkləndirdi. Molla qışqırdı:

– Tokuş![71]

Uzunqulaq dayandı. Molla öz-özünə fikirləşir: "Əgər mən uzunqulağı bu halda bazara aparsam, heç kim onu almaz, fikirləşərlər ki, o, zəiflikdən palçığa yıxılmışdır". Buna görə də Molla çox da fikirləşmədən uzunqulağın quyruğunu kəsdi və onu çantasına qoydu. Bazarda uzunqulağın ətrafına çoxlu alıcılar toplaşdılar və hamı bir nəfər kimi deyirdi:

– Yaxşı uzunqulaqdır, hayıf ki, quyruqsuzdur!

Molla tələsik cavab verdi:

– Quyruq sarılan narahat olamyın, məndən uzunqulağı alan, onun quyruğunu da məndən götürəcək.

O, bu sözləri deyib çantadan uzunqulağın çirkə bulaşmış quyruğunu çıxardı və onu alıcılara göstərdi.

## 43. ƏNCİRLƏR

Molla Nəsrəddinin tanışlarından biri onu dadlı, gözəl əncirlərə qonaq edəcəyini vəd edərək onu evinə qonaq çağırdı. Ev sahibinin arvadı ərin ona tapşırmasına baxmayaraq başı qo-

---

[71] Tokuş – "Dayan"! Uzunqulağı dayandırmaq üçün işlədilən nida

naqlıqla bağlı başqa qayğılara, əziyyətlərə qarışdığından əncirləri süfrəyə qoymağı unutdu. Yemək-içmək qurtardı, hamı ayağa qalxdı. Bir qədər keçdikdən sonra ev sahibi israrla Molladan xahiş etdi ki, Qurandan hər hansı bir surəni oxusun. Molla fürsətdən istifadə edərək əncirlərdən bəhs edən surəni oxudu, lakin oxu vaxtı Əncirbutin sözünü buraxdı. Ev sahibi dərhal ona dedi:

– Sən nə üçün lap əvvəldə əncir sözünü buraxdın?

Molla bu belə izah etdi:

– Əvvəlcə sən və sənin xanımın əncirləri yadınızdan çıxartdığınız və məni əncirlərdən məhrum etdiyiniz üçün mən də sizdən nümunə götürdüm.

## 44. HAVANIN OXŞARLIĞININ ƏLAMƏTLƏRİ

Molla bir şəhərdə camaatın yekdil xahişinə görə xalqa rütbə oxumalı idi. Molla öz elmini göstərmək istədi. O, minbərə qalxıb toplaşanlara aşağıdan sözlərlə müraciət etdi:

– Ey möminlər, təəccüblü deyildir ki, sizin şəhər bizim şəhəri xatırladır, çünki sizin şəhərin atmosferi eynilə bizim şəhərin atmosferi kimidir.

Toplaşanlardan kimsə xəbər aldı:

– Buna hansı dəlillərin vardır?

– Mən bu nəticəyə ondan gəlirəm ki, bizim Ay şəhərdə gördüyüm günəş, Ay və ulduzlar eyni ilə sizin şəhərdə olduğu kimidir.

## 45. XƏSİS DOST

Molla Nəsrəddinin dostlarından biri çox xəsis idi və bir dəfə də olsun onu evinə qonaq çağırmamışdı, halbuki, özü dəfələrlə mollanın evində qonaq olmuşdu.

Molla buna təəssüflənir və inciyirdi. Molla bir dəfə xəsis dostu ilə küçədə görüşəndə dedi:

– Sən nədən heç məni evinə qonaq çağırmırsan? Doğrusu mənim evimdə yediyin onlarla nahar yeməklərinin əvəzində sənin evində bir dəfə də olsa, nahar yeməyi yemək pis olmazdı.

– Mən səni xəsisliyimə görə deyil, sənin həyatın üçün qorxduğumdan evimə qonaq çağırmıram, çünki sən böyük tikə-

ləri bütöv udursan, ağzında olan bir tikəni yeməmiş artıq digərini, üçüncüsünü ağzına qoyarsan.

Molla cavab verir:

– Sən tamamilə haqlısan, sən bir məni evinə çağır, mən isə sənə hər tikədən sonra iki rükət namaz qılmağı söz verirəm.

Molla Nəsrəddin bazarda inək satırdı. O, bazarda çox durdu, amma heç ona yaxınlaşıb inəyin qiymətini xəbər almadı. Axırda bir nəfər ona yaxınlaşdı və deyir:

– Gəl bu inəyi mənə ver, onu indi satım.

Sevinmiş Molla ona təşəkkür edib inəyi onun sərəncamına verdi və özü isə onu izləməyə başladı. Tanınmayanadam inəyin yaxşı cəhətlərini tərifləyərək onu bütün bazar boyu gəzdirir:

– Ağalar, çox gözəl inəyi alın, budur altı aydır o, boğazdır və bu yaxınlarda buruvlayacaq!

Alıcılardan biri inəyə diqqət yetirdi və onu Mollanın satmağa düşündüyü qiymətdən daha böyük qiymətə satdı. Molla sevincindən özünün gözlənilməyən xeyirxahın səxavətlə əvəzini verdi.

Bu işin üstündən bir müddət keçdi. Mollanın yanına qızını elçiləmək üçün adamlar gəldilər. Molla tanınmayan adamın dərsini yadına saldı və qızını tez ərə vermək üçün tərifləməyə başladı. O dedi:

– Xahiş edirəm diqqət edəsiniz ki, qızım məftunedici xarici görkəmindən o üzünün gözəlliyindən və yaxşılıqlarından başqa artıq altı aydır ki, hamilədir və çox tezliklə özünə bənzəri dünyaya gətirəcək.

Elçilər belə tərifləri eşidib Molla ilə tez görüşüb ayrıldılar, arvadı isə sərt məzəmmətlə Mollanın üstünə düşdü ki, o, həmişəlik qızının adını batırdı.

## 46. XƏZİNƏ

Molla öz tövləsində divara taxtadan paya vurudu və özü də elə bir cidd-cəhdlə ki divarda əmələ gəlmiş deşikdən qonşunun tövləsi və oaradakı bir neçə at və qatır görünməyə başladı. Molla qonşunun tövləsindəki at və qatırlarıgörüb sevincdən özünü belə unudaraq arvadının yanına qaçır və qışqırır:

– Arvad, sevin, biz varlandıq, bizdə yerin altından tövlə çıxdı, orada az olmayan qədər at və qatır vardır. Görünür çox qədim zamanlardan bəri yer altında gizlətmişlər və sonralar bizim xoşbəxtliyimizdən onları unutmuşlar.

## 47. MOLLA VƏ KORLAR

Molla Nəsrəddin çayın kənarında oturmuşdu. On nəfər kor adam ona yaxınlaşdı və xahiş etdilər ki, onları müəyyən məbləğ qarşılığında çayın o biri sahilinə keçirsin. Molla hər nəfər üçün bir dinar qarşlığında onları o biri sahilə keçirtməyə razı oldu.

Beləliklə, Molla doqquz koru o biri sahilə keçirtdi, belindəki onuncu korla çayın ortasına çatdıqda onu çaya saldı və yazıq kor son dərəcə güclü fəryadla suda batdı.

Çayda batmışın yoldaşları danlaqlarla onun üstünə düşdülər:

– Ey daşürəkli, sən nə üçün bizim yoldaşımızı batırdın?

Molla cavab verdi:

– Sizin nə işinizə mən onu həmişəlik piyada getməkdən azad etdim, əgər siz onun diri olmasını belə çox istəyirsinizsə, onda elə gümün edin ki, mən onu da çayın o biri sahilinə keçirtmişəm, axı siz onsuz da görməyəcəkdiniz. Siz hətta onun aranızda olduğu düşüncəsində olmağınız üçün onun yerinə mənə bir dinar da ödəyə bilərsiniz.

## 48. OĞRUNUN TUTULMASI

Bir aylı gecədə Molla Nəsrəddin arvadı ilə evində yatmışdı. Birdən o, eşidir ki, kimsə onun evinin damının üstündə gəzir. Molla o saat başa düşdü ki, bu onun evini oğurlamağa hazırlaşan oğrudur.

O, uca səslə deyir:

– Arvad, sən bilirsən gecə axşam qapılar bağlı olanda evə necə girdim?

Arvadı cavab verir:

– Yox

– Mən evə gələndə və görəndə ki, qapılar bağlıdır, mən dama qalxdım, əl tutmaq haqqında dua oxudum. Sonra isə ayın şüalarından tutub sakitcə bura düşdüm.

Onun artıq yuxuya getmiş arvadı heç bir söz söyləmədi. Bu vaxt damda olan **oğru** Mollanın dediklərini diqqətlə dinləyirdi. O, Mollanın yuxuya getməsini bir qədər gözləyib onun təcrübəsindən istifadə etmək qərarına gəldi. O, əl tutmaq haqqında dua oxudu. Ayın şüalarını tutmaq üçün hərəkətlər edib özünü aşağı atdı. Rahatca yerə enmək əvəzinə, əlbəttə damdan həyətə düşdü və əzildi. Molla yerə düşən bədənin səsini eşidib qürurla dedi:

– Arvad, tez bura odu gətir, Allaha şükürlər olsun axır ki, özümdən axmağını gördüm.

## 49. MƏCBURI İLTIFAT

Günlərin bir günü Molla və onun müsəlman dostu yol gedirdilər. Bir kəndin yaxınlığında onlar yolda çıxdılar və gecələmək üçün meşədə yerləşdilər. Onlar süd və düyü götürdülər və südlü sıyıq bişirdilər və bir qabdan yeməyə başladılar. Mollanın dostunun qəndi var imiş, o, qəndi götürdü və özünün qarşısındakı sıyığa qoydu. Molla ondan xahiş etdi ki, onun da sıyığının şirnisini artırsın. O, dedi:

– Mənim də hissəmə şirni səp.

Mollanın yoldaşı dedi:

– Xeyir, bacarmaram, axı onun üçün mən pul ödəmişəm.

Molla onun cavabında dedi:

– Yaxşı, qoy sən dediyin olsun, mən isə öz hissəmə çaxır tökəcəyəm.

Nə etməli, Mollanın mömin dostu sıyığa çaxır tökməsin deyə tez qənd verdi.

## 50. UĞURSUZ DUA

Bir gün Molla Nəsrəddin başqa bir şəhərə gedirdi. Yolun yarısında o, lap yorulub əldən düşdü və yoluna davam etməyə artıq gücü də qalmamışdı. O, öz-özünə fikirləşdi: “Allah, nə yaxşı olardı ki, sən mənə yoldan yorulub əldən düşmüşə, mən yazığa at və ya uzunqulaq göndərəydin.

O, bir neçə addım atıb yolun kənarında uzanmış bir adam gördü, Molla ona yaxınlaşar yaxınlaşmaz o, birdən yerindən qalxdı, onun belinə atıldı və onu məcbur etdi ki, onu aparsın. Molla ucadan dedi:

– Ey Allah, altmış ildir ki, mən bilirəm öz taxtında oturmuşsan və sən hətta mənim xahişimi də başa düşmək istəmirsən.

## 51. TOYUQLARIN DİRİLMƏSİ

Molla Nəsrəddin yağda bir neçə toyuq qızartdı, onları qazana qoydu, onu qapaq ilə örtdü və dostları nahara dəvət etmək üçün getdi.

Bu arada onun arvadı Mollanın evdə yoxluğundan toyuqları öz oynaşı ilə yedi, toyuqların yerinə qazana bir neçə diri göyərçin qoydu.

Molla dostları ilə evinə qayıdır, qazana yaxınlaşır və onun qapağını üstündən götürən kimi göyərçinlər bir dəfədə qazandan uçdular və sürətlə müxtəlif tərəflərə uçuşub gözdən itdilər.

Özünü itirmiş Molla qazanın yanında quruyub qalmış durur və uzaqlaşan quşların dalınca baxır. Axırda o, ucadan deyir:

– Mərhəmətli Allah, Sənin qüdrətin danılmazdır. Qızardılmış toyuqlara sənin yazığın gəldi və Sən onları diriltdin və azad etdin. Amma mənə de, yağın, toyuqların qiymətini və pul xərclədiyini bütün digər şeylərin qiymətini kimdən almalıyam? Ən başlıcası isə qonaqlara indi mən verim?

## 52. MOLLA NAHAR SİFARİŞ VERİR

Molla evə üç funt ət gətirir. O, arvadından xəbər alır:

– Bu ətdən nə bişirmək olar?

Arvadı cavab verir:

– Hər cür yeməklər

– İndi ki, belədir, sən də bu ətdən hər cür yeməklər bişir.

## 53. MÜĞƏNNİ MOLLA

Molla Nəsrəddin hamama getdi. Hamamda heç kim yox idi və Molla müxtəlif qəzəllər[72] oxumağa başladı. Məlumdur ki, hamamda hətta xoşagəlməz səs də məlahətli görünür. Molla özünün oxumasına quilaq asaraq özünün səsinə heyran olurdu. Və axırda belə qərara gəldi ki, o, müğənni olmalıdır və o, öz-özünə fikirləşir: mən niyə başqalarını mənim bu qədər məlahətli səsimi dinləmək ləzzətindən məhkum etməliyəm?

Budur o, birbaşa şəhərin əmirinin yanına gedir.

– Ey çox möhtərəm əmir, mən sənin yanına gəldim ki, öz oxumağımla sənə zövq verim.

Əmir dedi:

Oxu, Molla ümid edirəm ki, səni dinləmək mənə xoş olacaqdır.

– Amma, oxumaqdan əvvəl mənə iki şey lazım olacaqdır, ya hamam, ya da heç olmasa, yarıyadək su ilə doldurulmuş çəllək.

Əmirin əmrinə görə çəllək hazırlandı. Molla başını çəlləyə soxub öz qəzəllərinin oxumağa başladı. Amma Mollanın pis səsi bundan daha yaxşı olmadı. Pərt olmuş əmir öz nökərlərinə əmr etdi ki, çəlləkdəki su qurtaranadək onlar əllərini çəlləkdə islatsınlar yaş əlləri ilə Mollanın üünə vursunlar. Nökərlər amansızcasına vurmağa başladılar, yerinə deyirdi: "Alla şükür, Allaha şükür".

Mollanın cəzalandırılması vaxtı onun Allaha şükrlər etməsi əmirə maraqlı göründü və o, nökərlərə Mollanın cəzalandırılmasını dayandırmağı əmr edib ondan bunun səbəbini xəbər aldı:

– Mən Allaha ona görə şükr edirəm ki, O, sənə burada hamam tikməyə imkan vermədi. Çəlləkdəki su qurtaracaq, hamamda isə heç şübhəsiz o əsrlərcə mənim əzabım davam edəcəkdi.

Əmir bundan sonra əmr etdi ki, Mollanı buraxsınlar.

## 54. YAXŞI CAVAB

Bir dəfə Molla Nəsrəddindən soruşdular:

– Sizin ikinizdən kim sən yoxsa qardaşın böyükdür?

---

[72] Erotik nəğmələr

Molla cavab verir:

– Mən qardaşımdan bir il böyüyəm, amma gələn il o, mənə çatacaq mənim yaşım qədər onun da yaşı olacaq.

## 55. ÖZ SÖZÜNÜN ÜSTÜNDƏ DURMAQ USTALIĞI

Bir dəfə Molla Nəsrəddinin uzunqulağı itir. Molla onu axtararkən uzunqulağın tez-tez qaçması pərtliyindən and içir ki, onu tapsa, bir dinara satacaq. Uzunqulaq axır tapılır, amma onu belə ucuz satmağa Mollanın hayfı gəlir, bir tərəfdən də sözünü tutmamaqdan qorxur. Bu çətin vəziyyətdən çıxmaq üçün o, bir hiylə fikirləşib tapır. O, uzunqulağı və öz pişiyini bir iplə bağlayıb bazara aparır. O, bazarda ucadan deyir:

– Dediyim sözün üstündə dururam, öz uzunqulağımı satıram. Kim bu uzunqulağı bir dinara, pişiyi isə yüz dinara almaq istəyir, hər ikisini bir yerdə satıram.

## 56. MOLLANIN VƏSİYYƏTİ

Molla təhlükəli xəstəliyə tutulmuşdu və ölüm qabağı o, vəsiyyət etdi ki, onu bir köhnə qəbirdə dəfn etsinlər. Onun ətrafına toplanmış tanışları ondan xəbər aldılar:

– Sən nə üçün xahiş edirsən ki, səni məhz köhnə qəbirdə dəfn edilmədiyini xahiş edirsən?

– Əgər məni köhnə qəbirdə dəfn etsəniz, onda Munkir məni köhnə ölü zənn edib sorğu-suala tutmayaq.

***3-cü Bakı rus-tatar məktəbinin müdiri***
***və müəllimi Məmməd Həsən Əfəndiyev***

## 31-ci buraxılış, 1902-ci il

## QİYASBƏYOV AĞALAR

## NUXA QƏZASI MÜSƏLMANLARININ TOY MƏRASİMLƏRİ

Nuxa qəzası müsəlmanlarının toy mərasimləri patriarxal zamanların səciyyəsini daşımaqdadır. Adətən, həddi-buluğa çatmamış gənc oğlanlar yaşı on altı, on yeddidən az olmayan qızlarla evlənirlər (nigaha girirlər). Evlənmək istəyən oğlan üçün gəlinin seçilməsi valideynlərin iradəsindən asılı olsa da, nigaha girənlər üçün bu seçim gözlənilməz olmur. Valideynlər ilk öncə gənclərə öz niyyətlərini bildirir və onlardan tam razılıq aldıqdan sonra işə başlayırlar. Əvvəlcə oğlanın atası qohumları, yaxın tanışları və hörmətli şəxsləri evinə dəvət edir və oğlunun filankəsin qızı üçün elçi düşmək haqqında niyyətini bildirir və onlardan öz fikirlərini (rəylərini) bildirmələrini xahiş edir. Toplaşmış qonaqlar əvvəlcə onların müzakirəsinə təklif edilmiş məsələləri götür-qoy edirlər (öyrənirlər) və sonra isə açıq şəkildə öz rəylərini bildirirlər. Oğlanın atası qonaqlara ziyafət verir və ona göstərdikləri diqqət və yaxşı məsləhət üçün ürəkdən öz məmnunluğunu bildirir, ədəblə baş əyərək (təzim edərək) onları yola salır. Oğlanın atası qonaqlar tərəfindən öz təşəbbüsü üçün tam dəstək alıb, ertəsi gün gələcək gəlinin evinə elçiləri göndərir. Gəlinin valideyinləri elçilərə hətta rədd cavabı vermək niyyətində olduqda belə onları gülərüzlə qarşılayırlar.

Gəlinin valideynləri qızları, doğma və tanışları ilə məsləhətləşmədən elçilərin xahişlərini yerinə yetirmirlər. Onlar elçiləri qonaq edərək ədəblə elan edirlər ki, onlar hər şeydən əvvəl öz qızlarının rəyini bilməlidirlər və üç gündən sonra son cavab almaq üçün bir daha gəlmələrini xahiş edirlər.

Nuxa qəzasının bütün müsəlmanları bu nizama riayət edirlər. Elçilər qəbul olunmuş adətə görə gəlinin valideyinlərinin yanına ikinci dəfə gəlməyə heç cürə (az da olsa) çəkinmirlər (utanmırlar). Valideynlər öz qızlarının rəyini və eləcə də qohumlarının arzularını öyrənib son cavabın planını tərtib edirlər. Elçilər məhəllə mollasının müşayiəti ilə təyin edilmiş gün gəlirlər.

Gəlinin valideynləri bu dəfə də elçiləri nəzakətlə qarşılayır, qonaq edir və sonra öz razılıqlarını bildirirlər. Onlar rədd cavabı vermək fikrində olduqda daha əsaslı səbəblər gətirir və xüsusi ilə də elə ifadələrlə bunlar söylənilir ki, nə elçiləri, nə də oğlanın valideynləri özlərini təhqir edilmiş hesab etmirlər. Razılıq cavabı halında isə elçilər gəlinin valideynlərinə onları qəbul etdikləri üçün öz təşəkkürlərini bildirirlər. Onlar oğlanın valideynlərinin yanına geri döndükdən sonra alınmış cavabın məzmununu çatdırırlar. Oğlanın valideynləri razılıq cavabı aldıqdan sonra onların evinə gələcəkləri günü elan edib, gələcək gəlinin evinə bir neçə qoyun, bir neçə pud düyü, qənd, çay və b. göndərirlər.

Təyin edilmiş gün oğlanın valideynləri, məhəllə mollası və hörmətli şəxslər də gəlib çıxırlar. Gəlinin qohumları onları qarşılayırlar. Qonaq edildikdən sonra molla və ya oğlanın qohumlarından biri məclisdəkilərə gəlmələrinin səbəbini elan edir, onlar da diqqətlə qulaq asırlar. Sonra iştirakçıların hamısı gənclərə xoşbəxt həyatla bağlı arzularını bildirirlər. Oğlanın valideynləri gəlinin atasından nə qədər süd pulu tələb edəcəyini soruşurlar. O, beş dəqiqəlik susqunluqdan sonra "filan qədər" deyir. Belə hallarda oğlanın atası hər vaxt öz təəccübünü bildirir. İştirakçılar adətən onu sakitəşdirirlər. Sonra hamı bir səslə gəlinin atasından iştirakçıların xatirinə deyilən məbləğin yarısından keçməsini və məbləğin yalnız yarısını tələb etməsini xahiş edir. Çətinliklə onu razı olmağa məcbur edirlər. Onda hər tərəfdən təşəkkür sözləri eşidirlər. Bununla da nişan qurtarır.

Nişanla nikahın məsafəsi bir aydan 2-3 ilədək davam edir. Əgər adaxlının maliyyə vəsaiti yoxdursa, ticarət və ya digər işlərə görə səfərdə olmalıdırsa, toyadək üçillik müddətə icazə verilir. Bu müddət boyunca oğlanın valideynləri gələcək gəlinlərini diqqətdən kənarda saxlamırlar, zəruri olan hər şeylə təmin edirlər. Ona yeni paltar alır, xüsusən də bayramqabağı valideynlərinin evinə qoyunlar, qənd, düyü və bu kimi şeylər göndərirlər. Beləliklə, gəlin öz valideynlərinin yardımına heç möhtac olmur, onlar tərəfindən pis davranışa məruz qalmır və buna görə də səfərdə olan adaxlısına sadiq qalır.

Oğlanın valideynləri gəlinin valideynləri ilə razılaşdıqdan sonra toya hazırlaşmağa başlayırlar. Onlar gəlinin evinə toy üçün gərəkli olan hər şey göndərirlər.

Sonra öz qohum və tanışlarını (onlar digər qəza və quberniyalarda yaşasalar belə) gələcək toydan xəbərdar edirlər. Qonaqlar toyun təyin olunduğu gün hədiyyələrlə gəlir, gələ bilmədikdə hədiyyə ilə məktub göndərirdilər. Məktubda toya gəlməyə və şəxsən orada iştirak etməyə mane olmuş səbəbi də göstərirlər.

Toya bütün hazırlıqlar qurtardıqda adaxlının evinə xanəndə, çalğıçılar və b. gəlirlər. Zurnanın səsi ətrafdakı sakinləri toya hazır olmaqları üçün xəbərdar edir. Bir saatdan sonra toy evi və həyəti camaatla dolur. Qadınlar üçün xüsusi otaq ayırırlar, gənc oğlanlar müxtəlif oyunlar təşkil edir və ya cüt-cüt ləzgihəngi oynayırlar, qonaqlar rəqs edənləri maraqla izləyir və onlara verdikləri həzz üçün təşəkkür edirlər.

Toy üç gündən yeddi günədək davam edir. Bu müddət boyunca başqa kənd və şəhərlərdən dəvətlilər hədiyyələrlə gəlirlər. Adaxlının atası toy qurtarmamışdan əvvəl ümumi qonaqlıq təşkil edir. Əgər adaxlının valideynləri imkanlı deyildirlərsə, yemək qurtardıqdan sonra nüfuzlu şəxslərdən biri iştirakçıların diqqətini adaxlının ağır vəziyyətinə yönəldərək onlardan imkan daxilində kömək etmələrini xahiş edir. Sonra ianələrin (bağışlanmaların) toplanması başlayır. Çox vaxt yığılan pullar adaxlının xərclədiyi vəsaitlərdən bir neçə dəfə çox olur. Pul yığılan vaxt adətən adaxlı burada olmur. Bu vaxt həmyaşıd yoldaşları onu qonaq edir. Pul yığıldıqdan sonra adaxlı iki gənc oğlanın müşaiyətində gəlir. O, dairənin ortasında durur, başını aşağı salır və əllərini isə yanında tutur.

Onun sağ və sol tərəfində sağdış və soldış durur. O, təqribən iyirmi dəqiqəyədək bu vəziyyətdə durur. Onun qarşısında yaylıq, ayaqlarının altında isə xalça olur. Bu müddət boyunca iştirak edənlərdən hər biri ona yaxınlaşır, yaylığa xırda gümüş, bəzən isə qızıl sikkələr atırlar. Beləliklə, bu dəfə də adaxlı üçün çox böyük məbləğ yığılır. Bəyin yengələri yaylığı götürür, adaxlı ilə birlikdə hər tərəfə baş əyib, çıxıb gedirlər. Bu pullar gəlinə məxsusdur və valideynlərin onlardan təsərrüfat və digər xərclər üçün tələb etmək

haqqı yoxdur. Adaxlı getdikdə toydakılar sazəndələrlə gəlinin evinə yola düşürlər və elə həmin gün nikah mərasimi başlayır.

Adaxlı tərəfindən vəkil edilmiş iki şəxs - qazı və ya məhəllə mollası gəlindən öz istəyi ilə filankəsə ərə getdiyini soruşmaq məqsədilə yola düşürlər. Əgər qız razıdırsa, mollanın tələbinə görə uca səslə təkrar edir ki, öz istəyinə görə ərə gedir. Sonra vəkil edilmiş şəxslər and içib təsdiq edirlər ki, onlar gəlinin razılığını eşitdilər. Eyni şey adaxlı ilə də olur. Molla gəlinin öz razılığı ilə ərə getdiyindən əmin olub, öz vəkil edilmiş şəxsləri ilə qonaqların istəyini onlara elan edir. Sonra isə nikah mərasimi başlayır.

Bundan sonra gəlin üç qadının müşaiyətində faytonda və ya at belində adaxlının evinə yola düşür. Onların ardınca qonaqlar yola düşürlər. Molla Allahdan yeni evlənənlərə xoşbəxt və uzun həyat bəxş etməsini xahiş edərək dua oxuyur. Sonra qadınlar gəlinə faytondan enməyinə kömək edir və onun üçün hazırlanmış otağa yola salırlar.

Qadınlar onu orada tək buraxır, özləri isə başqa otağa keçirlər. Yeznə toydan sonra qayınatası onu evinə qonaq çağıranadək gizlənir. Nəhayət, qayınata kürəkəni qonaq çağırır və ona hədiyyələr verir. Onda kürəkən qayınatadan gizlənməyi buraxıb üzə çıxır. Toydan iyirmi gün sonra gəlinin atası onu evinə qonaq çağırır və ona müxtəlif hədiyyələr edir, bəzən isə bir neçə at və inəklər bağışlayır.

Belə adətlər üstünlük təşkil etdiyindən adaxlı hər vaxt qazanmış olur. Nuxa qəzası tatarları arasında özgənin arvadı və gəlininin qaçırılması, qaçıran adam və onun qohumları üçün ən böyük rüsvayçılıq sayılır. Din adamları və hörmətli şəxslər öz arvadını və ya gəlinini qaçıran adamla qarşılaşmaqdan qaçırlar, onun evinə qonaq düşmürlər və özləri də onu qonaq çağırmırlar. Çoxları ona nifrətlə baxır, hətta onunla söhbət də etmirlər. Bu səbəbdən özgə arvadının və ya nişanlısının qaçırılması qəzada çox nadir hallarda olur və buna görə də qonşu qəzalarda tez-tez olduğu kimi burada qanlı hadisələr olmur.

***Padar kənd məktəbinin nəzarətçisi***
***Ağalar Qiyasbəyov.***

## 32-ci buraxılış, 1903-cü il

## QƏBƏLƏ MAHALI

...Rəvayətdə deyilir ki, bu qalada(Fil-fil qalası nəzərdə tutulur) öz qoşunu ilə İslam dinini qəbul etmək istəmədiyi üçün Əli tərəfindən təqib edilən və öldürülən kafirlərin padşahı Qəzənfər yaşayırdı. O, uzun müddət bu qalada ərəblərin başçısından müdafiə olunurdu. Sonra isə qaladan aşağıda Ərmənit kəndinin yaxınlığındakı düzəngahda böyük bir daşın arxasında gizləndi və elə burada da Əli tərəfindən bir qılınc (Zülfüqar) zərbəsi ilə öldürüldü, qılıncın zərbəsindən həmin daş da iki yerə bölündü. Bu daş bu şəkildə də qalır və indi də müqəddəs sayılır.

Xalxallıların söyləmələrinə görə, Qəzənfər din xadimi ilə Əlinin təqibindən Vartaşen kəndi yaxınlığındakı Yegişe Arakel kurqanında gizlənmişdi. Vartaşen kəndinin yanında gözətçi dəstəsi vardı. Bu kurqan kafirlərin – udinlərin ikinci möhkəmləndirilmiş məntəqəsi sayılırdı. Əli kurqandakı adamların hamısını təqib edib, öldürdü. Vartaşenlilər öz əzabkeşlərini dəfn etdilər və burada Yegişe Arakel adında monastır tikdilər.

Bu qala (Çuxur-Qəbələ qalası nəzərdə tutulur – tərtibçilər) ilə bağlı nəql edirlər ki, 13 yüz il bundan əvvəl IV Xəlifə Əli-İbn Talib özünün nəhəng Düldül atının belində möcüzəli qılıncı ilə İslam dinini yaymaq məqsədi ilə olmuşdur. Düldül qət etdiyi yol boyu daşların üstündə öz nallarınının izlərini qoyaraq Köndələn dağın ətəyində, yuxarıda adı çəkilən qalanın ətrafındakı gölün yanında dayandı. Gözəl qızı olan Salsal şah onun gəlişindən xəbər tutdu. Əlinin cəsurluğu haqqında hər yerə xəbər çatdı. Salsal şahın qızı Əliyə vəd etdi ki, atasının istehkamının sirrini ona xəbər versin və əgər o, onun diqqətinə layiq olsa, ona ərə getməyə hazırdır. O dedi ki, Əli ona məğlubedilməz bir sərkərdə kimi məlumdur, amma onun əri ola biləcək əsl kişi kimi onu tanımır. Buna görə də o, gölün kənarında suya siysin, əgər onun sidiyindən əmələ gələn köpük üç gün ərzində qalsa, o, öz vədini yerinə yetirəcək. Əli bunu bilib tez pambıq tapdı və onu gölcügün kənarında suya atdı. Şahzadə qız qaladan suyun üzərində ağ rəngli ləpə gördü və bunu sidiyin

köpüyü zənn etdi. Dördüncü gün şahzadə qız Əliyə xəbər verdi ki, o, suya saman atsın, saman suda üzməli və gölün çıxış buraxılış borusu olan yerdə fırlanmalıdır. Əli isə həmin yerdə suyu buraxıb qalanın ətrafındakı yarğandakı suyu boşaltsın.

Əli gözəl qızın məsləhətindən istifadə etdi və ona gerçəkdən qalanı almaq, sakinlərə İslam dinini qəbul etdirmək müyəssər oldu. Salsal şah İslam dinini qəbul etmədiyinə görə Əli tərəfindən öldürüldü, şahzadə qız isə ona ərə getdi. Əli qısamüddətli ər-arvadlıqdan sonra arvadına dünyaya gələcək oğlunun yanında gəzdirməsi üçün öz dua kitabçasını verib yürüşə yola düşdü.

9 ay, 9 gündən sonra o, Murad adında çox gözəl bir oğlan uşağını dünyaya gətirdi, uşaq qeyri-adi gücü və sürətli böyüməsi ilə diqqəti cəlb edirdi. Əli başqa bir dəfə bu şəhərə gələndə "başa qovurma"[73] oynayan bir dəstə oğlana rast gəldi. Bu oyun ondan ibarətdir ki, oynayanlardan biri yerin üstündə çəkilmiş böyük bir dairənin ortasında oturur, başqası isə bir əli ilə oturan oyunçuya toxunaraq papağını dairədən kənarda qaçışan oğlanların alıb qaçmasından qoruyur və ayağı ilə zərbə vurmağa çalışır. Əgər hücum edənlərdən kimsə müdafiə edən oyuncudan dairə daxilində zərbə alsa, o, dərhal müdafiə edəni əvəz etməli və öz növbəsində o birisinin baş geyimini alıb aparmalıdır...

Əli "Bu oyuna başlayan oyuncu sayılır", – deyərək onlara qoşuldu və oynamağa başladı. Müdafiədə olduqca cəld və güclü olan bir oğlan buna razılıq verdi.

– Adın nədir?

O cavab verdi:

– Muraddır.

Oyun vaxtı Murad ayağının zərbəsi ilə Əliyə gücünü dadızdırdı və yerini ona verdi. Əli isə oğlanı belə bir hərəkəti üçün oyunda cəzalandırmağa çalışırdı. Oyun davam etdi. Əli hamını buraxdı, o, Muradı elə bir zərblə vurdu ki, o, kəlləmayallaq ilə havada uçub oyun yerindən qərbə – qaladan 8 verst aralıda yerləşən qonşu dağa düşdü.

---

[73] Başa qovurma- uşaq oyun adı

Əli qışqırdı: Koydi Murad,[74] yəni oyun pozulmamışdır! Onda Əli bildi ki, o, öz doğma oğlunu öldürübdür, acı-acı ağladı və onun həmin yerdə dəfn edilməsini əmr etdi. Bu dağ Koy Murad[75] adlanır. İndi Muradın qəbrinə udinlərin, ermənilərin və müsəlmanların hamısı tərəfindən sitayiş edilir. Bura ibadətə hamı, xüsusən də sonsuz qadınlar axışıb gəlirlər. Sonsuz qadınlar uşağa sahib olmaq niyyəti ilə gəlincikləri nənnilərdə qoyub gedirlər.

***Zaqafqaziya Müəllimlər Seminariyasının müəllimi***
***Rəşid bəy Əfəndiyev***

[74] Koy və kuh farsca "dağ" deməkdir.
[75] Koydi-bütün uşaq oyunlarında işlənən termin olub, oyunun qaydalarının pozulmaması deməkdir.

## 34-cü buraxılış, 1904-cü il

**Toplunun 34-cü buraxılışında Qafqazda yaşayan müxtəlif xalqların şifahi xalq ədəbiyyatı nümunələri verilmişdir. Bunlar aşağıdakılardır:**

## VƏLİBƏYOV A.K.
## XURAFATLAR, ƏLAMƏTLƏR VƏ YUXU YOZUMLARI

1. Evindən harasa çıxıb gedən bir nəfərin qarşısına alagözlü bir qadın çıxarsa, onun başına bədbəxtçilik gələcək, məqsədinə çatmayacaq.
2. "Bismillah"sız görülmüş hər hansı bir iş savab sayılmır.
3. Əgər harasa səfərə çıxarkən yolda qarşına dəvə çıxmış olsa, sən xoşbəxt olacaq, məqsədinə çatacaqsan.
4. Əgər yola düşərkən bir dəfə asqırsan, yola çıxma, əgər iki dəfə asqırsan, yola çıx. Heç bir hadisə baş verməyəcəkdir.
5. Əgər hər hansı bir uşaq ağzıaçıq halda çox bəd ağlayaraq uca səslə "a,a,a" deyə qışqırırsa, o evdə bir bədbəxtlik olacaq.
6. Hər iki cinsdən olan alagözlü qoca adamla qarşılaşanda mütləq beldən aşağı hər hansı bir bədən üzvünü qaşımaq lazımdır, yoxsa sənə onların gözü dəyər.
7. Əgər uşaqlar oynarkən iti uclu qısa taxtaları palçığa basdırır (batırırlarsa) və dərhal onları çəkib çıxarırlarsa, onda yağış yağacaq.
8. Əgər hansı bir evdə toyuq xoruz kimi banlarsa, onu tez kəsmək lazımdır. Yoxsa o evdə kiminsə ölümündən xəbər verər.
9. Əgər hər hansı bir evdə xoruz axşamdan çox keçmiş banlasa, onu tez kəsmək lazımdır, yoxsa həmin evdə bədbəxtlik baş verər.
10. Qadınlar çərşənbə və şənbə ərəfəsində işləməməlidirlər, yoxsa gecə cinlər yuxularına girər.
11. Gecələr cinlər narahat etməsinlər deyə Qurandan birinci ayəni üç dəfə oxuyub, otağın künclərinə üfürürlər.
12. Heç bir ev xanımı çərşənbə və şənbə günləri öz qonşusu olan qadına nə xəlbir, nə od, nə də duz verər, yoxsa bədbəxtlik olar.

13. Əgər Qurban bayramı günü yağış yağmasa, həmin il məhsul pis olacaq.

14. Əgər gəlinin gəldiyi evdə ayna qırılarsa, həmin gəlin xoşbəxt olmayacaq.

15. Əgər bir kimsə evdən çıxıb səfərə gedibsə, həmin adam çayı keçənədək evdən zibilləri süpürüb atmaq olmaz, yoxsa ona bədbəxtlik üz verə bilər.

16. Kimsə yola çıxanda onun dalınca su atırlar ki, ona bədbəxtlik üz verməsin.

17. Evin həyətində qarğanın çox qarıldaması və bayQuşun çox görünməsi ev adamlarından kiminsə ölümünə səbəb olacaqdır.

18. Əgər dil açmamış uşaq yuxudan oyanıb birdən "ata" sözünü tələffüz etsə, həmin gün körpənin səfərdə olan atası mütləq gələcək.

19. Yanında iynə olan adama hal anası heç vaxt yaxınlaşmaz.

20. Şeytanın insanı haqq yolundan sapdırmaması üçün hər vaxt Qurandan ayələr tələffüz etmək (demək) lazımdır.

21. Gecə vaxtı yuxusunu danışan adam onu danışmazdan əvvəl "Yuxumu adamlara deyil, çırağa danışıram" deməlidir. Yoxsa xoşagəlməz hadisə baş verər.

22. Əgər hörümçək torla adamın üstünə düşsə, həmin gün qonaq gələcək.

23. Əgər yaxında duran pişiyə "pişt" yerinə "kişt" desələr, bu, xoşbəxtlik gətirər.

24. Evi süpürərkən qadının əlindəki süpürgə oturanlardan birinə toxunsa, həmin adam süpürgəni qadının əlindən alıb, süpürgəyə tüpürməlidir, yoxsa evdə dava düşər.

25. Əgər kimsə iki qadının arasından keçərsə, böhtana, iftiraya məruz qalar.

26.Dolu düşəndə bir dolunun üstünə su səpirlər ki, yağış yağsın.

27. Əgər ilk oğul dolulardan birini dişləsə, dolunun yağması dayanar.

28. Dolunun yağmasını tez dayandırmaq üçün həyətə üçayaq, sacayaq atırlar ki, Allahın xalqa yazığı gəlsin.

29. Beçə ayıran beçəsinin tezliklə bir yerdə oturması üçün əlindəki ağacla mis qab-qacağı vurur və güzgü göstərir.

30. Bol məhsul vəd edən əkin yerinə göz dəyməsin deyə, bir yerdə payaya böyük heyvanların (atın, inəyin, eşşəyin və.s) kəlləsini vururlar.

31. Yatarkən çalış ki, üzün cənub tərəfə olsun, yoxsa qeyri-müsəlman olaraq ölərsən.

32. Əgər kimsə tənbəllikdən özünü xəstəliyə vurursa, xəstələnəcək.

33. Uşağa duzu döşəməyə tökməyə icazə vermək olmaz, axirtədə qaşları ilə duzu yerdən yığmağa məcbur edəcəklər.

34. Dırnaqları kəsəndə onları hara gəldi atmaq olmaz, bəlli bir yerdə gizlətmək lazımdır ki, onları bədənin bir hissəsi kimi tapmaq mümkün olsun.

35. Əgər kiçik qız böyükdən əvvəl ərə verilsə, valideynləri bədbəxtlikdən, qız isə uşaqsızlıqdan ötüşə bilməyəcək.

36. Salam vermədən qonşunun yanından ötüb keçmə, yoxsa o, elə fikirləşə bilər ki, sənin ona qarşı yaman niyyətin var. Halbuki əksinə, sənin ona qarşı xoş niyyətlərin var.

37. Boş beşiyi yellətmək lazım deyil, uşağa bədbəxtlik üz verər.

38. Yeni anadan olmuş uşağı, xəstəni yoluxmağa gələndə qırx gün ərzində hər dəfə həyətə çıxarmaq lazımdır, yoxsa o, xəstələnər.

39. Çərşənbə və şənbə günlərində uşaqları vurmaq olmaz, gecə isə həyətə çıxarmaq olmaz, yoxsa onlar qorxar və xəstələnərlər.

40. Əgər uşaq hər iki əli ilə ayağından tutur və ağzına tərəf gətirirsə bu, o deməkdir ki, Allahdan özünə yoldaş istəyir (Anası uşaq doğsun).

41. Əgər kiminsə uşaqları ölürsə, sağ qalan uşaq ölməsin deyə onu dilənçi kimi özlərinin köhnə paltarlarını geyindirir, heç bir şey almırlar.

42. Uzun müddət ərə getməyən qız eşşəyin üstündə gəzməlidir ki, bəxti açılsın.

43. Yuxuları danışanda qulaq asan əvvəlcədən deməlidir: "xeyrə calansın", yuxu danışılıb qurtardıqdan sonra o yuxu pis tərəfə yozulmamalıdır, bədbəxtlik üz verər.

44. Əgər günorta bərk isti olarsa, həmin gün yağış yağacaqdır.

45. Həyətdə ağ xoruz olarsa, uşaq xəstəlikləri olmayacaq, uşaqlar qorxmayacaq və rahat yatacaqlar.

46. Yuxuda ağ rəngli at görmək xoşbəxtlik və uğur deməkdir.

47. Yuxuda keşiş görsən, bədbəxtliklə qarşılaşacaqsan.

48. Yuxuda qara örtük və qara geyim görmək xoşbəxt, rahat həyat, tezliklə nə isə yaxşı bir şey almaq deməkdir.

49. Yuxuda ölən qohumlardan birini görmək qohumlardan kimisə görməyə işarədir.

50. Yuxuda yumurta, odun, yüyən görmək var-dövlət deməkdir.

51. Yuxuda ağlayan gerçəkdə güləcəkdir.

52. Yuxuda toy, şadlıq görmək evdə bədbəxtlik, kimin üçünsə ağlamaqdır.

53. Əgər kimsə yuxusunda görsə ki, onun bir dişi düşüb, kənddə kimsə öləcək (Qohumlardan olmayan biri).

54. Yuxuda qızıl və ya gümüş sikkə görən səhər yaxşı xəbər eşidəcək.

55. Yuxuda mis pullar görmək pis xəbər deməkdir.

56. Yuxuda qan görmək qohumlarla görüşməkdir.

57. Kim yuxusunda yanan çıraq və ya şam görsə, onun işıqlı, xoşbəxt həyatı olacadır.

58. Yuxuda əsgər görmək həyatda arxa, dayaq deməkdir.

59. Yuxuda dəmir görmək möhkəm və sağlam olmaq deməkdir.

60. Əgər yuxunda su, yağış və ya suda çimdiyini görsən, həyatın boyu ehtiyacın nə olduğunu bilməyəcəksən.

61. Yuxuda arxalıq, köynək və ya çuxa görmək dostların köməyi deməkdir.

62. Yuxuda papaq görmək vəzifənin artması deməkdir.

63. Yuxuda ilan öldürmək düşmənlərdən qurtulmaq deməkdir.

64. Yuxuda çörək bitkiləri görmək vəziyyətin yaxşılaşması deməkdir.

65. Yuxuda ölmək uzunömürlülük deməkdir.

***A.K. Vəlibəyov tərəfindən yazılmışdır.***

# DEVİTSKİ V.
# QARS VİLAYƏTİNDƏN TOPLANMIŞ YUNAN, TÜRK, TATAR VƏ ERMƏNİ ATALAR SÖZLƏRİ

## TATAR ATALAR SÖZLƏRİ

1.Əgər sakit atı bədöv atın yanına bağlasan, sakit at da bədöv olar.

2. Qonşunu iki inəkli istə ki, özünün bir inəyin olsun.

3. Bir əldə iki qarpız tuta bilməzsən.

4. Bir qoltuq altına iki qarpız yerləşməz.

5. Bir qoyunun iki dərisi olmaz.

6. Əgər it kəlləsini masanın üstünə qoysan, orada çox durmaz, tezliklə dığırlanıb yerə düşəcək.

7. Əgər dəvə ölsə, onun dərisi bir eşşəyə yük olar.

8. Çox süd verən inək çox böyürər.

9. Dərin su bulanmaz.

10. Ağac nə qədər çox bar versə, başını aşağı əyər.

11. Xalqın ağzı çuvalın ağzı qədər genişdir.

12. Öküzün Zəhrafatı dananın ölümünə gətirib çıxarda bilər.

13. Əgər Allah öküzə qanad versə, o, bütün evləri dağıdar.

14. Əgər pişiyin qanadları olsaydı, o, bütün sərçələri qırardı.

15.İnsan qurdun balasını bəsləsə də, o, yenə də qurd olacaq.

16. Səfeh adama təhsil və yaxşı məsləhət vermək məscidin günbəzinin başına qoz qoymaq kimidir.

17. Dəliyə məsləhət qaradəriliyə sabun kimidir.

18. Əgər pişiyi hirsləndirsələr, o, adamın üstünə atılar.

19. Əgər qula sərbəstlik versələr, hər şeydən əvvəl öz anasının əmcəklərini kəsər.

20. Ağ pulları qara gün üçün yığarlar.

21. Balaca dana bütöv bir sürünün yaxşı adını korlaya bilər.

22. Özü yıxılan ağlamaz.

23. Yıxılanı vurmaq lazım deyil.

24. Barsız ağaca daş atmazlar.

25. Eşşəyi döyə bilməyən palana vurur.

26. Əgər dəvəni yatmağa məcbur edə bilməsən, onu yükləyə də bilməzsən.

27. Əgər eşşəyi daha çox yükləsən, o, daha tez gedər.

28. Duz-çörəyin qiymətini bilməyən itdən də pisdir.

29. Kiçik yaxşılığı xatırlamayan böyük yaxşılığı da xatırlamayacaq.

30. Utanmayandan utan, qorxmayandan qorx.

31. Səndən qorxandan qorx, baxmayaraq ki, (halbuki) sən yüz onun kimilərinə qalib gələ bilərsən.

32. İlan çobanı onu öldürəcəyindən qorxduğu üçün sancır.

33. Qurddan qorxan sürünü yığmaz.

34. Sərçədən qorxan darı əkməz.

35. Əgər itdən utanmırsansa, heç olmasa, itin sahibindən utan.

36. Borc istəyən utanır, borc verməyən isə ikiqat utanır.

37. Başı qoturlu olan adam dərman bilsəydi, əvvəl öz başını sağaldardı.

38. Mədə qardaşdan yaxındır.

39. Əgər qardaşlar bir-birini sevsəydilər, Allah özünə bir qardaş yaradardı.

40. Oğru hər vaxt düşünür ki, yer üzündə hamı oğrudur.

41. Oğru və ya quldur ol, amma vicdanı əldən buraxma!

42. Qərib ölkədən qayıdan kasıb elə düşünür ki, özü varlanıb.

43. Kasıbın həyatı fikrə xərclənir ki, yayda nə yeyəcək, qışda üstünə nə örtəcək.

44. Lütün yayı da qışdır (lüt üçün yay da qışdır).

45. Kasıb ölümdən təskinlik tapır.

46. Pulu az olanın dərdi də az olur.

47. Hələ at almayıb, artıq tövlə tikir.

48. Ac xoruz yuxusunda darı görər.

49. Ac toyuq yuxusunda arpa görər.

50. Qonşusuna ümid olan gecə çıraqsız qalar.

51. Qonşusuna ümid olan şamsız yıxılıb yatar.

52. Eyibsiz dost axtaran tamam dostsuz qalar.

53. Kilsə hələ tikilməyib, əlsiz-ayaqsızlar artıq qapıda oturublar.

54. Yüngül xasiyyətli adamın dili uzundur.
55. Çox bil, az danış.
56. Hər kəs könlündə olanı danışar.
57. Adamı danışığından tanımaq olar.
58. Əvvəlcə eşşəyi iplə bağlamaq lazımdır, sonra onu Allaha tapşırmaq.
59. Heç kim öz ayranına turş deməz.
60. Bildirçinin bəyliyi darı biçilənə qədərdir.
61. Toydan sonra nağara.
62. Açıq ağız ac qalmaz.
63. Çobanın könlü olsa, qoçdan da süd sağar.
64. Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir.
65. Hər adam yaxşılıq edə bilmir.
66. Əgər dostun varsa, onu tez-tez ziyarət et ki, onun evinə gedən cığırı ot basmasın.
67. Gözdən iraq olan, ürəkdən də iraq olar.
68. Möhkəm cilovlu atın yorğunluğunun günahkarı elə özüdür.
69. İnsan göydən göndərilən fəlakətlərdən qaçına bilər, amma özünün öz başına açdığı fəlakətlərdən qurtuluş yoxdur.
70. Südlə xasiyyətə keçən adət canla bir yerdə çıxacaq.
71. Hünər böyük bədəndə deyildir.
72. Hər böyük şey qiymətli deyildir.
73. İki oyunbaz bir ipdə rəqs etmir.
74. On dərviş bir yorğan altda yata bilər, iki hökmran bir dövlətdə yaşaya bilməz.
75. Yağış eyni dərəcədə hər cür torpağı suvarır, amma səhrada nə lalə, nə güllər bitmir.
76. Yağış şəkərə çevrilsə belə, söyüddən bar almazsan.
77. Əgər Humay Quşu yer üzündən yox olsa belə, bayQuşu hər halda padşah seçməzlər.
78. Qurdlardan çoban, kürdlərdən də övliya olmaz.
79. Öz həyatını alçaq həzlərlə keçirmə, necə ki, adi qamışdan şəkər ala bilmədiyin kimi.(7)
80. Ucuz ətin şorbası olmaz.

81. Pis dəmirdən yaxşı qılınc düzəldə bilməzlər.

82.Yarasanın günorta vaxtı görməməsində günəşin günahı yoxdur.

83. Döyüş günü kök öküz yox, arıq, qıvraq at işə yarayacaq.

84. Əgər hər saqqaldan bir tük çəkilsə, tam bir saqqal olar və ya hər kəs kosaya saqqalından bir tük versə, onun da saqqalı olar.

85. Kim bilir, kim qazana, kim yeyə?

86. Sağlamlıq şahlıqdır. Demə ki, kasıbam.

87. Səbr sevincin açarıdır.

88. Mədəyə girən elə qazancdır.

89. Səndən qorxandan özünü gözlə.

90. İlan çobanın onu öldürəcəyindən qorxaraq onu dişləyir.

91. Qara üzüm ağ üzüm olmaz.

92. Rus yavaş gedir, amma uzun yol qət edir.

93. Hər bir kəs faydası olan yerə can atır.

94. Sənə yad adamların nöqsanlarından danışan adam başqa adamların yanında səni də pisləyəcək.

95. Öz gözündə tiri görmürsən, başqasının gözündə tükü seçirsən.

96. Əgər varlı olmaq istəyirsənsə, hər adamdan bir misqal gümüş al, amma paylama.

97. Əgər padşah özünə rəva görüb rəiyyətlərindən qanunsuz bir alma belə götürsə, onun qoşun başçısı bütöv bir ağac götürəcəkdir.

98. Əgər sənə zərər vurulmasını istəmirsənsə, hər şeydən əvvəl sən də başqalarına zərər vurma.

99. Qoyunlar çoban üçün deyillər, çobanlar isə onlar üçündür.

100. Dostla ye, iç, amma alış-veriş etmə.

101. Kimin ehtiyatda atı varsa, o yorulmaz.

102. Yüz mamaça olsa da, əziyyəti doğan çəkər.

103. Yaxşı adamlar arasında bir nəfər pis adam olarsa, hamı vaxtını pis keçirəcəkdir.

104. Allah dağa baxıb qar verər.

105.Tüstüdən canını qurtarmaq üçün özünü oda atma!

106. Çıraq ancaq öz ətrafına işıq salar.
107. Görünən şəhərə bələdçi gərəkməz.
108. "Halva" deməklə ağız şirin olmaz, halvanı yemək lazımdır.
109. Ağacdan soba düzəltmək mümkün olmadığı kimi boz qarğa çimsə də qarğa olmaz.
110. Qızıldan çarıq qayırsan da, o yenə də çarıq adlanacaq.
111.Çaqqal gavalısı əkən, qızılgül dərməz.
112. bağışlanan atın qocalığına baxmazlar.
113. Atın rəngini bazarda soruşurlar.
114. Hələ Həvva vaxtından günahı başqasının üstünə atırlar.
115. Tənbəl həmişə deyəcək ki, xəstədir.
116. Tənbəl deyəcək: Yemək ver, içmək ver.
117. Zəhmət çəkməyən adam istirahətin qiymətini bilməz.
118. Haqlı söz acı olar.
119. Hər meyvə öz vaxtında dəyir.
120. Bugünkü yumurta dünənki toyuqdan yaxşıdır.
121. Paltara (əyin-başa) baxma, adamın özünə bax! (içindəki cana bax)
122. Görkəmə və əyin-başa görə kiminsə barəsində fikir söyləmə!
123. Nizəni cibində gizlədə bilməzsən!
124. Ölən inəyin çoxlu südü olar.
125. Ölən keçəl qıza ağlayanda deyərlər ki, onun zülfləri var idi.
126. Əl əli yuyar, əl də qayıdıb üzü yuyar.
127. Yaxşılıq et, dənizə at, balıq bilməsə də, xalq bilər.
128.Əyri otur, düz danış.
129. Qurd haqqında danışılan yerdə ular.
130. Qurdlar qaranlığı sevirlər.
131. Ətyeyən Quş dimdiyindən bəlli olar.
132. Yeyərsən qaz ətini, görərsən ləzzətini.
133. Arxalı köpək qurd basar.
134. İki it şirə də üstün gələr.
135. Əziyyətsiz bal da yemək olmaz.

136. Qurd keçiyə toxunmasa, o Məkkəyə gedib çatar.
137. Ölmə, eşşəyim ölmə, yaz gələr, yonca bitər.
138. Allahdan qorxan adamlardan qorxmaz.
139.Allahın qoruduğunu qurd da yeməz.
140. Haqlı adamın qabağında dağlar da baş əyir.
141. Əzrayılın danasını qurd yeməz.
142. Adama adam gərəkər.
143. İt itin ayağını basmaz.
144. İt ilə dostluq et, amma ağacı əlindən qoyma.
145. Kor atın kor da nalbəndi olar.
146. Dənizdə üzən balıq satılmır.
147. Kənd dağılsa, onun dağıntılarından kənd haqqında fikir söyləmək olar.
148. Nərdivana pilləkan-pilləkan qalxarlar.
149. Oxuduğunu demə, başa düşdüyünü de!
150. Göz gördü, könül sevdi.
151. Könül sevən göyçək olar.
152. Sevən üçün Bağdad da yaxşıdır.
153. Əgər sevirsənsə, dağları dolaş.
154. İt it dişindən qorxar.
155. İt kənddən uzaqda hürməz.
156. İt murdarlığını bilsə, boşqabları yalamazdı.
157. Qorxan gözə çöp düşər.
158. Ətə pul verməyib, amma ətin böyük parçasından yapışıb.
159. Məni basa bilən su mənə görə ümmandır.
160. Dama-dama göl olar.
161. Qaşınmaq üçün dırnaqlar lazımdır.
162. Əgər həyatını qurban verirsənsə, qardaşına qurban ver, min ildən sonra da o sənə yad olmayacaq.
163. Su hər vaxt aşağı axmağa can atdığı kimi insan da fayda qazanmağa can atır.
164. Hər şeyin təzəsi, dostun köhnəsi.
165. Sonrakı peşmançılıq fayda verməz.
166. Azı bilməyən, çoxu da bilməz.
167. Atın(eşşəyin)ölümü it üçün bayramdır.

168. Atın olmadığı yerdə eşşək də atdır.
169. Atın olanadək hələlik eşşəyə min.
170. Çox gəzən ayaq gec-tez daşa dəyər.
171. Tələsən ayaq səndələyər.
172. Lalı sahibi başa düşər.
173. Kar özünün haqqında düşündüyünü eşidir.
174. Bala baldan şirindir.
175.Səadətə səbəb olan yalan, bədbəxtliyin günahkarı olan həqiqətdən yaxşıdır.
176.Ərəb atı arıq-qıvraq olsa da, bir karvan eşşəyə dəyər.
177.Elə düşünmə ki, qaranlıq meşə boşdur, orada, bəlkə də, yatmış aslan gizlənir.
178.Kiçikboylu ağıllı uzunboylu cahildən yaxşıdır.
179. Ağıl yaşda deyil, başdadır.
180.Əgər soğan yeməmisənsə, için niyə göynəyir?
181. Küçük ikən iti döysən, o böyük köpək olanda da səndən qorxacaq.
182. Xərci(üzüm növü) borcları ödəyər.
183. Erməni pişikdən də qorxur.
184. Kəlləni sındıran beyini də yeyər.
185. Bu, hamam suyu ilə dost tutmaq kimidir.
186. Artıq tikə adamı öldürməz.

***Devitski V. tərəfindən yazılmışdır.***

## 35-ci buraxılış. 1905-ci il

## ƏBDÜRRƏHMAN S.
## NUXA ŞƏHƏRİNDƏ YAZILMIŞ TATAR UŞAQ NAĞILLARI

### 1. ŞAHZADƏ

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşahın müxtəlif üzümlükləri olan çox gözəl bir bağı var idi. Günlərin bir günü padşah bağda gəzib üzümlüklərdən həzz alırdı. Birdən gördü ki, bəzi tağlarda uzum tənəkləri sındırılıb, üzüm isə tələf edilib. O, öz bağban və nökərlərini yanına çağıraraq padşahın bağını korlamağa kimin cürəti çatdığını xəbər aldı. Onların hamısı cavab verdi ki, bundan bixəbərdirlər. Padşah nə qədər keşikçilər göndərsə də, heç kim padşahın üzümlüklərini dağıdanın izinə düşə bilmədi.

Padşahın üç oğlu var idi. O, böyük oğlunu bağın keşiyini çəkməyə göndərdi. Amma şahzadə dözə bilməyib yatdı. Səhər məlum oldu ki, gözəgörünməz düşmən yenə də bağa gəlmiş, tənəkləri sındırmiş, üzümləri korlamışdır. Padşah ortancıl oğlunu göndərdi, o da bir şey öyrənə bilmədi. Nəhayət, kiçik şahzadə keşik çəkməyə gedir. Gənc şahzadə səhərədək yatmamaq, oyaq qalmaq üçün barmağını kəsdi və ağrını gücləndirmək üçün yaraya duz səpdi. Şahzadə əlində yay və ox oturub səbirsizliklə düşməni gözləyirdi. Budur, baxıb görür ki, çox böyük və qorxunc div[76] gəlir. O, bağda gəzir, tənəkləri sındırır və üzüm yığırdı. Şahzadə kirişi çəkdi və oxu buraxdı, ox divə dəymədi. Div bağda bənni-insanın olduğunu hiss edib qaçmağa üz qoydu. Şahzadə isə onun dalınca qaçmağa başladı.

Onlar çox qaçdılar, şəhərdən çox aralandılar və qovhaqov gəlib çölli-biyabana çatdılar. Axırı, div gəlib böyük bir daşa çatdı, daşı qaldırıb, quyuya endi. Daşı quyunun üstünə itələyib, gözdən itdi. Şahzadə isə evə qayıtdı, uzun bir ip götürüb, qardaşlarını çağırdı və daş olan yerə yola düşdü. Qardaşlardan heç

---

[76] Tatarların təsəvvürlərinə görə, div və ya dev çox nəhəngboylu və son dərəcə güclü məxluqdur. O, öküz buynuzlu və quyruqlu təsvir edilir. İnsanlara qarşı düşmən münasibəti ilə seçilir. (Toplayıcı)

kim daşı yerindən dəbərdə bilmədi. Kiçik şahzadə asanlıqla daşı kənara atdı. O, ipi belinə bağladı, qardaşlarına tapşırdı ki, onu quyuya sallasınlar və gözləsinlər.

Qardaşlar onu quyuya salladılar və burada oturub gözləməyə başladılar. Quyu dərin idi. Şahzadə quyunun dibinə çatan kimi ipi belindən açdı və yoluna davam etdi. O, yerin altında çox getdi, axırda gördü ki, taxtın üstündə üç gözəl qız oturub. Onlar şahzadəni görüb ona qışqırdılar:

– Ay bədbəxt, sən bura necə gəlib çıxdın. İndi div yerindən qalxacaq, sənə aman verməyib səni öldürəcək!

Şahzadə isə onlara dedi:

– Mən eşitmişəm ki, divlərin canı şüşədə olur. Siz mənə divin canı olan şüşənin yerin göstərin. Mən onu öldürüb, sizi də əsirlikdən qurtaracağam.

Hamıdan gözəl olan gənc qız şahzadəyə şüşənin yerini göstərdi və tez qaçıb öy yerində oturdu. Şahzadə divin canı olan şüşəni götürdü. Div yuxuda hiss etdi ki, canı düşmənin əlindədir. Nərə çəkdi və döyüşmək üçün yerindən qalxdı. O, şahzadənin üstünə atıldı və parçalamaq istədi. Amma şahzadə şüşəni bir daşa çırpdı və nəhəng div yerə ölü yıxıldı. Sevincək qızlar şahzadəni araya aldılar, qələbə ilə onu təbrik etdilər. Onları azad etdiyi üçün təbrik etdilər. Şahzadə onları quyuya sallanmış ipin yanına gətirdi. O, əvvəlcə ipi böyük qızın belinə bağladı və qardaşlarına qışqırdı ki, ipi çəksinlər, onu çəkib çıxartdılar. Sonra ikinci qızı çəkdilər. Kiçik qıza növbə çatanda o, şahzadəyə dedi:

– Mən digər qızlardan daha gözələm. Əgər qardaşların məni görsə, səni çəkib çıxartmayacaqlar və sən quyunun dibində məhv olacaqsan. Odur ki, qoy əvvəl səni çəkib çıxartsınlar. Sən isə məni çəkib çıxart.

Şahzadə dedi:

– Yox, əvvəl sən çıx, sonra isə mən çıxaram. Qardaşlarım məni burada buraxıb getməzlər.

Qız dedi:

– Yaxşı, onda qulaq as. Əgər onlar səni çıxartmasalar, bax bu yolu tutub get. Qarşıda iki qoca rast gələcəksən. Biri ağ, o

birisi də qara. Əgər sən ağ qoçun belinə atılıb otura bilsən, o səni işıqlı dünyaya gətirib atacaq, yox, əgər sən səhv edib qara qoçun belinə minsən, o səni qaranlıq dünyaya aparıb çıxardacaq. Qara qoça yaxın durma, çalış ağ qoçun belinə minəsən və çox keçməz yanımıza gəlib çıxarsan.

Bundan sonra qızı çəkib quyudan çıxartdılar. Şahzadəyə növbə çatanda qardaşlar onu quyunun ağzınadək çəkdilər, sonra isə birdən ipi kəsdilər. Bədbəxt şahzadə quyunun dibinə düşdü. Qardaşlar isə qızları evlərinə gətirdilər. Atalarına danışdılar ki, onların kiçik qardaşı quyuya birinci düşdü və divlə döyüşüb öldü. Sonra onlar quyuya düşdülər, divi öldürdülər, bu qızları da azad edib gətirdilər. Padşah böyük oğullarının sözlərinə inandı və kiçik oğlu üçün kədərləndi.

Kiçik şahzadə isə quyunun dibinə düşdükdən sonra ayağa qalxdı və gözəl qızın göstərdiyi yola getdi. Orada qara və ağ qoça rast gəldi. Ağ qoçun belinə minmək istədi, amma rastına qara qoç düşdü, o atılıb qara qoçun belinə mindi və özünü qaranlıq dünyada gördü. Şahzadə bu dünyada çox gəzib dolaşdı, bir gün gördü ki, bir qız əlində boşqab aparır. O, qızdan xəbər aldı:

– Bu nədir?

Qız cavab verdi:

– Bu, plovdur.

– Sən onu hara aparırsan?

– Orada bir əjdaha var. O, çayda oturub bizə su vermir. Mən bu plovu ona aparıram. Əjdaha onu yeyib qurtaranadək mən bardağıma su doldurub evə aparacağam. Bizdə hamı hər gün belə edir.

Ac-susuz olan şahzadə dedi:

– Plovu bura ver, mən indi onu öldürəcəyəm və sizin canınızı ondan qurtaracağam, hamınızın suyu olacaq.

O, qızdan plovu alıb yedi. Sonra əjdahanın olduğu yerə yollandı. Əjdahanı öldürdü və suyu buraxdı. Qız bunu görüb əlini əjdahanın qanına batırdı və sonra isə əlini şahzadənin kürəyinə vurdu. Bir neçə adam bu əhvalatı padşaha danışdılar ki, bəs onlar əjdahanı öldürdülər və əhalini ondan xilas etdilər.

Bu arada isə şahzadə yoluna davam etdi və böyük ağac gördü. Bu ağacın üstündə çox böyük yuva var idi. O, bu ağacın kölgəliyində uzandı ki, dincini alsın. Birdən yuvada oturmuş Quş balaları elə hay-küy, qışqırıq saldılar ki, şahzadə qorxdu və yerindən dik atıldı. O, baxıb gördü ki, uzun və qorxunc bir ilan Quş balalarını yemək üçün ağaca qalxır. O, ilanı öldürüb bir tərəfə atdı, öz yerinə qayıtdı və yenidən yuxuya getdi. Şahzadə yuxuya gedəndə son dərəcə böyük bir Quş uçub gəldi. Bu, Quş balalarının anası imiş. O, şahzadəni görüb fikirləşdi: "Budur, hər gün mənim balalarımı öldürən düşmən!"

O, şahzadəyə tərəf getdi və qanadlarının bir zərbəsi ilə onu öldürməyə hazırlaşırdı ki, Quş balaları qışqırışıb ona dedilər:

– Ana, ona əl dəymə, o, bizim düşməni - ilanı öldürdü və bizi xilas etdi.

Belə olduqda Quş öz böyük qanadları ilə şahzadənin üstünü örtdü və onu gün şüalarından qorudu. Şahzadə yuxusunu alıb yerindən qalxanda ana Quş balalarını ilandan xilas etdyi üçün, şahzadədən nə istədiyini xəbər aldı. Şahzadə heç nə istəmədi, yalnız onu işıqlı dünyaya çıxartmasını istədi. Quş şahzadəyə əmr etdi ki, bir qoç və süd gətirsin. Şahzadə buradakı padşahın yanına getdi, əjdahanı öldürdüyünü və camaata suyu özünün verdiyini dedi. Padşah ona inanmadı. Şahzadə bir qızın onu gördüyünü dedi. Həmin qızı axtarıb tapdılar və padşahın yanına gətirdilər. O, şahzadənin dediyini təsdiq etdi, padşah ondan xəbər aldı:

– Dediyini nə ilə təsdiq edə bilərsən?

Qız şahzadənin kürəyindəki qanlı işarəni göstərib dedi:

– Onu öz əlimlə mən qoymuşam.

Hamı ona inandı, padşah ondan xəbər aldı:

– Məndən nə istəyirsən?

Şahzadə dedi:

– Bir qoç və bir tuluq süddən başqa heç nə istəmirəm.

O saat onun istədiklərini hazır edib gətirdilər. O, qoçu kəsdi, ətini götürdü, bir tuluq südü də Quşun yanına gətirdi. Quş dedi ki, "kaq!" qışqıranda ona bir parça ət, "caq!" qışqıranda isə ona süd verməlidir. Şahzadə ət və südü götürüb Quşun belinə mindi. Quş

qanad çalıb vaxtdan-vaxta “kaq!” və “caq!” qışqıraraq ele hey uçub göyə yüksəldi. Onlar o qədər yüksəyə qalxdılar ki, artıq işıqlı dünyaya az qalırdı. Amma ət artıq qurtarmışdı, Quş “kaq!” qışqırırdı. Nə etməli? Şahzadənin ağlına bir fikir gəldi. O, bıçağı əlinə aldı və ayağından bir parça ət kəsib Quşa verdi. Quş o saat başa düşdü ki, bu, insan ətidir, udmayıb dilinin altında saxladı. Bütün var-gücünü topladı və uçub işıqlı dünyaya gəlib çatdı. Quş şahzadəni belindən yerə düşürdü və ondan təvəqqe etdi ki, durub getsin. Şahzadə isə ağrısını ondan gizlətməkdən ötrü yolda yorulduğunu və dincəlmək istədiyini deyərək yerindən tərpənmədi. Quş dediyinin üstündə durdu, belə olduqda şahzadə yerindən qalxdı, elə o saat da yerə yıxıldı. Quş dilinin altından əti çıxardı, onu şahzadənin yarasının yerinə qoydu və qanadı ilə ona sığal çəkdi. Şahzadənin ayağı sapsağlam oldu.

Şahzadə sağaldıqdan sonra ayağa qalxdı və öz məmləkətini axtarmağa getdi. O, çox axtardıqdan sonra öz məmləkətini tapdı, atasının yanına gəldi, qardaşlarının hərəkətindən və başına gələnlərdən ona danışdı. Padşah böyük oğullarını yanına çağırdı və onları edam etdirdi, kiçik oğlunu isə özünün varisi təyin etdi və onu kiçik qızla evləndirdi.

## 2. YAXŞI YAMAN

Biri var idi, biri yox idi. Allahdan başqa heç kim yox idi. Bir nəcib və bir alçaq adam var idi. Onlar öz aralarında dostluq edirdilər. Günlərin bir günü onlar yol ilə gedirdilər. Hər birinin kisəsində bir çörəyi var idi. Yolda onlar acdılar, Yaxşı Yamana dedi:

– Gəl əvvəlcə sənin çörəyindən yeyək, gələn dəfə acdıqda isə mənim çörəyimi yeyərik.

Beləliklə, o, nəcibi aldatdı və onun çörəyi yeyildi. Bir müddət keçəndən sonra nəcib acdı və alçağa dedi:

– Qardaş, gəl indi sənin çörəyini yeyək!

O biri cavab verdi:

– Qardaş, bağışla, bacarmıram. Əgər mənim çörəyimi yesək, mən sonra acından ölərəm.

Nəcib adam dostunun bu hərəkətindən inciyib ondan küsdü və öz yoluna davam etdi.

O, ac-acına çox gəzib dolaşdı və axırda atılmış köhnə bir dəyirmana tuş gəldi. O, dəyirmana girdi, dəyirman təknəsinə qalxıb gecələmək üçün orada uzandı. Gecənin bir vaxtı gördü ki, ayı, onun dalınca qurd və tülkü dəyirmana gəldilər. Hər üç yoldaş dəyirmanda yer tapıb oturdular. Ayı və tülkü çox şad idilər. Şaqqıltı vururdular, deyib gülürdülər, qurd isə hirsli, qaşqabaqlı, sakit, dinməzcə oturmuşdu. Birdən ayı tülküyə müraciət etdi və dedi:

– Tülkücük, bir de, sən nədən belə şadsan?

Tülkü cavab verdi:

– Mən nə üçün də şad olmayım? Bax, o kəndin yaxınlığında böyük, qollu-budaqlı bir ağac durur. Onun altında ləl-cəvahiratdan böyük bir xəzinə basdırılmışdır. Mən oradan pul götürüb özüm üçün xərcləyirəm, Allaha şükürlər olsun, çox yaxşı yaşayıram.

Bu dəfə isə tülkü ayıya müraciət etdi:

– Bəs sən nədən belə şadsan?

Ayı cavab verdi:

– Bax, o dağın üstündə, meşənin kənarında çox qoca bir ağac var, onun geniş koğuşu balla doludur. Mən hər gün bu ağaca qalxır və doyunca bal yeyirəm. Mən nədən qəm çəkməliyəm ki?

Onlar qurddan xəbər aldılar:

– Qardaş, sən nədən belə qaşqabaqlı və susqunsan?

Qurd donquldandı:

– Mən nə üçün də kədərlənməyim? Artıq üç gündür ki, acam. Kəndin yanında bir sürü dayanır. Amma orada böyük bir köpək vardır. Bu köpək səhərdən gözünü qırpmaz, elə hey sürünün ətrafında o qədər gəzər ki, mən nə qədər çalışsam da, oradan bir qoç da yeməyə apara bilmirəm. Qəribə işdir, bu köpəyi heç kim öldürmür. Halbuki bu onu öldürən adam üçün çox sərfəli iş ola bilərdi. İş ondadır ki, buradakı padşahın qızı xəstələnmişdir və heç bir həkim onu sağalda bilmir. Padşah da vəd etmişdir ki, kim onun qızını sağaltsa, onu həmin adama ərə versin. Əgər bu köpəyin beynini elə bu sürüdəki qara qoçun beyni ilə qarışdırıb padşahın qızına versələr, o sağalacaq. Lakin

insanlardan heç kimin ağlına bunu etmək, padşahın olduqca gözəl qızını sağaltmaq gəlməz. Onu sağaldıb özünə arvad etsəydilər, mənim də canım bu lənətlənmiş köpəkdən qurtarardı.

Nəcib adam bütün bu söhbəti eşitdi. Səhər o qalxdı və qızı naxoş olan padşahı axtarmağa getdi. O padşahın kim olduğunu öyrənib onun paytaxtına yollandı və belə bir şayiə buraxdı ki, o, padşahın qızını sağalda bilər. Bu xəbəri o saat padşaha çatdırdılar. O, nəcib adamı yanına çağırdı və öz vədini dərhal yerinə yetirəcəyinə söz verərək xahiş etdi ki, onun dərdinə kömək etsin.

Belə olduqda nəcib tapşırdı ki, həmin sürüdən qara qoçu və böyük köpəyi gətirsinlər. O, onların ikisini də öldürdü, ikisinin də beyinlərini çıxartdı və bir-birinə qarışdırıb şahzadə qıza verdi ki, yesin. Şahzadə qız sağaldı. Padşah gözəl bir toy çaldırıb qızını ona ərə verdi. O, öz kürəkənini mənsəb sahibi etdi.

Nəcib adam uca ağacın dibindəki bütün xəzinəni tapdı və evinə gətirdi. Şad-xürrəm və bolluqda yaşamağa başladı.

Bir neçə müddətdən sonra nəcibin dostu alçaq adam dilənçi, ac-yalavac halında gəlib çıxdı. O, nəcibi belə var-dövlət içində görüb xəbər aldı:

– Qardaş, sən bu vəziyyətə necə gəlib çatdın?

O biri cavab verdi:

– Filan tərəfdə bir yerdə, bir dəyirman var. Sən ora get, orada gecələ, mənim bütün bunlara necə çatdığımı öyrənəcəksən.

Alçaq gedib həmin dəyirmanı tapdı. Təknəyə qalxdı və gözləməyə başladı. Gecə həmin tülkü, qurd və ayı gəldilər. Bu dəfə qurd şad, iki başqası isə kədərli idi. Ayı tülküdən xəbər aldı ki, o nə üçün kədərlidir. Tülkü cavab verir ki, onun xəzinəsini oğurlayıblar, indi onun yaşayıb dolanmağa heç nəyi yoxdur. Ayı isə xəbər verdi ki, ağacı baltalayıblar və balı aparıblar. Qurd isə dedi:

– Lənət olmuş köpəyi öldürdülər və onun beyni ilə şahzadə qızı sağaltdılar. İndi mənim düşmənim artıq yoxdur, mən hər gün bir qoç oğurlayıb yeyirəm.

Tülkü:

– Görünür, hansısa adam bizim söhbətimizə qulaq asır.

Ayı dedi:

– Yoxsa sirlərimizi başqa cür kim öyrənə bilərdi?

– Gəlin onu axtaraq, bəlkə, o, hələ də buradadır.

Onlar dəyirmanı axtarmağa başladılar və təknədə alçağı tapdılar və onu paramparça etdilər.

Alçağın həyatının sonu belə oldu.

## 3. OĞLANIN SƏRGÜZƏŞTLƏRİ

Bir arvadın oğlu və qulunu var idi. Onun oğlu qulunu çox sevirdi. O, oxumaqdan sonra evə qayıdanda qulunun yanına gəlir, onu sığallayır, öpür, yedirir, içirir, vaxtını onunla keçirir, oxumağa isə fikir vermirdi. Anası fikirləşdi ki, bu uşaq üçün pisdir. Buna görə də oğlunun belə vaxt keçirtməsini tərgitmək istəyirdi. Bir gün naxoşladı, təbib çağırdı və ona dedi:

– Mən yalandan xəstələnmişəm, özüm-özümü xəstəliyə vurmuşam, mən ona görə səni çağırmışam ki, dərman kimi qulun ətini yazasan. Ərimə de ki, əgər o qulunu kəsməsə və onun ətini yemək üçün mənə verməsə, mən xəstəlikdən sağalmayacağam.

Təbib elə də etdi və ər qulunu kəsmək qərarına gəldi.

Oğlan öyrəndi ki, onun qulununu kəsmək istəyirlər. O, qulunun yanına getdi, ağlamağa və vəziyyətin nə olduğunu ona başa salmağa başladı. Qulun bənni-adam dilində danışa bilməsə də, danışılan hər bir şeyi çox yaxşı başa düşürdü və işarələrlə hər şeyi başa sala bilirdi. Beləcə oğlana başa saldı:

– Sən dərsə get! Onlar məni kəsmək üçün tövlədən çıxardanda mən kişnəyəcəyəm. Onda sən yanıma qaçıb gəl. Atandan təvəqqe et ki, sənə üstümdə oturub gəzməyinə bir neçə dəqiqəliyə izin versin. Nə vaxt ki, sən üstümdə oturdun, möhkəm dur və qamçı ilə məni elə güclə vur ki, dərimdən bir parça ayrılsın və sonrası isə mənim işimdir.

Oğlan elə də etdi, o, qulunun üstünə minəndə elə bir güclə qamçıladı (vurdu) ki, dəridən bir parça bir tərəfə uçub düşdü. O, külək kimi çapdı və oğlanı apardı. Təəccüblənmiş ata yalnız elə öz oğlunu görə bildi.

Oğlan qulunun belində çox yol getdi və gəlib bir meşəyə çatdı. Burada hansısa bir heyvanın nəriltisini eşitdi, qulunun

yaxınına sürüb gəldi və baxıb gördü ki, bir şir maralı udub. Amma onun buynuzları şirin dişlərinə ilişib. Şir də onu tam uda bilmir, odur ki, qışqırır və az qala öləcək. O, dərhal qulundan yerə endi. Maralın buynuzlarını kəsdi, onda şir maralı uddu və ölməkdən canını qurtardı. Şir oğlana dedi:

– Sən mənə yaxşılıq etdin. Bunun qarşılığında sənə nə edim? Bax mənim bir balam var, onu sənə verirəm. Çətinliyə düşəndə o, sənə kömək edəcək.

Oğlan şirin balasını da götürüb yoluna davam edir. Yol gedib, meşəyə rast gəlir. Yenə də bir heyvanın nəriltisini eşidir. O, qulunu yaxına sürür və görür ki, pələng maral udub, amma buynuzları boğazında ilişib qalıb. Pələng də elə ona görə qışqırır. O, maralın buynuzlarını kəsdi, beləliklə, pələng qurtuldu. Pələng də şirin etdiyi kimi minnətdarlıq əlaməti olaraq öz balasını verdi. O, hər iki heyvanı da özü ilə götürüb yoluna davam etdi.

Nəhayət, gəlib bir şəhərə çatdılar. Pələng və şirin balaları ona dedi:

– Gəl qulununu bizə ver, biz onu otaracağıq, sən isə şəhərə get və özünə bir iş tap. Çətinliyə düşəndə əl çal, biz sənin yanına gələrik.

Oğlan qulununu onlara verdi və şəhərə getdi. O, padşahın bağbanının yanına gəlib, yanında işə düzəldi.

Günlərin bir günü bağban ona tapşırdı ki, tərəvəzləri suvarmaq üçün yeri qazsın və özü də harasa getdi. Gənc oğlan əl çaldı və heyvanlar qulunla qaçıb gəldilər. Onlar onun əmri ilə yeri belləyib əkinə hazır etdilər. Sonra o, libasını dəyişib şahanə geyinib keçindi, qulununa mindi və gəzməyə başladı. Gəzib dolaşdıqdan sonra yenə bağban libasını geyindi, öz heyvanlarını və qulununu oxşayıb, sərbəst buraxdı.

Padşahın kiçik qızı bütün bunları gördü və bu qəribə işə təəccübləndi və qorxulu heyvanları ələ öyrətmiş gəncə vuruldu. O, iki böyük bacının yanına gedib dedi:

– Biz nə vaxtadək qız olub qalacağıq. Gəlin atamıza yetişib ötmuş, yetişmiş və yetişən üç qovun göndərək.

Onlar elə də etdilər. Padşah öz qızlarının hədiyyələrini görüb öz vəzir və əyanlarını başına topladı, onlardan bu hədiyyələrin nə

demək olduğunu xəbər aldı. Onlar izah etdilər ki, yetişib ötmüş qovun – bu, böyük qızdır, yetişmiş qovun – bu, ortancıl qızdır, yetişən qovun isə – bu, kiçik qızdır. Onlar bu hədiyyələrlə ona işarə edirlər ki, onların gəncliyi ötüb gedir və onların artıq ərə getmək vaxtı çatmışdır. Onda padşah əmr etdi ki, şəhərin bütün oğlanlarını qızlarına göstərmək üçün çağırsınlar və qızlarının hərəsinə bir alma versinlər. Qızların hansı oğlandan xoşu gəlsə, ona alma atmalı idi. Oğlanları sıraya düzdülər. Böyük qız əlindəki alma ilə baş vəzirin oğlunu vurdu, ortancıl qız başqa böyük əyanın oğlunu vurdu, kiçik qız isə heç kimi vurmadı. Onda padşah əmr etdi ki, bağbanının işçisini tapıb gətirsinlər. Onu tapıb gətirdilər, o gəlib keçəndə kiçik qız əlindəki alma ilə onu vurdu. Padşah öz qızına çox hirsləndi, dedi ki, onun ağlı çaşıbdır. Əmr etdi ki, o, yenidən seçim etsin. Gənc oğlanlar yenidən kiçik qızın yanından keçməyə başladılar. O, heç kimə məhəl qoymadı. Bağbanın işçisi keçən kimi o saat almanı ona atdı. Padşah dedi:

– Qoy belə olsun!

Qızlar ərə verildilər. Bağbanın nökəri öz arvadını götürdü və ona ayrılmış olan yerə apardı.

Günlərin bir günü padşah naxoşladı və həkim ona maral əti yeməyi tapşırdı. Padşahın iki sevimli kürəkəni maral ovlamaq üçün ova çıxdılar. Bağban arvadını padşahın yanına göndərdi ki, ova getmək üçün ondan bir at istəsin. Padşahın qızı atasının yanına getdi, padşah ona qəzəbləndi və yanından qovdu. Arvad qanıqara ərinin yanına qayıtdı və dedi ki, atası at vermədi. Oğlan o saat əl çaldı, pələng, şir, at onun yanına gəldilər. O, təğyir-libas oldu. Çapağan atına mindi, öz heyvanlarını da yanına alıb ova yola düşdü. O, pələng və şirə əmr etdi ki, bağ və meşələrdəki bütün heyvanları qovub bir dərəyə yığsınlar, özü isə dərənin ağzında durdu. Birdən o gördü ki, bacanaqlar onun yanına gəlirlər. Bacanaqları ondan təvəqqe etdilər ki, onlara diri maral yox, maral əti satsın. O, razı oldu, maral ətini öz bacanaqlarına satmaq üçün onu kəsəndə dedi:

– Dadı ayaqlarına və başına!

Bacanaqlar maral cəmdəyini aldılar və evlərinə gətirdilər. Ət o saat bişirildi və naxoş padşaha aparıldı. Padşah ətdən yedi,

amma onun heç dadı yox idi və onun dərdini heç yüngülləşdirmədi.

Padşahın kiçik kürəkəni isə maralın baş və ayaqlarını evinə gətirdi, arvadı onlardan xaş bişirdi və atasına apardı. Padşah yeməyi atmaq və qızını qovmaq istədi, amma onun arvadı ondan xahiş etməyə başladı.

– Heç olmasa, mənim xətrimə ondan bir az ye! Əgər bu yeməkdən az da olsa yeməsən, qız inciyər.

Nə etməli... Padşah xaşdan bir az yedi və nə olsa yaxşıdı, onun naxoşluğu o saat çıxıb getdi. Elə bil əlinlə götürüb atdın.

Padşah qızından xəbər aldı:

– Bu yeməkdən yenə varmı?

Qızı cavab verdi:

– Biz az ərim üçün saxlamışam.

Naxoş padşah ona yalvarır:

– Xahiş edirəm, onu da gətir!

Qızı qalan yeməyi də gətirdi, padşah yeyib sağaldı.

Bir müddət keçəndən sonra padşaha xəbər gəlir ki, bəs qonşu padşah qoşun çəkib onun üstünə gəlir. Padşah öz qoşununu yığır və düşmənin qabağına çıxır. Düşmənin qoşunu çox idi. Padşah bunu görüb qorxmağa başladı. Birdən məğlub olar. Onlar döyüş meydanına çıxdılar və qoşunlarını düzdülər. Padşah bir də gördü ki, bir gənc oğlan gözəl və güclü atın belində yanında da pələng və şir gəlir. Budur, o heyvanları ilə yaxınlaşdı və düşmən qoşununa hücum edərək, qoşunu qırıb-çatıb, pərən-pərən etdi. Buna sevinən padşah təəccübləndi və öz-özünə fikirləşdi: "Bu kim ola bilər"? Amma birdən gördü ki, onun tanınmayan dostu düşmən oxu ilə yaralanıb və qan içindədir. Padşah dərhal atını onun yanına sürdü. Baxıb gördü ki, ox onun əlini yaralayıb. O, dəsmalını götürüb onun əlini bağladı və öz qoşunu ilə evinə qayıtdı.

Ertəsi gün padşah çox gözəl bir məclis qurdu, bütün şəhər əhlini də çağırdı. Padşah bütün qonaqlarına baş çəkdi, gözdən keçirdi. Baxıb gördü ki, əlisarğılı dəliqanlı yoxdur. O xəbər aldı:

– Şəhərdə hələ qalan varmı?

Bütün şəhəri gəzib dolaşdılar və padşahın bağında bağbanın nökərini tapdılar, padşahın yanına gətirdilər. Qonaqlar yeməkdən qabaq əllərini yumağa başlayanda padşah gördü ki, bağbanın nökəri bir əlindən sarğını çıxardı və qanı yudu. Padşah yaylığını tanıdı. Ona yaxınlaşıb əlindən tutdu və dünən olanları bütün xalqa danışdı. Sonra öz qızını belə bir seçimə görə təriflədi. O, kürəkəninə ənamlar hədiyyə edib, özünün varisi təyin etdi.

## 4. TÜLKÜ VƏ ARMUDANBƏY

Bir Armudanbəy var idi. O, çox kasıb idi və onun heç bir şeyi yox idi. Bu Armudanbəy padşahın qızına vuruldu və onun dərdindən ölürdü. Günlərin bir günü bir tülkü onun yanına gəlib dedi:

– Armudanbəy, gəl qardaşlaşaq və mən şahzadə qızı sənə alıram.

Armudanbəy cavab verdi:

– Yaxşı.

Bundan sonra onlar qardaşlaşdılar.

Tülkü Armudanbəyin adından padşahın yanına gedib ondan bir qəpiklik sikkələr ölçmək üçün istifadə etdiyi ölçünü istədi. Padşah əmr etdi ki, ölçünü ona versinlər. Tülkü ölçünü Armudanbəyə gətirdi. O, harada isə bir qəpik tapdı və onu ölçüdəki yarığa qoydu. Sonra onu geri qaytardı. Padşah ölçüyə baxanda onun yarığındakı qəpiyi görüb öz-özünə fikirləşdi: "Görünür, onlar pulları ölçmüşlər". Bu Armudanbəy varlı adam olmalıdır.

Bir neçə gündən sonra tülkü padşahın yanına gəldi. Xəzinəsindəki iyirmi qəpiklikləri ölçdüyü ölçünü ondan istədi, padşah bu ölçünü də verdi. Tülkü ölçünü götürüb apardı və haradan isə bir iyirmi qəpik tapdı. Onu ölçünün dibinə qoyub, geri qaytardı. Padşah sikkəni gördü və Armudanbəyin var-dövlətinə daha çox təəccübləndi.

Sonra o, padşahdan əşrəfiləri ölçmək üçün istifadə etdiyi ölçünü istədi. Ölçünü ona verdilər. O, kimdənsə əşrəfi aldı və onu ölçünün yarığına qoyub, geri qaytardı. İndi padşah tamamilə inandı ki, Armudanbəy onun özü kimi varlı adamdır.

Bir neçə gün keçir və tülkü padşahın qızını Armudanbəyə istəmək üçün padşahın yanına gedir. Padşah razılıq verir. Qırx gün, qırx gecə o qızının toyunu bayram edir və qızını Armudanbəyə verir. Gəlini adaxlısının evinə aparanda tülkü padşahın yanına qaçıb xahiş edir ki, ona bir at versin. Belə ki, Armudanbəyin ilxısı uzaqda dağlarda otlayır, ona oradan at götürmək çətindir. Padşah ona itiyeriyən capar bir at verdi. O, ata minib çapıb getdi. O, yolda rast gəldiyi çoban və ilxıçılara dedi ki, onun ardınca padşahın qoşunları gəlir. Padşahın xidmətçi və əyanları onlardan xəbər aldıqda ki, "Bu sürü və ilxılar kimindir?", – bunların Armudanbəyin olduğunu deməlidirlər, yoxsa qoşunlar onların əlindən hər şeyi alacaqlar.

Tülkü getdikdən sonra padşahın qızını Armudanbəyin evinə aparan qoşunlar yolda göründülər. Onlar sürü və ilxılara rast gəlib, bunların kimin olduqlarını xəbər alanda bütün çobanlar Armudanbəyin olduğunu dedilər. Padşah və əyanlar Armudanbəyin saysız-hesabsız sürülərinə, hesaba gəlməz var-dövlətinə təəccübləndilər və onun padşahın qızı ilə evlənməsinə həsəd apardılar. Bu arada tülkü özünü üç div qardaşlara məxsus olan yaxşı bir evə çatdırdı. Onlara dedi ki, padşah saysız-hesabsız qoşunla müharibə etmək üçün onların üstünə gəlir və əgər onlar saman tayasının altında gizlənməsələr, onların başının üstünü alar və öldürərlər. Divlər qorxdular və əl-ayağa düşdülər. Nə etməli, onlar saman tayasının altında gizləndilər. Qoşunlar gəlib çıxdı və əyanlar şahzadə qızı gətirdilər. Qonaqlar Armudanbəyin evini görüb təəccüblərini saxlaya bilmədilər və tülkü onlara dedi:

– Yüksək qonaqların şərəfinə atəşfəşanlıq etmək lazımdır.

Saman tayasına od vurdular. Alov buludlaradək qalxdı. Bütün divlər burada məhv oldular. Beləliklə, dilənçi Armudanbəy padşahın kürəkəni, var-dövlət sahibi oldu.

Günlərin bir günü tülkü Armudanbəyin sədaqətini yoxlamaq istədi və ona dedi:

– Armudanbəy, mən sənə o qədər qulluqlar etmişəm, sən də heç olmasa bir qulluq göstər!

Armudanbəy xəbər aldı:

– Hansı qulluğu?

Tülkü deyir:

– Bax hansı qulluğu. Mən öləndə sən məni layiqlə dəfn et və mənim şərəfimə böyük məclis düzəlt.

Armudanbəy söz verdi. Bir dəfə tülkü özünü həyətdə ölülüyə vurdu. Armudanbəy tülkünü ölmüş gördükdə nökərləri çağırdı və onlara əmr etdi ki, tülkünün quyruğundan tutub həyətdən bayıra atsınlar. Tülkünü bayıra atdılar. O, möhkəm əzildi, amma ayağa qalxdı və axsaya-axsaya Armudanbəyin yanına gəldi. Onu alçaqlıqda və öz sözünü yerinə yetirməməkdə məzəmmət etdi. Armudanbəy öz hərəkətindən utandı.

Başqa dəfə tülkü doğrudan öləndə Armudanbəy yalandan olduğunu düşünərək mollaları çağırdı, onu təntənə ilə dəfn etdi və onun şərəfinə hamını təəccübləndirəcək böyük ehsan süfrəsi açdı.

## 5. YUXU

Qədim vaxtlarda bir padşah yaşayırdı. Günlərin bir günü yuxusunda gördü ki, hansısa bir düşmən ona hücum edib, bütün qoşunlarını qırıb çatıb, gəmilərini məhv edib. Padşah belə yuxudan qorxdu və qorxudan elə ucadan qışqırdı ki, yuxudan oyandı. Bunun yuxu olduğunun görüb sakitləşdi və yenidən yuxuya getdi. Amma o, ikinci dəfə də həmin yuxunu gördü. Padşah bu yuxudan sonra yata bilmədi. Üçüncü dəfə də eyni şeyi görəndə onun yuxusu qaçdı. Səhərədək bunun nə olduğu haqqında düşünərək gözlərini yuma bilmədi. Səhər qorxulu yuxunu vəzirə danışdı. O, əmin idi ki, qorxunc düşmən tərəfindən məğlub ediləcək, öz hökmranlığından, var-dövlətindən məhrum olacaq və bütün dünyanın gözləri önündə rüsvay olacaq. Padşah öz-özünə fikirləşdi: "Yox, qaçmaq lazımdır, belə rüsvayçılıqdan uzaqda olmaq, ölmək üçün qaçmaq lazımdır. Onda mən ən azından rüsvayçılıqdan xilas olacağam".

O, arvadı və iki oğlunu da götürüb gözdən itdi. Padşah öz ailəsi ilə çox gedib, axırda bir meşəyə gəlib çatdılar. Axşam vaxtı idi. Padşah yoldan yorulmuş, əldən düşmüş uşaqlarına və arvadına dinclik vermək üçün meşədə gecələmək istəyirdi.

Onlar meşənin sıx yerində ocaq qaladılar və dincəlmək üçün oturdular.

Birdən gecə bir nəfər onların yanına gəldi və dedi:

– Bizim karvan bura yaxın bir yerdə yerləşir, orada doğmağa hazırlaşan bir qadın var. Sən doğuş vaxtı qadına kömək üçün bizim düşərgəyə getməyə arvadına icazə verərsənmi?

Padşah "yaxşı" dedi və arvadını həmin adamla göndərdi.

Uşaqlar öz analarını çox gözlədilər, anaları isə heç qayıtmadı. Axırda uşaqlar atalarına dedilər:

– Ata, anamız get bax haradadır?

Ataları "Yaxşı" dedi və getdi.

Padşah karvanı nə qədər axtardısa, heç nə tapmadı. Karvan artıq çoxdan getmişdi və padşahın arvadını da aparmışdı. Padşah uşaqlarının yanına qayıtdı və olanları uşaqlara danışdı. Onlar anaları üçün çox ağladılar və axırda yuxuya getdilər.

Səhər yuxudan oyandılar və yollarına davam etdilər. Yolda oğlanlardan biri geri qaldı. Meşədən çıxmış ac bir qurd onu tutub özü ilə apardı. Yazıq ata qurdun dalınca qaçdı, amma ona çata bilmədi. Kəndlilərdən biri uşağı özü ilə aparan qurdu gördü. O, qurdu öldürdü, oğlanı isə evinə gətirdi. Kəndli uşağın yaralarını sağaltdı və onu evində yaşamağa saxladı.

Padşah o biri oğlu ilə yoluna davam edərək bir çaya rast gəldi. Çayı keçəndə uşaq suya yıxıldı və su onu apardı. Padşah nə qədər çalışsa da, oğlunu qurtara bilmədi. Su uşağı bir dəyirmanın novuna gətirib çıxartdı. Burada təsadüfən olan dəyirmançı təkərlərin altından oğlanın qışqırtısını eşitdi. O saat suyu kənara axıtdı və oğlanı qurtardı. Dəyirmançı bu hadisəyə sevindi və oğlanı oğulluğa götürdü, belə ki, onun öz uşaqları yox idi. Onun bədbəxt atası hər şeyini − padşahlığını, var-dövlətini, uşaqlarını itirib böyük dərd ilə sərgərdanlıq etməyə başladı.

O, dünyanı çox gəzdi və axırda tale onu bir məmləkətə gətirib çıxartdı ki, burada o, dilənçilik və tənhalıqda yaşamağa başladı. Belə oldu ki, bu məmləkətin padşahı öldü və xalq özünə yeni padşah seçməli idi. Bu xalqın belə bir adəti var idi ki, padşah seçəndə kiçikdən böyüyə hamı meydana toplaşardı və

qəfəsdən dövlət Quşunu buraxardılıar. Quş uçub elə kasıb padşahın başına qondu.

Xalq yerindən bağırışdı.

– Yox, dilənçidir, onun işi sədəqə toplamaqdır, o, padşah ola bilməz.

Dövlət Quşunu ikinci dəfə buraxdılar və o hər dəfə padşah – dilənçinin başına qonurdu. Xalq bu işə çox təəccübləndi.

– Onu bir sınayaq, əgər davam gətirsə, onu padşah seçərik.

Şəhərin kənarında dəniz var idi. Onlar nə qədər gəmilər tiksələr də, nə qədər çalışsalar da, heç cürə suda üzə bilmirdilər. Gəmilər suda hərəkət etmirdilər. Xalq kasıb padşahdan dənizdə üzmək üçün nə etməli olduqlarını xəbər aldı. Nə vaxtlarsa çox sayda gəmiləri öz dənizlərində üzmüş keçmiş padşah onlara gəmiqayırmasını və dənizçilik sənətini öyrətdi və o, padşah seçildi.

Bir müddət keçdi. Bir dəfə padşah ovdan evinə qayıdırdı və gördü ki, yolda bir kəndli qəddi-qamətli gözəl bir oğlanla gedir. Padşah öz-özünə fikirləşdi: “Gəl, bu oğlanı alım, o, mənə oğulluq edə bilər”. O, kəndlidən gənc oğlanı aldı və evinə gətirdi.

Bir neçə vaxtdan sonra o, öz torpaqlarını seyr etməyə çıxdı. Bir dəyirmanın yanından ötüb keçəndə gördü ki, dəyirmançı onun oğluna çox oxşayan bir gənc oğlanla oturub. Padşah özözünə fikirləşdi: “Gəl, onu dəyirmançıdan alım, o mənim qonaqlarıma qulluq edə bilər”. Padşah onu aldı. Hər iki qul ona qulluq etməyə başladılar.

Günlərin bir günü padşahın paytaxtına bir karvan gəlib çıxdı. Bu karvanın sahibi varlı bir tacir azad ticarətə razılıq almaq üçün padşaha öz mallarından ən bahalı şeylər seçib özü padşahın yanına gəldi. Padşah onu şam etməyə və gecələməyə dəvət etdi. Tacir karvanının çapılmasından qorxduğu üçün padşahdan xahiş etdi ki, ora keşikçilər göndərsin. Padşah ora özünün iki gənc qulunu göndərdi. Gecə vaxtı qullardan birinin çox yuxusu gəldi və o, yoldaşına dedi:

– Mənə yuxumu dağıtmaq üçün bir şey danış, çox yuxum gəlir, yatmaq istəyirəm.

Yoldaşı ona danışmağa başladı ki, bir vaxtlar onun atası padşah olub. Günlərin bir günü o, qorxulu yuxu gördüyü üçün uşaqlarını, arvadını götürüb öz paytaxtından çıxıb qaçdı. Biz bir meşədə dayandıq, gecə meşədən keçib gedən karvandan bir nəfər bizim yanımıza gəldi və atamı aldadıb anamızı apardı. Yoldaşı bunu danışanda birinci qul onun qardaşı olduğunun deyərək yerindən qalxdı, onu qucaqladı və ağladı. Bu vaxt tacirin çadırından onların söhbətini gizlincə dinləyən bir qadın çıxdı, onların ikisini də qucaqlayıb ağladı. O dedi:

– Oğullar, mən sizin ananızam!

O, öz oğlanlarını tacirin çadırına apardı və uzun söhbətdən sonra onlar elə orada yatdılar.

Səhər tacir geri qayıtdı və gördü ki, şahın qulluqçuları yatırlar, o padşahın yanına şikayətə gəldi. Padşah əmr etdi ki, öz qullarını və qadını onun yanına gətirsinlər. O, hər şeyi padşaha danışdı. Padşah elə onun birinci sözlərindən arvadını tanıdı. Padşah – onun əri və uşaqlarının atası olduğunu deyərək öz arvadını və uşaqlarını qucaqlayıb öpdü.

Bundan sonra padşah əmr etdi ki, taciri qovsunlar. O, arvadı və uşaqları ilə rifah içində yaşamağa başladı.

## 6. FƏRSİZ OĞUL

Bir varlı adam vardı. Onun çox sevdiyi bir oğlu vardı. Bu varlı adamın var-dövlətdən başqa üç möcüzəli əşyası var idi. Bunlardan biri papaq idi. Kim onu başına qoysa idi, gözəgörünməz olurdu. Biri tütək idi, onun səsi ilə adamlar onun ətrafına yığılır və "Ağa, nə əmr edərsən, biz sənin qulluğundayıq", - deyərək baş əyirdilər. O biri də torpağı qızıla çevirən torba idi.

Bu varlı adam ölərkən vəsiyyət etdi ki, onun oğluna sənət öyrətməsinlər, belə ki, ona çoxlu var-dövlət qoyub. O, fikirləşirdi ki, "Qoy oğlum zəhmətsiz, əziyyətsiz, öz kefində yesin, içsin və yaşasın.

Atasının ölümündən sonra oğlunun heç bir bacarığı olmamağı üzə çıxdı. O, həyatını şadyanalıqla və əyləncə ilə keçirirdi.

Həmin ölkədə bir padşah var idi. Bu padşahın gözəl, yaxşı şətrənc oynayan bir qızı var idi. O eşitdi ki, onların dövlətində üç möcüzəli əşyası olan gənc oğlan var və o, dama oynamağı xoşlayır.

Şahzadə qız atasından həmin gənc adamı evlərinə dəvət etməyi xahiş etdi. Gənc oğlan gözəl şahzadə qızı görcək ona vuruldu. Onlar dama oynamağa başladılar. Şahzadə qız dama oyununu daha yaxşı oynadığı üçün oğlanın bütün var-dövlətini möcüzəli torba və tütəklə bərabər uddu. Oğlana yalnız papaq qaldı. Sonra əmr etdi ki, kasıblamış gənc oğlanı qovsunlar.

Günlərin bir günü oğlan gözəgörünməz papağını başına qoyub gözəl şahzadə qıza baxmaq üçün padşahın evinə getdi. O, otağa girib gördü ki, padşah, padşahın arvadı və gözəl şahzadə qız oturublar və üçü də bir yerdə yemək yeyirlər. Oğlan da onların yanında oturdu və yemək yeməyə başladı. Onlar baxıb görürlər ki, üç nəfərdirlər, amma plovu isə dörd nəfər yeyir. Onlar nə qədər ətrafa baxsalar da, heç kimi görmədilər. Yemək yeyəndən sonra şahzadə qız yerindən qalxanda bilmədən gənc oğlanı itələdi. Buna görə də papaq onun başından düşdü. Onlar həm oğlanı, həm də papağı gördülər. Onda şahzadə qız oğlandan xahiş etdi ki, bu dəfə də dama oynasınlar. Onlar oynadılar və şahzadə qız papağı da uddu. Bundan sonra şahzadə qız yenə əmr etdi ki, oğlanı evdən qovsunlar. Bədbəxt gənc oğlan sonuncu xəzinəsini də itirib, acı-acı kədərlənməyə və ağlamağa başladı.

O, səyahətə çıxdı. Günlərin bir günü dərd-qəm içində yol gedərkən gəlib bir bağa çatdı. Baxıb gördülər ki, alma ağacında gözəl, al rəngli almalar sallanıb. Ac olan gənc oğlan əlini uzadıb bir alma dərdi və yedi. Birdən başında çox uzun iki buynuz çıxdı. O, ağlamağa başladı və əvvəlkindən daha çox qəmləndi: "Başına gələnlər az idimi? Budur, daha bir dərd, özü də hələ ən böyük dərd! Bu buynuzlarla o hara gedəcək?" O, birtəhər ağacın altından çıxa bildi və yoluna davam etdi, qarşısında qozalar olan başqa bir ağac gördü. O, bir qoza dərdi və yedi. Budur, onun qorxunc buynuzları qopdular. Yerə – ayaqları altına düşdülər. Gənc oğlan bu olana çox sevindi, öz-özünə fikirləşdi: "İndi mən

şaha və padşahın qızına əvəzini verərəm”, – deyib çoxlu alma və qoza dərdi və evinə gətirdi.

O, evində ən yaxşı almalardan seçib, padşahın qızına hədiyyə göndərdi. Padşah qızı ilə alma yeməyə başlarkən hər birinin başında iki buynuz çıxdı. Padşah bu qəribə hadisədən çox təəccübləndi və belə bir rüsvayçı bəzəkdən qurtulmaq üçün özünün bütün təbib və cərrahlarını çağırdı. Həkim və cərrahlar çox fikirləşdilər, çox götür-qoy etdilər, lakin heç bir şey edə bilmədilər. Onda gənc oğlan padşahın yanına gəldi və dedi ki, onları bu şərtlə sağaldar ki, qızını ona versin. Nə etməli, padşah qızını ona verdi. Oğlan onların hər birinə bir qoza verdi və onların buynuzları düşdü. Bundan sonra gənc oğlan padşahın qızından tütəyi aldı və onu çaldı. Hamı yığıldı və onu padşah seçdilər və beləliklə, padşahın məmləkəti və var-dövləti xoşbəxt gənc oğlana keçdi.

## 7. ALLAH PƏNAHINDA OLANA ZAVAL OLMAZ

Keçmiş vaxtlarda bir kasıb kişi, onun bir arvadı və balaca oğlu var idi. Bu kasıb adam hər gün meşəyə gedir, belində çırpı şələsi gətirir, onu satır, qazandığı pul ilə ailəsini saxlayırdı. Günlərin bir günü meşə ilə gedərkən yolda bir nəfər ona tuş oldu və xəbər aldı:

– Qoca, sən nə əldə etmək istəyərsən? Qanuni yolla, vicdanla qazanılmış bir manat, yoxsa qanunsuz yolla qazanılmış on manat?

Qoca cavab verdi ki, vicdanla qazanılmış bir manat, vicdansızlıqla qazanılmış on manatdan yaxşıdır.

Onda tanımadığı adam cibindən bir manatı çıxartdı və onu qocaya verdi. Sevinmiş kasıb adam geri qayıtdı və baZəhra yollandı. Gördü ki, burada bir Quş satırlar. O, özünün bir manatına həmin Quşu aldı ki, evə gətirib oğluna bağışlasın və onu sevindirsin.

Həmin gün onlar ac qaldılar, çünki qoca meşəyə gedib çırçırpı gətirib satmadı. Amma oğlan aclıq hiss etmədi. Çünki Quşu ilə çox məşğul idi.

Ertəsi gün səhər onlar gördülər ki, quş silkələndi və ağzından bir əşrəfi saldı. Kasıb ailə bu xoşbəxtliyə sevindi və Quş hər gün onlara bir əşrəfi bağışlayırdı. Sən demə, bu quş dövlət Quşu, yəni xoşbəxtlik və var-dövlət quşu imiş. Kasıblar var-

dövlət sahibi oldular və ehtiyac nə olduğunu bilmədilər. Bir müddət keçdikdən sonra qoca arvadını və oğlunu qoyub öldü. Günlərin bir günü ana baZəhra şey-şüy almağa getdi. O, orada gənc bir adamla qarşılaşdı, həmin adama ürəkdən vuruldu. O, gənc adamı evinə dəvət etdi və onu almağı təklif etdi. Həmin adama dövlət Quşunu da göstərdi. Dedi ki, bu Quş hər gün onlara bir əşrəfi verir. Gənc oğlan dostu dərvişin yanına getdi və möcüzəli Quşdan ona danışdı. Dərviş ona dedi ki, kim bu Quşun başın yesə, padşah olacaq. Aşiq olmuş arvad yenə gənc oğlanın yanına getdi. Oğlan arvada dedi ki, o Quşu kəsib ona yedirtməsə, onunla evlənməyəcək. Ağlını itirmiş arvad Quşu kəsdi, bişirib qonağı gözləməyə başladı. Oğlu məktəbdən qayıtdı, gördü ki, Quşu kəsiblər, ağlamağa başladı. Bu vaxt evdə olan, oğlanı çox istəyən qonşu − keçmiş qoca dayəsi anadan israrla tələb etdi ki, Quşun ətindən ona bir az versin ki, uşaq sakitləşsin. Amma anası tam etiraz etdi və ona heç bir şey vermədi. Onda qoca arvad Quşun bir tərəfə tullanmış kəsilmiş başını tapdı, onu odun üstündə bişirib oğlana verdi. Oğlu başı yedi və sakitləşdi.

Qonaq gəldi, arvad Quşu gətirib masanın üstünə qoydu.

Qonaq xəbər aldı:

– Baş hardadır?

Arvad cavab verdi:

– Başı oğlana verdik, çünki Quş üçün çox ağlayırdı.

Gənc adam bu sözləri eşidib ayağa qalxdı, onunla evlənmək istəmədiyini deyib çıxıb getdi.

Ertəsi gün arvad onun yanına getdi ki, imtina etməsinin səbəbini öyrənsin. Gənc adam dedi ki, əgər Quşun başını yemış oğlunun başını kəsməsə, heç vaxt onunla evlənməyəcək. Gənc adama olan məhəbbətindən kor olmuş ana iblisin sözünə əməl etdi. O, özünün tək oğlunun başını kəsmək qərarına gəldi. Dayə ananın niyyətini başa düşdü, uşağı oğurladı, onunla qaçıb başqa ölkəyə getdi. Ağılsız arvad həm öz oğlundan, həm də sevdiyi gənc adamdan, əziz Quşdan məhrum oldu.

Bu arada qarı ilə oğlan bir şəhərə gəlib çatdılar. O, burada bir bağbanın yanında işləməyə başladı. Onlar oğlan böyüyüb

boya-başa çatana, güclü və ağıllı gənc oğlan olana kimi burada yaşadılar.

Bir dəfə bu şəhərə sərrast oxatan olan bir pəhləvan gəldi. Amma onun yayı o qədər möhkəm idi ki, özündən başqa heç kim onu çəkə bilmirdi. Bu pəhləvan oradakı padşaha müraciət edib dedi:

– Kim mənim yayımı çəkə bilsə, mən ona min manat verəcəyəm. Əgər heç kim onu çəkə bilməsə, mən şəhərdən on min manat istəyəcəm.

Onda padşah şəhərin bütün qolu qüvvətlilərini yığdı, amma onlardan heç kim yayı çəkə bilmədi. Bağbanın qulluqçusu padşaha dedi ki, o, yayı çəkə bilər. Padşah gənc oğlana baxdı və ona inanmadı, çünki o, hələ çox gənc idi. Amma gənc adam ona dedi ki, o, yay çəkə bilər və bunun qarşılığında özü üçün heç bir şey istəmir. O, bunu uzun illər öz çörəyi ilə yedirən və içirən şəhər üçün, həm də yadelli lovğanın təkəbbürünü azaltmaq üçün edir. Padşah ona yarışmağa icazə verdi. Bütün şəhər meydanda toplandı. Pəhləvan öz yay və oxunu ona verdi. Gənc oğlan onu elə güclə çəkdi ki, yay da, ox da parça-parça olub, hər tərəfə uçub dağıldı. Pəhləvan pərt oldu və çıxıb getdi. Bundan sonra bağbanın qulluqçusu padşahın sevimlisi oldu. Padşah onu öz yanına köçürdü və o, sarayda yaşamağa başladı.

Bir müddət keçdi. Bir gün padşaha xəbər verirlər ki, bir nəhəng peyda olub, onun torpaqlarında hər şeyi dağıdıb məhv edərək şəhərə gəlir. Bu xəbər padşahın qanını qaraltdı, o dedi ki, kim onun təbəələrini bu nəhəngdən qurtarsa, öz qızını ona verəcək. Padşahın sevimlisi − bağbanın keçmiş qulluqçusu dedi ki, nəhəngin qabağına çıxmaq istəyir. Amma padşahın ona yazığı gəldi. Dedi ki, o, hələ çox gəncdir. Fəlakətlə bacara bilməz və məhv olar, bu halda onun qohumları narazı qalarlar. Gənc oğlan padşaha heç bir qohumu olmadığını dedi. Əgər o, nəhənglə döyüşdə ölsə, heç kim padşahdan narazılıq etməyəcək. O, padşaha yazılı şəhadətnamə (vəsiqə) verdi və bunun əvəzində padşahdan öhdəlik aldı ki, əgər o, nəhəngə qalib gəlsə, padşah öz qızını ona ərə verəcək. Gənc oğlan padşahdan onun kəhər

atını, xəzinədəki zəhərli qılıncını istədi. Bütün bunlar onun ixtiyarına verildi.

Padşah iyirmi minlik qoşunu, arvadını və qızını özü ilə götürüb, öz sevimlisinin nəhənglə döyüşünə baxmağa yola düşdü. Bir qədər vaxt keçdikdən sonra onlar gördülər ki, nəhəng onlara tərəf gəlir. Onda gənc oğlan onun qarşısına keçdi, atını nəhəngə tərəf sürərək ox atdı. Nəhəng çaşqınlığa düşdü. Dəliqanlı çaparaq ona yaxınlaşdı və gördü ki, ox onun sağ gözünü çıxartmışdır. O, atın belindən tez sıçrayıb yerə endi, nəhəngin başını kəsdi və bunu qorxudan ona yaxınlaşa bilməyən qoşuna bildirdi. Qalib nəhəngin başını dörd atla padşaha göndərdi. Padşah onu görüb Allaha şükür etdi. Dövlət böyük bəladan qurtulduğu üçün kasıblara çoxlu pullar paylandı, çoxlu qurbanlar kəsildi. Hamı gənc oğlanın cəsarət və igidliyini tərif etməyə başladı. Padşah isə ona bahalı libas bağışladı. Sonra o, öz vəzir və başqa əyanlarını yığıb onlara dedi ki, sözləşməyə görə öz qızını gənc oğlana ərə verməlidir. Hamı padşahın qərarını bəyəndi və toya hazırlaşmağa başladılar. Bu arada padşahın münəccimi dedi ki, bu adam nə vaxtsa, dövlət Quşunun başını yeyib və o, padşah olacaq. Möhtəşəm toy etdilər və padşahın qızını gənc oğlana ərə verdilər. Bundan sonra padşah öz təbəələrini yığıb onlara dedi:

- Mənim oğlum yoxdur, özüm də qocalmışam, öz vəzifələrimin öhdəsindən gələ bilmirəm. Bu gənc oğlan − mənim kürəkənim nəhəngi öldürdü və sizin hamınızı ondan qurtardı. Mən istəyirəm onu öz yerimə padşah təyin edəm. Buna razı olun!

Hamı razı oldu və gənc oğlan padşah oldu.

Bir neçə müddətdən sonra padşah anasını və onun aşiqini tapdı. Anası öz oğlunu tanıyıb üzr istədi, onun oynaşını isə asdılar.

***Nuxa rus-tatar sünnü məktəbinin müəllimi***
***S.Əbdürrəhman***

## 41- ci buraxılış, 1910-cu il

## KÖÇƏRLİNSKİ F.B.

## "SAYAÇI" NƏĞMƏLƏRİ

Saya fars dilində kölgə deməkdir, məcazi mənada "saya" himəyədarlıq, müdafiə məfhumlarını (anlamalarını) bildirməkdədir. Zaqafqaziya tatarları bu sözü nifak, nemət, yaxşılıq mənalarında işlədirlər, buradan da "Saya el" – nemət gətirən, bərəkətli deməkdir. Sayaçı yalnız gəzən (səyyar) nəğməkar-aşıq və ya İmam Əlini və onun şanlı nəslini tərif edən dərviş deyildir. Sayaçı - adi köçəri, tərəkəmədir. O, daha çox payızın sonunda və qışda ev-ev gəzir, ev heyvanlarının qədir-qiymətini tərənnüm edir. Buna görə də yağ, pendir, un, buğda, düyü və s. alır. Sayaçı nəğməsindən tərəkəmələrlə (köçərilərlə) onların heyvanları arasında sıx əlaqənin mövcudluğu, onların necə bir sevgi və incə duyğularla öz qoyun və keçilərinə münasibət bəslədikləri, bu heyvanlardan hər birinin xarakterik cəhətlərinin nə qədər dəqiq olduğu, inəyin, camışın, dəvənin nə qədər dəqiq təsvir edilməsi görünməkdədir. Tərəkəmənin qoyunlara olan münasibətləri incə və riqqətlidir (həyəcanlandırır). Sayaçı qoyuna nəvazişli sözlərlə müraciət edir: "Nənəm, qoyunun qarası", "Nənəm, a şişək qoyun"! Sayaçı nəğmələri başlıca olaraq İrəvan və Yelizavetpol quberniyalarında və əhalisinin qoyunçuluqla məşğul olduqları Bakı quberniyasının qəzalarında oxunur. Nəğmə "Salam"la başlayır.

Salam əleyk, say bəglər,
Bir-birindən yey bəglər.
Saya gəldi gördünüz,
Salam verdi aldınız.
Alnı təpəl qoç quzu,
Sayaçıya verdiniz.

Siz sayadan qorxmusunuz,
Səfa yurda qonmusunuz.
Səfa olsun yurdunuz!
Ulamasın qurdunuz!
Ac getsin avanınız!
Tox gəlsin cavanınız!

Bu saya yaxşı saya.
Hamıya xeyirli saya.
Həmi çeşməyə, həmi çaya,
Həmi ülkərə, həmi aya,
Həmi yoxsula, həmi baya!

Bu saya kimdən qaldı?
Adəm atadan qaldı!

Adəm ata gələndə,
Qızıl öküz duranda,77
Qızıl buğda bitəndə,
Dünya bünyad olanda,
Musa çoban olanda78
Şişligimiz üyəcdir!

Onun dərdi uludur!
Aşıqlığı qurudur.
Ovçası qiymətlidir.
Qabırğası dadlıdır.
Qabırğa içində pərdə
Pərdə iki iyrəngdir (rəngdir)
Böyrək ona dirəkdir.
Altmış arşın bağırsaq,
Bir-birinə ulqaşaq.

Əzəl atasın deyim,
Sonra anasın deyim.
Yeyər, yeyər gərnəsi,
Alnın vurar döyüsü.
Buynuzu var burma-burma,
Yunu var yerdən sürümə
Zinhar qoyunu vurma

Qoyunsuz yerdə durma!
Qoyunlu evlər gördüm
Qurulu yaya bənzər.

Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.

Qoyun kərə gəzər.
Qoyun var kürə gəzər79
Gedər dağları gəzər,
Gələr evləri bəzər.

Kərəsidir qoyunun,
Kürəsidir qoyunun.
Aclığımızdan gəzərik
Yörəsidi qoyunun.

Nənəm qoyunun qarası
Qırxlığı polad parası.
Yüz günü dələməsi
Payızda körəməsi
Qız günü qovurması!

Nənəm a şişək qoyun,
Yunu bir döşək qoyun,
Bulamanı tez yetir[80]
Bulamanı bol eylə
Qırıldı uşaq qoyun.

Nənəm qumral tat qoyun,
İldən-ilə art, qoyun.
Balaların ölməkdədir,
Ölmə gəl, namərd qoyun!

---

[77] Müsəlmanların etiqadına görə, yer kürəsi qızıl öküzün üstündə durur.
[78] Musa peyğəmbər olanadək 8 il müddətində Şuqaib peyğəmbərin Madidam torpağında qoyun sürüsünü otarmışdır, zəhmət haqqı olaraq peyğəmbərin böyük qızı Sepfora ilə evlənmişdir.

[79] "Kərə", "Kürə" – qoyun cinsləridir
[80] O yağ – qoyunların çox sevdiyi xüsusi otdur. Bu səbəbdən deyirlər ki, ağ qoyun "o qıynağı biçər"-yəni özündən sonra bir şey buraxmayıb hamısını yeyər.

Nənəm, a saçaq qoyun!
Bərədən qaçaq qoyun[81]
Sənə yaman baxanın
Gözünə pıçaq, qoyun!

Nənəm, a kürdü qoyun!
Otdadı durdu qoyun.
Ay qaranlıq gecədə
Ayağın yerə döyər,
Görübdür qurdu qoyun.

Nənəm, o narış qoyun!
Yunu bir qarış qoyun
Çoban səndən küsübdür,
Sütü ver, barış, qoyun.

Nənəm, göycə qoyun!
Gedən öycə qoyun.
Yeyən sənin öcündən,
Dolanım bəycə qoyun.

Göydən göy buludlar,
Yorğanıdır çobanın!
Yastı-yastı təpələr,
Yastığıdı çobanın!
Yumru-yumru qayalar
Yorğanıdır çobanın!

Əlindəki dəgənək,
Qalxanıdır çobanın!
Yanındakı boz köpək,
Yoldaşıdır çobanın!

[81] Çobanın dərdi təkcə gəlinlərin qaymaq, qayğanaq yeyib, ona bir şey verməmələrində deyil, onun dərdi, bu gözəl gəlinləri sevməyindədi, onlar isə ona diqqət yetirmirlər.

Ağzıqara canavar,
Düşmənidir çobanın!

Nənəm, qoyunun ağı!
Gedər dolanar dağı,
Biçər qara qıyağı[82]
İçər sərin bulağı,
Qarılar tutar yağı.
Gəlinlər yeyər qaymağı.
İllah ki qayğanağı.
Çobana vurar dağı
Qızlara cehiz ağı
Çobana çarıq bağı.
Uşağa sütük bağı.

Nənəm, boz ala qoyun!
Yolda süz ala qoyun.
Yeyək sənin oxacından
Gətirir qız ala qoyun.

Nənəm, a gəlin qoyun!
Quzuna təlin qoyun.
Yiyən sənin ucundan
Gətirir gəlin qoyun!

Nənəm, a qəmər qoyun!
Quzu səni əmər qoyun.
Yiyən sənin ucundan
Bağlayıb kəmər qoyun!

Nənəm, a qaşqa qoyun!
Minmisən eşqə qoyun
Yiyən sənin ucundan
Çıxıbdır köşkə qoyun!

[82] Qıyağ- qoyunların çox sevdiyi çöl otudur.

Nənəm, a qızıl qoyun!
Yollara düzül qoyun
Şüleyibdən qalmısan
Qalasan yüz il qoyun!

Nənəm, a şəkil qoyun!
Belində kəkil qoyun.
Ay qaranlıq gecədə,
Arxaca çəkil qoyun!

Nənəm, ağ qaraqaş qoyun!
Qarlı dağlar aş qoyun.
Ay qaranlıq gecədə,
Çobana yoldaş qoyun!

Nənəm qoyunun gəlini!
Avşara gəlməzə yelini![83]
Şor əkindən götürdüm
dölünü.
Onu sağan qız-gəlinin,
Xınalıyım əllərini!
Nənəm qoyunun uzunu!
Döşündə bələr quzunu
Sağına yatar buralar
Əli çanaqlı qızlar
Qoyunun yolunu gözlər!

Çoban qoyunu gətirəsi,
Bərəyə ötürəsi
Ağbiləkli gəlinlər
Sağam, sağam deyəsi
Buluyum, buluyum deyəsi

Bu, oğlumun deyəsi,
Bu, qızımın deyəsi

[83] Yəni yelini südlə doludur.

Sarı suyu qalanda,
Boz köpəyə tökəsi
Ucu yanıq kösöv ilə
Boz köpəyi döyəsi
Canam[84] başlı boz köpək
Bəri qoyuna deyəsi!

Xırdaca-xırdaca qızlar
Əlləri xınalı qızlar.
Əllərində çanaqlar
Bərənin yolunu gözlər.

Xırdaca-xırdaca çəpişlər,
Yavşanın başını dişlər.
Gedər yaylağı yaylar,
Gələr kərmədə qızlar.

Qoyun deyər: “Mən heç
otdan doymaram,
Payız oldu çörün-çöpün
qoymaram.
Hər evi mən yunum ilə
bəzərəm.
Ağır-ağır xalılarım var
mənim.
Güllü- güllü xalçalarım var
mənim”.

Nənəm, a tatar keçi![85]
Qayada yatar keçi.

[84] Canam müəllif bu sözün əzizlənmə mənasında işləndiyini göstərir.
[85] Tatar keçi məşhur keçi cinsidir. Ehtimala görə, bu cins öz mənşəyini Orta Asiya, Tatarıstandan götürür. Buna görə də tatar keçi adlanır.

Qışı o bərk gələndə,
Balanı atar keçi!

Nənəm o xallı keçi!
Məməsi ballı keçi,
Ayağı nallı keçi,
Uca qaya başında,
Dutubdu yallı keçi!

Keçi deyər: "Mənim adım
Əbdülkərimdir[86]
Qavala çəkilən dəri mənim
dərimdir.
Şeytan-şeytan balalarım var
mənim,
Qəlbi-qəlbi qayalarım var
mənim".

Camış deyər: "Payız olcaq
samanlığı doldurun.
Cütə getməsəm, vurun məni
öldürün.
Dolu-dolu samanlıqlarım
var mənim.
Dərin – dərin dəryalarım var
mənim[87]

Öküz deyər: "Mən ağama
nökərəm,
Üç ay qız tövləsində
bekaram.
Yaz olanda çayır, çəmən
sökərəm
Ağlı, qırmızılı buğda
əkərəm.
Ağır-ağır xırmanlarım var
mənim,
Uca-uca tayalarım var
mənim".

İnək deyər: "Mən doğanda
mələrəm,
Ahım ilə dağı, daşı dələrəm.
Qurudumu gündən-günə
sərərəm.
Yaxşı-yaxşı kərələrim var
mənim!"

Eşşək deyər: "Mən hamıdan
fağıram,
Palçığa düşəndə uca dağdan
ağıram.
Çöllərə düşəndə mən
yiyəmi çağırram
Kərənaydan yoğun səsim
var mənim!"

Dəvə deyər: "Heç heyvan
götürməz mənim yükümü
İgid oğlan gərək çəkə ipimi.
Ərəbistan içər mənim sütümü.
Uzaq-uzaq məzillərim var
mənim,
Uca-uca dəyələrim var
mənim!"

---

[86] Belə məzmunlu bir tatar atalar sözü vardır: Qoyunun olmadığı yerdə keçini Əbdülkərim adlandırırlar. Bu ad keçiyə xüsusi dəyər verir.
[87] Camışların, xüsusən də isti havada suda dincəlməyi çox sevdiklərini nəzərə alıb, ilk vaxtlar suda yaşadıqları ehtimal edilir.

Qoyunun özü gəldi.
Dolandı düzü, gəldi.
Çobanın qucağında,
Bircə cüt quzu gəldi.

Can quzu, canım quzu!
Tükü qırmızı quzu
Əbrişim telli quzu
Biri bəgin, ağanın olsun,
Biri də çobanın haqqı,
Üzün ağ olsun, çoban!

Bayrama nə qaldı?
Nə qaldı, nə qalmadı?
Bir əllicə gün qaldı!

Əllicə günü say otur,
Qarmala quzu götür![88]

Əlli günü keçəsi
Sağmal subay seçəsi.
Sayan[89] yağış yağası
Sarmaşıq ot bitəsi,
Quzu tələkə dutası,
Ovlaq irtmək atası.

Kürəsin, ağından
Öldürmüsüz çağından!
Qoyun nədən hasil oldu?
Kimiya[90] yarpağından.

Bizə də gətirin,
Qovurmasından, yağından!

Yağ verənin oğlu olsun
Doğduğu oğlan olsun

Yarma verənin qızı olsun
Qızı da qotur olsun.
Qoturuna qurd düşsün.
Qurundan Quş tapılmasın.

Qısa-qısa gələnin
Qanacağı dar olsun
Basa-basa gələnin
Basmacağı bərk olsun,
Bərəkəti bol olsun,
Sizin də damağınız çağ olsun!

Məhəmməd peyğəmbərin
eşqinə,
Məhəmməd peyğəmbərin
şəninə,
Bir salavat!

[88] Yəni 50 gündən sonra Novruz bayramına cavan quzular olacaq.
[89] Sayan yağışları deyəndə aprel yağışları nəzərdə tutulur. Bu yağışa həm də neysan yağışı deyilir.

[90] Bir çox müsəlmanların xüsusilə sadə xalqın təsəvvürlərinə görə "Kimiya"toxunduğu hər şeyi qızıla çevirə bilmək qabiliyyətinə malik bitkidir. Kimya elminin adı da bu sözdən götürülmüşdür.

## VALEHİN NƏĞMƏSİ

Cahar ənasirdən, səs cəhətdən,
Bir qətrə mənyidən olmusuz peyda
Ədəm (Adam) dəryasında qaldım altı gün
Qüdrəti-qadir, xəliqil-əsya.

Rəhm içində əvvəl bünyad oldu dil
İki nöqtə gözüm oldu müqabil.
Bir dırnağ, bir cigər oldu hasil.
Doqquz gündə təmam oldu bu əza.

Doqquzdan, qırxdan cismi oldu qan.
İki qırxda ruhum dondu aşıyan.
Üç qırxda dirilib tərpəndi hər yan
Lərzə verdi cismim hər tərəf, hər yan.

Bir mülkə qadir eylədi təqdir.
Üç yüz altmış damar olundu təzhir.
Dört yüz qırx dört sümük illədi təmir
Məvayi-Tarında memari-qəza.

Doqquz ay bətndə mən durdum qərar,
Doqquz günə saat çəkdim intizar.
Doqquz dəqiqədə gəldim aşikar
Bildim ki, qadirdir Vahidil-yekta!

Düşdüm din üstünə imanə möhkəm
Neçə əhli-ünas oldu onda cəm.
Cismin nəməkləndi, mən oldum adəm
Adımı qoydular, "Şəfi Hüveyda".

Bir yaşında oldum beşikdə süvar
Ana sütünü əmmək eylədim şüar
İki yaşda sütdən kəsildi mədar
Üç yaşımda əql qıldım ibtida.

Dört yaşa yetəndə gəzdim biüsul
Beş yaşda calındı sünnəti-rəsul.

Səkkizdə hecamı oxudum savad
Doqquzda rəvana eylədim möhtad,
On yaşa yetəndə şam bamdad.
Zikr oldu dilimdə övsati-Mövla

On birdə dərsimi eylədim tamam.
Dildə əzbər oldu: "peyğəmbər, imam"
On iki yaşında oldum xoş kəlam
Sevildim, hər tərəf oldum dilgüsa!

On üç yaşda oldum laleyi-həmra
On dört yaşda misli-mahi-ziya
On beş yaşda oldum bəndeyi -Xuda
Fərz sünnətimi eylədim əda.

On altıda oldum xoş qaməti-qədd
Səfhey-rüsxarədə mehman oldu xətt
On yeddi yaşımda buldum nami-zad
Əl-qissə ixtiyar etdim kədxuda.

On səkkizdə isrət eylədim təmam
On doqquzda gördüm hər mətləb və kam
İgirmidə mənə xoş keçdi əyyam
Neçə övlad mənə Həqq gördü rəva.

Otuz yaşda oldum bir seyli-bahar
Başda eşq əsəri, həm leylü-nahar
Qırx yaşımda oldum talibi-didar
Dağıldı başımdan eşqü-sevda.

Bir özgə xəyala düşdüm ol zaman
Gördüm ki, sevdamdan qılmışam ziyan
Bifəva dünyaya sərf etmişəm can.
Bir mətahım yoxdu əz-bəhrü-üqba.

Ondan sonra zikr eylədim ruzi-şəb
Şirin cana verdim çox rəncü təb

Mömünlər arasında oldum müntəxəb
Əluqi-dəhrdən pak və məərra.

Əlli yaşdasan bərgədikdən asdım
Altmış yaşda əhli-iyaldan qaçdım
Yetmiş yaşa yetdim, taqətdən düşdüm.
Oldum bir suyu solmuş asya!

Səksən yaşa yetdim qalmadı imdad,
Doxsan yaşda tutdu əlimdən irşad
Yüz yaşa yetəndə gəldi bir cəllad
Dedi: “Həza yövmil-əxirid-dünya!

Çəkdi cəngəlini saldı əzayə
Tamam cəsədim düşdü lərzayə
Aldı mürgi-ruhum çəkdi səmayə
Cismim qəfəs kimi qaldı müqəvva.

El yığılıb ağladılar bir zaman
Məni bir təxt üstə qoydular həman
Mürdəşirlər mənə verməzlər aman
Rəxti-vücudumu qıldılar yəğma!

Verdilər qüsulumu pak oldu bədən
Təni-üryanıma dutdular kəfən
Qıldılar namazım növrəs və kəfən.
Məni qəbr içində qoydular tənha.

Məni qəbr içində qoydular əfrad
Hər kəs öz məqamın eylədilər yad
Dünya cəfasından əlimdə bir zad
Əmalımdan qeyri qalmadı əsla.

Mənkir Nəkir məndən aldılar xəbər
Çəkdilər üstümə həm tiği təbər
Nitqim batdı, dilim dutmadı əzbər
Cəsədimə doldu həm xofi-pərva.
Çağırdım ya Əli halalı-müşkül
Ürək qüvvət tapdı güsad oldu dil

Cavabım suala oldu müqabil
Müraciət etdi mərsuli-xuda

Neçə min il dutdum qəbr içrə qərar
Qiyamət qopmağa çəkdim intizar
Bir gün əmr eylədi vahidil-qəhhar
Ruzi-qiyamətdir gövmil-intiha.

Əmr olundu İsrafilə çalındı sur
Xəbərdar eylədi: “Ey əhli-qubur
Qum, biizmillah və əddi-nişvar!
Təmam əmvatı eylədi ihya.

Məsriqdən məğribə yüz dutduq Şama
Hər kəsin əmalı əlində namə
Adili divan orda yetdi təmamə
Onda fərq olmadı Sultandan gəda!

Bir həşri-nəşr qopdu onda, ey xuda
Gün təpədən yaxdı, yer döndü oda
Oğul atadan, qız anadan cida
Təmam məhşər əhli dedi: “Va Ənfəsa!”

Təmam məhşər əhli səf-səf durdular
Həqq buyurdu onda mizan qurdular
Cəhənnəmin atəşini gördülər
Düşdü o aləmə suriş və qovğa.

“Va ümməti” dedi həzrəti-rəsul
Onun iltimasın Həqq etdi qəbul
Çünki keçdik Siratı, olmadıq məlul
Cümlə xətalardan biz olduq rəha.

Haqdı əmalımız, dəgildi saleh
İslam barəsində işlədi tale
Bir neçə həmdəm ilə şikəstə Valeh
Məskənimiz oldu cənnətil-məva!

## 42-ci buraxılış, 1912-ci il

## VOSTRİKOV P.

## AZƏRBAYCAN TATARLARININ MUSİQİSİ VƏ NƏĞMƏSİ

P.Vostrikovun yuxarıda adı çəkilən məqaləsinin başlığından göründüyü kimi, o, geniş mənada Azərbaycan türklərinin xalq musiqisinə və poetik yaradıcılığına həsr edilmişdir. Məqalələr ilə tanışlıqdan onun “Musiqi alətləri”, “Tatar rəqsləri”, “Tatar nəğməsi”, “Sazandalar və aşıqlar” yarımbaşlıqlardan ibarət olduğu məlum olur. Məqalədə Azərbaycan mədəniyyəti ilə bağlı diqqətcəkən maraqlı məlumatlar, müşahidə və dəyərləndirmələr vardır. Məqalənin sonunda “Tirmə şal”, “Canlar içində ay canum sənindür”, “Evlərinin altı qaya”, “Rüstəm” və s. kimi on Azərbaycan xalq nəğməsinin mətnləri verilmişdir.

Müəllif məqalənin “Tatar nəğməsi”, “Sazandalar və Aşıqlar” başlıqlı yarımfəslində nəğmələrin yaranma şəraiti ilə bağlı bəzi fikirlərini bildirmişdir.

Azərbaycan əhalisinin əsas etibarilə məskunlaşdığı Qarabağda və Yelisavetpol quberniyasının müxtəlif yerlərində ifa edilən nəğmələr fars nəğmələrinin təsiri altında yaranmışdır. Bütün tatar nəğmələri adətən yeni dildə sazandalar və aşıqlar adlanan xüsusi peşəkar müğənnilər tərəfindən ifa edilir.

“Sazandalar və aşıqlar” öz mahnılarını tar, kamanca, saz, ney, dəf, qavalvə zurna kimi musiqi alətləri ilə müşayiət edirlər.

Saz − bes simli bu musiqi aləti tatar müğənnisi – aşıqlar arasında çox geniş yayılmışdır.

Saz özünün sadə quruluşu ilə tarı xatırladır, saz öz həcminə, böyüklüyünə görə tardan kiçikdir[91]. Buna qarşı əldəqayırma mandalina necə də xoş (gözəl), incə səslər çıxardır! Burada necə (gözəl), (qəribə) pianissimo vardır. Səslərin necə də harmoniyası vardır!! Necə akkordlar vardır. Melodiyalar (havalar, ahənglər)

[91] Ehtimal ki, müəllif burada cürə sazını nəzərdə tutur.

könüloxşayan, başdan çıxardandır, bu isə ifaçının bacarığı deyil, alətin özünün özəlliyidir. Sazda mürəkkəb musiqi və rəqslər ifa etmirlər. Bu alət əsasən müşayiət alətidir.

Xalq nəğməkarları – aşıqlar sazı çox sevirlər və onu sədəf və ya fil sümüyündən lövhəciklərlə bəzəyirlər.

Çalğıçılar və aşıqlar başda olmaqla sadalanan xalq musiqi alətlərindən iki tip Asiya orkestri təşkil edilir. Bu tip orkestrlərdən birinin musiqiçiləri sazandalar, digəri isə aşıqlar adlandırılır.

Aşıqlara adətən kəndlərdə rast gəlinir. Aşıqlar xalqın öz içindən çıxmış sənətkarlardır. Asıqların (musiqiçilərin) sayı iki nəfərdən az olmur. Onlardan biri saz çalır və oxuyur, o biri isə dəfdə (qavalda) müşayiət edir. Bəzən isə əllərində saz olan iki mütəxəssis aşıq olur, onlar növbə ilə oxuyur, çalır, yarışırlar. Bəzən aşıqlardan ibarət olan orkestr zurnadan, ney və dəfdən (qavaldan), bəzən isə kamançadan, sazdan, dəfdən və s. ibarət olur. Həm aşıqların, həm də sazandaların xoru müğənnisiz keçinmir.

Aşıqlar Zaqafqaziya diyarının kəndlərində böyük hörmət və ehtiram sahibidirlər. Sazandalar isə şəhərlərdə belə hörmət və ehtiram sahibidirlər.

İndi isə bir neçə söz "Sazandalar və aşıqlar" haqqında deyəcəyəm. Sazandalar və aşıqlar xalq nəğməkarları və musiqiçiləridir. Onlar bir çox yöndən malorosların kobzarlarına bənzəyirlər. Sazandalar və aşıqlar kobzarlar kimi öz ifalarını bir çox hallarda simli telli musiqi alətlərinin müşayəti ilə icra edirlər. Aşıqlar xüsusi olaraq maraq doğururlar. Belə sanılır ki, aşıqlıq Qafqaz da Ərəbistandan gəlmişdir, o, müsəlman dünyasında möhkəmlənmiş və böyük dərəcədə yayılmışdır. Bəzən əhalisi təqribən başdan-ayağa aşıq olan kəndlərə rast gəlinir. Bu məişət hadisəsi xüsusi ilə Yelizavetpol və İrəvan quberniyalarında geniş yayılmaqdadır, onlar aşıqlığı özlərinə peşə etmişlər. Aşıqlar kənddən-kəndə gəzərək özlərinin musiqi alətlərində çalır, fars və tatar bəndləri oxuyurlar. Aşıqların nəğmələri son dərəcə müxtəlif xarakterdədir. Burada sevgi, məişət, Zəhrafat, elmi məzmunlu və nəsihətverici nəğmələr vardır. Bundan əlavə hər aşığın bir çox hallarda erotik, aşiqanə məzmunlu çox böyük şeir ehtiyatı vardır. Aşığ haqqında bu tatar

atalar sözü boş yerə deyilmir: Aşığın oxumaq üçün sözü qurtaranda "ey sevgilim!" deyir: Aşıqlar öz şeirlərini "muğamat" havaları və xalq havaları altında oxuyur. Bəzən bütöv poemaları şeirlə söyləyir. Aşıq bir növ improvizator xalq nəğməkarıdır.

Azərbaycanlılar aşıq haqqında deyirlər. "Aşıq gördüyün çağırır". Aşıq uzun nəğmələr oxuyarkən oxumağını arada hekayətlər danışmaqla kəsir. Bu hekayətlər hərdənbir nəğmə oxumaqla və musiqi alətinin, bir çox hallarda sazın yüngül akkordları ilə müşayiət edilir. Bəzən aşıqlar öz nəğmə və hekayələrinə ara verib, söhbətlərini musiqi alətlərində ifa etməklə davam edirlər.

Aşıqlar nəğmələri tatar dilində, nadir hallarda isə fars dilində oxuyurlar. Onların öz nəğmələrində tərənnüm etdikləri qəhrəmanların adları da tatar və ya ərəb adları, musiqi də şərq musiqisidir. Aşıqların bütün nəğmə və improvizasiyaları muğamat və həmçinin xalq havaları üstündədir. Ümumiyyətlə, aşıq coşğun müğənnidir.

Aşıq öz nəğmələrində əcdadlarının tarixi igidliklərindən danışır, qəhrəmanları, Allahı, insanları tərənnüm edir, müqəddəs Kitabı şərh edir, öyüd-nəsihət verir və öyrədir. Xalq nəğməkar-şairləri tərəfindən söylənilən nəğmələr arasında iştirakçı şəxslərin dialoq şəklində təqdim edilmiş səhnə növbələşməsi ilə baş tutan nəğmələr vardır. Bir neçə aşıq kənd meydanına gəlir, musiqi alətlərinin müşayiəti ilə nəğmələr oxuyurlar, belə ki, bəzi nəğmələrə suallar, digərlərinə isə cavablar təşkil edirlər və bütün bunlar aşıqlar tərəfindən improvizasiya şəklində icra edilir. Dinləyicilərdən hər biri aldıqları həzz müqabilində öz imkanı daxilində aşıqlara pul verirlər.

Aşıqları mənəvi cəhətdən son dərəcə özünü sevən, paxıl, şöhrətpərəst adamlar kimi təsvir etmək olar. Hər aşıq öz məşğuliyyətini sevir, xalq nəğmələri bilməyini, onları tarın, sazın və kamançanın müşayiəti ilə səslə canlı ötürülməsini qiymətləndirir. Əgər digər aşıq nəğmə oxumaq qabiliyyətinə, xalqın marağını çəkmək bacarığına görə ondan üstün olursa, öz peşəsi üzrə rəqibini görməyə gözü yoxdur. O, özündən yuxarıda duran aşığın varlığına dözmür, onun həsədi (paxıllığı) bir hədd tanımır.

Aşıq öz məşğuliyyəti ilə fəxr edir, özündəki bəlağət vergisini qiymətləndirir və bu verginin tapdanılması zaman intiqam alar.

Müxtəlif yerlərin, müxtəlif kəndlərin aşıqları bəzən öz aralarında yarışlar təşkil edirlər və bu yarışlar nadir hallarda ölüm hadisəsiz (qətllərsiz) bitmir. Aşıqların yarışları ondan ibarətdir ki, onlar çoxsaylı xalqın iştirakı ilə bir-birlərini təhqir edirlər.

Bir aşıq digərini hər hansı bir biabırçı, acı, toxunan sözlə təhqir edir. Bu acı sözü şeir şəklində və ya musiqi alətinin müşayiəti ilə nəğmə oxumaqla ifadə edir.

Digər aşıq isə qafiyəyə hər cür riayət edərək o da birincini musiqinin müşayiəti ilə nəğmə oxuyaraq təhqir edir. Əgər aşıqlardan biri qafiyələri, bədahətən digərinin acı, tənəli sözlərinə uyğunlaşdırmamışsa, məğlub sayılır. Axırıncının kamança və ya sazı qalibə çatır.

Bu arada sadə xalq bütün asıqları çox sevir, onlara gah pul, gah da mal, məhsul bağışlayır. Bəd bir hadisə baş verdikdə aşıq xalqda təskinlik tapır, o, ağıya bənzər qüssəli nəğmələr ifa edir. Xalq onun qüssəsinə, kədərinə şərik olur və ona təskinlik verir.

Aşıq, naçar ağlama!
Dərdin keçər ağlama!
Qapın bağlayan fələk,
Həlbət açar ağlama.

Çox hallarda aşıqlar xalq aşığı vergisini Allahdan almış bir müğənni, nəğməkar kimi təsəvvür edir. Aşıq hər yerdə qonaqlanır, qonaq dəvət edilir və sevinclə qarşılanır.

Aşıq varlı sahibkar bəyin şəxsində bir himayədar tapır. Aşığı incidən şəxs lənətlənmiş (lənətli) hesab edilir.

Kəndlilər aşıqların sözlərinə tam inam və diqqətlə yanaşırlar. Savadlı adamın kənd əhalisi arasında aşıqla müqayisədə daha az etibarı vardır. Kəndli alimə yox, aşığa, xalq nəğməkarına, şairə inanır.

Bütün aşıqlar köçəri, gəzərgi və daimi (yer dəyişməz) kənd və şəhər aşıqlarına bölünürlər. Gəzərgi köçəri aşıqların davamlı yaşayış yerləri yoxdur. Onlar kənddən-kəndə, şəhərdən-şəhərə köçür və hər yerdə keçmişin qəhrəmanları haqqında olan

hekayətləri və ifaları ilə əhalini məftun edirlər. Yer dəyişməyən (davamlı) kənd aşıqları kənddə yaşayırlar və digər kəndlilər kimi təsərrüfatla məşğul olurlar. Amma boş vaxtları və uzun qış axşamlarında öz sevimli məşğuliyyətləri - musiqi çalmaq və nəğmə oxumaqla məşğul olmağa başlayırlar.

Bəzən onlar nəğmə oxumaq üçün başqa qonşu ölkələrə də gedirlər. Kəndlərdə elə aşıqlar da yaşayırlar ki, onlar "aşıqlıq"dan başqa işlə məşğul olmurlar. Kəndlərdə aşıqsız (onların iştirakı olmadan) heç bir ictimai şadyanalıq (tədbir) keçirilmir. Onlar burada "Aşıq Qərib", "Aşıq Kərəm", "Novruz", "Şah İsmayıl" və b. kimi nağıl (dastan) qəhrəmanlarının və məhşur aşıqların həyatını təsvir edən bütöv tamaşalar təşkil edirlər. Şəhər aşıqları "Sazanda"lar adlanırlar (adlandırılırlar). Bu artıq aşığın daha ciddi tipidir. Sazandalar nəğmə oxumaq və tarda çalmaq bacarığına (sənətinə) mükəmməl surətdə sahibdirlər. Ancaq onlar kənd aşıqları kimi sinədən (improvizator) şair deyildirlər. Sazandalar Zaqafqaziyanın şəhər əhalisini, həmçinin varlı kənd bəylərini əyləndirirlər. Sazandalar varlı mülkədarların evlərində nəğmə oxumaqla musiqini birləşdirən tamaşalar təşkil edirlər. Onların tamaşaları bir çox hallarda xanların həyatını və ya bütöv xan sarayının həyatını təsvir edir. Sazandalar dəstəsinin xüsusi yaxşı cəhəti (ləyaqəti) xalq nəğmələrini oxumaqda və musiqi alətlərində yerli rəqsləri çalmaqdadır (ifa etməkdədir). Sazandalar arasında ən geniş yayılmış musiqi aləti – tar, aşıqlar arasında isə saz və kamançadır.

### *Bir neçə Azərbaycan mahnısı*

### 1. MARALIM HAXCİK

Girdim kilsəyə, gördüm İsanı,
Çıxdım kilsədən, gördüm Musanı.
Alisanbəy gəldi, didi: qız hanı?
Ay maralım haxcik, balam, ay sarı tel haxcik
Aman, aman mən yazığam, ay maralım haxcik
Balam, ay ceyranım haxcik.

Dərbəndin qapısı dəmir dəgilmi?
Dəmiri əridən kömür dəgilmi?
Haxcikin gedən günləri ömür dəgilmi?
Ay maralım haxcik, balam, ay sarı tel haxcik,
Aman, aman mən yazığam, ay maralım haxcik,
Balam, ay ceyranım haxcik.

Əgninə geyibdir mahutdan çuxa,
Ürəgim olubdur kağızdan yuxa,
Səbəbin evin bir Allah yıxa,
Ay maralım haxcik, balam, ay sarı tel haxcik,
Aman, aman mən yazığam, ay maralım haxcik.
Balam, ay ceyranım haxcik.

Haxcik, haxcik, haxcik, gəl gedək bizə,
Mənə layiq dəgil, mən gedəm sizə.
Mən aşiq olmuşam səndəki gözə.
Ay maralım haxcik, balam, ay sarı tel haxcik,
Aman, aman, mən yazığam, ay maralım haxcik.
Balam, ay ceyranım haxcik.

## 2. TİRMƏ ŞAL

Heyriq canım, hoy, hoy,
Tirmə şalım, hoy, hoy.
Durum başına dönüm
Tirmə şalım, hoy, hoy.

Mənim yarım içibdi...
Mənimgi ta keçibdi,
Durum başına qurban!
Tirmə şalım, hoy, hoy.

Durma qapu dalında:
Gözüm kaldı xalında.
Durum başına qurban
Tirmə şalım, hoy, hoy.

Saçın ucun hörməzlər..
Səni mənə verməzlər.
Əgil yüzündən öpüm,
Qaranlıqdı görməzlər.

Araqçının məndədi,
Axtarma cibimdədi...
Dünya gözələ dönsə,
Mənim gözüm səndədi.

## 3. CANLAR İÇİNDƏKİ CANIM AY SƏNİNDİR

Canlar içindəki canım,
Ay sənindir, sənindir dilbilməz.
Qoynundakı bir cüft məmən
Ay mənimdir, mənimdir
dilbilməz,

Aman, aman ay,
Qaşı kaman ay,
Məhi-taban ay,
Dilbilməz, dilbilməz.

Səni ay görsəm dünya,
Heynimə, heynimə bemürvət!
Qulaş qollarını,
Ay dola yar boynuma,
boynuma bemürvət.

Aman, aman ay,
Qaşı kaman ay,
Mahi-taban ay,
Dilbilməz, ay dilbilməz.

Bəsləmişəm kölgədə ay,
Məni yandırır bir naşı ay,
Dilbilməz, dilbilməz bemürvət.

Aman, aman, ay
Qaşı kaman ay,
Mahi- taban ay,
Dilbilməz, dilbilməz.

Mən gələndə bənövşələr
Gülüdür, gülüdür dilbilməz,
Ah çəkməkdən cavan ömrüm,
Çürüdü, çürüdü dilbilməz!

Aman, aman ay,
Qaşı kaman ay,
Mahi-taban ay,
Dilbilməz, dilbilməz.

## 4. EVLƏRİNİN ALTI QAYA

Evlərinin altı qaya,
Qayadan baxarlar aya,
Sən bir ala göz sarı maya
Yar bizə qonaq gələcək,
Bilmirəm ha vaxt gələcək,
Olsunki sabah gələcək.

Evlərinin altı təpə...
Yağış yağır səpə, səpə.
Oyadıram öpə, öpə.
Yar bizə qonaq gələcək
Olsunki sabah gələcək
Getdim gördüm bulaqdadı.
Əlin, üzün yumaqdadı.
Qızıl üzük barmaqdadı.
Yar bizə qonaq gələcək,
Bilmirəm ha vaxt gələcək,
Olsunki sabah gələcək.

Evlərinin altı qamış;
Ördək ilə qaz oynamış.
Ərkən oğlan qız görməmiş.
Yar bizə qonaq gələcək,
Bilmirəm ha vaxt gələcək,
Olsunki sabah gələcək.

## 5. AY NİGARİ MƏN!

Ay nigari mən!
Çarə qıl bənə..
Mən bu ah ilə,
Ay balam...
Zari neylərəm.
Zülfünə dedim:
Boynuma dola
Mən adam çalan,
Ay balam...
Mahi neylərəm.
Bülbüləm özüm,
Bir gül istərəm...
Çəkmiyən cəfa,
Ay balam...
Xarı neylərəm.

## 6. RÜSTƏM

Gəlin gedək Xoruzlunin[92]
Düzünə, düzünə!
Xəbər getsin Cavadxanın
Qızına, qızına!
Ay güllə dəgib Rüstəmin dizinə,
Ay necə qıydın Rüstəmi öldürdün!
Ay zalım oğlu, ay kafir oğlu,
Şam çırağı söndürdün!
Namuradı öldürdün!

Açılıbdır Xoruzdunin
Çiçəyi, çiçəyi...
Ay qana batıb Rüstəmin
Birçəgi, birçəgi...
Ay yığılıbdır Cavadxanın göyçəgi.
Ay necə qıydın Rüstəmi öldürdün!
Ay zalım oğlu, bidin oğlu
Şam çırağı söndürdün!
Namuradı öldürdün!

Anama deyin ağlamasın
Düşgündü, düşgündü.
Ay güllə dəgən Rüstəmə

[92] Xoruzlu Şuşa qəzasında bir düzənliyin adıdır.

Üç gündü, üç gündü.
Ay qannı köpük dərələrdən daşqındı,
Ay necə qıydın Rüstəmi öldürdün!
Ay zalım oğlu, ay kafir oğlu,
Şam çırağı söndürdün!
Namuradı öldürdün!

## 7. NƏBİ

Nəbi bizim yerdə bir can bəslədi (2 dəfə)
Kəkili, birçəgi dəstə-dəstədi.
Qoy mənə desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi.

Qazaxlar geyibdir qırmızı tuman (2 dəfə)
Nəbini tutanda gəldi bir duman
Qoy mənə desinlər ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi

Araz qırağında bir güllə atdım (2 dəfə)
Otuz iki qazağı qol-qola çatdım.
Qoy mənə desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi.

Göytəpədə qənd, şəkər əzdilər. (2 dəfə)
Nəbinin adını qaçaq yazdılar.
Qoy mənə desinlər, ay nadan Nəbi,
Divanı dalınca, oynadan Nəbi.

Nəbi çıxıbdı Görüşün başına (2 dəfə)
Aynalı tüfəngi salıb döşünə,
Qoy mənə desinlər, ay nadan Nəbi,
Divanı dalınca, oynadan Nəbi.

Gün gəlibdir günortanın yerinə (2 dəfə)
Həcər xanım qalxıb atın belinə.
Qoy mənə desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi.

Nəbini bir dəstə qazaq bürüdü.
Həcər xanım qazamatda çürüdü.
Qoy mənə desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi.

## 8. UŞAQLAR YAZDA

Yaz olcağın yıkışırlar uşaqlar.
Tapuşurlar ol vaxt yavuk uşaqlar:
Ay Dadaş, atma daş, mən yaralıyam.
Şəkinin, Şirvanın mən maralıyam.

Oynayıb, gülüşüb, deyib, danışır
Hər kəs öz cütünü tapıb danışır.
Ay Dadaş, atma daş, mən yaralıyam
Şəkinin, Şirvanın mən maralıyam.

Bağlara girirlər, güllər dərirlər,
Bir-birinə dəstə tutub verirlər.
Ay Dadaş, atma daş, mən yaralıyam
Şəkinin, Şirvanın mən maralıyam.

Uşaqlar şad olur yazda artacaq
Olur həm kefləri, damağları çağ.
Ay Dadaş, atma daş, mən yaralıyam,
Şəkinin, Şirvanın mən maralıyam.

## 9. TİFİL VƏ BİR QUŞ

Bir Quş düşdü havadan,
Qondu sinəmin üstə,
Verdi dua anadan
Ağzında kağız üstə.

Dedim Quşum de: uç get,
Məndən ona salam et.
Oynamağa yoxdur vaxt,
Dərslərimdir çox-çox sərt.

## 10. UŞAQ TAPMACA NƏĞMƏSİ

Bir dəstə uşaq bir yerdə dururlar. Onlardan biri oxuyur (tapmaca söyləyir), başqaları bir yerdə nəqərat oxuyurlar. Tapmacanın cavabı mahnının sonundadır. Xorda oxuyanlardan biri tapmacanın cavabını deyir.

Uşaqlardan bir nəfər: Bir Quşum var bu boyda (əl-qol hərəkəti ilə göstərir).

*Xor*: Ley gələ ha, ley gələ.

Uşaqlardan bir nəfər: Dimdiyi var bu boyda.

*Xor*: Ley gələ ha, ley gələ.

Uşaqlardan bir nəfər: Quyruğu var bu boyda.

*Xor*: Ley gələ ha, ley gələ.

Uşaqlardan bir nəfər: Qanadları var bu boyda.

*Xor*: Ley gələ ha, ley gələ.

Uşaqlardan bir nəfər: Ayağı var bu boyda.

*Xor*: Ley gələ ha, ley gələ.

Uşaqlardan bir nəfər: Başı var bu boyda.

*Xor*: Ley gələ ha, ley gələ.

Uşaqlardan bir nəfər: Gözləri var bu boyda.

*Xor*: Ley gələ ha, ley gələ.

Tapmacanı deyən nəzərdə tutduğu Quşun bütün keyfiyyətlərini, bütün əlamətlərini sadalayır. Əgər Quş balacadırsa, tapmacanı deyən əli ilə müvafiq əl-qol hərəkəti edir, əgər Quş böyükdürsə, onda başqa əl-qol hərəkəti edir. Tapmaca deyən Quşun böyüklüyü, dimdiyini,gözlərini, ayaqlarını, quyruğunu, qanadlarını, tüklərinin rəngini də təsvir edir. Axırıncı halda tapmaca deyən əli ilə öz yoldaşının üst köynəyini göstərir, belə ki, onun rəngi təsvir edilən Quşun rənginə uyğun gəlir. Mahnının sonunda tapmaca deyən xəbər alır: "Hansıdır?" Yəni hansı Quşdur? Oğlanlardan biri irəliyə çıxır və təsvir edilmiş Quşun adını çəkir. Əgər tapmaca deyən dolaşanı təsvir etmişsə, tapmacanı yazan isə göyərçinin adını çəkmişsə, onda birinci qışqırır: "vur çatdasın". Uşaqların hamısı tapmaca tapanı vururlar. Əgər tapmacanı tapan Quşu düzgün müəyyənləşdirmişsə, o, tapmaca deyən olur.

## 42-ci buraxılış, 1912-ci il, II ş.

## Yelizavetpol quberniyasında yazılmış nağıllar

## TATAR NAĞILLARI

### 1. ƏMƏNŞAH VƏ ÜÇ OĞLUNUN NAĞILI

Keçmiş zamanlarda - o vaxt ki, çaylarda süd və bal axırdı, yer üzündə dinc və sakit həyat var idi, qoyunlar qurdlarla bərabər otlayırdı, bir vilayətdə Əmənşah adında bir şah yaşayırdı. Onun üç oğlu var idi. Böyüyünün adı Əhməd, ortancılın adı Məmməd, kiçiyinin adı isə Bəhram idi. Onlar atalarını çox istəyirdilər.

Bir gün Əmənşah bərk xəstələndi. Nə qədər dava-dərman elədilərsə, nə qədər həkim gəlib-getdisə, yazığı heç kim sağalda bilmədi. Şahzadələr həkim axtarıb tapdılar. Həkim xəstəyə baxıb şahın oğlanlarına dedi:

- Atanızın şəfa tapmağını istəyirsinizsə, qızıl qəfəsdə olan tutuQuşunu tapıb gətirin, o, atanızın başı üstündə oxuyanda atanız şəfa tapacaq. Əgər üç il müddətində bu Quşu tapıb gətirməsəniz, atanız öləcək. TutuQuşu gedər-gəlməz bir yerdədir.

Övladlar öz aralarında məsləhətləşdilər, axırda qərara gəldilər ki, lazım olsa, Quşun dalınca dünyanın axırına da getsinlər. Qardaşlar tədarük görüb, yola düşdülər.

Az getdilər, üz getdilər, gəlib yolun ortasındakı böyük bir daşa çatdılar. Bu daş üç yolun ayrıcında idi. Qardaşlar burada dayanıb, öz aralarında danışdılar: “Nə üçün hamınız bir getməliyik? Daha yaxşı olar ki, hər birimiz öz yolumuzla gedək, belə olsa mənzilə tez çatıb Quşu taparıq. Gəlin, daşın altında hər birimiz öz üzüyümüzü gizlədək, kim Quşu tapıb tez gəlsə, öz üzüyünü götürüb digər qardaşlarını axtarmağa gedər ki, sonra bir yerdə xəstə atanın yanına gedək.

Necə demişdilərsə, elə də etdilər. Barmaqlarındakı üzüklərini çıxarıb daşın altına qoydular və hər biri öz yolu ilə getdi.

Kiçik qardaş Bəhram az getdi, üz getdi, gəlib bir çəmənliyə çatdı, burada bir az dincəlmək istədi. Bəhram otun üstündə təzə

uzanmışdı ki, yaxınlıqda altı div qardaş göründü. Divlərdən biri Bəhramı görüb ona yaxınlaşdı və qışqırdı:

- Sən necə cürət edib bizim yerə gəlmisən? Heç Quşlar bura uçub gəlmir, vəhşi heyvanlar burda gəzib dolaşmirlar, sən zəif insan cürət edib bura gəlmisən.

Div bunu deyib şahzadənin üzərinə atıldı və onu parçalamaq istədi. Lakin Bəhram onun qabağından çəkilmədi, bir xeyli vuruşduqdan sonra Bəhram divə qalib gəldi, onun əl-ayağını iplə bağladı. Sonra ikinci div gəldi və var səsi ilə bağırdı:

- Sən necə cürət edib bizim rahatlığımızı pozmusan? Sənin bura gəlməyin az imiş, hələ mənim qardaşımın əl-ayağını da bağlamısan!

Div Bəhramın üzərinə hücum etdi, Bəhram cəld yayınıb, divin əl-ayağını bağladı. Sonra bir-bir üçüncü, dördüncü, beşinci div gəldi. Bəhram bunların da əl-ayaqlarını bağlayıb yerə uzatdı. Nəhayət, altıncı div də gəldi. Bu div Bəhramı yıxsa da, Bəhram fənd işlədib bu divin də əl-ayağını bağladı. Əl-ayaqları bağlı divlər ən güclü qardaşlarının da məğlub olduğunu görüb, başladılar Bəhrama yalvarmağa ki, onları azad edib buraxsın. Bəhramın onlara ürəyi yandı, divləri azad etdi. Divlər Bəhramdan çox razı qalıb, onu saraylarına dəvət etdilər. Ona hər cür qulluq göstərdilər. Nəhayət, divlərdən böyük qardaş xəbər aldı:

- Bəhram qardaş, bir bizə söylə, buraya nə üçün gəlmisən?

Şahzadə başına gələnləri onlara nəql etdi. Kiçik div şahzadəni dinləyib dedi:

- Bəhram qardaş, qızıl qəfəsdəki Quşu sən necə götürəcəksən? Mən bu vilayəti tanıyıram, ora gedən bir də geri qayıtmır. Onun keşiyini çəkirlər, o zalım bir divin sarayında yerləşir. Sənə kömək edəcəyəm. Bəhram, bir az darı, bir az qarğıdalı və ülgüc götür, sonra səninlə qızıl qəfəsdəki tutuQuşunun olduğu yerə gedəcəyik.

Şahzadə yol tədarükünü görüb, lazım olan şeyləri götürüb, divlərlə görüşdü və kiçik divlə yola düşdü. Yolda div Bəhrama dedi:

- Əziz qardaş, biz getdiyimiz yerin sərhədinə çatanda mən orada qalıb səni gözləyəcəyəm, sən isə gedib sarayı axtarıb ta-

parsan, tutuQuşunun olduğu o qızıl qəfəs də həmin saraydadır. Bir sözümü yadında saxla, yolda nə görsən, nə eşitsən, heç bir şeyə fikir vermə, öz yoluna davam et. Yolda sən əlində dəryaz və bülöv daşı olan bir adama rast gələcəksən. Ona heç fikir vermə, suallarına cavab vermə, yoluna davam et. Onun səbri daşıb, bülöv daşı sənə atacaq. Sənə dəysə, daşa dönəcəksən, dəyməsə, özü daşa dönəcək. Əlində alov olan bir adama da rast gələcəksən, o, alovu sənə atacaq, alov sənə dəysə, sən yanacaqsan, dəyməsə, o özü yanacaq. Sən çox şey görəcəksən, ən nəhayət, dirəyə bağlanmış donuz və at görəcəksən. Atın qabağında sümüklər, donuzun qabağında isə kişmiş görəcəksən. Sən donuzun qabağındakı kişmişi atın qabağına, sümüyü isə donuzun qabağına qoy. Sonra gəlib saraya çatacaqsan, burda tutuQuşunun olduğu qəfəsi görəcəksən, qəfəsi götür, tez geri qayıt. Əgər div dalınca düşsə, əvvəlcə darını at, div sənə çataçatda qarğıdalını, sonra ülgücü və nəhayət, duzu atarsan. Əgər hər şeyi dəqiq yerinə yetirsən, sağ-salamat gəlib çıxacaqsan.

Bir müddət sonra Bəhram və div vilayətin sərhədinə çatdılar, div burda qalıb gözləməyə başladı. Şahzadə Bəhram isə yola düşdü.

Bəhram az getdi, üz getdi, əlindəki bülövlə dəryazı itiləyən bir adama rast gəldi. O, adam Bəhramdan xəbər aldı:

- Bəhram, şanlı şah Əmənşahın oğlu, haraya yol tutub gedirsən?

Lakin Bəhram ona heç nə demədi, öz yoluna davam etdi. O, hiddətlənərək əlindəki bülöv şahzadəyə atdı, amma daş Bəhrama dəymədi, o, özü daşa döndü. Bəhram yoluna davam etdi və bir qədər getdikdən sonra əlində alov olan adama rast gəldi. O, Bəhramdan xəbər aldı:

- Ey şanlı Əmənşahın oğlu, hara gedirsən? Bəhram ona cavab vermədi. Həmin adam cavab almayıb alovu şahzadəyə atdı, lakin yan atdı və özü yandı. Nəhayət, Bəhram atla donuzun bağlandığı dirəyin yanına çatdı. Donuzun qabağında üzüm, atın qabağında isə sümüklər var idi. Şahzadə divin öyüdünü dediyi kimi yerinə yetirdi. Donuzun qabağındakı üzümü atın qabağına,

atın qabağındakı sümükləri donuzun qabağına qoydu və yoluna davam etdi. Şahzadə çox əziyyətlərdən sonra saraya çatdı.

Bəhram sarayın ortasında qəfəs içində olan tutuQuşunu tapdı, onu götürüb geri yola düşdü. Birdən eşitdi ki, ətrafdakı bütün ağaclar, dağlar, insanlar, Quşlar civildəməyə başladılar ki, budur, Bəhram saraya gəlib qızıl qəfəslə tutuQuşunu oğurladı. Bu vaxt div tələm-tələsik saraydan çıxıb at və donuza tərəf yönəldi. O, elə ata minmək istəyirdi ki, at dedi:

- Otuz ildir ki, mən sənin xidmətindəyəm, bu illər ərzində məni sümüklə yemləmisən. Bəhram isə mənə üzüm verdi. Mən ona pislik etmərəm.

Div qəzəbindən uladı, o, həmən donuza yaxınlaşdı, donuza minib Bəhramın dalınca çapdı.

Div donuzun üstündə yeyin gedirdi və nəhayət, şahzadəni haqlamağa başladı. Bəhram geriyə baxdı, gördü div ona çatha-çatdadı. Qoltuğundan darını çıxartdı və yerə atdı. O saat yerdə sulu göy çəmən bitdi. Donuz dayandı ki, otluqda eşələnsin. Div onu çox tələsdirsə də, o, doyunca yeməmiş yerindən tərpənmədi. Bəhram divdən çox uzaqlaşdı, lakin bir müddət sonra div Bəhramı haqlamağa başladı. Bu dəfə Bəhram yola qarğıdalı atdı, böyük qarğıdalı topası bitdi. Donuz yenə dayandı ki, qarğıdalını yesin.

Üçüncü dəfə div şahzadəni haqlamışdı. Bəhram ülgücü atdı, dərhal onun arxasında saysız-hesabsız ülgüclər əmələ gəldi. Ülgüclər donuzun ayaqlarını yaraladılar və yeyin gedə bilmədi. Donuz qanı axa-axa yoluna davam etdi. Bəhram lap yaxında idi. Lakin şahzadə qoltuğundan duzu çıxardıb yola atdı. Yola dağılmış duz donuzun bütün yaralarına doldu, donuz əldən düşdü, ağrılara dözməyib yerə yıxıldı. Bəhram isə divin onu gözlədiyi yerə çatdı. Div Bəhramı görüb sevindi və onu qardaşlarının sarayına çatladı. Şahzadə razı oldu, amma bir az sonra dedi ki, gərək şah atasının yanına getsin. Bəhram divlərlə görüşub yola düşdü.

Divlər burada qalsın, görək Bəhram nə oldu. Bəhram az getdi, üz getdi, üç yol ayrıcındakı daşa çatdı. O, daşı itələyib gördü ki, üzüklərin üçü də yerindədir. Şahzadə üzükləri götürüb, getdi qardaşlarını axtarmağa. Axırda gəlib bir şəhərə çatdı. Bir

gün şəhərdə gəzərkən böyük qardaşı Əhmədi bir dükanda işləyən gördü, ondan bir az aralıda çəkməçi dükanında ortancıl qardaşını gördü. Əvvəlcə qardaşlar Bəhramı tanımadılar, lakin o, özünü onlara tanıtdı. Qardaşlar görüşüb qucaqlaşdılar, hər biri başına gələnləri nəql etdi. Bəhram dedi:

- Mən atamıza şəfa gətirəcək Quşu gətirdim.

Əhmədlə Məmməd başlarını aşağı salıb, bir söz demədilər. Ertəsi gün qardaşlar yığışıb öz vilayətlərinə yola düşdülər.

Qardaşlar gethaget gəlib bir meşəyə çatdılar, çox yorulmuşdular, qərara gəldilər ki, üç gün burada dincəlsinlər. Qardaşlar ağacların qol-budaqlarından bir koma düzəltdilər. Məhəmməd və Bəhram ova getdi. Əhməd isə yemək bişirmək və qəfəsə baxmaq üçün burada qaldı. Yemək hazır olanda meşənin cəngəlliyindən boyu bir qarış, saqqalı iki qarış olan bir qoca çıxdı. Qoca Əhməddən yemək istədi. Əhməd ona yemək verdi, amma az verdi. Belə olduqda qoca narazı qaldı. Çox söz döyüşdürdükdən sonra qoca saqqalından bir dəstə tük qopardıb Əhmədin əl-ayağını bağladı. Qazanın içindəki yeməyi yedi, sonra Əhmədin əl-ayağını açıb, gözdən yox oldu. Əhməd yenidən yemək bişirməyə başladı.

Qardaşlar ovdan qayıtdılar, gördülər ki, yemək hələ hazır deyil. Onlar Əhməddən xəbər aldılar:

- Qardaş, yemək niyə hazır deyil?

Əhməd başının aşağı salıb dedi:

- Bir az xəstəyəm.

Ertəsi gün ortancıl qardaş Məmməd yemək bişirməyə qaldı. Yenə o qoca gəlib Məmmədin əl-ayağını bağladı, yeməyin hamısını yeyəndən sonra onu açıb buraxdı, özü yenə də gözdən itdi. Əhmədlə Bəhram ovdan əldən düşmüş, yorğun gəldilər, gördülər ki, yemək hazır deyil. Məmməd dedi:

- Birdən kefsizləndim, yemək hazırlaya bilmədim.

Nəhayət, kiçik qardaş komanı qorumağa və yemək bişirməyə qaldı. O, elə təzə yemək bişirmişdi ki, yenə uzunsaqqal qoca gəldi və ondan yeməyin hamısını istədi. Bəhram ona camda yemək verdi, qoca narazı qalıb onun üstünə cumdu ki, onun əl-

ayağını bağlasın. Bəhram özünü itirməyib çömçəni götürüb qocanın boynuna güclü bir zərbə vurdu. Baş bədəndən ayrıldı, yerə düşdü və dığırlanıb komadan uzağa getdi, bədən də dığırlanan başın dalınca qanlı iz buraxıb getdi.

Qardaşlar ovdan qayıdıb doyunca yedilər, Bəhram da başına gələni onlara nəql etdi. Əhməd və Məmməd dinməz-söyləməz kiçik qardaşlarına qulaq asdılar. Sonra da yola hazırlaşmağa başladılar. Atalarının vilayətinə yola düşməmişdən qərara gəldilər ki, qocanın qan izi ilə gedib qocanı tapsınlar.

Onlar meşə ilə gedib bir quyuya çatdılar, gördülər qocanın qan izi burada qurtarır. Bəhram qardaşlarına dedi:

- Məni iplə quyunun dibinə salın. Görüm qoca oradadırmı?

Qardaşlar onu quyuya salladılar, özləri isə onu quyunun ağzında gözləməyə başladılar.

Bəhram quyunun dibi ilə gedib gordü ki, burada çoxlu otaqlar var. Otaqlardan birincisinin qapısını açıb içəri girdi, burada misli olmayan gözəl bir qız var idi. Qız onu görüb dedi:

- Oğlan, səni inandığıma and verirəm, bura necə gəlmisən, eləcə də get. Zalım sehirbaz qoca səni görüb öldürər.

Bəhram qıza qulaq asdı, amma qorxmadı. Gedib başqa bir otağı açdı. Burada əvvəlkindən də gözəl bir qız var idi. Bəhram üçüncü otağı da açdı. Bu otaqdakı qız iki qızdan da gözəl idi. Qoca sehirbaz da bu otaqda gizlənirdi. O, Bəhramı görüncə qaçıb gizləndi. Gözəl qız göz yaşı töküb, Bəhrama yalvardı ki, buradan çıxıb getsin. Bəhram ona dedi ki, onları zalım sehirbazdan azad etməyə gəlibdir. Bəhram qızların üçünü də çağırıb quyudan düşdüyü yerə gəldi. Böyük qardaşlar birinci, ikinci qızı çəkib çıxartdılar. Növbə üçüncü qıza gəldikdə o, Bəhrama dedi:

- Qoy mənim xilaskarım işıqlı dünyaya birinci çıxsın. Ürəyimə damıb ki, sənin qardaşların məni görüb səni burada atıb gedəcəklər.

Bəhram onun sözlərinə qulaq asmadı. Qız dedi:

- Yadında saxla, əgər qardaşların səni quyuda qoyub getsələr, ruhdan düşmə, səhər sən elə burada iki qoç görəcəksən. Onlardan biri ağ, o biri qara. Onlar bir-biri ilə vuruşacaqlar.

Fürsət tapıb sən əvvəlcə qara qoçun belinə tullan, o səni ağ qoçun belinə atacaq. Ağ qoç isə səni işıqlı dünyaya çıxardacaq.

Qız bunu deyib Bəhramla vidalaşdı, qardaşlar onu yuxarı çəkdilər. Qardaşlar üçüncü qızın gözəlliyini görüb mat qaldılar. Dedilər:

- Bəhramı qoyaq quyuda qalsın ki, bu qız ona çatmasın, atamıza da deyək ki, qızıl qəfəsdəki tutuQuşunu biz tapdıq, bu qızları da sehirbazdan biz xilas etdik.

Onlar Bəhramı quyuda qoyub getdilər, qızları da özlərilə götürdülər.

Bəhram isə fürsət tapıb qara qoçun yox, ağ qoçun belinə tullandı, ağ qoç onu qara qoçun belinə atdı, qara qoç onu qaranlıq dünyaya aparıb çıxardı.

Bəhram az getdi, üz getdi, gəlib bir şəhərə çatdı və bir qarının evində qaldı.

Bir dəfə Bəhram su içmək istədi, qarıya dedi ki, ona su versin. Qarı su yerinə ona süd verdi. Şəhzadə xəbər aldı:

- Məgər sizdə su yoxdu?

Qarı dedi:

- Yoxdur, cavan oğlan, yoxdur. Otuz üç ildir ki, bizim quyuda insan yeyən bir nəhəng əjdaha peyda olub, biz hər gün ona bir adam verməliyik ki, o bizə bir az su versin. Bu gün padşah qızının növbəsidir. O, quyuya gedib özünü əjdahanın ağzına atacaq.

Bəhram, doğrudan da, quyunun yanında qəmin-kədərin içində duran şahzadə qızı gördü.

Bəhram əlində xəncər quyuya tərəf qaçdı, əlindəki xəncəri var gücü ilə əjdahnın boğazına soxdu. Əjdaha ölü halda şahzadə qızın ayaqları altına düşdü. Şahzadə qız cəsur, gənc oğlana təşəkkür etməyə söz tapmadı. Qız əlini əjdahanın qanına batırıb Bəhramın kürəyinə vurdu. Sonra isə padşah atasının evinə getdi.

Padşah qızını sağ-salamat görüb çox sevindi. Qızından xəbər aldı:

- Mənim qızımı kim xilas etdi?

Şahzadə qız atasına onu xilas edən gəncdən danışdı. Padşah fərraşlarına əmr etdi ki, qızını xilas etmiş gənci tapsınlar. Padşahın adamları Bəhramı çox axtardılar, amma tapa bilmədilər.

Padşah nəyin bahasına olursa olsun, qızının xilaskarının tapmaq istəyirdi ki, qızını ona ərə versin. Padşah əmr etdi ki, xalq meydana yığılsın ki, onların arasında qızının xilaskarı tapılsın. Hər yeri ələk-fələk elədilər, Bəhramı tapa bilmədilər. Bir gün padşahın vəzirlərindən biri padşaha yaxınlaşıb dedi:

- Qibleyi-aləm, burada bir qarının yanında naməlum bir gənc yaşayır, onu hələ görməmişik.

Gedib Bəhramı gətirdilər və şahzadə qız onu görən kimi tanıdı. O, qışqıraraq dedi:

- Axtardığınız budur.

Baxdıqda gördülər ki, onun kürəyində şahzadə qızın barmaqlarının qırmızı izi var. Padşah Bəhramı qucaqlayıb dedi:

- Cəsur gənc, ürəyin nə istəyirsə, məndən tələb et, sənə hər şey veriləcək. Qızım isə indidən sənindir.

Bəhram padşahın sözlərini hörmətlə dinləyib dedi:

- Qibleyi-aləm, mənim nişanlım var, atamın vilayətində isə Allaha şükür, hər şey var. Səndən bir məsləhətdən başqa heç nə istəmirəm. Mən buradan işıqlı dünyaya necə gedə bilərəm. Orada yaşlı, xəstə, şah atam və nişanlım məni gözləyir.

Padşah dedi:

- Nəhəng Rux Quşundan başqa heç kim səni işıqlı dünyaya çıxarda bilməz. Rux Quşu keçilməz bir meşədə çox böyük ağacda yaşayır. Bu Quşun balalarını hər il bir timsah yeyir. Əgər sən bu timsahı öldürsən, Rux Quşu səni işıqlı dünyaya çıxardar.

Bəhram padşahın sözünə əməl etdi, ona təşəkkür edib yola düşdü. Az getdi, üz getdi, Bəhram gəlib keçilməz meşəyə çatdı və gördü ki, timsah ağacın gövdəsində böyük Quş yuvasına tərəf qalxdı. O, xəncəri sıyırıb timsahın üstünə atıldı, timsahı öldürdü. Ağacın altında bir tərəfdə uzandı ki, dincini alsın. Bir az keçmiş Rux Quşu gəldi və ağacın altında yatan bəni-insanı gördü, Quş onu öldürmək üçün üzərinə getdi. Balaları yuvadan qışqırıb dedi:

- Ana, bizim xilasakarı öldürmə.

Quş işin nə yerdə olduğunu bilib qanadlarını onun üzərinə açdı ki, onu yandırıcı gün şüalarından qorusun. Şahzadə yuxudan oyandı və Rux Quşu dedi:

- Bəhram, məndən nə istəyirsən. Sən mənim balalarımı mənim düşmənimdən - timsahdan xilas eləmisən.

Bəhram dedi:

- Mən səndən heç bir şey istəmirəm. İstədiyim odur ki, məni yeraltı dünyadan işıqlı dünyaya çıxarasan.

Rux Quşu Bəhramın sözünü yerə salmadı.Yola su, ət tədarükü görməyə başladılar. O, Bəhramı da belinə mindirib göyə qalxdı. Bilən yoxdu, Quş Bəhramla işıqlı dünyaya nə qədər vaxta qalxdı. İşıqlı dünyaya çathaçatda Rux Quşu zəifləməyə başladı, yemək də qurtarmışdı. Quş dedi:

- Biz məhv olacağıq, qüvvəmi bərkitmək üçün də bir şey də yoxdur.

Bəhram xəncərini ələ alıb ayağından bir parça kəsib Quşun ağzına qoydu. Quş var qüvvəsini toplayıb, nəhayət, şahzadəni işıqlı dünyaya gətirib çıxardı. Bəni-insanın əti isə onun ağzında qaldı. Ət Quşa çox dadlı gəldi, ona görə də onu balaları üçün saxladı. Lakin görəndə ki, Bəhram ayağındakı yaradan gəzə bilmir o, ağzındakı əti yara olan yerə qoydu, bir ləләyini çıxardıb yaranın üstünə çəkdi, yara o saat sağaldı, oldu anadangəlmə. Sonra Rux Quşu Bəhrama bir lələk verib dedi:

- Bu lələyi götür, əgər başına bir iş gəlmiş olsa, bu lələyi oda tut, mən o saat yanında hazır olacağam.

Quş bunu deyib, şahzadəni tərk edib getdi. Bəhram isə gəldiyi şəhərdə bir az dolaşıb, dükançının yanında işləməyə başladı ki, özünə çoxlu pul qazansın.

Az bir vaxtdan sonra şəhərdə car çəkildi ki, Əmənşahın oğulları Əhməd və Məmməd evlənirlər. Bu xəbər gəzə-gəzə gəlib Bəhrama çatdı, o, Quşun verdiyi lələyi oda tutdu, Rux həmən gəlib onun qabağında durdu. Quş ondan xəbər aldı:

- Ey şahzadə, sənə məndən nə lazımdır?

Bəhram dedi:

- Dünyanın ən yaxşı atını mənə tap, mənə polad silah, gözəl libas da tap gətir, qardaşlarımın toyuna gedib baxacağam.

Rux uçub getdi və bir saatdan sonra cins ərəb atı Bəhramın qarşısında durmuşdu. Şahzadə öz əynində şahlara layiq gözəl libas və bahalı silah gördü.

Bəhram atı minib ərəb libasında Əmənşahın vilayətinə çapdı. Bəhram yaydan çıxan ox kimi, meşələrdən, dağlardan, dərələrdən uçurdu, şahin kimi yüksəkliklərə qalxırdı. Nəhayət, atasının sarayına çatdı. Sarayda şahzadələrin toyu idi.

Bəhram atasının yanına gəldi, gördü qoca atası hələ də yataqda xəstə yatır, içində tutuQuşu olan qəfəs isə atasının başı üstündə asılıb, tutuQuşu heç oxumurdu da. Bəhram atasının yanına gələn kimi tutuQuşu ilk dəfə oxumağa başladı. Şah tutuQuşunun səsini eşidən kimi sağaldı, yatağından qalxdı. Hamının əhvalı düzəldi, üzlər güldü. Əhmədlə Məmmədin toyu on gün davam etdi. On birinci gün Əhmədlə Məmməd at yarışına çıxdılar, çoxlu adam gəlmişdi. Gələnlər arasında Bəhram da var idi. O, qardaşları ilə at yarışına çıxdı. Bəhram ilk yarışda qardaşlarını ötüb keçdi. Qardaşlar ikinci dəfə də yarışmaq istədilər, Bəhram bu dəfə də onları öz ərəb atında ötüb keçdi. Onun böyük qardaşları paxıllıqdan bilmirdilər nə etsinlər. Üçüncü dəfə at çapmağa çıxdılar. Bu dəfə Bəhram qardaşlarının boynunu vurub atını şah atasının sarayına sürdü. O, özünü atasına tanıdıb, başına gələnləri ona nəql etdi, qardaşlarının xainliyindən atasını xəbərdar etdi. Şah kiçik oğlunu görməkdən şad oldu. Böyük oğulları Əhməd və Məmmədi lənətlədi. O, şahlığını Bəhrama vəsiyyət etdi.

Bundan sonra Bəhram qoca sehirbazdan xilas etdiyi kiçik gözəl qızla evləndi, iki böyük gözəl qızı isə yadelli şahlara ərə verdilər.

Bəhram şahzadə qızla xoş həyat sürdü, şah Əmənşah da ölənəcən onların yanında qaldı.

Göydən üç alma düşdü. Biri söyləyənin, biri dinləyənin biri də bizim ala qapıda duran və pay istəyən dərvişin.

## 2. TACİR VƏ QIZININ NAĞILI

Heç kimin olmadığı bir yerdə bir varlı tacir oğlu Zülfüqar və qızı Pəri ilə yaşayırdı. Təlim, təhsilin aydınlıq olduğunu bilən ağıllı tacir evinə bir mollanı dəvət etdi ki, qızına elm, mərifət öyrətsin. Tacir mollanı dəvət etsə də, özü bir müddət sonra oğlu Zülfüqarla başqa bir vilayətə səfər etməyə hazırlaşdı ki, orada öz mallarını satsın və oradan da mal alıb gətirsin.

Tacir çıxıb getdi, molla isə onun qızı ilə dərs keçməyə başladı, ona şərq hikmətlərini öyrətdi. Bir qədər vaxt keçdikdən sonra vəhşi ehtiras mollanı bürüdü və qızı rüsvay etmək fikrinə düşdü. O, bir axşam Pəriyə dedi:

– Ey baharın gözəl gülü, gəl, yatağı mənimlə bölüş!

Pəri ona cavab verdi:

– Əgər sən mənimlə yatağı bölüşmək istəyirsənsə, atamın bu iş üçün qoyub getdiyi qızıl tasda çim, suyu isə mən qızıl qazanda qaynadaram.

Molla o saat razılığını bildirdi, soyundu və tasda oturdu, Pəri isə qazanda suyu qaynadıb, onu mollanın başına tökdü. Molla ağrıdan qışqırdı və qaynar sudan bişərək yıxıldı. Pəri Mollanı küçəyə çıxarıb, hasarın dibinə atdı.

Qonşular səhəri gün mollanı qaynar sudan yanmış vəziyyətdə gördülər, xəstəni evinə apardılar, yağla yağladılar və bir neçə aydan sonra molla sağaldı.

Qısa müddətdən sonra başıbəlalı molla öyrəndi ki, Pərinin atası şəhərə qayıdır. O, atına mindi və onu qarşılamağa getdi. Şəhərdən bir qədər aralıqda o, qızın atasını və qardaşını qarşıladı. Onları müşayiət edən çoxlu adam var idi. Molla atını sürüb onlara yaxınlaşdı, hamı ilə mehribancasına görüşdü. Pərinin atasına və qardaşına fikir vermədi.

Onda Pərinin atası mollaya dedi:

– Molla, sən bizimlə nədən belə rəftar edirsən? Bizə çəpəki baxmağının səbəbini aç!

Belə olduqda vicdansız molla cavab verdi:

– Mən valideynləri səfərə çıxandan sonra özünü pis aparan qızın adamlarını salamlaya bilmərəm. Siz səfərə çıxan kimi

qızınızın yanına onun gizli pərəstişkarları gəlməyə başladılar. Bir gün qızınız tərəfindən öyrədilmiş həmin adamlar məni elə qəddarlıqla döydülər ki, mən uzun müddət yataqda xəstə yatım və onların macəralarına mane ola bilməyim.

Şəxsiyyəti təhqir edilmiş tacir qeyzləndi və oğluna dedi:

– Oğul, tez evə yola düş, yaramaz bacını öldür ki, gözlərim onu görməsin.

Günahsız yazıq qız ata və qardaşının evə gəldiyini eşidib onları qarşılamaq üçün tələm-tələsik lazım olan hər şeyi hazırladı, dadlı yeməklər bişirdi, həyət-bacanı silib-süpürdü. Zülfüqar gəlib evə çatanda Pəri ev işləri ilə məşğul idi. O, qardaşını görüb evə qayıtmağı münasibətilə onu təbrik etdi.

Amma qardaşı bacısının nəvazişlərinə cavab vermədi. Yalnız kədər içində dedi:

– Bacı, mənimlə ata min, gedək bir yerdə atamızı qarşılayaq.

Pəri qardaşı ilə ata mindi, amma Zülfüqar onu şəhərdən tamam başqa bir səmtə apardı.

Onlar az getdilər, üz getdilər, əgər zil qaranlıq bir meşəyə çatmasaydılar, Allah bilir, hələ nə qədər yol gedəcəkdilər. Burada Zülfüqar dedi:

– Bacı, atdan düş, həyatın bitmişdir, mən səni öldürməliyəm. Ona görə ki, sən atan olmayanda özünü pis aparmısan və molla ilə pis rəftar etmisən.

Bu sözləri eşitdikdə Pəri ağlamağa, qardaşına xahiş edib, yalvarmağa başladı. O, mollanın ona qara yaxdığını qardaşına inandırmağa çalışdı.

Zülfüqarın doğma bacısına yazığı gəldi. O, bir dovşan öldürüb, bacısının köynəyini onun qanına buladı. Bacısını lüt anadangəlmə meşədə qoyaraq bu köynəklə atasının yanına getdi.

Yazıq qız meşədə çığırın bir kənarında oturub acı-acı ağladı. Sonra isə sakitləşib ayağa qalxdı və baş götürüb qalın meşə ilə getdi. Çox keçmədən o, koğuşlu böyük bir ağaca rast gəldi. Pəri yemək üçün giləmeyvələrdən yığıb, koğuşda yaşamağa başladı. Bir gün Hindistan padşahının oğlu Pərinin yaşadığı həmin meşəyə gəldi. Şahzadə ağacın yanından keçəndə onun itləri bir yerdə

dayanıb hürməyə başladılar. O fikirləşdi: "Yəqin burada kimsə var" və ucadan xəbər aldı:

– Əgər sən insansa, koğuşdan çıx ki, mən sənə sığınacaq verə bilim.

Pəri koğuşdan cavab verdi:

– Şanlı şahzadə, mənə geyimlərindən bir şey ver ki, lüt bədənimi örtə bilim, o vaxt mən sənin qarşına çıxa bilərəm.

Şahzadə öz bürüncəyini əynindən çıxarıb onu qıza verdi. Pəri bürüncəyi geyindi və şahzadənin qarşına çıxdı. Şahzadə gözəllikdə misli-bərabəri olmayan qızı görüb ah çəkdi. Şahzadə nəyin bahasına olursa olsun, Pəri ilə evlənmək qərarına gəldi və onu da özü ilə götürüb evinə yola düşdü. Şahzadə evə gəlib tapdığı qızı təriflədi, amma anası dedi:

– Sən bu vəhşi qızı nə üçün bura gətirdin, ən yaxşısı budur, burax, qoy hara istəyirsə getsin.

Şahzadə cavab verdi:

– Yox, əziz anam, mən mütləq onunla evlənəcəyəm. Ona olan sevginin atəşi məni yandırıb yaxır və mən bu ayrılığa dözə bilmərəm.

Anası razılaşıb dedi:

– Əgər belədirsə, onda qoy o, hamama getsin və ona yeni geyim verək.

Necə dedilərsə, elə də elədilər. Qıza yeni bahalı geyimlər verib, onun üçün hamamı hazır elədilər. Pəri hamamda çimdi, yeni zər-zibalı geyimlər geyindi və şahzadənin qarşısına çıxdı. Şahzadə onu görən kimi elə yerindəcə dondu. Şahzadə uzun müddət Pərinin gözəlliyindən həzz aldı, onu qucaqlayıb, nişanlısı adlandırdı və toy gününü təyin etdi.

Hindistan padşahının sarayında şahzadə ilə gözəl Pərinin qırx gün toyunu etdilər. Şahzadə gözəl Pəri ilə şad-xürrəm yaşadı. Bir neçə ildən sonra onun iki oğlu oldu.

Günlərin bir günü bu xoşbəxt ailə oturub yemək yeyirdi. Pəri diqqətlə uşaqlarına baxdı və ərinə dedi:

– Əzizim, mənim də atam, anam var. Olarmı, mən ata-anamla görüşmək, uşaqlarımızı onlara göstərmək üçün bir müddətə səndən ayrılım?

Əri cavab verdi:

– Qərar sənindir, mən sənə qohumlarınla görüşməyə mane olmuram. Yola düş, qoy Allah səni hər cür qada-bəladan qorusun.

Ertəsi gün şahzadə özünün əziz Pərisini uzaq yola hazırlamağa başladı. O, arvadının yanında vəziri və bir neçə nəfər nökəri bələdçi olaraq göndərdi.

Gözəl günlərdən birində səhər tezdən Pəri öz oğulları ilə birlikdə paytaxtdan yola çıxdılar. Vəzir və nökərləri ilə müşayiət olunan Pəri çoxmu yol getdi, azmı yol getdi, məlum deyil. Bircə o, məlumdur ki, səyahətin birinci günü axşama yaxın düşərgə salmaq qərarına gəldilər.

Nökərlər çadırları qurdular, hamı üçün yemək bişirdilər və yeni əmrlər gözlədilər. Axşam şam yeməyi yeyildikdən sonra vəzir nökərlərə dedi:

– Sədaqətli nökərlər, gözünüz bizim çadırlarda olsun. Siz bütün gecəni oyaq qalmalısınız və çadırlarımızın qaravulunu çəkməlisiniz ki, yaman adam gecə vaxtı bizə zərər vurmasın.

Hamı yuxuya getdi, nökərlər isə çadırların qaravulunu çəkməyə başladılar. Gecə rahat keçdi. Səhər hamı yola çıxmağa hazırlaşmağa başladı. İkinci günün axşamı səyahətçilər daha çox yoruldular və dincəlməyə dayandılar.

Vəzir nökərlərə dedi:

– İndi siz yatın, mən özüm çadırların qaravulunu çəkəcəyəm.

Nökərlər yatdılar, vəzir isə yaxında qadının olmasından imrənərək Pərinin çadırına yaxınlaşdı və dedi:

– Əzizim Pəri, nə qədər ətrafda sakitlikdir, mənim yanıma gəl!

Pəri cavab verdi:

– Yaramaz adam, bu olmayacaq.

Pəri bunu dedi və nifrətlə vəzirə baxdı. Amma vəzir sakitləşmədi və köməksiz arvada daha çox sataşmağa başladı.

Belə olduqda Pəri dedi:

– Yaxşı, mən razıyam, amma mənə bir dəqiqəliyə çadırdan çıxmağa imkan ver!

Vəzir dedi:

– Get, amma icazə ver, sənə ip bağlayım, ürəyimə damıb ki, qaçacaqsan. Onda mən ərinin qəzəbinə düçar olacağam.

Vəzir dediyi kimi etdi. Pəri iplə bağlı halda çadırdan çıxdı, ipin bir ucu vəzirin əlində idi. Pəri ipin ucunu bir ağaca bağladı, özü isə tələm-tələsik uzaqlaşıb getdi.

Başıbəlalı Pəri şəhvətpərəst vəzirdən çox, lap çox qaçdı və yolda qoyun otaran bir çobana rast gəldi. Pəri çobana yaxınlaşıb dedi:

– Əziz çoban, mənə öz geyimini ver, mən burada qalıb sürünün keşiyini çəkəcəyəm. Sən isə ananın yanına get və ona de ki, məni öz yanına götürsün. Mən sənə ərə getmək istəyirəm.

Çoban bu gözlənilməz işə çox sevindi, tələsik təğyir-libas oldu, öz sevincini anasına bildirmək üçün onun yanına qaçdı.

Bu arada çoban gözdən itəndən sonra Pəri sürünü başlı-başına buraxıb, ata-anasının yaşadıqları şəhərə yönəldi.

Pəri atasının evinə gəlib xəbər aldı:

– Əziz adamlar, məni özünüzə xidmətçi götürərsinizmi?

– Cavan oğlan, əlindən nə iş gəlir?

Pəri cavab verdi:

– Aşpazlığı bilirəm.

Tacir razı oldu, Pəri isə təcrübəli aşpazı əvəz etdi. Hamı yeni aşpazdan razı qaldı.

Bu arada çoban öz gözəlini sürünün yanında tapmayıb, onu axtarmağa getdi. O, Pərini xeyli axtardı, axırda onun ata-anasının yaşadığı şəhərə gəlib çıxdı. Çoban bir tacirin qapısını döydü və onlarda gecələməyə yer istədi. Tacir ona gecələməyə yer verdi və öz evinə dəvət etdi. Bu, Pərinin atası idi.

İndi görək vəzirin başına nə iş gəldi. O, Pərini iplə bağlayıb onu xeyli gözlədi, amma heç kim gəlmədi. Vəzir ipi xeyli çəkdi, sonra çadırdan çıxıb anladı ki, Pəri qaçıb getmişdir. O, qəzəb içində çadıra qayıtdı və şahzadənin iki oğlunu öldürdü. Səhər nökərlərə dedi ki, bəs hal-qəziyyə belədir, gecə quldurlar hücum etdi, uşaqları öldürüb, gözəl Pərini özləri ilə apardılar. Sonra

nökərlərlə birlikdə Hindistan padşahının paytaxtına qayıtdı, şahzadənin hüzuruna gəldi və ona dedi:

– Qibleyi-aləm, yolda bizə bir bədbəxtlik üz verdi. Quldurlar gecə vaxtı bizim düşərgəyə hücum etdilər. Sənin iki uşağını öldürdülər, sənin sevimli arvadını isə özləri ilə apardılar. Əmr et, məni ya öldürsünlər, ya da bağışlasınlar.

Şahzadə bu xəbəri eşidib acı-acı ağladı. O, öz arvadını və uşaqlarını çox sevirdi, amma nə etməli. Şahzadə bu bədbəxtliyə dözə bilmədi, dərviş geyimi geyindi, vəziri də yanına alıb yola çıxdı.

Şahzadə dərviş geyimində çox gəzib dolaşdı, çox əziyyətlər, məşəqqətlər çəkdi, axırda Pərinin ata-anasının və özünün isə aşpaz geyimində qulluq göstərdiyi həmin şəhərə gəlib çıxdı. Şahzadə bir tacirdən gecələmək üçün yer istədi. Bu tacir, sən demə, Pərinin atası imiş. O, Allahdan qorxan adam idi və onlara gecələməyə yer verdi. Qonaq Allahın qonağıdır, buyurun evə!

Şahzadə və vəzir onun evində qonaq qaldılar. Nişanlısını axtaran çoban da burada idi.

Dərvişlə vəzir tacirin evinə daxil olan kimi səhər yeməyi hazırlayan Pəri onları – sevimli ərini və mənfur vəziri tanıdı. Pəri daha əvvəl atasının evində yaşayan ürəyiyumşaq çobanı da tanımışdı.

Amma nə atası, nə qardaşı, nə də qonaqlardan heç biri onu tanımadı. Pəri özünü tanıtmaq üçün əlverişli məqam gözləyirdi.

Tacir qonaqlar üçün dadlı yeməklər hazırlatdırdı, yeməyə köhnə dostu mollanı da çağırdı. Yeməkdən sonra ailənin hamısı bir yerə yığıldılar ki, qonaqların uzun hekayələrinə qulaq assınlar.

Şahzadə öz səyahətlərindən uzun-uzadı danışdı və sonra susdu. Qonaqpərvər tacir söhbəti davam etdirmək üçün dedi:

– Qoy hər hansı bir hekayəti bilən bir şey danışsın ki, darıxmayaq.

Aşpaz üçün məclisdəkilərə özünü tanıtmaq üçün bundan yaxşı fürsət olmazdı.

O, atasına müraciət edib dedi:

– Ağa, mən bir hekayət bilirəm, icazə ver, mən onu sizə danışım.

Məclisdəkilər hər tərəfdən, – “danış, danış”, – dedilər. Aşpaz dərindən nəfəs aldı və danışmağa başladı:

– Bir tacir var idi. Onun Zülfüqar adında oğlu və Pəri adında qızı var idi. Tacir qızına dərs öyrətmək üçün onu mollaya verdi, özü isə başqa vilayətə alver etməyə çıxıb getdi.

Bu vaxt tacir, şahzadə və Zülfüqar qulaqlarını şəklədilər, molla narahat oldu və qorxuya düşdü. Pəri danışmağa davam etdi:

– Tacirin qızı molla ilə evdə qaldı, amma bu mənfur adam qıza dərs öyrətmirdi, onu düz yoldan azdırmağa başladı. Pəri onu sevməkdən imtina etdi, o isə yazıq qıza atasının yanında iftira atdı.

Bu vaxt molla ayağa qalxdı və qışqırdı ki, bu aşpaz ağlını itirib və onu buradan qovmaq lazımdır. Amma tacir mollanı yerində oturtdu və aşpazdan təvəqqe etdi ki, sözünə davam etsin. Məclisdəkilər də bu fikirdə idilər. Aşpaz danışmağa davam etdi.

– Ata oğluna bacısını öldürməyi əmr etdi, amma Zülfüqarın qıza yazığı gəldi, o, bacısının köynəyini dovşanın qanına buladı və onun atasına gətirdi.

Zülfüqar və atası “davam et, davam et” deyərək aşpazı səbirsizliklə tələsdirdilər. O, sözünə davam edərək dedi:

– Pəri lüt anadangəlmə meşədə bir ağacın koğuşunda yaşamağa başladı, Hindistan şahzadəsi gəldi, Pərini evinə apardı, onu sevdi və onunla evləndi.

Dərviş ucadan səslənərək dedi:

– Yalvarıram sənə, davam et, Pəriyə nə oldu?

Aşpaz davam etdi:

– Pəri öz qohumları ilə görüşmək istədi. Şahzadə onu müşayiət etmək üçün ona bir neçə nökər və vəzir verdi.

Bu anda vəzir narahat oldu və qorxdu. Dərviş isə danışanı tələsdirdi. Aşpaz davam etdi:

Birinci gecə padşahın nökərləri Pərinin çadırının keşiyini çəkdilər və gecə rahat keçdi. Vəzir nökərlərə ikinci gecə əmr etdi ki, yatsınlar, bu mənfur adam isə köməksiz Pəriyə yatağı onunla bölüşməyi təklif etdi.

Bu vaxt vəzir qışqırdı:

– Bu aşpaz dəli olub, o, yalan danışır.

Onu yerinə oturtdular və aşpazdan hekayətinə davam etməyi xahiş etdilər:

– Pəri şəhvətpərəst vəzirdən baş götürüb qaçdı. O, bir çobana rast gəldi, onun geyimini götürdü, təğyiri-libas oldu və həmin bu evə gəldi və burada aşpaz işləməyə başladı. Pəri bax budur!

Aşpaz bu sözləri deyib papağını və üst geyimini çıxartdı. Pərinin gözəl saçları çiyinlərinə töküldü və hamının qarşısında bir gözəl qız peyda oldu. Bir dəqiqəlik çaşqınlıqdan sonra tacir və dərviş onun boynuna sarıldılar, onun üzünü gözyaşı və öpüşlərə qərq etdilər. Atası gözlərində yaş ucadan dedi:

– Allaha şükürlər olsun, mənim məsum qızım tapıldı!

Çoban isə qışqırırdı:

– Mənim nişanlım tapıldı!

Şahzadə deyirdi:

– Yaradana şükür olsun, budur xanımım!

Molla və vəzir rəngləri ağarmış halda aralıda durmuşdular. Şahzadə onlara müraciətlə dedi:

– Həqiqət hər vaxt üstün gəlir, alçaqlığın isə üstü hər vaxt açılır.

Şahzadə nökərlərə əmr etdi ki, vəziri və mollanı doğram-doğram etsinlər. Nökərlər onun əmrini dəqiqliklə yerinə yetirdilər. Bundan sonra tacir evində böyük məclis düzəltdi, hamı sevinc içində idi. Hamı şahzadə və Pəriyə xeyir-dua verirdi.

Məclisdən sonra çobana çoxlu ənam verildi. Şahzadə öz Pərisi ilə xoşbəxt həyat yaşadı.

Şahzadə xanımının qohumları ilə atasının məmləkətinə köçdü və atasının taxtına çıxdı. O, Hindistan səltənətini idarə etməyə başladı, təəbələrinin sevimlisinə çevrildi.

Göydən üç alma düşdü, biri mənim, biri nağılı söyləyənin, , o biri isə – sizin dinləyənin, üçüncüsü sədəqə istəyən dilənçinin.

***Nağıl Yelizavetpol quberniyası, Cavanşir qəzasının Seydimli kənd sakini kəndli İsmayıl Əsgər oğlu Hacı Əhmədovun dilindən yazıya alınmışdır.***

## 3. QARAVƏLLİ

Şərq ölkələrinin uzaq kəndlərinin birində Ağaməmməd adında kasıb adam yaşayırdı. Onun bütün əmlakı bir uzunqulaqdan və iki öküzdən ibarət idi. Öküzlərdən biri ağ, digəri isə qırmızı idi. Qocanın Məmməd adında bir oğlu da var idi.

Amma qocaya bədbəxtlik üz verdi. Bir dəfə oğul atasına deyir:

– Ata, səninlə yaşamaq istəmirəm, səndən ayrılmaq istəyirəm.

Atası bir qədər düşünüb cavab verir:

– Yaxşı, oğlum. Amma bizim bir uzunqulaqdan və iki öküzdən başqa heç nəyimiz yoxdur. Nəyi bölüşəcəyik?

Oğlu deyir:

– Sən mənə ağ öküzü ver, mən onu sataram və onun puluna birtəhər dolanaram.

Atası ona bir məsləhət verdi.

– Oğul, satmaq üçün yaxşı olar ki, qırmızını götürəsən.

Oğlu razı oldu və qırmızı öküzü götürdü. Ertəsi gün bu öküzü satmaq üçün ən yaxın şəhərə apardı ki, şəhərdə satsın.

Şəhər tünlük idi. Onun əhalisi günahlı həyat tərzi yaşayırdı. Digər günahkarlar arasında isə qırx yalançı var idi. Onlar Məmmədi bazarda gördükdə, bir-bir gəlib onun başına yığılmağa başladılar.

Baş yalançı Məmmədi sınamaq üçün ona yaxınlaşıb dedi:

– Öz keçini neçəyə satırsan?

Məmməd isə cavabında dedi:

– Sənin ağlın azıb?! Məgər bu keçidir? Bu öküzdür və mən onu qırx manata satıram.

Yalançı dedi:

– Elə fərz edək ki, öküzdür, amma onun quyruğu çox uzundur, ona mane olur. Əgər sən onu qırx manata satmaq istəyirsənsə, quyruğu kəs, onda öküz daha gözəl olacaq.

Məmməd yalançının sözünə qulaq asdı və quyruğu kəsdi. Bu vaxt başqa yalançı Məmmədə yaxınlaşıb dedi:

– Öküzü neçəyə satırsan?

Məmməd cavab verdi:

– Qırx manata.

Yalançı dedi:

– Quyruğunu kəsmisən, amma öküzün buynuzlarını da mişarlasan, lap gözəl olacaq.

Məmməd buynuzları da mişarladı. Qalan yalançılar da yaxınlaşdılar və Məmmədi dövrəyə aldılar. Onlardan biri dedi:

– Öküz üçün nə qədər pul istəyirsən?

Məmməd cavab verdi:

– Qırx manat.

Yalançı dedi:

– Bu öküzü heç beş manata da almağa dəyməz. Bu necə öküzdür ki, onun nə quyruğu, nə də buynuzları var.

Axırda çox mübahisədən sonra öküzü cəmi beş manata aldılar. Məmməd narazı halda atasının yanına qayıdıb gəldi. Atası ondan xəbər aldı:

– Oğul, öküzü neçəyə satdın?

Məmməd hirslə cavab verdi:

– Məgər sən mənə öküz vermişdin? Sən mənə öküz verməmişdin. Bir keçi vermişdin. Əgər mən bu öküzün quyruğunu kəsməsəydim və onun buynuzunu mişarlamasaydım, mənə onun üçün əlli qəpik də verməzdilər. Mən onun quyruğunu kəsdiyim, buynuzlarını rədd etdiyim üçün mənə güclə də olsa beş manat verdilər.

Ağaməmməd təcrübəli adam idi, o saat işin nə yerdə olduğunu başa düşdü. O, öz-özünə fikirləşdi: "Yəqin, yalançılar mənim təcrübəsiz oğlumu aldadıblar. Amma mən onlara borclu qalmayacağam".

Budur, bir gün Ağaməmməd səhər tezdən uzunqulağını götürür və təcrübəsiz oğlunun belə məharətlə aldanıldığı şəhərə satmağa aparır. Uzunqulaq bir dəri, bir sümük olduğu üçün heç bir işə yaramırdı. Amma Ağaməmməd yalançıları tovlamaq üçün bir hiylə düşünüb tapdı. O əskiyə bükülmüş bir neçə qızıl sikkəni uzunqulağın quyruğunun altına qoydu.

Ağaməmməd öz uzunqulağını baZəhra satmağa gətirəndə qırx yalançı ona yaxınlaşdı. Onlardan biri dedi:

– Özünün ölü uzunqulağını neçəyə satırsan?

Ağaməmməd ləyaqətlə cavab verdi:

– Bu uzunqulaq mənim üçün bir xəzinədir. Onun xarici görkəminə baxmayın. Mən arzuladığım vaxt ondan min manat istəyə bilərəm.

Ağaməmməd bunu deyib uzunqulağın quyruğunun altından ustalıqla bir qızıl sikkə çıxartdı. Yalançıların hamısı bu möcüzədən heyrətə düşdülər. Onlar israrla Ağaməmmədin öz uzunqulağını onlara satmağı xahiş etdilər.

Amma Ağaməmməd onlara cavab verdi:

– Yox, mən öz xəzinəmi sizə verə bilmərəm. Mən bu uzunqulaqsız yaşaya bilmərəm.

Yalançılar Ağaməmmədlə çox mübahisə etdilər, onu dilə tutdular, axırda uzunqulağı ondan iki min manata aldılar.

Onlar şad-xürrəm uzunqulaqla evlərinə geri qayıtdılar və yol boyu heyvanın quyruğunun altından sikkələrin hamısını çıxartdılar. Evdə onlar arvad və qonşularının qarşısında özlərini göstərmək istədilərsə, uzunqulağın quyruğunun altından bir şey götürə bilmədilər. Onlar hirsli-hirsli heyvanın böyürlərini yumruqlamağa başladılar və yazıq heyvan yerə ölü düşdü.

Yalançılar lənət və söyüş yağdıraraq Ağaməmmədin yanına yönəldilər. Ağaməmməd yalançıların yaxınlaşmasından xəbər tutub yeni bir hiylə düşünüb tapdı. O, çöldə iki dövşan tutdu. Birini dirəyə bağlayıb evdə qoydu, başqasını özü ilə götürüb yalançıları qarşılamağa getdi. Ağaməmməd yalançıları hələ uzaqdan gördü və mehribancasına onları salamladı:

– Xoş gördük, əzizlərim!

Onların qəzəbini dağıtmaq üçün o saat öz dovşanına dedi:

– Oğul, get anana de ki, doyumlu nahar yeməyi hazırlasın, qohumlarım mənə qonaq gəliblər.

Hiyləgər qoca bu sözləri deyib dovşanı buraxdı, dovşan da qaçıb kolların arasında gözdən itdi. Yalançılar Ağaməmmədin hərəkətinə bir qədər təəccübləndilər və onun dəvətini qəbul etdilər. Onlar Ağaməmmədin evinə gəlib əmin oldular ki, dovşana deyilmiş hər şey dəqiqliklə yerinə yetirilib. Dovşanın özü isə dirəyə bağlı oturmuşdu. Yalançıların qəzəbi soyudu, qəzəb təəc-

cüblə əvəz olundu. Nahar yeməyindən sonra onlar Ağaməm-məddən yapışdılar:

– Sat, dovşanı bizə sat!

Amma Ağaməmməd isə qeyri-müəyyən cavab verirdi:

– Yox, dostlar, bu uzunqulaq deyil ki, siz onu məndən güc işlətməklə alasınız.

Yalançılar dedilər:

– Ağaməmməd, narahat olma, biz sənin uzunqulağından qəpik də olsa fayda görmədik. O, artıq ölüb.

Ağaməmməd təəccüblə uca səslə dedi:

– Siz nə danışırsınız?! Bəlkə, siz onu pulların hamısını bir dəfəyə verməyə məcbur etmisiniz, axı o cavandır. Ola bilsin ki, sizdən utanıb, çəkinib. Axı, siz onun üçün yeni adamlarsınız. Görünür, siz onunla bacarıqsız davranmısız və o, sizi başa düşməyib. Bəli, bacarıqsızlıq həmişə kədərli sonluqla bitir.

Yalançılar Ağaməmmədin sözünü kəsdilər:

– Lütfən, sən uzunqulağı boşla, onun haqqında bizə bir şey demə, ondansa dovşanı bizə sat.

Ağaməmməd dedi:

– Mən dovşanı satmaram, mənim ondan başqa bir oğlum yoxdur.

Uzun mübahisədən sonra yalançılar Ağaməmmədi yola gətirə bildilər və dovşanı ondan iki yüz manata aldılar.

Baş yalançı şəhərə gedən yolda dovşana dedi:

– Hə, oğul, anana de ki, biz acmışıq, bir nahar yeməyi bişirsin.

Dovşan sərbəst buraxılan kimi kolluqlara qaçıb gözdən itdi. Yalançılar evlərinə gəlib çatdılar və gördülər ki, nahar yeməyinə heç bir hazırlıq görülməyib.

Baş yalançı arvadının üstünə ucadan qışqırdı:

– Sən nə cürətlə günorta yeməyi hazırlamamısan, axı mən səni xəbərdar etmək üçün dovşanı bura göndərmişdim. Məgər o, sənə demədimi yemək hazırlamalısan?

Arvadı cavab verdi:

– Sənin ağlın çaşıb? Nə dovşan? Sizdən başqa bura heç kim gəlməyib.

Yalançılar başa düşdülər ki, Ağaməmməd yenə də onları aldadıb. Onlar bir də Ağaməmmədin yanına getdilər ki, onun yalanını ifşa etsinlər və pullarını geri alsınlar.

Ağaməmməd öncədən öyrəndi ki, yalançılar onun yanına gəlirlər və özləri də çox qəzəblidirlər, hətta onu öldürə bilərlər. O, məsləhət üçün arvadını yanına çağırıb ona dedi:

– Arvad, budur, mən bir hiylə də düşünüb tapdım. Mən qoyun bağırsağı tapıb, ona qan doldurub, sənin boğazına dolayaram. Yalançılar buraya gələndə mən sənə qışqıracağam. Əlimdəki xəncərlə sənin üstünə gedib boğazındakı bağırsağı kəsəcəyəm. Qan axan kimi, sən yerə yıxıl və özünü ölülüyə vur. Mən isə bu vaxt tütək düzəldərəm və sənin boğazına üfürəcəyəm. Onda sən sakitcə özünə gəl və ayağa qalx!

Ağaməmməd arvadı ilə sözləşib, yalançıları qarşılamağa getdi. O, yalançılarla görüşdüyü vaxt mehribanlıqla onları salamladı və nəzakətlə onları evinə dəvət etdi. Yalançılar hələlik ona bir söz demirdilər və həvəslə onun dəvətini qəbul etdilər. Ağaməmmədin evində isə heç bir hazırlıq görülməmişdi. Hiyləgər qoca dərhal arvadına yaxınlaşdı və hirslə onun üstünə qışqırmağa başladı ki, nə üçün yemək hazırlamayıb. Ağaməmməd sonra arvadının üstünə atılıb bağırsağı kəsdi, qan axıb töküldü, arvadı isə yerə yıxılıb özünü ölülüyə vurdu. Yalançıların hamısı ah çəkdi. Onlar Ağaməmmədin üstünə qışqırırdılar.

– Sən ağlını itirmisən, bəlkə də, arvadın çatdırıb işlərini görə bilməyib, bir də biz o qədər də ac deyilik.

Ağaməmməd onları sakitləşdirdi:

– Qardaşlar, qorxmayın, mən elə indicə onu dirildə bilərəm, amma siz əvvəlcə mənə dovşandan bir xəbər verin.

Yalançılar başlarına gələn hal-qəziyyədən yerli-yataqlı onu agah etdilər. Ağaməmməd onları dinləyib dedi:

– Siz özünüz günahkarsınız, burada mənim bir günahım yoxdur. Siz nə üçün dovşanı özünüzə xidmət etməyə məcbur etdiniz. Sizin evi o, hələ tanımır və sizinlə hələ gərəkincə tanış deyildi. Sizin nə üçün səbriniz yoxdur? Siz nə üçün yazıq

dovşana özünün yeni vəziyyətinə alışmaq üçün vaxt vermədiniz? Yox, özünüz özünüzü təqsirli bilin!

Yalançılar Ağaməmmədin sözlərinə bir şey demədilər. Onlar Ağaməmmədə inandılar və özlərinə haqq qazandırmadılar.

Ağaməmməd onları sakitləşdirib tütəyi əlinə aldı və onunla arvadının boğazına üfürməyə başladı. Arvadı yavaş-yavaş nəfəs almağa başladı, gözlərini açdı, axırda ayağa qalxdı.

Yalançılar təəccübdən yerlərində quruyub qaldılar, dedilər:

– Bax, möcüzə budur! Neçə illərdir dünyada yaşayırıq, gördüyümüzü görmüşük, amma belə şey görməmişik.

Tütək yalançıların çox xoşuna gəlmişdi və onlar yeyib-içdikdən sonra Ağaməmməddən israrla möcüzəli əşyanı onlara satmaq üçün xahiş etməyə başladılar. Amma Ağaməmməd onlara dedi:

– Qardaşlarım, bu nə uzunqulaqdı, nə də dovşan. Mən qızğın, səbirsiz adamam. Az qala hər gün arvadımı öldürürəm və yalnız bu tütəyin köməyi ilə onu huşa gətirirəm və dirildirəm. Mən onu necə sata bilərəm?

Amma yalançılar əl çəkmədilər və uzun sürən yalvarışlardan sonra üç yüz manata aldılar. Onlar əcaib bazarlıqla şəhərə getdilər. Onlardan hər biri evə gələr-gəlməz arvadlarının üstünə atılıb, boğazlarını kəsdilər, sonra isə növbə ilə tütəyi əlinə alıb, arvadlarını diriltmək istədilər. Lakin ölü arvadlarını diriltmək üçün etdikləri ciddi-cəhd boşuna getdi, tütək öz vəzifəsini yerinə yetirmədi. Yalançıların səbir kasası daşdı, onlar Ağaməmmədə qeyzləndilər:

– Gedək, elə indicə onu öldürək.

Dedilər və Ağaməmmədin yanına yola düşdülər. Ağaməmməd isə yalançıların gələcəklərini bilib arvadına dedi:

– Arvad, əgər onlar indi gəlsələr, məni öldürəcəklər. Mən onlardan özümü necə qurtaracağımı bilirəm. Kifayət qədər onlardan intiqam aldım. Sən dur, mənə qəbir qaz və məni diri-diri basdır. Qəbrin üstündən bir deşik qoy ki, mən sərbəst nəfəs ala bilim və bayırda nə baş verdiyini görə bilim. Sən mənim yanıma bir neçə kabab şişi və yanan manqal qoyarsan. Yalançılar gələndə sən onları gözüyaşlı qarşılayıb de ki, bəs, Ağa-

məmməd rəhmətə gedib, indi kim məni yedirəcək, içirəcək, geyindirəcək, keçindirəcək.

Hiyləgər qoca nə demişdisə, arvadı onu etdi.

Yalançılar hələ uzaqdan Ağaməmmədin acı-acı ağlayan gözüyaşlı arvadını gördülər. Onlar hər tərəfdən onu sorğu-suala tutdular:

– Nə olub? Nə baş verib? Sizdə hansı bədbəxtlik baş verib, Allah sizi nə ilə incidib?

Ağaməmmədin arvadı onlara söylədi ki, onun mərhəmətli əri rəhmətə gedib, onun özünün isə bədbəxtliyinin həddi-hüdudu yoxdur. Yalançılar onu inandırmağa çalışdılar ki, Ağaməmməd onlara çox yaxşılıqlar edib, dua etmək üçün onun qəbrini onlara göstərməyi xahiş etdilər. Qoy Allah-Təala onun yerini cənnətlik etsin. Arvadı ərinin qəbrini onlara göstərdi. Yalançılar düşmənlərinin qəbrinə yaxınlaşdıqda orada deşik gördülər və dedilər:

– Bu yaramaz bizə çox pisliklər edib, gəlin onun qəbrinə tüpürək.

Yalançılardan biri bu sözlərlə deşiyə yaxınlaşdı və hirslə tüpürməyə başladı. Amma o saat qızdırılmış şiş onun gözünə batdı. O, dəhşət içində kənara atıldı:

– Bu, necə günahkardır ki, onun qəbrindən od çıxır!

Başqa yalançılar ona inanmadılar, onlar da qəbrə tüpürməyə başladılar və Ağaməmməd birinci yalançının başına gətirdiyini onlara da etdi. Hər birinin gözü şişdən kor oldu. Yalançılar evlərinə geri döndülər.

Onda Ağaməmməd qəbirdən qalxdı, arvadının yanına gəlib dedi:

– Hə, arvad, onlar mənim oğlumu bir dəfə aldatdılar, mən isə onları üç dəfə aldatdım və onları hətta şikəst etdim.

***Nağıl Yelizavetpol quberniyasının Cavanşir qəzasının Seydimli kəndində qaraçıların dilindən yazıya alınmışdır.***

# 4. ŞAHZADƏ HƏSƏNİN NAĞILI

Bir vaxtlar padşah yaşayırdı. Padşahın çox mehriban, xeyirxah bir arvadı var idi. Padşah öz arvadını heç sevmirdi, zavallıya çox əziyyət verirdi. Odur ki, padşahın arvadı vaxtsız öldü. Özündən sonra altı oğlu qaldı. Padşah öz oğulları ilə çox qəddar idi.

Bir dəfə padşah oğullarını yanına çağırıb dedi:

- Siz hamınız yetkinlik yaşa çatmısız, mən sizi evləndirmək istəyirəm. Mənə öz oxlarınızı və yay verin. Kimin oxu dənizin üzərindən keçsə, o da evlənəcək, kimin oxu dənizə gedib çatmasa və dənizə düşsə, o, həmişəlik subay qalacaq. Padşah necə dedi, eləcə də elədi. O, oxları bir-birinin ardınca dəniz üzərindən buraxmağa başladı. Bütün oxlar dənizə düşdü. Yalnız bir ox, kiçik şahzadə Həsənin oxu dəniz üzərindən ötüb keçdi. Padşah kiçik şahzadə Həsənə dedi:

- Evlənəcək adam bax budur. İndi sən mənimlə yaşaya bilməzsən, öz payını götür və istədiyin yerə get.

Həsənə qardaşlarından ayrılmaq nə qədər çətin olsa da, o, atasının sözünə əməl elədi. Özünə lazım olan şeylər götürüb getdi. Həsən gedə-gedə gəlib göy dənizə çatdı. O, dənizin sahilində kiçik bir ev tikdi və orada yerləşib yaşamağa başladı. Həsən özünə yemək bişirir, otaqları özü təmizləyir, sahmana salırdı. O, hər gün ova və ya balıq tutmağa gedir, qayıdanda isə özünə yemək bişirməyə başlayırdı.

Bir dəfə şahzadə Həsən ovdan gəldi və gördü ki, onun bütün otaqları təmizlənib, yuyulub və günorta yeməyi də hazırdır. Bu kim ola bilər?, – şahzadə öz-özünə fikirləşdi və yemək yeməyə oturdu. İkinci gün ovdan qayıdıb gördü ki, hər şey yenə də hazırdır. Üçüncü gün də hər şey təkrar olundu. "Evdə qalıb baxacağam, kim mənim qayğıma qalır". Həsən dördüncü gün qərara gəldi. Şahzadə masanın altına girdi və baxmağa başladı. Az bir vaxtdan sonra gördü ki, dənizdən bir qurbağa çıxdı və onun evinə tərəf gəlir. Qurbağa otağa girib gözəl bir qıza çevrildi. İşıq şahzadənin gözündə qaraldı, uzun müddət özünə gələ bilmədi.

Gözəl qız yemək hazırladı və dənizə getdi. Şahzadə masanın altından çıxdı, dadlı nahar yeməyindən yedi. Ertəsi gün yenə

masanın altına girdi. Yenə həmin qurbağa dənizdən çıxdı. Həsənin otağında gözəl qıza çevrildi və günorta yeməyi hazırlamağa başladı. Şahzadə fürsət tapıb qızı tutub, dedi:

- Gözəl qız, mən səndən ayrılmayacağam, mənim arvadım ol.

Qız dedi:

- Əgər istəyirsən ki, sənə ərə gedim, mənə söz ver ki, evinə nə dəlləyi, nə də dəyirmançını gətirməyəcəksən. Sən bu adamlardan heç vaxt fayda görməyəcəksən.

Şahzadə dəniz gözəlinə söz verdi. Tale onlar üçün bir ağır sınaq göndərməyənədək şahzadə arvadı ilə dəniz sahilində xoşhal həyat yaşamağa başladı.

Şahzadə Həsən bir dəfə öz evinin ətrafında atasının evinin yaxınlığında yaşayan dəlləyi gördü. O, dəlləyi yanına çağırdı, ordan-burdan söhbət edib dedi:

- Başımı qırx!

Dəllək onun başını qırxdı və padşahın sarayına getdi. Padşah onu görüb hirsləndi və qışqırdı:

- Sən necə cürət edib yanıma bu qədər gec gəldin. Bu vaxta qədər harada idin?

Padşah cəllada əmr etdi ki, bədbəxt dəlləyin boynunu vursun. Son anda dəllək padşaha yalvardı:

- Qibleyi-aləm, boynumu vurdurma, əmr et ki, məni əfv etsinlər. Sənə çatacaq bir xəbərim var.

Padşah izin verdi və dəllək sözə başladı.

- Mən indi sənin oğlun Həsənin yanında idim və onun arvadını gördüm. O, elə gözəldir ki, oğlan ona layiq deyil. Yalnız sənin haqqın var ki, öz sarayında belə bir inciyə malik olasan.

Padşah vəzirlərini yanına çağırıb dedi:

- Mənə bir məsləhət verin, onun gözəlçə arvadını əlindən necə almaq olar?

Baş vəzirlərdən biri padşaha yaxınlaşıb dedi:

- Qibleyi-aləm, oğluna əmr et ki, kiçik bir qazanda sənin bütün qoşununa yemək bişirsin, bir də bütün qoşunun kölgəsində yerləşə bildiyi xalça toxusun. O, sənin əmrlərini yerinə yetirə

bilməyəcək, onda sən də onun boynunu vurdurarsan, özün də onun gözəl arvadına sahib olarsan.

Vəzirin məsləhəti padşahın xoşuna gəldi. O, Həsəni yanına çağırıb dedi:

- Mənim bütün qoşunumu bir xalçaya yerləşdir və onlar üçün kiçik qazanda yemək hazırla.

Həsən arvadının yanına qanıqara qayıdıb, padşah atasının əmrindən danışdı.

Arvadı dedi:

- Əziz ərim, qorxma, bu göründüyü qədər də çətin deyil, gəl mənimlə dəniz tərəfə gedək.

Həsən arvadı ilə dənizə tərəf getdi və sahildə durdular. Burada onun arvadı öz bacısını çağırmağa başladı. Bir neçə dəqiqədən sonra su aralandı və gözəl bir qız sahilə çıxdı. Şahzadənin arvadı ondan xahiş etdi.

- Bacı, get bizim kiçik xalçamızı və qazanımızı gətir.

Qız elə anında böyük bacısının xahişini yerinə yetirdi.

Həsənin arvadı sevincək evə gəlib, yemək hazırlamağa başladı. Həsən özü isə padşahın yanına getdi ki, onu qoşunu ilə günorta yeməyinə çağırsın. Padşah özünü çox da gözlətmədi və ordusu ilə oğlunun yanına gəldi. Qoca padşahın bütün ordusu kiçik xalçaya yerləşdi, hələ boş yer də qaldı. Padşah və qoşunu doyunca yemək yedi, qazan isə hələ heç boşalmamışdı. Padşah evinə hirsli qayıtdı. Vəzirləri çağırıb dedi:

- Bu dəfə bir şey olmadı, başqa məsləhət eyləyin.

Padşahın vəzirləri çox məsləhətləşdilər, nəhayət, elə həmin vəzir dedi:

- Qibleyi-aləm, sənin ləl-cəvahiratla dolu sandığın var, sandığın açarı isə rəhmətlik arvadındadır. Qoy Həsən gedib açarı gətirsin ki, sən sandığı aça biləsən. O, heç vaxt bu tapşırığı yerinə yetirə bilməz və sən də onun arvadına sahib olarsan.

Onda padşah Həsəni bir də çağırıb dedi:

- Rəhmətlik anandan açarı götür ki, mən ləl-cəvahirat olan sandığı aça bilim. Əgər əmrimi yerinə yetirməsən, boynunu vurduracağam.

Şahzadə kədər içində arvadının yanına gəldi və dərdini ona danışdı. Lakin arvadı onu sakitləşdirib dedi:

- Gedək mənimlə.

Onlar dənizə tərəf gəldilər və sahildə dayandılar. Həsənin arvadının əl hərəkəti ilə dəniz aralandı və Həsən iki yol gördü. Arvadı ərinə dedi:

- Bu yol mən yaşadığım yerə gedir. O yol isə ananın olduğu yerə gedir. O yolla axıradək get. Cəhənnəmə və cənnətə çatacaqsan. Əvvəlcə cəhənnəmin qapısını döy, əgər o açılsa, anan orada olacaq, əgər açılmasa, rahatca cənnətin qapısını döy.

Həsən arvadının məsləhətini dinləyib yola düşdü.

Şahzadə dənizin dibi ilə az getdi, üz getdi, iki öküzlü bir qoca kişiyə rast gəldi. İki öküz onun saqqalını yeyirdi. Həsən çox təəccübləndi. Saqqallı kişiyə yaxınlaşıb xəbər aldı:

- Ay yaxşı insan, sən niyə öküzlərə izn verirsən ki, sənin saqqalını yesin.

Qoca dedi:

- Əzizim, sən elə yolla gedirsən ki, bu yolla gedən bir daha geri qayıtmır. Əgər sən geri qayıtsan, mən hər şeyi sənə nəql edəcəyəm.

Şahzadə yoluna davam etdi və qəribə bir şeyə rast gəldi.

Bir neçə gənc bir nəfəri çay üzərində körpü olmağa məcbur edərək, qəddarcasına döyürdülər. Həmin adam körpü olmağa razı olduqda Həsən o bədbəxtə yaxınlaşıb xəbər aldı:

- Nə üçün adamların sənin üzərindən körpü kimi keçmək istəyi ilə razılaşırsan?

O dedi:

- Gözəl insan, əgər sən geri qayıtsan, sənə izah edərəm.

Şahzadə yoluna davam edir, qarşısına isə südü bir vedrədən digər vedrəyə, gah da əksinə geri tökən bir adam çıxır. “Bu nə işdir?”- deyə Həsən həmin adama yaxınlaşıb xəbər aldı:

- Sən niyə boş yerə özünə əziyyət verirsən?

Həmin adam cavab verdi:

- Geri dönərsən, onda da izah edərəm, məsələ nə yerdədir.

Şahzadə yoluna davam edir. Bir yığın yumurtanı iplə bağlayan bir adama rast gəlir şahzadə qışqırır:

- Sən ağlını çaşmısan, heç bir yığın yumurtanı iplə bağlamaq olar?

Həmin adam cavab verdi:

- Şahzadə təəccüblənmə, yoluna davam et, geri qayıdarsan, izah edərəm.

Həsən yoluna davam edir, yolda daha qəribə bir işə şahid olur. O, saçları ilə ağacdan asılmış iki arvad görür, onların üzlərinə iynələr, dəmir parçaları və digər iti şeylər batırılmışdı. Həsən bədbəxt arvadlara yaxınlaşıb xəbər aldı.

- Kim sizi bu əziyyətlərə qatlaşmağa məcbur edir?

Arvadlar cavab verdilər:

- Şahzadə, sən öz yolunla get, əgər qayıtsan, hər şeyi nəql edərik.

Şahzadə Həsən yavaş-yavaş yoluna davam etdi. Bir qədər getdikdən sonra üç nəfər görür: onlardan biri kiçik dilim buğda çörəyi, digəri bütöv buğda çörəyi, üçüncüsü isə quru və boyat arpa çörəyi yeyirdi. Şahzadə onlara yaxınlaşıb xəbər aldı.

- Nə üçün sizlərdən biri çörək dilimi, digəri bütöv, digəri arpa çörəyi yeyir?

Hər üçü cavab verdi:

- Geri dönərsən, nəql edərik.

Şahzadə yoluna davam etdi. Cəhənnəm və cənnət olduğu yerə çatdı. Həsən cəhənnəmin qapısını döydü, qapı açılmadı, sonra cənnətin qapısını döydü, qapılar açıldı. Şahzadə mələklərin əhatəsində qızıl qoltuqlu kürsüdə oturmuş anasını gördü. O, oğlunu görcək yerindən qalxdı, şahzadəyə yaxınlaşdı və onu bərk-bərk öpməyə başladı. Sonra ondan xəbər aldı:

- Oğlum, sən haradan gəlib bu müqəddəs yerə çıxmısan?

Şahzadə ona qəddar atasından və əmrlərindən danışdı.

Anası dedi:

- Oğlum, narahat olma, yadımdadır ki, açarı mən sarayın astanasının altında gizlətmişdim, get onu götür və atana ver. Allah eləsin, zalım vəzirin fitnə-fəsadından qurtarasan və qoy za-

lım vəzir tulaya, sənin atan isə dovşana çevrilsin və it dovşanı qovsun.

Həsən anası ilə vidalaşdı, geri qayıdanda çörək yeyən üç nəfəri görüb dedi:

- Budur, mən qayıtdım, məsələni mənə izah edın!

Onlardan birincisi dedi:

- Mən işıqlı dünyada yaşayanda hər zaman dilənçilərə kiçik parça çörək verirdim, yoldaşım məndən əliaçıq idi, bir çörək verirdi, digər yoldaşım isə özünə yaxşı çörək saxlayıb, dilənçilərə həmişə arpa çörəyi verirdi. Budur, indi biz haqq etdiyimizi alırıq.

Şahzadə sonra saçlarından asılmış arvadlara yaxınlaşıb soruşdu:

- Mənə bir deyin, sizi saçlarınızdan kim asıb?

Arvadlardan biri dedi:

- Biz gənc və gözəl olanda, işıqlı dünyada yaşayanda hamı bizə baxırdı, biz ağılsızlar isə üzümüzü çadra ilə örtmürdük, sərbəst şəkildə ərlərimizin icazəsi olmadan üzlərimizi, saçlarımızı kənar adamlara göstərirdik. Buna görə də indi biz ağır əzabları çəkirik.

Sonra şahzadə bir yığın yumurtanı bağlamaq istəyən gənc oğlanın yanına gəlib dedi:

- Hə, öz sirrindən mənə danış, mən artıq qayıtmışam.

Cavan oğlan cavab verdi:

- Mən yaşayanda yumurta oğurluğu ilə məşğul olurdum, bax, bunlar hamısı mənim oğurladığım yumurtalardır. Mən onları iplə bağlayıb, çiynimə alaraq oğurladığım adamlara aparmalıyam. Əgər mən bunu edə bilməsəm, həmişə əzablar çəkəcəyəm.

Şahzadə südü bir qabdan o biri qaba tökən adama yaxınlaşır deyir:

- Mən geri qayıtdım, öz sirrini mənə izah et.

O adam cavab verir:

- Mən sağ olanda süd alveri edirdim, süd ilə suyu hər zaman qarışdırırdım. İndi məni məcbur edirlər ki, suyu süddən ayırım. Bax, indi mən sağ olduğum vaxtda olduğum kimi südlə məşğulam.

Şahzadə yoluna davam etdi və körpünü əvəz edən adama yaxınlaşdı. Həsən qışqırdı:

- Dost, bir mənə de görüm, nə üçün körpünün işini görürsən?

Bədbəxt adam dedi:

- Mən işıqlı dünyada yaşadığımda körpüdən odun parçası oğurladım. Buna görə də məni indi çayın üstündən aşırıblar, körpüdə olduğu kimi üstümdən keçirlər.

Həsən yoluna davam etdi və nəhayət, iki öküzün saqqalını yediyi adama çatdı. Həsən ondan xəbər aldı:

- Qoca, mənə de görüm, sənin sirrin nədədir?

Qoca cavab verdi:

- Sirrim budur ki, mən qonşumla tarlaya getmişdim, onun da bir cüt öküzü var idi, mənim də. Qonşum öz öküzlərinə saman verəndə mən gizlicə gəlib samanı öz öküzlərimin qabağına qoyurdum. Elə ki, mən öldüm, o gündən qonşumun öküzləri saqqalımı yeyirlər.

Bir az keçmiş şahzadə Həsən arvadının onu gözlədiyi yerə çatdı. Onlar birlikdə dənizdən çıxıb öz evlərinə gəldilər.

Ertəsi gün atasının yanına getdi, sarayın astanasının altından açarı götürüb atasına verdi.

Padşah ata təəccübləndi və qəzəbdən üzü daha da tutuldu. O, üçüncü dəfə öz vəzirlərini yığıb dedi:

- Mənə yenə bir məsləhət verin. Həsənin əlindən gözəl arvadını necə alım, bu günə kimi sizin məsləhətlər heç bir fayda vermədi.

Vəzirlər çox götür-qoy etdilər. Nəhayət, baş vəzir dedi:

- Qibleyi-aləm, oğlunu çağır və ona əmr et ki, elə bir at tapıb gətirsin ki, sən onun üstündə oturarkən öz sarayından hündür olasan.

Padşah elə də etdi. Həsəni yanına çağırdı və ona bu tapşırığı verdi, onu da dedi ki, əgər yerinə yetirməsə, edam olunacaq.

Şahzadə ağladı və arvadının yanına getdi. O, ərinin göz yaşlarını görüb ona təskinlik verdi.

- Qorxma, bu sınaqdan da çıxarıq, mənim ardımca dənizə tərəf gedək.

Şahzadə Həsən dənizə tərəf yaxınlaşdı, dəniz aralandı və dənizin dibində çox böyük bir daş gördü. Arvadı dedi:

- Sən bir çəkic, kəlbətin və iki nal götür. Bu daşın arxasında gizlən və gözlə, bir müddətdən sonra bir neçə dəniz madyanı daşın yanına balalamağa gələcək. Onların arasında bir qara madyan da gələcək. Bu qara madyan balalayanda dayçanı nalla, amma çalış ki, gözə dəyməyəsən. Ağrıdan dayça dil açıb danışacaq:

- Əgər kimin məni nalladığımı bilsəydim, hökmən onu öldürərdim.

Ağrı kəsiləndə isə dayça yüngüllük hiss edib deyəcək:

- Əgər kimin məni nalladığımı bisəydim, ona istədiyi mükafatı verərdim.

Onda sən daşın arxasından çıx və dayçanın anasından xahiş et ki, onu sənə versin.

Həsən elə də etdi. O, daşın arxasında oturdu və gözləməyə başladı. Bir qədər sonra müxtəlif rəngli madyanlar balalamaq üçün gəldilər. Şahzadə onların arasında qara madyanı gördü. Dayça ayaqlarında ağrı hiss edib qışqırdı:

- Bunu edəni öldürərdim.

Ağrı kəsiləndə, dayça özünü yaxşı hiss edəndə qışqırdı:

- Məni nallayanı mükafatlandırardım.

Onda şahzadə gizləndiyi yerdən çıxıb dedi:

- Mənə səndən yalnız bir şey lazımdır, qoy anan səni mənimlə getməyə buraxsın.

Madyan öz dayçasını buraxdı və şahzadə onunla birlikdə dənizdən çıxdı. Dayça böyüdü, nəhəng bir ata çevrildi. Onun başı padşah sarayından çox hündür idi. Şahzadə nəhəng atı yəhərlədi və atasının yanına apardı. Padşah atı gördüyündə heyrətə düşdü və qəribə ata minmək və gəzmək istədi. Padşah atın belinə mindi və çapdı, lakin birdən uğursuz dönmə vaxtı padşah atdan yerə düşdü. O, anında dovşana çevrildi və burada yaxınlıqda dayanan baş vəzir isə tulaya çevrildi və dovşanı dalınca qovdu. Hələ uzun müddət adamlar dovşanı təqib edən tulanı görürdülər.

Bundan sonra Həsənin sınaqları qurtardı və o, arvadı dəniz gözəli ilə əvvəlki kimi xoşhal bir həyat yaşamağa başladı.

İndi şahzadə artıq arvadının məsləhətini - heç bir faydası olmayan, bir şəhərdən o birisinə səyahət etməyi bacaran dəllək və dəyirmançını evinə çağırmamaq məsləhətini unutmurdu.

***Nağıl Yelizavetpol quberniyasının Cavanşir qəzasının Seydimli kəndində kəndli Qoca Bəxtəli oğlu Hacı Əhmədovun sözlərindən yazıya alınmışdır.***

## 5. BAHADIRLA BACISININ NAĞILI

Qədim vaxtlarda Ərəbistanda bir varlı tacir yaşayırdı. Onun Bahadır adında bir oğlu var idi. Bahadır çox ədəbli, mərifətli, rəhmli bir cavan idi. Tacirin bu oğuldan başqa övladı yox idi, amma bilirdi ki, arvadı boyludur. Odur ki, tacir əhd etdi, əgər qızı olsa, onu dərhal öldürəcək, əgər oğlu olsa, böyük qonaqlıq, şadyanalıq edəcək.

İş belə gətirdi ki, tacir yeddi illiyinə başqa vilayətə ticarətə getməli olur.

Tacir gedəndən sonra onun arvadı bir qız uşağı doğur. İllər, günlər keçir, qız böyüyür, gözəl qıza çevrilir, evin həyətində uşaqlarla oynayır.

Yeddi il tamam oldu, tacir evinə qayıtdı. O, evin həyətində qızı görüb, onun kim olduğunu xəbər aldı. Ona dedilər ki, bu uşaq onun öz qızıdır. Tacir dedi:

– Mən onu öldürməliyəm, çünki çoxdan belə əhd eləmişəm.

Tacirin oğlu Bahadır bunu eşitdi, bacısına ürəyi yanıb onu qurtarmaq fikrinə düşdü. Bir dəfə fürsət tapıb atını yəhərləyib, bacısını da tərkinə alıb, baş götürüb yola düşdü.

Bahadır bacısı ilə az getdi, üz getdi, axır gəlib böyük bir düzə çatdılar. Düzün ortasında bir gözəl saray var idi. Bahadır bacısı ilə saraya girdi, baxıb gördü ki, burada bir ins-cins yox-dur, odur ki, bacı-qardaş burada qalıb yaşamağa başladılar.

Bahadır hər gün ova gedir, bacısı isə evdə qalır və yemək bişirirdi.

Bir gün Bahadır ovda olanda bir axsaq div gəldi, onunla şirin söhbətə başladı:

- Bu ev altı div qardaşındır, mən də onlardan biriyəm. Mənim qalan beş qardaşım buradan çox uzaqda yer əkir, mən isə sarayın keşiyini çəkirəm.

O gündən div hər gün qızın yanına gəlir, onlar uzun-uzun söhbət edirdilər. Aylar keçir, Bahadır baxıb görür ki, bacısı hamilədir. Bir gün Bahadır bacısından xəbər aldı:

- Bacı, sənə nə olub?

Bacısı dedi:

- Qardaş, sən hər vaxt ovdasan, mən isə evdə tək qalıb darıxıram, heç yerə də çıxıb getmirəm. Buna görə də belə xəstələnmişəm.

Bahadır bacısına inandı və yığışıb ova getdi. O, ovda olan zaman div qızın yanına gəldi və dedi:

- Nə qədər ki, sənin qardaşın sağdır, bizim yaşayışımız rahat olmayacaq. O, ovdan qayıdanda ona de ki, şimaldan külək əsəndə bostanlardan xoş ətir gəlir. Gedib oralardan mənə qarpız gətirsəydin, doyunca yeyərdik. Qardaşın qarpız dalınca gedəndə mənim div qardaşlarım da onu bostanda görüb öldürəcək. Onda biz də rahat yaşayarıq, daha ondan gizlənmərik.

Qız da divin öyrətdiyi kimi etdi. Bahadır qarpız dalınca getdi.

Bahadır az getdi, üz getdi, gəlib div qardaşların bostanına çatdı. Bahadır atından düşüb qarpızları yığmağa başladı. Bu vaxt divlər Bahadırı gördülər və kiçik qardaşlarını göndərdilər ki, onu bostandan qovsun. Bahadır onu yıxdı, burun, qulaq və dodaqlarını kəsib bir yaylığa bükdü. Bahadır o biri divlərin də başına bu oyunu gətirdi. Sonra yenə qarpız yığıb, evə qayıtdı.

Axsaq div at tappıltısı eşidəndə qızın yanına gəlib dedi:

- Yenə də yaşayışımız düzəlmədi. Deyəsən, Bahadır mənim bütün qardaşlarımı öldürdü. İndi də bura gəlir. İndisə qulaq as, qardaşına de ki, şərq tərəfdən əsən küləkdən hiss etdim ki, orada nar bağları var, ürəyim nar istəyir. Qardaş, mənə nar gətirsən, bəlkə, bu xəstəlikdən sağalaram. Qardaşın divin sehrli sarayının yanında mütləq daşa dönəcək. Onda biz də kef içində həyatımızı sürərik.

Qız divin öyrətdiyi kimi etdi. O, qardaşını ora nar gətirməyə göndərdi. Özü isə çox keçmədən bir oğlan uşağı doğdu. Qız divə dedi:

- İndi mən qardaşıma nə deyəcəyəm?

Div onu sakitləşdirib dedi:

- Ürəyini sıxma! Əgər qardaşın geri qayıtsa, sən uşağı yola at, əgər Bahadırın ürəyi yumşaqdırsa, o, mütləq uşağı özü ilə gətirəcək.

Bu arada Bahadır atının belində nar gətirməyə gedirdi, atın yanında da uşaqlıqdan Bahadırın yanında olan iti qaçırdı. Yolun ortasında it birdən adam səsi ilə Bahadıra dedi:

- Ey mənim rəhmdil ağam, bax sən indi nar gətirməyə gedirsən, amma bilmirsən ki, səni bağda ölüm gözləyir. Sənin bacın axsaq divlə sənin ölümünü istəyirlər, diqqətli ol! Sən indi sehrli saraya yaxınlaşacaqsan və sarayın sahibini çağıracaqsan. Birinci dəfə çağırdıqdan sonra dizə kimi daş olacaqsan. İkinci dəfə çağırdıqdan sonra belə kimi daş olacaqsan. Bahadır, qorxma, üçüncü dəfə sarayın sahibini çağır. Üçüncü dəfə çağırdıqdan sonra indi olduğun kimi olacaqsan. Çox adam bu sarayın qabağında ölüb, çünki onlar tamam daş olmaqdan qorxaraq sarayın sahibini üçüncü dəfə çağırmağa qorxublar.

Bahadır it nə məsləhət görmüşdüsə, elə də etdi. O, atını sürüb böyük bağa yaxınlaşdı. Bağın ortasında zalım divin sarayı durmuşdu. Bahadır divi çağırmağa başladı. Birinci dəfədən sonra dizə kimi, ikinci dəfədən sonra belə kimi daş oldu. Bahadır divi üçüncü dəfə çağırdıqda əvvəlki kimi oldu. Bahadır divi daha gözləməyib saraya girdi və otaqların birindən inilti səsləri eşitdi. Bahadır otağa girdi, gördü ki, gözəl bir qız saçlarından asılıb. Qız onu görüb yalvardı:

- Ey cavan, bacarırsansa, məni bu cadulu yerdən azad et! Sən hansı yol ilə bura gəldin? Hələ heç bir bəni-adəmin ayağı bura dəyməyib.

Bahadır qızı azad etdi və birdən heç vaxt eşitmədiyi səs-küy, qışqırıq, ağacların şaqqıltısını eşitdi. Bir az keçmiş divin özü də gəldi. Div onun üstünə atılıb uca səslə dedi:

- Ey insan, sən necə cürət edib dəvətsiz mənim sarayıma gəlmisən?

Bahadır divin hədə-zorbasından qorxmayıb, onunla güləşməyə başladı. Onlar çox güləşdilər, çox döyüşdülər, nəhayət,

Bahadır namaz qılmaq üçün divdən möhlət istədi. Div razı oldu və Bahadır Allaha dua edib, yenə vuruşmağa başladı və bir qədər sonra divi yıxıb öldürdü. Daha sonra Bahadır bağdan bir neçə nar dərib, divdən azad etdiyi qızı da özü ilə götürüb, bacısının yanına yola düşdü. Yolda qızdan öyrəndi ki, o, Ərəbistan padşahının qızıdır və div onu ata evindən qaçırıbmış. Şahzadə qız başına gələnləri başdan ayağa Bahadıra nəql etdi və təvəqqe etdi ki, onu padşah atasına çatdırsın. Bahadır qıza söz verdi ki, xahişini yerinə yetirəcək. Lakin fələk başqa cür qərar verdi. Yolda onların qarşısına bir böyük karvan çıxdı. Bahadır karvandakılardan hara üz tutduqlarını xəbər aldı. Dedilər:

- Ərəbistan padşahına borc ödəməyə gedirik.

Bahadır çox sevindi ki, şahzadə qıza belə yol yoldaşları tapdı. O, şahzadə qızın başına gələnləri karvana nəql edərək onu padşah atasına çatdırmağı təvəqqe etdi. Karvançılar qızı özləriylə götürüb, yola düşdülər.

Bahadır burada qalsın, görək şahzadə qız nə oldu. Karvan az getdi, üz getdi, ərəb şahlığına çatıb, padşahın sarayına çıxdılar. Şahzadə qızı padşaha təslim etdilər. O, qızını görüb çox sevindi, böyük məclislər düzəltdi. Padşah karvançıların borcunu bağışladı, onları bir neçə gün yanında qonaq saxladı. Karvandakı adamlar padşahın qonağı olduqdan sonra öz vilayətlərinə çıxıb getdilər.

İndi görək Bahadır nə etdi? Bu arada Bahadır evinə çatha-çatda yaxınlıqdan bir uşaq səsi eşitdi. O, yolun yaxınlığında ağlayan bir uşaq gördü, onu özü ilə götürüb evə gəldi və dedi:

- Bacı, bax gör nardan başqa sənə nə gətirmişəm?

Bacısı dedi:

- Qardaş, çox sağ ol, indi mən sağalaram. Uşaq üçün də Allaha yalvaracağam ki, mənə süd versin ki, uşağı yedizdirim.

Bir neçə gündən sonra Bahadırın bacısı qardaşına dedi ki, Allaha dua etdikdən sonra onun südü gəlib və o, uşağı yedirdir. Bahadır səxavətli itinin dediyini yadın da salaraq bacısının hiylələrini yaxşı başa düşürdü və bir fürsət axtarırdı ki, bacısına öz narazılığını bildirsin.

Bir gün axsaq div qıza dedi:

- Qardaşından birtəhər öyrən ki, onun gücü haradadır. Çünki sehirbaz divi öldürmək üçün böyük güc lazımdır.

Bir gün Bahadır ovdan qayıdanda bacısı ondan xəbər alır:

- Qardaş, sən həyatın boyu çoxlu div öldürmüsən, bir bacına söylə, sənin gücün haradadır.

Bahadır bacısına baxıb dedi:

- Bax dizlərimdədir.

Bacısı dedi:

- İndi yoxlayaram.

O, bunu deyib çox qalın zəncirlər gətirdi və qardaşının dizlərini bağladı. Bahadır dizlərini aralayan kimi zəncirlər qırıldı. Onda bacısı xəbər aldı.

- Qardaş bəs sənin zəif yerin haradır?

Bahadır dedi:

- Bax burada – əllərimin baş barmaqlarında. Əgər onları kirişlə bir-birinə bağlasalar, onda düşmənimə heç nə edə bilmərəm.

Bacısı dedi:

- Gəl bir yoxlayaq.

Bacısı bunu deyib kamanın kirişini aldı və onun hər iki əlinin baş barmağını kirişlə bağladı, özü də gedib axsaq divi çağırmağa başladı ki, gəlib Bahadırı öldürsün.

Bahadır nə qədər vurnuxdusa, barmaqlarını aça bilmədi. Axsaq div qaçıb gəldi və Bahadırın bacısına dedi:

- Yox, onu öldürməyək, ən yaxşısı gözlərini çıxardaq və Quşlara ataq ki, yesinlər, onun özünü isə buraxaq, getsin çölləri, düzləri gəzib, özünə yemək axtarsın.

Div dediyi kimi də etdi. O, Bahadırın gözlərini çıxardı və yerə atdı, özünü isə bir tərəfə itələyib Bahadırın bacısı ilə saraya qayıtdı.

Bu arada isə it sahibinin gözlərini yeməyə Quşlara imkan vermədi, onları yerdən götürüb ağzında saxladı və divlə Bahadırın bacısının getməyini gözlədi. Elə ki, onlar gözdən itdilər, it sahibinə qulluq etməyə başladı, onu yedirdi, içirdi. İt sahibini içirmək üçün quyruğunu bulağa salır, quyruğu suyu özünə hopdurduqda onu Bahadıra verirdi.

Sonra necə oldusa həmin karvandakı adamlar Ərəbistan padşahının yanına getməli oldular. Onlar bir qədər aralıda kor edilmiş Bahadırı görüb dedilər:

- Bu adama kömək edək, onu özümüzlə götürək.

Karvandakılar Bahadırı götürdülər və Ərəbistan padşahının sarayına gətirdilər. Karvandakılar saraya daxil oldular, Bahadırı isə həyətdə ağacın altında qoydular. Tacirlər padşaha başlarına gələnlərdən, kor edilmiş adamdan nəql etdilər. Onlar kor edilmiş adamdan danışanda şahzadə qız atasına dedi:

- Ata, izn ver, korun yanına gedim.

Padşah qızına icazə verdi. Şahzadə qız Bahadırın kölgəsində uzandığı ağaca yaxınlaşdı və öz xilaskarını tanıdı. O, Bahadırı qucaqlayıb öpməyə başladı. Sonra da qalxıb atasının yanına getdi ki, tacirlərin özlərilə gətirdikləri adamın onun xilaskarı olduğunu atasına bildirsin.

Şahzadə qız saraya gedəndə üç göyərçin uçub ağaca qondu. Göyərçinlərdən böyüyü dedi:

- Bu kor adama kömək edək.

Digər göyərçin böyük göyərçinə dedi:

- Əgər bu adam öz gözlərini tapıb, onları yerinə qoysa və sənin bir lələyini gözlərinə çəksə, sağalacaq.

Onda böyük göyərçin dedi:

- Ey mərhəmətli insan, əgər yatmırsansa, ayağa dur.

Göyərçinlər bu sözləri deyib uçdular. Bahadır isə itin ağzından gözlərini götürdü, onları öz yerinə qoydu, sonra isə göyərçinin lələyini gözlərinə çəkdi və birdən görməyə başladı. Bahadır Allaha şükür edib, sevincindən bilmədi nə etsin. Bu vaxt padşah qızı ilə kor adamı görməyə gəlirdi, onlar Bahadırı sapsağlam görəndə çox sevindilər və təəccübləndilər. Bahadır şahzadə qızı görən kimi ona necə sağaldığını nəql etdi. Şahzadə qız da Bahadırı belə görüb çox sevindi. Qoca padşah lap çox sevindi. O, Bahadırı qucaqladı və onu qızının adaxlısı elan etdi. Lakin Bahadır dedi:

- Nə qədər ki, mən düşmənlərimdən intiqamımı almamışam, məni kor edənləri öldürməmişəm, evlənə bilmərəm.

Padşah Bahadıra izin verdi ki, getsin.

Bahadır ata minib yola çıxdı. Nağıllarda vaxt tez başa gələr, çox keçmədən Bahadır intiqamını alıb geri qayıtdı, gözəl şahzadə qızla evləndi.

Ərəbistan padşahı ölümündən qabaq taxtını Bahadıra verdi. Bahadır ədalətlə padşahlıq etdi. Göydən üç alma düşdü: biri mənə, digəri bizə, üçüncüsü isə padşaha.

## 6. QAZANŞAH VƏ ŞANLI ŞAHZADƏ SÜLEYMANIN NAĞILI

Çox uzaqlarda – şimalda son dərəcə xeyirxah, mərhəmətli şah Qazanşah vardı. Onun ədalətli şahlığına görə Allah qocaya üç oğul şahzadə bəxş etdi. Uşaqlar şahın başlıca sevinci idi. Qoca özünün kiçik oğlu Süleymanı xüsusilə sevirdi. Qazanşahın iki arvadı var idi. İki böyük şahzadə bir arvadından, kiçik Süleyman isə başqa arvadından idi. Şah bu arvadından boşanmışdı, arvadı öz ata-anasının yanında yaşayırdı. Oğlu Süleyman isə atasının sarayında yaşayırdı, o, atasının sevgisi ilə əhatə olunmuşdu. Şahzadə atasının sevgisinə layiq idi. O, böyük qüvvətə, çəldliyə malik idi, zirək at sürən igid və cəsur gənc idi. Şah Süleymana baxıb sevinməyə bilməzdi.

Bir dəfə şah bir yuxu gördü: onun yataq otağına bir Quş (qanadı qarrud, quyruğu marrut) qondu, o padşahın orta barmağından üzüyünü çıxardıb uçub getdi. Qazanşahı bir narahatçılıq bürüdü. “Bu nə ola bilərdi? Mən bu vaxtadək heç belə Quş görməmişdim,”- Qazanşah öz-özünə düşündü.

Qazanşah yuxusu haqqında çox düşündü, götür-qoy etdi, nəhayət, bir sabah özünün böyük oğlunu çağırıb dedi:

- Əziz oğlum, gecə bir yuxu gördüm: mənim otağıma bir Quş uçub gəldi və mənim üzüyümü götürüb apardı. Oğlum, yad ölkələrə get, bu qəribə Quşu mənə gətir, mən qocanı sakitləşdir.

Şahzadə yol tədarükü gördü və səyahətə yola düşdü, bir neçə ildən sonra isə əliboş qayıtdı.

Onda Qazanşah ortancıl oğlunu qəribə Quşu axtarmağa göndərdi. Lakin bu şahzadə də əliboş qayıtdı.

Belə olduqda Qazanşah öz kiçik oğlunu çağırıb dedi:

- Süleyman, tək ümidim sənədir. Mən inanıram ki, sən əliboş qayıtmayacaqsan. Get Quşu gətir, qoca yaşımda mənə təskinlik ver, yoxsa kədərdən öləcəyəm.

Süleyman qoca atasını dinlədi, sonra isə onunla vidalaşdı və anasının yanına getdi, şah atasının tapşırığından onu xəbərdar etdi. Anası Süleymana toxdaqlıq verib dedi:

- Heç nə olmaz, oğlum. Şahın qapqaranlıq bir tövləsi var. Bu tövlədə dəmir zəncirlərlə budağa bağlanmış yel atı var. O, qaranlıqda saxlanılır. Əgər gözünə kiçik işıq düşsə belə öz zəncirlərini qıracaq. İndi, oğlum, bu tövləyə get və divara iynə batır. İynə divarda kiçik bir deşik açacaq. Onda at zəncirdən qopub tövlənin qapılarına tərəf yel kimi uçacaq. Sən qapıların arxasında duraraq atın başına bir yumruq vur. Güclü zərbədən at yıxılacaq. Həmin an tez onu yəhərlə, belinə otur və istədiyin yerə sür get. Bu at səni hər təhlükədən çıxaracaq.

Süleyman anası necə demişdisə, elə də etdi. O, şah tövlələrinə getdi və onlardan birincisinə girdi. Burada çoxlu yadelli atlar vardı. Onlardan heç biri Süleymanın xoşuna gəlmədi. Sonra şahzadə digər tövləyə girdi. Burada da şanlı gəncin ürəyincə olan bir at yox idi. Nəhayət, şahzadə çox qaranlıq tövləyə girdi. Süleyman bu yüngülayaq, cəldqaçan atın yanında durdu və onun gözəlliyinə baxmaqdan doymadı. Şahzadə sonra iynəni divara sancdı və içəri daxil olan işıqdan at silkindi, özünü tövlədən eşiyə atdı. Süleyman yumruqla atı vurdu və onun ayaqlarına yıxıldı. Burada şahzadə tez qoçağını yəhərlədi, cəld ata minib, çaparaq yola düşdü.

Şahzadə atın belində az getdi, üz getdi, gəlib bir yaşıl çəmənə çatdı. Bu çəmənin ortasında çox uca, gözəl saray var idi.

Süleyman atını saraya tərəf sürdükdə eyvanda dayanan şah arvadını(şahbanunu) gördü. Çariçə ondan xəbər aldı:

- Cavan oğlan, bura hansı yol ilə gəldin?

- Gözəl çariçə, məndən bu haqda xəbər alma. Bircə de, sənin yanına - yuxarıya necə gələ bilərəm. Onda hər şeyi sənə nəql edərəm.

- Heyif, şanlı şahzadə Süleyman, mənim rahat yolum yoxdur və çox çətin ki, sən mənim yanıma nə vaxtsa qalxa bilərsən.

Göydəki Quşları belə bura uçub gəlmir. Hər halda Süleyman, öz gücünü bir sına. Sarayın o biri tərəfində qırx pudluq çuqun - mənim çuqun nərdivanım vardır. Əgər sən onu bura gətirsən və eyvana söykəsən, mənimlə yaxın görüşə bilərsən.

Süleyman nərdivan olan tərəfə getdi, elə bir çətinlik olmadan çeçələ barmağında onu eyvana söykədi və şahın arvadı yanına qalxdı. Şahın arvadı şahzadənin inanılmaz gücündən heyrətə düşdü. Onu öz sarayında gözəl, dadlı yeməklərlə, şərablarla qonaq etdi. Gecə düşdü. Şahın arvadı dedi ki, sarayda yalnız bir yataq var, o da şahın arvadına məxsusdur. Şahzadə özünün polad qılıncını çıxarıb, şahın arvadının yatağına qoyub dedi:

- Sən qılıncın bir tərəfində, mən də o biri tərəfində yataram.

Ertəsi gün səhər şahın arvadı yenə Süleymanı qonaq etməyə başladı. Bir dəfə uzun sürən söhbətdən sonra birdən şahın arvadına nəsə oldu, rəngi ağardı. Süleyman xəbər aldı:

- Ey gözəl, şahbanu sənə nə olub?

- Ey şahzadə, səninlə oturmuşam və yaxınlaşan təhlükəni tamamən unutmuşam. Artıq neçə illərdir ki, mən yeddibaşlı divlərlə düşmənçilik edirəm. Onlar hər il mənə hücum edirlər. Artıq yeni müharibənin günü gəlib çatdı, sabah divlər gələcək. Mən isə heç bir hazırlıq görməmişəm. Mən sənə görə də qorxuram, divlər səni öldürəcək.

Onda Süleyman dedi:

- Ey Şahbanu, qorxma. Allahın köməyilə biz bu nəhənglərə qalıb gələrik.

Ertəsi gün, doğrudan da, yeddibaşlı divlər gəldi. Onlardan hər biri əlində dəyirman daşı tutmuşdu. Divlər şahın arvadına tərəf dəyirman daşlarını atmağa başladılar. Lakin o, məharətlə zərbələrdən yayındı, divlər bütün dəyirman daşlarını boşuna atıb qurtardılar. Şahın arvadı oxla hər divin başından vurdu. Divlər ölü düşdülər. O biri gün yenə yeddibaşlı div gəldi. Şahın arvadı Süleymana dedi:

- İndi sənin növbəndir. Mən arxayınam ki, sən divlərə qalib gələcəksən, yalnız bir məsləhətim var, çalış hər divin orta

başını kəs. Onların hər biri orta başdan məhrum olsa, artıq səninlə döyüşə bilməyəcək və öləcək.

Şahın arvadı necə demişdisə, Süleyman da elə etdi. Divlər öz dəyirman daşlarını atdılar, şahzadə isə onda onların üzərinə atıldı və hər birinin orta başını vurdu. Divlər ölü düşdülər. Şahın arvadı coşqunluqla şanlı gənc oğlanı qələbə ilə təbrik etdi və sonra dedi:

- Şahzadə, məndən nə istəyirsən söylə.

Süleyman cavab verdi:

- Şahbanu, səndən heç bir şey istəmirəm, mənə yalnız Simurq Quşunun yerini göstər.

Onda Şahın arvadı dedi:

- Bu Quşu tapmaq çətindir. Sənə bir kitabça verim, bu kitabça ilə hər il yeddi divlə müharibə aparan bacımın yanına get. Ona bu yeddibaşlı nəhənglərə qalib gəlməkdə kömək et, bacım sənə atanın yuxusuna girən bu Quşu tapmağa kömək edər.

Şahzadə Süleyman çox getdi, axırda gəlib elə bir yerə çatdı ki, burada yaşıl çəmənin ortasında digər bacının sarayı dururdu.

Süleyman bu şahın arvadını eyvanda gördü və o bacıdan da xahiş etdi ki, yanına – yuxarıya qalxmaq üçün yolu göstərsin. Bu çariçə də qırx pudluq nərdivanın yerini göstərdi. Süleyman çeçələ barmağında nərdivanı gətirdi və nərdivanla şahın arvadının yanına eyvana çıxdı. Süleyman şahın arvadının yanında qonaq qaldı. Nəhayət, gəlişinin məqsədini ona dedi. Şahın arvadı ona kömək etməyi vəd etdi, amma xahiş etdi ki, onunla vuruşmağa gələn yeddibaşlı divlərə qalib gəlməyə kömək etsin. Süleyman burada qaldı və çariçəyə verdiyi vədi yerinə yetirdi, divlərin hamısı onun əlində ölü düşdülər.

Bundan sonra şahın arvadı Süleymanı kiçik bacısının yanına göndərdi. Kiçik şahın arvadı da Süleymanı gülərüzlə qarşıladı. Uzaq səfərdən sağ-salamat qayıtmağı arzuladı və xahiş etdi ki, geri qayıdanda onu və bacılarını öz vətəninə aparsın. Süleyman ona söz verdi. Şahın arvadı ona kitab verib dedi:

- Şahzadə, sıx, keçilməz, qaranlıq meşəyə get, yerdə dairə çək, bu dairənin ortasında otur və bu kitabı oxu. Sənin yanına

küpəgirən qarı gələcək. Lakin o sənə heç bir zərər yetirə bilməyəcək, çünki sən dairənin içində olacaqsan. Küpəgirən qarı dilxor kənara çəkiləcək, öz kitabını oxumağa başlayacaq. Qarının birinci kitabı oxuyub qurtarmasını səbirlə gözlə. O, başqa kitabdan öz cadularını oxumağa başlayanda onu öldür.

Şahın arvadı necə demişdisə, şahzadə elə də etdi. O, keçilməz, sıx meşəyə getdi, yerdə bir dairə çəkib içində oturdu. Bu vaxt hay-küylə əlində süpürgə olan küpəgirən qarı gəldi. O, bir tərəfdə oturdu və kitab oxumağa başladı. Küpəgirən qarı ikinci kitabı oxumağa başlayanda Süleyman oxla onu sinəsindən vurdu. Küpəgirən qarı yerdə vurnuxmağa başladı, o tərəfdən bu tərəfə çevrilməyə başladı. Şahzadə Süleyman daha sonra nə baş verəcəyini gözləyirdi. Birdən onun qarşısında iki gözəl qız peyda oldu. Qızlar Süleymanı görçək ona təşəkkür etməyə başladılar.

- Biz bütün Quşların padşahının qızlarıyıq. Bu qarı bizi valideynlərimizdən qaçırtdı. Neçə illər idi ki, biz onun yanında zindanda idik. Biz sənin sayəndə xilas olduq. Küpəgirən qarının ölümü ilə əl-ayaqlarımızdakı tilsimlənmiş qandallar düşdü. Şahzadə, gedək atamızın yanına, səni orda şan-şöhrət gözləyir.

Şahzadə dəvətdən imtina etmədi, onların padşah atalarının şəhərinə gəldi.

Padşah qızlarının sağ-salamat azad olaraq, geri döndüklərini bilib, təmtəraqlı şadyanalıq düzəltdi. Quşlar padşahı çox qonaqpərvər idi. Onun bir adəti var idi. Qırx gün ərzində qonağından kim olduğunu, haradan gəldiyini, nə üçün gəldiyini xəbər almazdı. O, şahzadə Süleymanla da belə davranırdı.

Qırxıncı gün Quşların padşahı xəbər aldı:

- Şah Qazanşahın şanlı oğlu, indi söylə, sən atanın şahlığından bizim yerlərə nə üçün gəlmisən?

Süleyman şah atasının tapşırığını padşaha müfəssəl danışdı və xahiş etdi ki, Simurq Quşunu tapmaqda ona kömək etsin. Quşların padşahı dedi:

- Ey cəsur şahzadə, imkan daxilində sənin üçün hər şey edəcəyəm, bircə səbrin olsun.

O biri gün padşah car çəkdirib əmr etdi ki, Quşlar arasında Simurq Quşunu tapmaq üçün şəhərə yığışsınlar. Dünyanın hər yerindən müxtəlif cinsdən Quşlar toplandıqda padşah özünün daha təcrübəli nökərlərini göndərdi ki, Quşlar arasında Simurq Quşunu tapsınlar. Nökərlər üç gün axtardılar, lakin Quşu tapa bilmədilər. Padşah hirsləndi və Quşlardan xəbər aldı:

- Bura toplananlardan heç kəs bilmir ki, Simurq Quşu harada yaşayır?

Quşlar öz aralarında öz dillərində danışıb hay-küy saldılar. Nəhayət, padşaha dedilər ki, heç kim bu Quşun yerini bilmir. Lakin bir Quş dedi:

- Qibleyi-aləm, burada şəhərin yaxınlığında lap qoca Quş Baba yaşayır. Görəsən, o, Simruq Quşunun harada yaşadığını bilərmi?

O biri gün Süleyman padşahla görüşdü və Babaya zəhmət verməmək üçün özü onun yanına getdi. Quşlar padşahının qızları da Süleymanı müşaiyət edirdilər. Onların hər üçü Babanın yanına gedib məsələdən onu xəbərdar etdilər. Baba şahzadəni dinləyib dedi:

- Xatırladığım kimi, Simurq Quşu yerin sonu, göyün başladığı, günəşin çıxdığı yerdə yaşayır.

Quş Baba qonaqlara öz köməyini vəd etdi. O, Süleymana dedi:

- Şahzadə, yola hazırlaş, biz elə sabah yola düşərik.

O biri gün Süleyman yol tədarükü görüb, çoxlu yer-yemək götürüb şahzadə qızlarla vidalaşdı və Quş Babanın belində oturdu.

Quş uçaraq onu məşriq tərəfə apardı. Bilmirəm Baba şahzadə ilə çox uçdu, az uçdu, bircə onu bilirəm ki, bir gecəyə onu çox böyük sarayın yanına gətirdi. Baba dedi:

- Bu sarayın qırx otağı var. Otuq doqquz otaqda otuq doqquz div yatır. Qırxıncı otaqda isə gözəl şahzadə qız divlər padşahının qızı yatır. Şahzadə qızın başı üstə yerləşən qızıl qəfəsdə Simurq Quşu asılıbdır. Şahzadə tez qırxıncı otağa get, qəfəsi götür, gün çıxanadək qayıt. Gün çıxanadək qayıtmasan, məhv olarsan.

Şahzadə elə belə də etdi. O, səssiz-küysüz otuz doqquz otağın hamsından keçib getdi, qırxıncı otağa girdi. Bu otaqda yatmış şahzadə qız tərəfə gələrək gözəlin başının üstündə Simurq

Quşlu qəfəsi gördü. Süleyman yatan şahzadəyə tərəf yaxınlaşdı, onun qızıl üzüyünü barmağından çıxardı, onu özünün gümüş üzüyü ilə dəyişdi. Gözəl bəzəkli boşqabda plov var idi. Süleyman plov yedi, axırda şahzadə qızı öpdü, qəfəsi götürüb Quş Babanın yanına gəldi. Süleyman şahzadə qızın yataq otağında yazılı kağız qoyub çıxdı.

- Mən şanlı Şah Qazanşahın oğlu buraya girdim, Simurq Quşla qəfəsi oğurladım.

Şahzadə Babanın belində Quşlar şahlığına uçdu. Oradakı padşahla görüşdü və köməyinə görə təşəkkür etdi. Sonra isə qəfəslə öz qaçağanına minib üç şahzadə qızın yanına çapdı. Süleyman şahzadə qızlarla görüşdü. Ona etdiyi köməyə görə qızlara təşəkkür etdi. Süleyman yeddi gün, yeddi gecə şahzadə qızlara qonaq qaldı. Sonra onları da özü ilə götürüb atası Qazanşahın yanına çapdı. Qoca şah oğlu Süleymanı qəfəslə görcək çox sevindi. Ata-oğul görüşüb qucaqlaşdılar. Qazanşahın şahlığında böyük qonaqlıq başladı, şah üç gün toy elədi. Böyük oğlu böyük şahbanu ilə, ortancıl oğlu ortancıl şahbanu ilə, Süleyman isə kiçik şahbanu ilə evləndi. Toy qırx gün davam etməli idi.

Bu arada şahzadə qız – divlər padşahının qızı yatağından qalxdı. Güzgüyə baxdı və üzündə iki ləkə gördü. "Məni kim öpə bilərdi?", - şahzadə qız fikirləşdi. Sonra otuz doqquz divi yanına çağırıb dedi:

- Sizlərdən kim bu gecə cürət edib məni öpüb? Qoy həmin şəxs özü etiraf etsin, yoxsa hamınızın başı vurulacaq.

Divlər and içməyə başladılar ki, onlardan heç biri belə ədəbsizlik etməmişdir. "Bu nə deməkdir?" şahzadə qız düşündü və birdən gördü ki, qızıl qəfəs oğurlanmışdır. Sonra gördü ki, plov da yeyilib. Öz əllərinə baxıb gördü ki, qızıl üzüyü gümüş üzüklə dəyişdirilib. Şahzadə qız öz yatağını yığışdıranda yastıq altında yazılı bir kağız tapdı: "Mən şanlı şah Qazanşahın oğlu bu sarayda oldum və Simurq Quşla qızıl qəfəsi oğurladım. Şahzadə qız kağızı oxuyub o saat bütün divləri çağırdı. Elə həmin gün də yola düşdülər. Şahzadə qız qərara gəldi ki, nəyin bahasına olursa olsun, şahzadə Süleymanı tapsın.

Bilinmir padşahın qızı çox getdi, az getdi, qırxıncı gün şanlı Qazan şahın məmləkətinə çatdı. Burada şahzadə qız bir neçə şəhəri dağıtdı, əhalini döydü, nəhayət, Qazanşahın paytaxtına yaxınlaşdı və çəmənlikdə düşərgə saldı.

O biri gün şahzadə qız eşitdi ki, oğlanlarının toyu və Süleymanın gəlişi münasibətilə təşkil olunmuş qonaqlıq qurtarır. Üçüncü gün isə şahzadə qız xahişlə Qazanşaha öz nökərini göndərdi ki, şahın oğlanlarını görmək istəyir. O, oğlanlara baxmaq, onlardan kimin divlər sarayında olduğunu bilmək istəyirdi. Şahzadə qız məktubda yazmışdı: – Mən sənin bir neçə şəhərini külə çevirdim, əgər sənin oğulların mənim düşərgəmə gəlməsələr, sənin paytaxtını da belə tale gözləyir.

Qazanşah divlər padşahının qızının məktubunu oxudu və onun yanına böyük oğlunu göndərdi. Böyük şahzadə getdi, lakin yarı yoldan geri qayıtdı. Şahzadə qız onu yaxına belə buraxmadı, qəbul etmədi. O biri gün Qazanşah ortancıl oğlunu göndərdi, lakin bunu da şahzadə qız qəbul etmədi. Şahzadə qız uzaqdan şahın böyük oğullarının ləngliyini görürdü və heç ağlına belə gətirmirdi ki, bu oğlanlar onun sarayına gizlicə girə bilsinlər.

Şahzadə qız çaparaq onun düşərgəsinə yaxınlaşan Süleymanı görüncə qışqırdı. "Bu, həqiqətən, hər hansı bir işə cürət edə bilər və gəncin duruşu, boy-buxunu da yetərincə bunu göstərir".

Süleyman şahzadə qızın qarşısında durdu və ondan üzrlər istəməyə başladı. Lakin şahzadə qız məftun olmuşdu. Şahzadə qız heyranlıqla çığırırdı:

- Ərim ol, sən sarayıma girə bildin, mənim Simurq Quşumu oğurlaya bildin, Süleyman, mənim sevimli ərim olmağı da bacar!

Onda Süleyman şahzadə qızın qucağına atıldı və öpüşlərinin sonu olmadı. Onlar divləri azad etdilər, özləri isə qoca Qazanşahın yanına getdilər və onun qarşısında adaxlı və gəlin adlandılar. Yenə də qoca Qazanşahın sarayında qırx gün qonaqlıq davam etdi. Şahzadə Süleymanın divlər padşahının qızı ilə toyu oldu.

Toydan sonra Qazanşahın sarayında razılıq və barışla dolu rahat həyat hökm sürməyə başladı. Xoşbəxtlik qoca atanın və

gənc ər-arvadların qisməti oldu. Qazanşah ölümündən qabaq taxtını Süleymana verdi və rahat öldü. Göydən üç alma düşdü, biri mənim – söyləyənin, digəri sizə – dinləyənin, üçüncü dığırlanan pay istəyən dərvişin torbasına düşdü.

## 7. ŞAH ABBASIN NAĞILI

Keçmiş vaxtlarda Şah Abbas Şərq ökələrində padşahlıq edirdi. Bu şəhərdə var-dövlətli tacirin çox ürəyiyumşaq qızı yaşayırdı. Bu qız gözüaçıq, ağıllı və görünməmiş gözəl idi.

Tacirin qızı uzun müddət Şah Abbası öz gözəlliyi ilə heyran edir, könlünə hakim kəsilirdi. Axırda Şah Abbas ona evlənmək təklif etdi. Qız onun evlənmə təklifini rədd edəndə Şah Abbas çox təəccübləndi. Şah çox qeyzləndi və qızı paytaxt şəhərindən başqa şəhərə sürgün etdi. Zəhra öz hökmdarının iradəsinə qarşı çıxmadı. O, bəzi əşyalarını yığıb-yığışdırıb, başqa bir şəhərə köçdü. Burada qoca qarının evində ona yer verməsini xahiş edir. Mərhəmətli qarı Zəhraya razılıq verdi, Zəhra onun evində yaşamağa başladı. Yalnız bir neçə gündən sonra Zəhra qarıdan təvəqqe etdi ki, ona kömək üçün bir neçə nəfər fəhlə tapsın. Qarı məmnuniyyətlə onun xahişini yerinə yetirdi, onun üçün bir neçə nəfər qara fəhlə tapdı.

Zəhra bu fəhlələrin bir hissəsini şəhərdən bir qədər aralı yerdə quyu qazmağa və orada torpaqdan qızıl çıxartmağa, bir hissəsini isə kərpicdən böyük bir saray tikməyə göndərdi. Bir neçə gündən sonra saray hazır oldu, fəhlələr yerin dərinliyindən çoxlu qızıl çıxardılar. Zəhra əmr etdi ki, sarayı bayırdan qızılla örtsünlər və bütün ev əşyalarını, qab-qacaqlarını qızıldan töksünlər.

Saray hazır olduqda Zəhra burada kasıb adamları - dərvişləri, çobanları və başqalarını qəbul etməyə başladı. O, burada hər kasıb adama sığınacaq verməyə, yedirib-içirtməyə çalışırdı, həm də yeməklərin verildiyi qızıl qab-qacaqları da onlara verirdi ki, özlərilə götürüb aparsınlar.

Əliaçıq qız haqqında xəbər hər yerə yayıldı. Gözəl Zəhranın xəbəri Şah Abbasa da çatdı və onu görmək qərarına gəldi. Şah Abbas təğyiri-libas olub, dərviş geyimi geyindi və uzaq şəhərə yola düşdü.

Çox keçmədən şah arzu olunan şəhərə çatdı və qızıl evin qapısında durub gecələməyə yer istədi. O saat qapılar açıldı və onu Zəhranın yanına göndərdilər. Budur, təğyiri-libas olmuş Şah Abbas içəri daxil olarkən Zəhra onu o saat tanıdı. Şahın heç ağlına belə gəlmədi ki, bu vaxtilə qovduğu qızdır. Şah Abbas qızın yanında gecələdi, səhər isə ona yemək gətirdilər, qab-qacağı isə götürüb apardılar. Şah Abbas öz-özünə düşündü "Bu nə deməkdir? Nə üçün başqaları qab-qacaqları özlərilə götürür, məndən isə onları geri alırlar. Bir dəfə də gecələyəcəyəm". Şah bir dəfə də gecələdi, ertəsi gün eyni hadisə bir daha təkrarlandı. Onda Şah Abbas Zəhradan xəbər aldı:

- Ey səxavətli qız, mənə bir söylə, nə üçün bütün dilənçilərə bəslədiyin münasibəti mənə bəsləmədin?

Qız dedi:

– Mən kasıbları, dərvişləri mükafatlandırıram, şahlara isə yalnız sığınacaq verirəm.

Zəhra bu sözlərlə özünü şaha tanıtdı və başına gələnləri ona danışdı. Şah qızı tanıdı, qızın razılığı ilə onunla xoşbəxt yaşadı. Şah doqquz aydan sonra Zəhraya dedi:

– Əziz arvadım, artıq səkkiz aydır ki, mən paytaxt şəhərində olmamışam. İndi gedib baxacağam ki, vəzirlərim məmləkəti necə idarə edirlər. Öz bazubəndimi sənin yanında qoyub gedirəm. Əgər qızım doğulsa, ona qızıl xərcləyərsən, əgər oğlan doğulsa, qoy o da onu mənim kimi üstündə gəzdirsin.

Şah yola düşüb getdi, getməsindən çox keçmədən Zəhra bir oğlan uşağını dünyaya gətirdi. Uşaq günlə deyil, saatla böyüdü və səkkiz ildən sonra boylu-buxunlu bir gözəl oğlan oldu.

Günlərin bir günü gənc şahzadə öz yaşadıqları küçədə oynayırdı və bir səhv üzündən öz yoldaşını vurdu. Oğlan şahzadənin üstünə qışqırdı:

– Sən nə cürətlə məni vurursan? Atasından bixəbər nə cürət edib məni vurursan! Bir dayan, mən sənə göstərərəm!

Şahzadə yoldaşının sözlərindən fikrə getdi. Bu necə ola bilər, doğrudanmı, mənim doğma atam yoxdur?

O, düşüncələrinə bir cavab tapmayıb anasının yanına gəlib xəbər aldı:

– Əziz anam, bir mənə de, atam kimdir. Əgər deməsən, mən sıxıntıdan öləcəyəm.

Anası dedi:

– Ah, mənim çox dəyərli oğlum, məni bağışla ki, atanı səndən gizli saxlamışam. Ona görə gizlin saxlayırdım ki, yoldaşlarının qarşısında lovğalanmayasan, sənin atan Şah Abbasdır.

Şahzadə dedi:

– Ana, mənə yol tədarükü gör, gedib atamı görüm.

Anası oğlunun istəyinə mane olmadı, şahzadə üçün gərəkli olan hər şeyi hazırladı və onu yola saldı. Şahzadə paytaxt şəhərə gəlib çıxdı və onun möhtəşəmliyinə valeh oldu. O, şahın sarayını axtarmağa başladı. Şəhər o qədər böyük idi ki, öz atasını nə vaxtsa tapa biləcəyinə onun bir ümidi yox idi. Başqa adamlardan xəbər almağa belə cürət etmirdi.

Onda şahzadə bir dükançının yanında işləməyə və paytaxt şəhərdə müxtəlif mallar satmağa başladı.

Şahzadə çox gözəl idi, amma onun ən cəlbedici cəhəti gözəl və maraqlı danışığı, nitqi idi. Gənc oğlanın bu bacarığının nəticəsi o oldu ki, şəhərin bütün əhalisi onunla alver etməyə başladılar. Bir ay keçdi, iki ay keçdi, üçüncü ayda paytaxt şəhərinin dükan sahibləri saraya gəlib, öz hökmdarlarına şikayət edirlər ki, bəs hansısa bir gənc şəhərin bütün alıcılarını öz əlinə alıb. Dükançılar dedilər:

– Qibleyi-aləm o, özünün gözəlliyi və danışığına görə bizim müştəriləri öz tərəfinə çəkib, ona əmr et, şəhərimizdən çıxıb getsin.

Şah Abbas onları dinləyib əmr etdi ki, gənci onun hüzuruna gətirsinlər.

Şahzadəni şahın yanına gətirdilər, o gəldiyi şəhərin adını da bilmirdi. Şah ondan xəbər aldı:

– Ey gənc oğlan, sən nə üçün bizim yerlərə gəlmisən?

Şahzadə cavab verdi:

– Tanımadığım atamı axtarıram.

Beləliklə, şah şahzadəni sərbəst buraxdı. Elə bu vaxt şahzadənin sədası vəzir Allahverdi xanın qızının qulağına çatdı. Qız onu yanına çağırdı. Qız birinci görüşdən oğlanın gözəlliyinə məftun oldu və onların görüşləri tez-tez oldu. Amma qonşular onların gizli görüşlərindən xəbər tutdular və vəziri bu işdən hali etdilər. Allahverdi xan şahın yanına gəlib dedi:

– Ey hökmdarım, əmr et gənc dükançını qovsunlar, çünkü o, mənim qızımı yoldan çıxartmışdır. Qızım onunla gizlində görüşür. Ailəmi namussuzluq gözləyir.

Şah gənc oğlanı yenə də hüzuruna çağırdı və əmr etdi ki, onu edam eləsinlər. Budur, şahzadəni meydana gətirdilər. Allahverdi xanın əmrinə görə onu soyundurmağa başladılar. Birdən şahın vəzirinin sifəti dəyişdi. Oğlanın qolunda şahın bazubəndini gördü. O, şahı xəbərdar etmək üçün onun yanına qaçıb dedi:

– Qibleyi-aləm, bu adamı çoxdan öldürmək lazım idi, çünkü o, sənin bazubəndini oğurlamışdır.

Şah bazubəndini yadına salıb rəngi ağardı və o saat dedi:

– Dükançı gənci öldürdünmü?

Allahverdi xan dedi:

– Hələ yox.

Şah əmr etdi:

– Onu mənim yanıma çağırın.

Şahzadəni şahın yanına apardılar. Şah Abbas o saat onu oğlu olduğunu qəbul etdi. Şah şahzadəni bağrına basıb ucadan dedi:

– Əziz oğlum, səhvimi mənə bağışla. Çoxdan axtardığın, amma səni tanımayan atan qarşındadır. Qolunda gəzdirdiyin bazubənd mənimdir.

Allahverdi xan təəccübdən özünə gələ bilmədi. Amma şah hal-qəziyyəni ona izah etməyə tələsdi. Şah ona özünün sevimli arvadı Zəhradan, gələcək oğlu üçün arvadının yanında qoyduğu bazubənddən danışdı. Sonra şah Allahverdi xanın qızını hüzuruna çağırdı, qızın əllərini şahzadənin əlləri ilə birləşdirib dedi:

– Həyatınız boyu bir-birinizə sədaqətli olun, sizin evlilik həyatınıza xeyir-dua verirəm.

Şah Abbasın sarayında böyük şadyanalıq məclisi başladı, hamı sevinc içində idi, amma qoca şah hamıdan çox oğlu və onun gənc arvadı üçün sevinirdi.Vəzir Allahverdi xan ailəsinə nəsib olmuş bu gözlənilməz xoşbəxtlikdən heyrətlənirdi.

Göydən üç alma düşdü: biri şahın arvadının, o biri onun şahzadə oğlunun, üçüncüsü Allahverdi xanın.

***Yelizavetpol quberniyası Ərəs qəzasının Üçqovaq kəndində kəndli Kazım Çələbiyevin dilindən yazıya alındı.***

## 8. KƏNDLİ OĞLU QAFFARIN NAĞILI

Bir vaxtlar çox kasıb kəndli yaşayırdı. Onun Qaffar adında ucaboy, gözəl bir tək oğlu vardı. Qaffar həmişə üzügülər, həyatsevər idi. Bütün qonşular gənc oğlanın gözəlliyinə heyran idilər. Lakin bir dəfə nə oldusa, oğlan tutqun, fikirli və dinməz oldu. Atası oğlunda qəribə dəyişikliyi sezib, çox qorxdu.O, Qaffarı yanına çağırıb ondan xəbər aldı:

- Oğlum, heç bir şey gizlətmədən mənə de, səni narahat edən nədir, sən nədən belə tutqunsan?

Qaffar dedi:

- Atacan, mən bilirəm ki, sənə öz sirrimi açsam, sən mənə kömək edə bilməyəcəksən, mənim xahişimi yerinə yetirə bilməyəcəksən. Buna görə də səndən xahiş edirəm, məni sakit burax.

Lakin Qaffarın atası sakit olmadı və Qaffardan kədərinin səbəbini öyrənmək üçün çox çalışdı. Nəhayət, oğul atasına dedi:

- Ata, get padşahın yanına və onun qızını mənim üçün istə, mən evlənmək istəyirəm.

Atası ucadan dedi:

- Oğul, sənə nə olub, ağlını itirmisən? Məncə, boş fikirlərini bir tərəfə qoy. Sən yaxşı bilirsən ki, biz kasıb, savadsız kəndlilərik, məgər, padşah belə adama qız verərmi?

Qaffar dedi:

- Ata, mən onsuz yaşaya bilmirəm. Get padşahın qızını öz oğlun üçün istə, yoxsa mən kədərdən öləcəyəm.

Kəndli çox düşündü, daşındı ki, oğluna necə kömək etsin, fikirləşib tapa bilmədi. Axırda padşahın sarayına getməli oldu. Padşah kəndlini gördü və nökərlərinə əmr etdi ki, onu içəri buraxsınlar. Kəndli içəri girdikdə padşah ondan xəbər aldı:

- Sən bura nə xahişlə gəlmisən?

Kəndli dedi:

- Qibleyi-aləm, mənim xahişim səni heyrətləndirəcək. Lakin məni edam etməyə əmr vermə, bağışlamaq üçün əmr ver. Artıq neçə aydır ki, mənim oğlum sənin qızının həsrətini çəkir. Onun dərdindən iztirab içindədir, mən qocaya da dinclik vermir: "Ata, get padşahın qızını mənim üçün istə",- deyir.

Padşah dedi:

- Yaxşı! Əgər sənin oğlun heç kimin bilmədiyi, bacarmadığı və bu dünyada mövcud olmayan bir işi bilirsə, hər hansı bir bacarığı varsa, onda olsun, mən razıyam, qızımı ona verərəm.

Kəndli padşahı dinlədi, oğlu Qaffarın yanına gedib, hər şeyi ona nəql etdi.

Qaffar dedi:

- Ata, dünya seyrinə çıxaq, bəlkə, mən də haradasa isə bir sənət öyrənərəm.

Kəndli yol tədarükü görüb oğlu ilə baş götürüb getdilər.

Az getdilər, üz getdilər, axşama gəlib bir bulağa çatdılar. Burada ata-oğul uzaq yolun yorğunluğunu almaq, dincəlmək üçün yerləşdilər. Kəndli oğlan yeyib, bulağın suyundan içib "oxxay" dedi. Birdən sudan boz gözlü, boz saqqallı bir adam çıxdı. Kəndliyə dedi:

- Sən nə üçün məni çağırdın?

Kəndli cavab verdi:

- Mən səni çağırmadım, sən kimsən?

Həmin adam cavab verdi:

- Necə yani çağırmadın? Mənim adım "Oxxay"dır.

Sonra boz adam onun hara getdiyini və oğlu Qaffar haqda xəbər aldı. Kəndli oğlundan, padşahın tapşırığından ona danışdı.

Oxxay dedi:

- Hə, dediyini öyrənmək çox çətin işdir. Lakin mən heç kimin bilmədiyi işi oğluna öyrədə bilərəm. Sadəcə mənə iki həftə vaxt ver.

Kəndli çox sevindi ki, oğluna müəllim tapıb, həvəslə təklifə razılaşdı. Oxxay gənc oğlanın əlindən tutub, onu öz bulağına apardı. Onlar bulağın dibinə endilər və Qaffar bir neçə qəşəng otaq gördü. Qaffar otaqların birində küncə yığılmış bir yığın insan kəllələri, qoltuqlu kürsüdə isə gözəl qız gördü. Qız gənc oğlanı görüb göz yaşları içində ona dedi:

- Ay oğlan, sən bura nə üçün gəlmisən. Bu qəddar adamyeyənin yalanına necə aldandın. Sənin indi sayılı günlərin qalıb. Səni qaçılmaz ölüm gözləyir. Bir mənə söylə, hansı ehtiyacdan sən bu lənətə gəlmiş bulağa gəldin. Bəlkə, mənim sənə bir köməyim dəyər, səni ölümdən xilas eləyə bilərəm.

Qaffar padşahın qızı ilə evlənmək arzusunda olduğunu, lakin padşahın qoyduğu şərti danışdı. Qız Qaffarı dinləyib dedi:

- Cavan oğlan, məsləhətlərimi unutma, iki həftədən sonra atan sənin dalınca gələndə və adamyeyən səndən xəbər alanda ki, sən nə öyrənmisən, cavab ver ki, heç nə öyrənməmişəm, yoxsa sənin ölümün qaçılmazdır. İndi isə bunu etməlisən- adamyeyənin sehrli paltarı var. Sən bu paltardan bir parça kəs və onu öz libasına tik, onda sən nə istəsən, ola biləcəksən: at, daş, it, pişik və s.

Qaffar qızın dediyi kimi etdi. Adamyeyənin paltarından bir parça kəsdi və öz libasına tikdi. Sonra isə atasını gözləməyə başladı.

Nəhayət, kəndli də gəldi. Bulaqdan içib, - "Oxxay", - dedi. Keçən dəfə olduğu kimi adamyeyən gəldi:

- Hə, oğlunun dalınca gəlmisən?

Bu sözləri deyib boz adam suya endi, bir neçə dəqiqədən sonra isə Qaffarı bulaqdan çəkdi. Adamyeyən Qaffardan xəbər aldı:

- Cavan oğlan, bax atan sənin dalınca gəlib, söylə nə öyrənmisən?

Qaffar dedi:

- Sən mənə nə öyrətdin ki, mən də səndən öyrənəydim?

Onda boz adam kəndliyə hirslə, – Bu sarsaq heç nə bilmir, onu geri götür, – dedi və suda gözdən itdi. Ata ilə oğul evə

getdilər. Qaffar yolun ortasında atasına, – Qabaqda get, mən sənə çataram, – dedi və kol-kosda gizləndi. Qaffar ata çevrildi və atasının dalınca qaçdı. Kəndli isə atı görüb oğlunu çağırmağa başladı. Qaffar isə yenidən adama çevrildi və xəbər aldı:

- At haradadır?

Atası dedi:

- İndi burada idi, bilmirəm yox oldu.

Onda Qaffar dedi:

- Bax, ata, mən belə bacarıq sahibiyəm, axı bu at mən idim. İndi mən arxayınam ki, şahzadə qıza evlənəcəyəm. Ata, sabah mən dəvəyə çevriləcəyəm, məni baZəhra apar və sat. Qazanılan pula biz çox qəşəng ev tikərik ki, şah bizim kasıblığımıza görə bizə gülməsin. Bax məni yalnız boz saqqallı, boz gözlü, boz adama satma. Əgər satsan, boynumda olan ipi çıxart.

Kəndli elə də etdi. Onlar öz kəndlərinə gəldilər, oğlu dəvəyə çevrildi, kəndli isə onu satmağa şəhərə apardı. Bir az keçmiş boz adam baZəhra gəldi və kəndli ilə alış-veriş etməyə başladı. Bu Oxxay idi. Kəndli dedi:

- Mən sənə öz dəvəmi satmıram.

Oxxay qışqırdı:

- Sənin nə haqqın var satmayasan, əgər sən dəvəni satmağa gətirmisənsə, deməli, sən qanuna görə onu alana satmalısan.

Nə etməli, kəndli dəvəni boz adama satdı, amma ipi götürdü. Adamyeyən dedi:

- Olmaz, mən ipi də almışam.

Kəndli qətiyyətlə dedi:

- İpi verməzəm.

Lakin Oxxay dediyinin üstündə durdu, o, kəndliyə əlavə iki yüz manat da verib ipi götürdü. Adamyeyən dəvə ilə öz bulağına tərəf getdi. Qız o saat bu dəvənin kim olduğunu anladı, dəvənin ipini açdı və dərhal dəvə göyərçinə çevrildi. Göyərçin bulaqdan çıxıb uçdu, lakin Oxxay onu gördü və bir anda şahinə çevrilib göyərçini təqib etməyə başladı.

Elə bu vaxt padşah öz qızı ilə eyvanda oturmuşdu. Qış vaxtı idi. Birdən göyərçin birbaşa şahzadə qızın üstünə şığıdı. Göyər-

çin şahinin təqibindən xilas olaraq sürətlə uçurdu. Göyərçin uçub şahzadə qıza çatanda çox gözəl qızılgül dəstəsinə çevrildi və qızın sinəsinə düşdü. O, bərkdən çığırdı:

- Bu nə deməkdir. İlin bu fəslində gül dəstəsi hardan gəlib çıxdı?

"Kim onu bura ata bilərdi?" – şahzadə qız fikirləşdi. Bu vaxt dərviş qıza yaxınlaşdı və təkidlə gül dəstəsini ona verməyi xahiş etdi. Bu şahindən dərvişə çevrilmiş Oxxay idi. Şahzadə qız dərvişə pul təklif etdi. Lakin o, puldan imtina etdi, öz sözünün üstündə durdu. Axırda şahzadə qız hirsləndi və gül dəstəsini dərvişin ayaqları altına atdı. O, hirslə dedi:

- Götür, zəhlətökən adam.

Padşah və şahzadə qız başqa bir işdən çox təəccübləndilər. Gül dəstəsi dərvişin ayaqları altına səpələndi və darıya çevrildi. Dərviş bir anda gözdən itdi və onun yerində darını tələsik dənləməyə başlayan toyuq və cücələri göründü. Padşah bərkdən dedi:

- Möcüzəyə bax, görək daha sonra nə olacaq!

Bu vaxt darı tülküyə çevrildi. Tülkü toyuq və cücələrin üstünə atılıb hamısın yedi. Sonra tülkü gözəl gənc oğlana çevrildi. Bu, Qaffar idi. O, padşaha yaxınlaşdı və dedi:

- Qibleyi-aləm, mən sənin gözəl qızının elçiliyini eləyən kəndlinin oğluyam. Sən adaxlıdan heç kimin bilmədiyi bir bacarıq tələb etmişdin. Bax budur, mənim bacarığım, sən öz gözlərinlə gördün. Qibleyi-aləm, özünün gözəl qızını, şahzadə qızı mənə ərə ver, yoxsa dərddən ölərəm.

Padşah öz sözünə sadiq oldu. Adaxlının bacarığı onun xoşuna gəldi və qızını kəndli oğlu Qaffara verdi. Padşahın sarayında toy məclisi quruldu.

Göydən üç alma düşdü, biri mənə söyləyənə, biri dinləyənə, üçüncüsü dilənçiyə.

***Nağıl Yelizavetpol quberniyasının Cavanşir qəzasının Camlu kəndində kəndli Məmməd Əli oğlunun dilindən yazıya alınmışdır.***

## 9. PƏHLƏVAN HÜSEYN KÜRD

Keçmiş zamanlarda şərq ölkələrində bir nəfər öz arvadı ilə yaşayırdı. Onlara bədbəxtlik üz verdi, bu qadının əri öldü. Qadın tək qaldı. Yazıq arvadın dərdi böyük idi, onun tək sevinci gözlədiyi uşaq idi. Budur, arvad bir oğlan uşağını dünyaya gətirdi və adını da Hüseyn qoydu.

Oğlan sürətlə böyüyüb, boya-başa çatdı. Hüseyn qısa vaxt ərzində yaşına görə boylu-buxunlu, güclü gənc oğlan oldu. Hüseyn on adamın yeməyini yeyirdi, anası ona yemək çatdıra bilmirdi. Bir gün o, Hüseyni yanına çağırıb dedi:

- Əziz oğul, mən artıq yaşlanmışam, sən isə gəncsən. Get şəhərə və özünə çörək pulu qazan, mən artıq səni yedirib-içirtmək gücündə deyiləm, çünkü sən gündə yeddi pud çörək yeyirsən.

Hüseyn çoxdan bu haqda düşünürdü, ona görə də anasının təklifinə məmnuniyyətlə razılaşdı. O, yol üçün lazım olan hər şeyi özü ilə götürdü və yola çıxdı.

Hüseyn çox gəzib, çox dolaşdı, gəlib böyük bir şəhərə çıxdı. Burada varlı torpaq sahibinin yanında çoban işləməyə başladı. Onlar öz aralarında belə şərt kəsdilər, mülkədar onu yedirib-içirtməli və hər iş ili üçün ona bir qoyun verməli idi. Hüseyn düz iyirmi beş il mülkədara çobanlıq etdi. Əgər onun həyatına başqa istiqamət verən bir hadisə olmasaydı, Hüseyn hələ onun üçün uzun müddət qoyun otaracaqdı.

Bir gün bir dərviş Hüseynə yaxınlaşır. O, Hüseynin pəhləvan qəddi-qamətinə baxıb deyir:

– Əgər mənim belə əzələlərim olsaydı, mən dinməz-söyləməz Şah İsmayılın yanında pəhləvan kimi qulluq edərdim.

Dərviş bu sözləri deyib çıxıb gedir, bu sözləri eşidəndən sonra Hüseyn düşünməyə başlayır.

– Doğrudan da, paytaxt şəhərə mən niyə getməyim? Özümdə böyük güc hiss edirəm. Bəlkə də, şahın xoşuna gəldim. Bu vaxta qədər qoyun otardığım bəsdir.

Hüseyn ertəsi gün mülkədarın yanına gəlib deyir:

– Ağa, mənim iyirmi beş il ərzində qazandığım iyirmi beş qoyunumu ver və mən Şah İsmayılın yanına gedib pəhləvan kimi qulluq edəcəyəm.

Mülkədar ona mane olmadı, yanında ürəklə işlədiyi üçün ona təşəkkür etdi və beləcə də, ürək xoşluğu ilə ayrıldılar.

Hüseyn ən yaxın şəhərə gəlib, qoyunlarını satışa çıxartdı. Bir qədər keçmiş Sandıqsaz adlı bir nəfər ona yaxınlaşıb xəbər aldı:

– Hüseyn-kürd, nə üçün qoyunlarını satırsan?

Hüseyn dedi:

- Bu gecə evində gecələmək üçün mənə yer, hər qoyun üçün də iyirmi qəpik ver.

Sandıqsaz məmnuniyyətlə razılıq verdi, hər qoyun üçün ona iyirmi qəpik verdi. O, Hüseyni də özü ilə götürüb evinə gəldi. Axşam Sandıqsaz Hüseynə dedi:

– Sən çoban işləmisən, deməli, qoyunları yaxşı saya bilərsən. Get üç qoyun kəs, dərilərini say.

Hüseyn o saat pəyəyə getdi və üç qoyun yerinə iyirmi beşini kəsdi. Aşpaz mətbəxdən çıxıb qışqırdı:

– Axmaq, sən nə edirsən? Nə üçün qoyunların hamısını kəsdin? Ağanın sənə acığı tutacaq.

Hüseyn deyindi:

– Sus, taxtabiti.

Hüseyn aşpazın qulağından tutub, onu kökündən çıxartdı:

– Get ağana de ki, pəhləvan Hüseyn kürd qoyunların hamısının kəsdi və mənim də qulağımı qopartdı.

Həmin gün axşamı şam yeməyi hazır olanda Sandıqsaz ailəsilə birlikdə yemək yeməyə oturdular. Hüseynə yeməyi nökərlə sinidə göndərdilər. Hüseyn nökəri görüb qışqırdı:

- Siz kimə şam yeməyi gətirmisiniz? Mən uşağam? Yoxsa üç qoyuna heyfiniz gəldi?

Nökər getdi və eşitdiyini ağasına xəbər verdi. Sandıqsaz çox təəccüblənsə də, Hüseynə üç qoyun göndərdi, özü isə pəncərədən müşahidə etməyə başladı, görəsən, doğrudanmı, çoban üç qoyunun hamısını yeyəcək. Hüseyn göndərilmiş üç qoyunu sakitcə yedi və yatmağa uzandı. Bu iş Sandıqsazı çox təəccüb-

ləndirdi. O, öz-özünə düşünürdü: "Yəqin ki, o, pəhləvandı, mən ondan öyrənməliyəm".

Səhər Sandıqsaz Hüseyni yanına çağırıb dedi:

– Ey Hüseyn, mən Şah İsmayılın yanında pəhləvan kimi qulluq edirəm, amma görürəm ki, sən məndən daha güclüsən və mən səndən öyrənmək istəyirəm. Gəl, qardaşlaşaq, mənim qardaşım ol! Sabahdan sənlə mən eyni vəzifələri daşıyacağıq. Burada şəhərin arxasında iki böyük yol var. Quldurlar hər gün bu yollardan keçib gedənləri soyurlar. Biz sənlə yollardan keçənləri qoruyacağıq və quldurları tutacağıq.

İki pəhləvan qardaşlaşdı və böyük yolda quldurları gözləməyə başladılar. Hüseyn bir yolda, Sandıqsaz isə başqa yolda durdu. Bir az vaxt keçdikdən sonra Hüseyn ona yaxınlaşmaqda olan böyük xalq kütləsini gördü. Bu toy mərasimi idi. İrəlidə Şah İsmayılın oğlu ilə şahzadə nişanlısı, arxada isə tanınmış əyanlar gedirdilər. Hüseyn işin nə yerdə olduğunu bilmədən kütlənin üstünə atıldı və onun böyük hissəsini qırıb çatdı, qalanlarını isə iplə bağladı. Sonra Sandıqsaza xəbər verməyə getdi ki, quldur dəstəsinin böyük hissəsini qırıb-çatıb, bir hissəsini isə əsir götürüb. Sandıqsaz əsirlərə baxmağa getdi və təəccübündən yerində donub qaldı. Nişanlı şahzadə gəlini ilə birgə və Şah İsmayılın bir çox vəzirləri əl-qolları bağlı əsir olaraq yerdə uzanmışdılar. Sandıqsaz o saat onların hamısını azad etdi. O, titrək səslə Hüseynə dedi:

– Ey bədbəxt, sən nə etmisən, biz bədbəxt olduq. Axı sən quldurları deyil, toy mərasimini qırıb çatmısan. Əl-qolları bağlı yerdə uzananlar isə Şah İsmayılın oğlu, gəlini və vəzirləridir. Hara gedək?!

Azad edilmiş vəzirlərdən biri şahın hüzuruna gəlib, ona hər şeyi danışdı və dedi ki, bəs sənin sevimli pəhləvanın Sandıqsaz sənin oğluna, vəzirlərinə hücum edən və bir çoxunu öldürən bir gəlmə nəhəng pəhləvanı saxlayır. Şah İsmayılın gözləri bir belə xəbərdən qəzəbdən partladı. O, Hüseyn və Sandıqsazı edam etmək üçün bütöv bir qoşun göndərdi. Hər iki pəhləvan bu xəbəri eşitdikdə bağışlanmalarını istəmək üçün yola çıxdı. Onlar paytaxt şəhərə çatanda gördülər ki, şəhər sakinlərinin hamısı küçədə eyni tərəfə qaçırlar.

Sandıqsaz dedi:

– Əziz qardaşım, səni burada hələ heç kim tanımır. Odur ki, ürəklə şəhərə get və öyrən gör, bu nə məsələdir. Xalq hara qaçır. Mən isə səni burada gözləyəcəyəm.

Hüseyn Sandıqsazı dinləyib şəhərə girdi və gördü ki, xalq şəhər meydanına tərəf qaçır. Bu ümumi adam axını Hüseyni də şəhər meydanına apardı. Pəhləvan Hüseyn şəhər meydanında Şah İsmayılı gördü. Şah dərin dərd içində idi, o fikirli və kədərli idi. Sonra Hüseyn şahdan bir qədər aralıda qırx pəhləvan gördü. Bu pəhləvanlar bütpərəstlərin vilayətindən gəlmişdilər. Onlar şahı ələ salaraq, onlardan hər biri ilə döyüşə biləcək pəhləvan tələb edirdilər. Əks halda onlar şahı əsir götürəcəklərini, onun təbəələrini isə bütpərəst edəcəkləri ilə hədələyirdilər. Amma Şah İsmayıl bütpərəstlərlə döyüşə biləcək bir adam tapa bilmirdi. Hamı bu qorxunc və nəhəng pəhləvanlar qarşısında qorxudan özlərini itirmişdilər. Şah öz-özünə düşünürdü: Bir layiqli pəhləvanım Sandıqsaz idi, onu da indi yəqin edam etmişlər. Ah, mən necə də bədbəxtəm! – deyə Şah ucadan dedi.

Amma birdən meydanda duran çoxsaylı xalq kütləsi aralandı və ordan qırx bütpərəst pəhləvana tərəf əlində kökləri ilə birgə yerdən qopardılmış yüzillik palıd tutmuş nəhəng bir pəhləvan çıxdı. Bu pəhləvan Hüseyn kürd idi. Hüseyn əlindəki böyük palıd ağacını yellətməyə, gurultulu səs ilə bütpərəstlərə qışqırmağa başlayanda buradakı bütün xalqı qorxu bürüdü. Böyükdən kiçiyə hamı əllərilə qulaqlarını tutdular. Pəhləvanın gurultulu səsindən və yellədilən palıd ağacının əmələ gətirdiyi güclü səsdən bütpərəstlər əvvəlcə karıxdılar, amma sonra özlərinə gəlib hamılıqla Hüseynin üstünə cumdular. Hüseyn əlindəki palıd ağacını məharətlə yellətməklə bütpərəstlərin otuq doqquz pəhləvanını yerə sərdi. Hüseynin heç cürə qalıb gələ bilmədiyi bir pəhləvan qaldı. Onların arasında döyüş çox çəkdi. Axırda Hüseyn kürd namaz qılmaq üçün bütpərəstdən vaxt istədi.

– Sən öz ilahlarına dua et, mən isə Tək Allahıma dua edəcəyəm. Baxarıq kimin imanı daha güclüdür.

Bütpərəst Bahadır bu təklifə razılıq verdi. Budur, hər iki rəqib canfəşanlıqla Allaha dua etməyə başladılar. Onlar duadan

sonra yenidən döyüşə başladılar və bir neçə andan sonra Hüseyn kürd axırıncı bütpərəst pəhləvanı yerə yıxdı. Xalq gur səslə Hüseyni qələbə çaldığı üçün salamladı. Amma hamıdan çox Şah İsmayılın özü sevinirdi. O, Hüseyni yanına çağırıb dedi:

– Şanlı pəhləvan, bir mənə danış görüm kimsən, hansı tayfadansan, kimlərdənsən?

Bu vaxt Sandıqsaz şaha yaxınlaşdı və dedi:

– Qibleyi-aləm, bu, mənim qardaşlığımdır. O, kürd tayfasındandır və evimdə qalır. Təsadüfən və bilməzlikdən sənin oğlun şahzadənin toy mərasiminə hücum edib. Bu səbəbdən bizim hər ikimiz sənin qəzəbinə düçar olduq. Amma, qibleyi-aləm, biz ümid edirik ki, sən bizim səhvimizi bizə bağışlayacaqsan.

Şah Sandıqsazı dinləmirdi, o, sevimli pəhləvanını qucaqladı və hər ikisini bağışladı. Sonra Şah İsmayıl əmr etdi ki, bütün əyanlar üçün təntənəli məclis hazırlansın. Məclisə Hüseyn və Sandıqsaz da dəvət edilmişdi. Məclisdə qonaq olanların hər birinə müxtəlif yeməklərdən bir iri nimçə vermişdilər. Hüseyn isə özü üçün hər yeməkdən qırx iri nimçə istədi. Şah ismayıl yeni pəhləvanın qarınquluğuna çox təəccübləndi. O, öz-özünə düşündü. Doğrudanmı, bir adam bu qədər yemək yeyə bilər, görünür, Hüseyn kürd böyük pəhləvandır. Sonra o, Hüseynə müraciətlə dedi:

– Ey böyük pəhləvan, sən bilirsən, bütpərəstlər mənə necə gülürdülər. Sən bütpərəst padşahının məmləkətinə get və onun kafir xalqını əsir et! Sonra bu xalqı haqqın yoluna gətir və onu İslam dinini qəbul etməyə məcbur et!

Hüseyn kürd şahın təklifinə məmnuniyyətlə razılıq verdi və qardaşı Sandıqsazla məsləhətləşməyə getdi. Hüseyn kürd Sandıqsaza dedi:

– Əgər mən bu gecə Şah İsmayılın geyimini və xəzinəni oğurlasam, bütpərəstlərə qalib gələ bilərəm.

Şahın xəzinəsinin keşiyini qırx pəhləvan çəkirdi və ona yaxınlaşmaq qeyri-mümkün idi. Amma bir sakit gecədə Hüseyn kürd böyük bir çınar ağacını kökü ilə çəkib çıxardı və ildırım sürəti ilə keşiyi çəkilən qalaya tərəf getdi. Hüseyn bir-birinin

ardınca qırx keşikçi pəhləvanı yerə uzatdı. O, Şah İsmayılın qızıldan geyimini və xəzinəsini oğurladı.

Ertəsi gün şaha xəbər verdilər ki, bəs onun qalasında oğurluq olub. Şah İsmayıl car çəkdirib, oğrunu tapmağı əmr etdi. Amma oğru bəlli olmadı. Şah düşündü: "Kim mənim pəhləvanlarıma qalıb gələ bilərdi?"

Onda Hüseyn kürd şahın hüzuruna gedib elan etdi ki, bütpərəstlərin məmləkətinə getməmişdən əvvəl özünü sınamaq üçün şahın xəzinəsini özü oğurlayıb. Onda şah dedi:

– Bax, Hüseyn kürd, bu dəfə də səni bağışlayıram. Amma sən də vəd et ki, bütpərəstlərə qalib gələcəksən.

Bir qədər keçdikdən sonra Hüseyn kürd Sandıqsazla birgə yola çıxdılar. Sandıqsaz at belində, Hüseyn isə piyada gedirdi, çünkü heç bir at onu üstündə saxlaya bilmirdi.

Pəhləvanların azmı, çoxmu yol getdikləri məlum deyil, bircə o məlumdur ki, onlar böyük şəhərə çatdılar. Onun sakinlərinin hamısı dərin qəm içində ağlayırdılar.

Hüseyn onlardan soruşdu:

– Ay camaat, bir-bir deyin görək, siz nə üçün ağlayırsınız, dərdinizin səbəbini açın bilək. Bəlkə, bizim sizə bir köməyimiz dəyər.

Sakinlər dedilər:

– Artıq neçə həftədir ki, biz susuz yaşayırıq, bir nəhəng ilan öz bədənilə suyun qabağını kəsib. Tale bizi susuzluqdan ölməyə məhkum eləyib.

Pəhləvan Hüseynin kasıb sakinlərə yazığı gəldi. O, nəhəng ilana tərəf getdi, onun boynundan tutub yerə elə vurdu ki, onun qarnından ana ilana bənzər ilanlar sıçrayıb çıxdı. Bu nəhəng varlıqlar Hüseynin zərbəsindən yerdə uzanmışdırlar. Şəhər sakinləri öz xilaskarlarına təşəkkür etdilər. Buradan padşahdan Hüseyn kürdə təklif etdi.

– Ey şanlı pəhləvan, məndən nə istəyirsənsə götür. Padşahlığımın yarısını istəsən, bağışlayaram, qızı istəsən, indidən sənin olacaq.

Pəhləvan dedi:

– Qibleyi-aləm, səndən heç nə istəmirəm, bircə istədiyim yemək və gecələmək üçün yerdir.

Padşah əliaçıqlıqla Hüseyni və Sandıqsazı zəngin və bahalı yeməklərlə yedirtdi və bir neçə günlük istirahətdən sonra onları ehtiramla bütpərəstlərin torpağına yola saldı.

Bir müddət sonra pəhləvanlar bütpərəstlərin padşahlığına çatdılar. Bu xalq vuruşqan və güclü idi, amma Hüseyn kürdə heç nə mane ola bilmirdi. O, bütpərəst padşahına xəbər göndərdi ki, Şah İsmayılın torpağından onun xalqını sürgün etmək, özünü müsəlman dinini qəbul etdirmək üçün pəhləvan gəlmişdir. Padşah bunu eşidib çoxsaylı bir ordu topladı və onunla Hüseyn kürdün qarşısına çıxdı.

Hüseyn kürd aslan kimi özünü bütpərəst qoşunlarının sıralarına vurdu, padşahın dəstəsini kətmən kimi biçdi. Hüseyn bir neçə adamı ayaqlarından tutub hər tərəfə yellədirdi. Şanlı pəhləvan zərbəsini hara yönəltsə, orada camaat küçə ilə ölür, hara dönsə, dəstə-dəstə bütpərəstlər ölü düşürdülər. Axşama çöl meyidlərlə örtülmüşdü, bir döyüşçü belə sağ qalmadı.

Padşah və paytaxt şəhərinin qalan sakinləri əsir düşdülər və beləliklə, müsəlman dinini qəbul elədilər.

Hüseyn kürd bütpərəstlərə qalib gəlib, Sandıqsazla Şah İsmayılın hüzuruna getdilər. Şah Sandıqsazın və onun qardaşlığı Hüseyn kürdün qayıtmasına çox sevindi. O, qalibə yaxşı xidməti üçün təşəkkür etdi və ona müsəlman dinini qəbul etmiş bütpərəstlərin padşahı olmağını təklif etdi. Amma Hüseyn cavab verdi:

– Qibleyi-aləm, bu çox darıxdırıcı məşğuliyyətdir.

Onda Şah İsmayıl Sandıqsazı keçmış bütpərəstlərə şah, Hüseyni isə öz yanında sarayda baş pəhləvan təyin etdi. O, vaxtdan xalq onu "Böyük pəhləvan Hüseyn kürd" adlandırmağa başladı.

***Nağıl Yelizavetpol quberniyası Cavanşir qəzasının Camlu kəndində, kəndli Məmməd Vəli oğlunun dilindən yazıya alınmışdır.***

## KİTABIN İÇİNDƏKİLƏR

**24-cü buraxılış. 1898-ci il**
Hacı Məhəmməd ... 3
Şirvan tatarlarının atalar sözləri (Bakı quberniyasının Şamaxı və Göyçay qəzaları) ... 8

**26-cı buraxılış. 1899-cu il**
**Zaqafqaziyada tatar xalq filologiyası**
**I Əfsanə və rəvayətlər**
Bakı şəhəri haqqında rəvayət ... 79
Pəhləvan ... 79
Ovçu Pirim ... 84
**II Nağıllar**
Quş və Aqilin nağılı ... 85
Pəhləvan gəlin ... 92
Şərəf ... 98
Əlixan ... 100
Yəhudi və qızı ... 105
Rəhimlə Namazın nağılı ... 110
Canşah arvadı Həyatannüfuz haqqında ... 111
Şamil ... 116
Çoban İbrahim ... 121
Yetim İbrahim və xəsis baqqal ... 129
Pəhləvan İbrahim ... 139
Bağdadlı Cəfər ... 146
Şahzadə Qəzənfər ... 148
Səlimxan ... 157
**III Lətifələr**
Molla Nəsrəddin haqqında lətifələr ... 163

**31-ci buraxılış. 1902-ci il**
**Qiyasbəyli Ağalar. Nuxa qəzasında müsəlmanlarının toy adətləri ... 193**

**32-ci buraxılış. 1903-cü il**
**Əfəndiyev Rəşid bəy. Qəbələ mahalı ........................ 197**
**34-cü buraxılış. 1904-cü il**
**Vəlibəyov A.K. Xurafat, əlamət və yuxuyozmalar .... 200**
**Devitski V. Qars vilayətində toplanmış yunan, türk, tatar və erməni atalar sözləri ................................ 204**

**35-ci buraxılış. 1905-ci il**
**Əbdürrəhman S. Nuxa şəhərində yazılmış tatar uşaq nağılları ........................................................ 211**
Şahzadə ........................................................ 211
Nəcib və alçaq ................................................ 215
Oğlanın sərgüzəştləri ...................................... 218
Tülkü və Armudanbəy ...................................... 222
Yuxu .............................................................. 224
Bacarıqsız oğul ............................................... 227
Allahın qoruduğu məhv olmaz .......................... 229

**41-ci cild. 1910-cu il**
**Köçərlinski F.B.**
"Sayaçı" mahnısı ............................................. 233
Valehin nağılı .................................................. 239

**42-ci buraxılış.1912-ci il**
**Vostrikov P. Azərbaycan tatarlarının müsiqisi və nəğmələri ............................................... 243**
**Yelizavetpol quberniyasında yazılmış nağıllar**
Əmənşah və üç oğlu haqqında ......................... 254
Tacir və qızı ..................................................... 264
Qaravəlli ......................................................... 272
Şahzadə Həsənin nağılı .................................... 279
Bahadırla bacısının nağılı ................................ 287
Qazanşah şanlı şahzadə Süleymanın nağılı ........... 293
Şah Abbas haqqında nağıl ................................ 301
Kəndli oğul Qaffar haqqında nağıl ..................... 305
Pəhləvan Hüseyn kürd ...................................... 310

**SMOMPK-da Azərbaycan folkloru materialları, 3-cü cild.**
Bakı, Elm və təhsil, 2020.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyüterdə yığdı:
**Samirə Aşurova**

Kompyüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 320 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.